*“Azərbaycanın Rusiya və İran arasında bölünməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, 1905-ci və 1918-ci illərdə erməni daşnaqlarının azərbaycanlılara qarşı törətdiyi qırğınlar, 20-ci illərdə Zəngəzurun ermənilərə verilməsi, Qarabağ ərazisində erməni muxtariyyətinin yaradılması, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistandan deportasiyasi vahid strateji planın tərkib hissəsi idi. Ötən əsrin 80-ci illərinin sonunda SSRİ rəhbərliyinin təhriki ilə Ermənistanın Azərbaycana yeni ərazi iddiaları irimiqyaslı müharibə, 20 faiz Azərbaycan torpaqlarının erməni hərbi birləşmələri tərəfindən qəsb edilməsi, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. 1992-ci ilin fevralında törədilmiş Xocalı faciəsi isə insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və amansızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır”.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

*“Erməni şovinist millətçilərinin xalqımıza qarşı təcavüzü bu gün də davam edir, onun ağır nəticələri isə yüz minlərlə soydaşımızın taleyində özünü göstərməkdədir. Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində çoxillik zəngin təcrübəsi olan erməni millətçi-ideoloqları, xaricdəki erməni lobbisi ölkəmizə və xalqımıza qarşı daha incə və məkrli metodlardan istifadə etməklə təbliğat müharibəsi aparır, uydurma tezislər və faktlarla dünya ictimaiyyətini çaşdırmağa, onu yalanlarla aldatmağa, işğal faktını unutdurmağa çalışırlar”.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində
nəşr olunmuşdur

**Elçin Əhmədov**

# ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ:

## Etnik təmizləmə, soyqırımı, terror, işğal

## II kitab

Bakı - Elmin İnkişafı Fondu - 2015

**Elmi redaktor:** tarix elmləri doktoru, professor **Həsənov Əli**

**Rəyçilər:** tarix elmləri doktoru, professor **Qasımlı Musa**
siyasi elmlər doktoru, professor **Nəsirov Elman**

**Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab.** Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015. - 408 s.

Kitabda XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin indiyə qədər davam edən mərhələsinin təhlili xronikası verilmişdir. Son 30 il ərzində (1985-2015-ci illər) ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı və terror aktları ilə yanaşı, eyni zamanda erməni terror təşkilatlarının cinayətlərinin xronikası da kitabda öz əksini tapmışdır. Bununla yanaşı, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal edilmiş rayonların statistik göstəriciləri, dağıdılmış və məhv edilmiş maddi-mədəniyyət nümunələrinin siyahısı və bu təcavüzün faktlarla sübuta yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən fotolar da verilmişdir.
Kitab xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər, həmçinin ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya, regionşünaslıq, tarix ixtisası üzrə təhsil alan tələbələr və müəllimlər, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə çap edilmişdir – Qrant № EİF/MQM-2-Şuşa-2013-3(9)-10/09/5

**ISBN: 978-9952-8185-7-4**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2015
© Elçin İ. Əhmədov, 2015

Bu əsər 13 mart 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 8010 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi №04/C-7496-14) verilmişdir.

## M Ü N D Ə R İ C A T

**Giriş** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6

**I. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31

**II. Erməni terror təşkilatları haqqında qısa məlumat** . . . . . . . . . . . 215

**III. Erməni terrorçularının törətdiyi cinayətlərin bir hissəsinin qısa xronikası** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221

**IV. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş rayonları** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 231

**IV.1.** Dağlıq Qarabağ (Yuxarı Qarabağ) bölgəsinin tarixi Azərbaycan kəndləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 242

**IV.2.** Şuşa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 283

**IV.3**. Xocalı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 302

**IV.4.** Xocavənd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 312

**IV.5.** Laçın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 320

**IV.6.** Kəlbəcər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 336

**IV.7.** Ağdam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 348

**IV.8.** Füzuli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 372

**IV.9.** Cəbrayıl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 380

**IV.10**. Qubadlı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 390

**IV.11** Zəngilan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 398

# G İ R İ Ş

**Tarixi etnoqrafik əyalət kimi** Qarabağa, Kiçik Qafqaz dağları daxil olmaqla, Kür və Araz çayları arasındakı ərazi daxildir. Bu ərazi sivilizasiyanın ən qədim ocaqlarından biri hesab edilir. Artıq Qarabağda 300-400 min il əvvəl qədim insan məskəninin mövcud olması və burada yaşayan insanların maddi və mənəvi dünyası haqqında dəyərli məlumatlar vardır. Bunu ən qədim insan düşərgələrindən biri olan məşhur Azıx mağarasında aşkar edilmiş arxeoloji materiallar da sübut edir (278, s.5). E.ə. IV minilliyin sonu – I minilliyin əvvəllərində Qarabağın həyatında böyük dəyişikliklər baş vermişdir. Belə ki, Xocalı-Gədəbəy mədəniyyəti (e.ə II minilliyin ikinci yarısı – I minilliyin əvvəlləri) adını almış bu dövrə aid arxeoloji tapıntılar bölgənin Yaxın Şərqlə ticarət və mədəni əlaqələrinin olduğunu təsdiq edir.

Tarixi mənbələr göstərir ki, qədim dövrlərdə bu region Qafqaz Albaniyasına daxil olmuşdur. Antik müəlliflərdən Strabon da təsdiq edir ki, Kür çayı Albaniyadan keçir və alban tayfaları hər iki sahildə məskunlaşmışlar (278, s.19). Albaniya sərhədlərinin Kür çayı boyunca keçməsi, Kürün sağ sahil torpaqlarının "əzəli erməni torpaqları" olması haqqında iddiaların əsassız olduğunu VII-VIII əsrlər alban tarixçisi Musa Kalankatlının əsərlərində də görmək olar. Musa Kalankatlının məlumatlarına görə, eramızın I əsrində Albaniyanın cənub sərhədi Araz çayı boyunca keçirdi. Alban tarixçisi qeyd edir ki, Albaniyanın hüdudları eramızın VII-VIII əsrlərinə qədər dəyişməz qalmışdır (447, s.105).

Albaniyanın cənub sərhədlərinin Kür çayı boyunca keçməsi haqqındakı erməni iddialarının meydana gəlməsinin səbəbini erməni hökmdarlarının təcavüzkar siyasəti ilə əlaqələndirmək lazımdır. E.ə. II-I əsrlərdə müxtəlif vaxtlarda Kürün sağ sahilində yaşamış alban tayfalarının ərazisi də ermənilərin təcavüzünə məruz qalmışdır. Ancaq ermənilərin ilk dəfə Cənubi Qafqaza gəlmələri təxminən e.ə. II əsrdən sonraya təsadüf etmişdir. Bununla da, onların yerli dövlətlərə və xalqlara qarşı təcavüzkar fəaliyyətləri də başlanır. Bu dövrdə ermənilər Kiçik Asiyanın şərqindəki erməni çarlığını qondarma "Böyük Ermənistan" adlandırır və köçüb məskən saldıqları bütün əraziləri

erməni torpaqları elan etməyə cəhd edirdilər. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma "Böyük Ermənistan" əfsanəsi puça çıxmış və onlar Romanın vassalına çevrilmişlər. Bu vəziyyət IV əsrədək davam etmişdir (419, s.18-19). Belə olduğu halda ermənilərin Albaniyanın tarixi torpaqlarını Ermənistanın tərkib hissəsi kimi təqdim etməsi heç bir elmi əsasa malik deyildir. Halbuki, ermənilərdən fərqli olaraq Albaniya – Azərbaycan dövləti müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun tərkibinə daxil olmuşdur.

Albaniya dövləti təxminən b.e.ə. IV- b.e. VIII əsrlərində mövcud olaraq 1200 ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyük rol oynamışdır. Qarabağ Azərbaycan Albaniya dövlətinə məxsus olduğu kimi, burada yaşayan etnoslar – uti, sovdey, qarqar və başqaları da alban tayfaları olmuşlar. Albaniya dövləti dövründə Qarabağın dağlıq hissəsi Arsax adlanmışdır.

Azərbaycan alimləri Z.Bünyadov, F.Məmmədova, R.Göyüşov və başqaları öz əsərlərində göstərirlər ki, Arsax I-VI əsrlərdə alban çarları Arşakilərin, VII-VIII əsrlərdə isə Mehrani knyazlarının hakimiyyəti altında olmuşdur. Erməni mənbələrində tez-tez qeyd edilir ki, Albaniyanın cənub sərhədləri Kür çayı boyunca keçirdi və Kürün arxasından isə guya "Böyük Ermənistan" torpaqları başlanırdı. Lakin tədqiqatçılar b.e.ə. III əsrdən – b.e. IV yüzilliyinə qədər Albaniya ərazisinin Kür çayı boyunca keçdiyini, yəni Kür və Araz çayları arasında yerləşdiyini, Arsax, Uti və Kaspiana (Paytakaran) vilayətinin isə Ermənistan torpağı sayıldığını iddia edən erməni konsepsiyasının tamamilə əsassız və qeyri-elmi olduğunu sübut etmişlər.

Bütün tarixi faktlar göstərir ki, Xilafət hökmdarlığı dağıldıqdan, xüsusilə Azərbaycan Atabəylər dövləti yarandıqdan sonra da Qarabağ məhz Azərbaycanın dövlət-ərazi bölgüsü içərisində yerləşmişdir. XII-XIV əsr mənbələrində də "Dağlıq Qarabağ" terminинə təsadüf olunmur. Qarabağın tarixən bir-biri ilə sıx iqtisadi və mədəni əlaqədə olmuş dağlıq və düzən əraziləri coğrafi baxımdan daha geniş ərazini əhatə edən Arranın (Albaniyanın) tərkib hissəsi idi. Orta əsr mənbələrinin məlumatlarına görə, XIII-XIV əsrlərdə Qarabağ əhalisinin əsas tərkibi türklərdən ibarət olmuşdur (145, s.164-175).

Ümumiyyətlə, Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Albaniya dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə Ərəb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra isə IX-X əsrlərdə Sacilər, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər,

XII-XIII əsrlərdə Atabəy İldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur. XII-XIV əsrlərin dövlət-ərazi bölgüsü ənənələrinə uyğun olaraq Səfəvilər dövləti (1501-1736) tərkibində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi yaranmış və bu böyük ərazi iki yüz otuz ildən artıq zamanda Azərbaycan tarixinin mühüm inzibati-siyasi vahidlərindən biri olmuşdur (343, s.8).

XVIII əsrin ikinci yarısında müstəqil Qarabağ xanlığı Kür və Araz çayları arasında olan bütün torpaqları əhatə edən Azərbaycan dövləti idi. Qarabağ xanlığının əsasını birləşmiş qədim Azərbaycan etnosları təşkil etmişlər. Qarabağın aran hissəsində yaşayan Otuzikilər, Cavanşir və Kəbirli tayfaları Qarabağın köklü elatları idilər. Qarabağ xanlığının banisi Cavanşir nəslinin Sarıcalı oymağından olan Pənahəli xan, Otuzikilər tayfasının başçısı, Cavanşir və Qazaxın 20 min heyətinin əmiri idi.

Bu tayfa Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Eyni zamanda, Qarabağ xanlığı mövcud olduğu illərdə (1747-1805) öz istiqlaliyyəti və suverenliyi uğrunda xarici müdaxiləçilərə qarşı uğurlu mübarizə aparmışdır**.** Xanlığın paytaxtı Şuşa qalası (Pənahabad) yarım əsrdən çox Azərbaycanın xarici istilalardan mühafizəsində əsas dayaq mərkəzi olmuşdur. XVIII əsrin ikinci yarısında Şuşa memarlıq abidələri baxımından zəngin olan və şəhərsalma mədəniyyətinin geniş inkişaf etdiyi Azərbaycanın paytaxt şəhərlərindən biri sayılırdı. Şanlı tarixi keçmişə malik bu qədim Azərbaycan şəhəri siyasi mərkəz olmaqla yanaşı, eləcə də ən mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir (417, s.8).

XVIII əsrin əvvəllərindən çar Rusiyasının xarici siyasətində Qafqaz mühüm rol oynamağa başlamış və çarizm bu dövrdən etibarən cənubda öz strateji mövqelərini möhkəmləndirməyə çalışmışdır. Tarixi faktlar göstərir ki, Qafqaz həm siyasi, həm də iqtisadi mənafe baxımından, Rusiyanın daim diqqət mərkəzində olmuş və bu dövrdə çar Rusiyası Azərbaycanı işğal etmək, burada özünə dayaq yaratmaq məqsədilə ermənilərdən məharətlə istifadə etmişdir. Belə ki, çar Rusiyasının regiona müdaxiləsi ermənilərin digər ölkələrdən Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülüb gətirilməsi burada erməni amilinin gücləndirilməsinə kömək etmişdir.

Ermənilər də Rusiya imperiyasının onlara arxa duracaqlarına ümid

bəsləyərək çarizmin Qafqazı işğal etməsinə köməklik göstərməklə öz məkrli siyasətlərini həyata keçirmək niyyətində olmuşlar. Çar Rusiyası onunla əlaqə saxlayan ermənilərdən öz gələcək işğalçılıq planlarının həyata keçirilməsi üçün bir vasitə kimi istifadə etmişdir. XVIII əsrin birinci rübündə Rusiya imperatoru tərəfindən ermənilərə diqqət göstərilməsi, himayədarlıq edilməsi yalnız çar Rusiyasının mənafeyi naminə edilirdi və bu siyasət sonrakı dövrlərdə də davam etdirilmişdir.

**Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi.** Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməklə, əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirmişdir.

Bu zaman ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuş, bu bölgəyə çarizm tərəfindən xüsusi diqqət yetirilmişdir. Belə ki, XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni tutduqdan sonra 1805-ci il 22 may 19 №-li raportunda yazırdı ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik (343, s.16).

Belə bir məqsəd tezliklə həyata keçirildi. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla general Sisianov arasında müqavilə imzalandı (145, s.271-272; 343, s.16; 411, s.365-376). Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi P.D.Sisianov dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün Cənubi Qafqazın digər əyalətlərindən erməniləri bura köçürməyə başladı.

1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək əvəzində eyni adlı əyalət yaradıldı ki, bu əyalət də 1840-cı ildə Şuşa qəzası adı altında Kaspi (Xəzər) vilayətinə daxil edildi. 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradılarkən Şuşa və Zəngəzur qəzaları bu quberniyanın tərkibinə verildi, daha sonra 1883-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində Cavanşir və Cəbrayıl qəzaları təşkil olundu. 1917-ci ildə Şuşa qəzası Müvəqqəti hökumət

vaxtında Xüsusi Zaqafqaziya komitəsinə tabe olan Yelizavetpol quberniyasına, 1918-1920-ci illərdə isə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində Gəncə quberniyasına daxil olmuş və Qarabağın bu inzibati bölgüsü 1921-ci ilə qədər davam etmişdir (145, s.276).

Qarabağ əhalisinin sayı və etnik tərkibi haqqında ətraflı məlumat verən, eləcə də mühüm sənəd hesab edilən çar məmurları Yermolov və Mogilyovski tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"nə görə, 1823-cü ildə Qarabağ əyalətində 20 min 95 ailə, o cümlədən 15 min 729 azərbaycanlı və 4 min 366 erməni ailəsi olmuşdur. Yəni hələ 1823-cü ilə qədər Qarabağa köçürülən ermənilərin hesabına əyalətdə onların sayı artıb 4 min 366-ya çatmışdır (343, s.17).

Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması XIX əsrin 20-ci illərində, xüsusilə, Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı.

Azərbaycanın bölüşdürülməsi haqqında Rusiya ilə İran arasında bağlanmış Türkmənçay sülh müqaviləsinin şahidi, ermənilərin İrandan Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsinin iştirakçısı, o vaxt Rusiyanın İrandakı səfiri olan rus yazıçısı A.Qriboyedov yazır ki, köçürülmüş ermənilərin əksəriyyəti müsəlman (azərbaycanlılar nəzərdə tutulur – müəllif) mülkədarlarının torpaqlarında yerləşdirilmişdir. Yayda buna yol vermək olardı. Çünki torpaq sahibləri olan müsəlmanların əksəriyyəti yaylaqda olurdular və başqa dindən olan gəlmələrlə az-az görüşürdülər. Bundan başqa müsəlmanlar hesab edirdilər ki, ermənilər köçürüldükləri torpaqlara həmişəlik yiyələnəcəklər (794, s.57). Buradan açıq-aydın görünür ki, ermənilərin bu torpaqlarda yerləşdirilməsi müsəlmanları çox narahat etmişdir. Daha sonra müəllif yazır: "...Biz müsəlmanları düşdükləri bu çətin vəziyyətlə razılaşdırmalı, ermənilərin burada müvəqqəti qalacaqlarına inandırmalıyıq ki, onlar ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnmək fikrindən daşınsınlar" (794, s. 58-59).

XIX əsrin əvvəllərində çar Rusiyasının Qafqazı işğal etməsini N.Şavrov da açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa

millətlərin köçürülməsini yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi" (961, s.63).

Qarabağın dağlıq hissəsinə əvvəlcə rəsmən 124 min, daha sonra isə qeyri-rəsmi olaraq xeyli erməni köçürülmüşdür. Ümumiyyətlə, 1828-1830-cu illər ərzində Qarabağın dağlıq hissəsinə 200 min erməni köçürülmüşdür. Bu faktları N.Şavrov belə təsvir edir: "1826-1828-cu illər müharibəsi qurtardıqdan sonra biz iki il ərzində – 1828-ci ildən 1830-cu ilə qədər 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürüb, onları demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Axalsıx, Axalkələk qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşması üçün 200.000 desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur – müəllif) və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa buraya qeyri-rəsmi köçənlərlə birlikdə onların sayı 200 min nəfərdən çoxdur" (961, s.63). Bu fakt onu göstərir ki, köçürülən ermənilər, əsasən, ermənilər yaşamayan ərazilərdə yerləşdirilmişdilər.

Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri – Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlər salınmışdı. Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər 1828-ci ildən 150 il sonra, yəni 1978-ci ildə sovet dövründə, Ağdərə rayonunda həmin köçürülmənin şərəfinə abidə ucaltmış (abidənin üzərində ermənicə "Marağa-150" sözləri yazılmışdı), lakin XX əsrin 80-ci illərinin sonunda, yəni Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman həmin abidəni özləri məqsədyönlü şəkildə dağıtmışlar (591, s.9; 655, s.22 ).

Beləliklə, Türkmənçay müqaviləsindən sonrakı iki ildə çar Rusiyasının himayədarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Qarabağın dağlıq hissəsində məskunlaşmağa nail oldular. Çarizmin ermənilərə olan bu diqqəti və himayədarlığı sonrakı illərdə də özünü

göstərirdi. Belə ki, 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlanıldı. Bu köçürülmə prosesinin davamı olaraq 1877-1879-cu illər Rusiya-Türkiyə müharibəsi illərində də Türkiyədən Cənubi Qafqaza daha 85 min erməni köçürülmüşdür (343, s.18).

XIX əsrin sonu – XX əsrin əvvələrində Cənubi Qafqaza ermənilərin köçürülməsi daha geniş vüsət aldı. Belə ki, təkcə 1896-cı ildən 1908-ci ilə kimi keçən 13 ildə bu regiona 400 min erməni köçürülmüşdü. Bu barədə N.Şavrov yazır: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyillər və onlar buraya bizim tərəfimizdən köçürmüşlər" (961, s.64 ).

Nəticədə, Qarabağın dağlıq hissəsinə ermənilərin kütləvi şəkildə köçürülməsi bölgədə demoqrafik vəziyyətə ciddi təsir göstərmişdir. Belə ki, 1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54 min 841 ailədən 29 min 350-nin azərbaycanlı, 18 min 616-nın isə erməni ailəsi olduğu bildirilir. 1917-ci ildə isə Qarabağda ermənilərin sayı gəlmələrin hesabına artaraq ümumi əhalinin 46%-ni, azərbaycanlılar isə 51 %-ni təşkil etmişdir (343, s.19).

1917-ci ilin "Kavkazski kalendar" məcmuəsinin yazdığına görə, Qarabağda 199 min azərbaycanlı (58,3%) və 142 min erməni (41,7%) yaşayırdı. Göründüyü kimi, çar Rusiyasının himayəsi sayəsində süni surətdə ermənilərin mərhələ-mərhələ köçürülüb Qarabağda yerləşdirilməsinə baxmayaraq azərbaycanlılar həmin torpaqların əzəli sakinləri olmaqla bütün dövrlərdə çoxluq təşkil etmişlər.

"Kavkazski kalendar"ın salnamələrində verilən statistik məlumatlar sübut edir ki, indiki Ermənistan Respublikasının ərazisində də əvvəllər azərbaycanlılar ermənilərdən xeyli çox olmuşdur. Məsələn, 1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7 %), 91-i kürd kəndi (27,8%) və yalnız 81-i erməni kəndi (24,8%) olmuşdur. 1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi ermənilərdən 1500 nəfər çox olmuşdur. 1897-ci ildə isə Zəngəzurun əhalisi

142 min nəfər olmuşdur ki, onlardan 71,2 mini (50,1%) azərbaycanlı, 63,6 min nəfəri isə (44,8%) erməni olmuşdur (439, s.23).

Ermənistan SSR-in Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş statistik məcmuəsində göstərilir ki, 1831-ci ildə İrəvan şəhərinin 18 min 766 nəfər əhalisinin 15 min 992 nəfəri, 1866-cı ildə isə 27 min 246 nəfərdən 23 min 627 nəfəri azərbaycanlı olmuşdur (yəni əhalinin 85,2%-i) (436, s.25). Z.Korkodyanın 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında da qeyd edilir ki, İrəvan quberniyasının İrəvan, Eçmiədzin, Yeni Bəyazid, Aleksandropol qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən 2000-i azərbaycanlılara məxsus olmuşdur (439, s.22). İrəvanda yaşayan 10 min nəfər əhalinin 7 min nəfəri azərbaycanlı olmaqla yanaşı, eləcə də xanlığı idarə edən 40 nəfərin hamısı azərbaycanlılar olmuşlar (436, s.22). 1920-ci ilədək İrəvan quberniyasında, xüsusilə İrəvan qəzasında azərbaycanlı əhalinin sayı xeyli çox olmuş, yəni qəzada olan 99 min nəfər əhalinin 62,6 min nəfəri (66%) azərbaycanlı, 36,4 min nəfəri (34%) isə erməni olmuşdur (439, s.23).

Erməni millətçiləri XIX əsrin sonunda – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra, ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda türk-müsəlman əhalisinə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Yəni Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

**XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və** soyqırımı **siyasəti.** XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduqları "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətlərini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar.

Belə ki, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər (168, s. 6,14). Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirməklə həmin ərazilərdə çar Rusiyasının onlara vəd etdiyi "Ermənistan dövləti"ni qurmaq üçün etnik təmizləmə aparmışlar. Belə ki, birinci dünya müharibəsi illərində də çarizmin himayəsinə sığınan ermənilər azərbaycanlılara qarşı qırğınları davam etdirməyə başladılar.

1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başladı. Eyni zamanda, V.Lenin tərəfindən 1917-ci ilin dekabrında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi.

1918-ci ilin əvvəllərində, yəni mart qırğını ərəfəsində bilavasitə Şaumyana tabe olan erməni silahlı qüvvələrinin sayı 10 minə yaxın idi. Şaumyanın başçılığı ilə 1918-ci ilin yazında ermənilər tərəfindən azərbaycanlılara qarşı əsl soyqırımı törədildi. Belə ki, həmin il martın 30-da silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törətdilər. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter aldı. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12 min dinc azərbaycanlını qətlə yetirdilər (26, s.176). Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşlər.

Ermənilərin silahlı hücumu nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 167 kənd dağıdılmışdır ki, onlardan 35-i hal-hazırda mövcud deyil (436, s.47; 359, s.123-124). Erməni-daşnak dəstələrinin Quba qəzasında azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilmələrinə dair aşkar edilmiş faktlar son vaxtlar bir daha sübuta yetirilmişdir. Belə ki, 2007-ci ildə Quba şəhərində kütləvi

məzarlıqların aşkar edilməsi erməni vandalizmini təsdiqləyən faktlardır. Məzarlığın tədqiqi zamanı 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya hücumu zamanı insanların hər cür zorakılığa məruz qalaraq qəddarlıqla qətlə yetirilməsi və sonradan kütləvi şəkildə basdırılmış yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir. Onu da qeyd emək lazımdır ki, Amazaspın rəhbərliyi ilə erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı, yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 min nəfərə qədər yəhudi qətlə yetirilmişdir (859, s.26).

Erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və digər Azərbaycan ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir (168, s.14). Eyni zamanda Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-1920-ci illərdə indiki Ermənistan Respublikasının ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və yaxud doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Korkodyan özünün “Sovet Ermənistanının əhalisi 1831-1931” kitabında təsdiq edərək yazır: “1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur” (439, s.33).

Bundan əlavə, ermənilər tərəfindən Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 157 kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir. Bu dövrdə Quba qəzasında 167, Şamaxı qəzasında 110, Zəngəzur qəzasında 115, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılmış, dağıdılmış və talan edilmişdir (436, s.35; 168, s.14-15). 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmiş, İrəvan quberniyasında 132 min azərbaycanlı qətlə yetirilmişdir (439, s.44; 168, s.14-15).

Ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində

minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmiş, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınmışdır. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılmış, maddi-mədəniyyət nümunələri məhv edilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-də iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-i matəm günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi (168, s.8).

Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı.

Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan və bütün XIX əsr boyunca davam etdirilmiş köçürülmə prosesi nəticəsində ermənilərin Qarabağın dağlıq hissəsində süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb olmuşdur. Belə ki, 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yaranan kimi Qarabağın dağlıq hissəsinə XIX əsrdə köçürülmüş ermənilər Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdilər. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistan (Ararat) Respublikasının tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı. Lakin ermənilərin ən böyük iddiası Qarabağı və Zəngəzuru ələ keçirmək idi. Ermənistan hökuməti işğal planlarını həyata keçirmək məqsədilə oraya silahlı qüvvələr göndərdi. Nəticədə, Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni silahlı qüvvələri yüzlərcə yaşayış məntəqəsini dağıtmış, minlərlə dinc azərbaycanlı əhalisini qəddarcasına məhv etmişdilər.

1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da, Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə

təkliflərlə çıxış etsə də, daşnakların tutduğu mövqe bu təkliflərin həyata keçməsinə maneçilik törətdi.

Ərazi bütövlüyünü qoruyub saxlamağı və öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasının ərazi iddialarını qəti şəkildə rədd etdi. Azərbaycan Parlamenti “Qarabağ” məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün əməli tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi (321, s.322). Azərbaycan hökuməti ona tapşırdı ki, orada qayda-qanun yaratsın və yerli hakimiyyət təşkil etsin.

Azərbaycan hökumətinin gərgin səyi nəticəsində 1919-cu il noyabrın 23-də Tiflisdə ABŞ nümayəndəliyinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan respublikaları arasında müqavilə imzalandı (473, s.46). İmzalanan müqaviləyə görə, toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən də sərhəd məsələləri danışıqlar yolu ilə həll edilməli idi. Lakin Ermənistan tərəfi bu sazişi kobud surətdə pozmuş və Azərbaycan ərazilərinə öz qoşunlarını göndərərək azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişdir. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistanın Qarabağı diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Lakin Xalq Cümhuriyyətinin süqutunda da az rol oynamayan daşnakların bu ərazi iddiaları Azərbaycan sovetləşəndən sonra yenidən ortaya atıldı.

**Sovet dövründə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması və DQMV-nin yaradılması.** Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-yə daxil etməyə nail oldular. Bununla Naxçıvanın Azərbaycandan ayrı salınması və quru əlaqələrin kəsilməsi baş vermişdir. Sonrakı dövrlərdə isə ermənilər Ermənistana verilmiş Zəngəzurda və digər ərazilərdə də tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Cənubi Qafqaz respublikalarının müstəqilliyinin itirilməsi ərazi-sərhəd məsələlərinin qoyuluşundakı ərazilərinin müqəddəratını əhəmiyyətsiz etsə də,

sovetləşmənin ilk illərində sovet Rusiyasının Azərbaycana münasibəti daha çox qərəzli məzmun daşıyırdı.

Sovet Rusiyasının rəhbər dairələri Qafqaz siyasətini əsasən Q.Orconikidze və S. Kirov vasitəsilə həyata keçirirdilər. Artıq may ayında V.Lenin "Azərbaycana rəhbərliyi" Orconikidzeyə rəsmi həvalə etmişdi. Çox hallarda Orconikidze iradəsini Azərbaycan rəhbərliyinə diktə edir, prinsipial məsələlərə qeyri-ciddi yanaşaraq, ardıcıl mövqe göstərmirdi. Məşhur azərbaycanşünas Odri L.Alstadt yazır: "Lenin Orconikidzeyə fəaliyyət üçün tam səlahiyyət vermişdi ki, Azərbaycanın daxili və xarici siyasətini bütünlüklə istiqamətləndirsin"(488). Bir sözlə, Q.Orconikidze Qafqaz bürosu vasitəsilə Qafqaza tam nəzarət edirdi.

1920-ci il iyunun 19-da Q.Orconikidze Vladiqafqazdan V.Leninə və G.Çiçerinə göndərdiyi teleqramda bildirirdi: "Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edilmişdir və adı çəkilən hər iki ərazi özünü Azərbaycan Sovet Respublikasının ayrılmaz hissəsi hesab edir" (823, s.49-50). Bu fikri Q.Orconikidze V.Leninə, İ.Stalinə və G.Çiçerinə göndərdiyi sonrakı teleqramlarda da təkrar edirdi. Ümumiyyətlə, iyun-iyul aylarında Dağlıq Qarabağ məsələsi dəfələrlə Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – RK(b) P MK) Qafqaz Bürosunda, RK(b) P Zaqafqaziya Diyar Komitəsində, həmçinin, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsində (bundan sonra – AK(b) P MK) müzakirə edilmişdi.

Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq iddiası sovetləşmədən sonra davam etdirildi ki, bu da məhz sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə həyata keçirildi. Belə ki, Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Bu azmış kimi, 1921-ci il iyunun 12-də Ermənistan hökuməti Dağlıq Qarabağın "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan olunduğu haqqında dekret qəbul etdi. Bir qədər sonra onlar qətnaməni ləğv etmədən Dağlıq Qarabağ və digər mübahisəli hesab etdikləri ərazilər üzrə komissiya yaratmaq təklifini irəli sürdülər.

Bundan sonra Dağlıq Qarabağ haqqında məsələ 1921-ci il iyunun 27-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunda da nəzərdən keçirilmiş və göstərilmişdi ki, bu məsələ Dağlıq Qarabağın Azərbaycana

qəti iqtisadi meylinin nəzərə alınması ilə həll edilə bilər. Eyni zamanda qeyd edilmişdi ki, erməni və azərbaycanlı əhalisi olan ərazilərin ayrılıb Ermənistana və Azərbaycana verilməsi təklifi inzibati və iqtisadi əlverişlilik nöqteyi-nəzərindən qəbul edilə bilməz (823, s.86-88). İyun ayının 28-də N.Nərimanovun sədrliyi ilə Azərbaycan Xalq Komissarları Sovetinin (bundan sonra – Azərbaycan XKS) yeni iclası çağırıldı və A.Myasnikovun (Myasnikyan) Dağlıq Qarabağı "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan edən bəyanatı rədd edildi. Eyni zamanda, həmin iclasda Azərbaycan XKS-in rəyi olmadan təyin edilmiş A.Mravyanın geri çağırılması məsələsi qoyuldu (324, s.201).

Bununla da, iki sovet respublikası arasında ixtilaflar artdığından, 1921-ci il iyulun 4-5-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. Məsələnin müzakirəsində RK(b)P MK üzvü Stalin, RK(b)P Qafqaz bürosunun üzvləri Q.Orconikidze, S.Kirov, A.Myasnikov, F.Maxaradze, N.Nərimanov, A.Nazaretyan, Y.Fiqatner, İ.Oraxelaşvili və başqaları iştirak etdilər. Bu zaman iki nöqteyi-nəzər ortaya çıxmışdı. S.Kirovun təklifinə görə, Qarabağın dağlıq hissəsi Azərbaycandan alınaraq Ermənistan SSR-ə verilməli idi. Ancaq N.Nərimanov qətiyyətlə buna etiraz etmiş və bildirmişdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi tələbi bu iclasda ilk dəfə məhz Kirov tərəfindən ortaya atılmışdı. İyulun 4-də axşam iclasında Kirov-Myasnikov qruplaşmasının (S.Kirov, A.Myasnikov, Q.Orconikidze, Y.Fiqatner) təklifi ilə Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında əsassız və qərəzli qərar qəbul edildi (823, s. 90-91).

Məsələnin belə bir ciddi xarakter aldığını görən N.Nərimanov Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilib-verilməməsi barədə bütün Qarabağ əhalisi arasında rəy sorğusu keçirməyi təklif etdi. N.Nərimanovun bu təklifinə qarşı Kirov-Myasnikov qruplaşması bildirdi ki, rəy sorğusu bütün Qarabağda deyil, yalnız Qarabağın dağlıq hissəsində yaşayan ermənilər arasında keçirilsin. Bu məsələ üzrə səsvermədə də Kirov-Myasnikov qruplaşması qalib gəldi. İclasda Qarabağın Azərbaycan hüdudlarında saxlanılması lehinə N.Nərimanov, F.Maxaradze, A.Nazaretyan, əleyhinə Q.Orconikidze, A.Myasnikov, S.Kirov, Y.Fiqatner səs verdilər. Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə verilməsi və rəy sorğusunun yalnız ermənilər arasında keçirilməsi lehinə Orconikidze, Y.Fiqatner, S.Kirov, A.Myasnikov,

A.Nazaretyan səs verdilər (823, s.90-91). İclasın sonunda N.Nərimanovun təkidi ilə Qarabağ məsələsinin Azərbaycan üçün böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq RK(b)P MK-nın Qafqaz bürosu bu məsələ barədə RK(b)P MK-nın qəti qərarının çıxarılmasını zəruri saydı (823, s.91).

Beləliklə, N.Nərimanovun ciddi müqavimətindən sonra, iyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: “Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin”(823, s.92). Qərarda, həmçinin, göstərilirdi ki, Azərbaycan K(b)P MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhəddini, ərazisinin həcmini müəyyən etsin və onu RK(b)P MK Qafqaz bürosunun təsdiqinə təqdim etsin.

Nəticədə, Kirov-Myasnikov qruplaşması məqsədinə çata bilməsə də, DQMV-nin əsasının qoyulması barədə qərarın qəbul edilməsinə nail oldu. AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun 1921-ci il 26 sentyabr tarixli iclasında həmin məsələyə baxıldı və səs çoxluğu ilə qərara alındı ki, Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın Muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın və buna qədər muxtariyyət elan edilməsin (823, s. 96-97; 324, s.214).

Dağlıq Qarabağ muxtariyyətinin yaradılması haqqında məsələyə RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin 1922-ci il dekabrın 14-də keçirilən iclasında da baxıldı və bir sıra nümayəndələrin etirazına baxmayaraq, Zaqafqaziya Diyar Komitəsi RK(b)P MK Qafqaz bürosunun 5 iyul 1921-ci il tarixli qərarına əsasən, Azərbaycan Xalq Komissarları Soveti nəzdində AK(b)P MK-ya bilavasitə müraciət etmək hüququ olan Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə yaradılmasını qərara aldı. Xüsusi komitənin Şuşada da yaradılması nəzərdə tutulmuşdu (324, s.217).

Dağlıq Qarabağa muxtariyyətin verilməsi Zaqafqaziya federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə AK(b)P-nin irəli sürdüyü şəkildə yenidən baxılmadı. Davam edən təzyiqlər nəticəsində, 1922-ci il dekabrın 15-də AK(b)

P MK Rəyasət Heyəti Zaqafqaziya Diyar komitəsinin DQMV haqqında qərarını müzakirə edərək Karakozovun sədrliyi ilə Kirov və Mirzəbekyans da daxil olmaqla Dağlıq Qarabağ məsələsi üzrə 3 nəfərdən ibarət Mərkəzi Komissiya yaratdı. Eyni zamanda, Rəyasət Heyəti Karakozovun sədrliyi ilə Qarabağın dağlıq hissəsində muxtar vilayət yaratmağın mümkünlüyünü öyrənmək üçün 7 nəfərlik bir Komitə formalaşdırdı (823, s.132-133; 324, s.217-218; 419, s.59).

SSRİ-nin yaradılmasından sonra isə, Zaqafqaziya Diyar komitəsinin tələbləri daha sərt şəkil aldı və 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Diyar komitəsi plenumunun gündəliyinə salındı. Beləliklə, qeyri-azərbaycanlılardan yaradılan komissiya Azərbaycanın bir hissəsinin taleyini həll etməli idi. Xüsusi komitə Karakozovun sədrliyi altında 6 ay yerlərdə bu məsələnin "öyrənilməsi" ilə məşğul olduqdan sonra "Qarabağ məsələsinin həlli layihəsi" adlı təklifini təqdim etdi (324, s.219). 1923-cü il iyunun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi (823, s.148; 419, s.59).

1923-cü il iyunun 27-də Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – ÜİK(b)P) Zaqafqaziya Diyar Komitəsinin plenumu Şadunts və Karakozovun məruzəsi əsasında Qarabağ məsələsini yenidən müzakirə edərək Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusunun verilməsinin təmin olunmasını AK(b)P MK-ya tapşırdı (823, s.149).

1923-cü il iyulun 1-də AK(b)P MK Rəyasət Heyətinin iclası Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən ibarət qərar qəbul etdi. (823, s.149-150). Qərarda göstərilirdi ki, Azərbaycan MİK-ə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında Rəyasət Heyətinin adından dekret verilsin və mərkəzi Xankəndi olmaqla İcraiyyə Komitəsinin rəhbərliyi ilə "Qarabağ Muxtar Vilayəti" yaradılsın.

Həmin il iyulun 4-də Azərbaycan MİK də, eyni məzmunlu qərar qəbul etdi. Bu qərara əsasən, 1923-cü il iyulun 7-də Azərbaycan MİK-in "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekreti verildi (823, s.152-153). Qəbul edilən bu dekretin adı ilə Azərbaycan MİK-in qəbul etdiyi qərarın adı arasında fərq olduğu görünür. Yəni Dağlıq Qarabağa muxtariyyət verilməsi

zərurəti əsaslandırılmayan bu dekretdə Qarabağın aran və dağlıq hissəsini bir yerdə ayırmaq əvəzinə yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Yəni dörd bənddən ibarət dekretin əvvəlində deyilirdi: “Dağlıq Qarabağın erməni hissəsindən Azərbaycan SSR-in tərkib hissəsi kimi Xankəndi adlanan yer mərkəz olmaqla muxtar vilayət yaradılsın”(823, s.151-153). Belə ki, Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması elə dekretin birinci bəndində hüquqi-siyasi cəhətdən təhrif edilərək “Dağlıq Qarabağın erməni hissəsi” (yəni ermənilər yaşayan) ifadəsi ön plana çəkilir, ancaq bu bölgənin tarixən Azərbaycana məxsus olması göstərilmirdi. Buna baxmayaraq, bu ifadə Qarabağın dağlıq hissəsinin ancaq bir hissəsində ermənilərin məskunlaşıb yaşadıqlarını təsdiqləyirdi. Yəni bu bölgədə ancaq ermənilərin deyil, çoxluq təşkil edən aborigen əhali kimi azərbaycanlıların da yaşadıqları təkzibolunmaz faktdır.

Dekretdən 10 gün sonra AK(b)P MK Rəyasət Heyətinin 16 iyul tarixli iclasının qərarı ilə Şuşa şəhəri DQMV-nin tərkibinə daxil edildi (823, s.154). Bununla yanaşı, DQMV üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edildi. 1924-cü il noyabrın 26-da Azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edilən “DQMV haqqında Əsasnamə” də göstərilirdi ki, “DQMV Azərbaycan SSR-in tərkib hissəsidir. DQMV-də bütün kargüzarlıq, məhkəmə və məktəblərdə tədris ana dilində aparılır”. Bununla yanaşı, DQMV yaradılan zaman Azərbaycanın 1923-cü ilə qədərki inzibati-ərazi bölgüsü kobudcasına pozulmuş və qəbul edilən qərara görə, Cavanşir, Qubadlı, Şuşa qəzalarının əraziləri bölünüb DQMV yaradılmışdır. “Əsasnamə”yə görə, Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-yə verilmişdir (823, s.268-269).

Nəticədə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə aran və dağlıq hissələrinə bölünmüş və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. Eyni zamanda, bu muxtariyyət statusu Dağlıq Qarabağda tarixən yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan və onların hüquqları kobudcasına pozularaq həyata keçirilmişdi.

Beləliklə, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə köçürülən ermənilərə 1923-cü il iyulun 7-də muxtar vilayət statusu

verildi ki, bu da sovet Rusiyasının himayəsi və iştirakı ilə həyata keçirildi. Halbuki, keçmiş SSRİ məkanındakı digər respublikalarda Qarabağda yaşayan ermənilərdən daha çox erməni yaşayırdı. Bundan başqa, Ermənistanda tarixən yaşayan azərbaycanlıların sayının Qarabağ ermənilərindən çox olmasına baxmayaraq, Azərbaycan onlar üçün Ermənistandan milli-dövlət qurumu yaradılmasını heç vaxt tələb etməmişdi.

Bu hadisə təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuş və elə o vaxtdan da Dağlıq Qarabağ termini meydana çıxmışdır. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilsə də, az sonra 1923-cü il sentyabrın 18-də Dağlıq Qarabağ vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilib S.Şaumyanın şərəfinə Stepanakert adlandırıldı (823, s.187-188). Bununla da, Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.

1923-cü ildə Şuşanın Xankəndi, Xocalı, Kərkicahan, Ulubab, Pircamal, Cəmilli, Aranzəmi, Ballıca, Dəmirçilər, Sığnağ, Qarabulaq, Muxtarkənd, Dağdağan, Şuşakənd, Daşbaşı kimi onlarla kəndi alınıb, Xankəndinə (Stepanakert) verilmiş və həmin torpaqlar hesabına Əsgəran rayonu yaradılmışdır. Sonradan yaradılan Stepanakert (Xankəndi) və Əsgəran rayonları bütünlüklə Şuşa qəzasının, əvvəllər Qaryagin (Füzuli) rayonunun bir kəndi hesab edilən Hadrut rayonu isə Füzuli rayonunun ərazisi hesabına yaradılmşdır (424, s.63-64).

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-nahiyə-kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü:

1.Dizaq rayonu. Bu rayonun tərkibində 5 nahiyə (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi;

2.Vərəndə rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi;

3. Şuşa rayonu. Şuşa şəhəri və Malıbəyli nahiyəsindən (12 kənd) ibarət idi;

4.Xaçın rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi.

5.Ceraberd rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi (424, s.64).

Daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1930-cu ilin avqustunda DQMV-nin ərazisi yenə də 5 rayona bölünmüşdür:

1. Ceraberd, 2. Martuni, 3. Stepanakert, 4. Dizaq, 5. Şuşa.

Bu bölgüdə artıq Vərəndə rayonu Martuni, Xaçın rayonunun ərazisi Stepanakert, 1939-cu il avqustun 17-də Ceraberd rayonu Mardakert, Dizaq rayonu isə Hadrut adlandırılmışdır. Lakin bu da Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə edilən son dəyişiklik olmamışdır. Belə ki, 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə əhalisinin böyük əksəriyyəti azərbaycanlılar olan Şuşaya dəymişdir. Yəni 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilmiş, onun ərazisi Stepanakert rayonuna verilmişdir. Lakin sonradan inzibati- ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunmuşdur. 1978-ci ildə Heydər Əliyevin qətiyyəti sayəsində Stepanakert rayonu əsasında Əsgəran rayonu yaradılmışdır (424, s. 64). SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsü belə qalmış və 5 rayondan ibarət olmuşdur: 1.Şuşa. 2.Mardakert. 3.Martuni. 4. Hadrut. 5.Əsgəran.

**Sovet dövründə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və etnik təmizləmə siyasəti.** Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilər sovet dövründə bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan bu bölgəyə qarşı öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir.

Ümumiyyətlə, ikinci dünya müharibəsindən sonra erməni millətçiləri bir neçə istiqamətdə fəaliyyət göstərməyə başladılar. Onlar sovet rəhbərliyinin göstərişi ilə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürmüş, ancaq buna nail ola bilməmişlər. Daha sonra isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı ərazi iddiaları irəli sürdülər, eləcə də xaricdən ermənilərin Ermənistana köçürülməsini yenidən (Sovet dövründə ermənilərin Cənubi Qafqaza gətirilərək azərbaycanlılara məxsus ərazilərdə yerləşdirilməsinə artıq XX əsrin 30-cu illərində başlanılmışdı) tələb etdilər.

Belə ki, 1945-ci ilin noyabr ayında o zaman Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – Ermənistan

K(b)P MK) birinci katibi Q.Arutinov Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nın sərəncamına göndərdi. Məktubda deyilirdi: “Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibindədir. Vilayətin əhalisi əsasən ermənilərdir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olması onun inkişafına xeyli təsir göstərər və təsərrüfatın idarə edilməsini yaxşılaşdıra bilərdi; Ermənistan respublika orqanlarının rəhbərliyi sayəsində əhaliyə ana dilində kütləvi-mədəni və siyasi xidmət güclənərdi; Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə daxil edilməsi yerli kadrlara öz təhsillərini Ermənistanın ali məktəblərində ana dilində almağa imkan vermiş olardı; digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağ vilayətindən öz işgüzarlığı ilə fərqlənən və hazırda təbii olaraq Azərbaycanda istifadə edilməyən əlavə milli kadrlar alardı”. Məktubun sonunda Q.Arutinov bildirirdi ki, Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətini Qarabağ vilayəti olaraq Ermənistan SSR tərkibinə daxil etmək haqqında məsələyə baxmağı ÜİK(b)P MK və İttifaq hökumətinə təklif edirlər (388, s.52).

Ancaq Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi üçün məktubda gətirilən dəlillər tamamilə əsassız idi. Əvvəla, Dağlıq Qarabağ 1923-cü ildən deyil, tarixən Azərbaycan ərazisi olmuşdur. 1921-ci ildə Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilməsi üçün cəhd edilərkən məsələnin müzakirəsindən sonra RK(b)P MK Qafqaz bürosunda iyul ayının 5-də qəbul edilən qərarda aydın yazılmışdı ki, “Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın”. Əgər Q.Arutinovun iddia etdiyi kimi olsaydı, onda qərarda “Azərbaycan SSR-in tərkibinə verilsin” sözləri yazılardı. Digər iddiaya gəldikdə isə, yaradılmış vilayətdə ana dilində məktəblərin olmasına baxmayaraq, ermənilər istənilən vaxt sərbəst surətdə gedib həm Ermənistan Respublikasında, həm də ölkənin digər ali məktəblərində ali təhsil alırdılar. Əhalinin “arzusunun nəzərə alınması” məsələsinə gəldikdə isə, əhali bu məktubun mətnindən tamamilə xəbərsiz idi. Nə rəy sorğusu keçirilmişdi, nə də vilayətin yerli partiya və sovet orqanları bu məsələ barəsində heç bir qərar qəbul etməmişdilər (372, s.200-202).

ÜK(b)P MK-nın katibi G.Malenkov məktubu 1945-ci il noyabrın 28-

də AK(b)P MK-nın birinci katibi M.C.Bağırova göndərərək xahiş etmişdi ki, Ermənistan K(b)P MK-nın təklifi barədə öz rəyini bildirsin. M.C.Bağırov həmin il dekabrın 10-da Ermənistan K(b)P MK-nın məktubuna cavab olaraq Azərbaycanın 1918-ci il xəritəsini və müvafiq məktubu ÜİK (b)P MK-ya göndərdi (419, s.71-74). M.C.Bağırov məktubunda Ermənistan SSR-in rəhbərliyi tərəfindən Dağlıq Qarabağ haqqında irəli sürülmüş bütün iddiaların əsassız olduğunu göstərmişdi. Bununla yanaşı o, DQMV-nin, Şuşa rayonu istisna olmaqla Ermənistana verilməsinə belə bir şərtlə razı olduğunu bildirir ki, Ermənistan SSR-in Azərbaycana bitişik və tarixən azərbaycanlıların sakin olub kompakt yaşadıqları Göyçə və Zəngəzur qəzaları Azərbaycan SSR-in tərkibinə daxil edilsin. Eyni zamanda, M.C.Bağırov Azərbaycandan alınaraq başqa sovet respublikalarına verilmiş digər ərazilər barədə də təklif irəli sürmüşdür (926, s.65; 419, s.71-74; 388, s.52-53).

Bu cavab məktubundan sonra Qarabağ məsələsi müvəqqəti olaraq yatırıldı. Ancaq bunun əvəzini çıxmaq üçün ermənilər yeni vasitələrə əl atdılar. Azərbaycandan Dağlıq Qarabağı ala bilməyən Ermənistan rəhbərliyi xarici ölkələrdən ermənilərin repatriasiyası məsələsini sovet hökuməti qarşısında yenidən qaldırdı və həmin təklif bəyənildi. Ancaq repatriasiya edilən ermənilərin yerləşdirilməsi üçün guya Ermənistanda lazımi şərait mövcud deyildi. Bunu bəhanə edərək Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-nin əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsi, eləcə də boşalan torpaqlar və mənzillərdən xarici ölkələrdən Ermənistan SSR-ə gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün istifadə edilməsi təklifi irəli sürüldü.

SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də və 1948-ci il martın 10-da qəbul etdiyi "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarlarına əsasən, 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 100 mindən artıq soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür (905; 881).

Nəticədə, Ermənistan SSR hökuməti SSRİ rəhbərliyindəki himayədarlarının köməkliyi sayəsində 1948-1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə

deportasiyasına dövlət səviyyəsində nail oldu. Xaricdən gətirilən ermənilər isə Ermənistan SSR-dən deportasiya edilən azərbaycanlıların yaşayış üçün hər cür şəraiti olan evlərində yerləşdirildilər (439, s.49; 388, s.54). Sonrakı illərdə də, ermənilərin repatriasiyası davam etdirilmiş və xarici ölkələrdən Ermənistana 1961-ci ilin ortaları üçün 200 min, 1962-1973-cü illərdə isə 26 min 100 nəfərdən çox erməni gətirilmişdi (626, s.10). Onlar Cənubi Qafqazda qatı millətçilik hisslərini qızışdıraraq, düşmənçilik hərəkətlərini genişləndirdilər.

Bununla yanaşı, Ermənistan öz ərazi iddialarını və təcavüzkar siyasətini davam etdirərək yenidən Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini qaldırdı. 1948-ci ilin mart ayında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernikin imzası ilə qərar layihəsi tərtib edilmişdi. Bu sənədə Azərbaycanın sərhədlərinin dəyişdirilmiş xəritəsi əlavə olunmuşdu. Ancaq bu cəhdin qarşısı da qəti şəkildə alınmışdı (3, s.75).

Daha sonra, XX əsrin 60-cı illərində də, Dağlıq Qarabağ məsələsi bir neçə dəfə ortaya atıldı. 1960-cı ilin noyabrında A.Mikoyanın təşəbbüsü ilə DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsi haqqında hazırlanmış sənəd Sov.İKP MK Rəyasət Heyətinin iclasında müzakirə edilməli idi. Ermənilərin bu məsələ ilə əlaqədar çox ciddi hazırlıq işi aparmalarına baxmayaraq, iclasdan əvvəl keçirilən müşavirədə o zaman Azərbaycan KP MK katibi işləyən N.Hacıyevin məruzəsindən sonra hazırlanmış qərar layihəsi rədd edilmişdi (3, s.76). Bundan sonra isə A.Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində olarkən Krımın uğurla Ukraynaya verilməsindən ruhlanaraq, 1964-cü ilin əvvəlində DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini N.Xruşova təklif etdi. N.Xruşov onun təklifinə çox maraqlı bir cavab vermişdi: “Mən Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün 12 min hərbi yük maşını ayrılmasını təqdim etməyə hazıram” (895, s.19-20).

Sovet dövründə ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Bu dövrdə erməni millətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına olan əsassız iddialar irəli sürürdülər. Ancaq Heydər Əliyev Dağlıq Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini gözəl bilirdi.

Hələ Azərbaycan SSR DTK-nın sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alınmışdı. Belə ki, Heydər Əliyev 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-ə keçən gecə Xankəndində bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır (390, s.328). Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndinə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar.

Bu hadisədən bir neçə gün sonra, yəni iyul ayının 3-də Dağlıq Qarabağda erməni millətçiləri 3 nəfər azərbaycanlını vəhşicəsinə öldürmüşdülər. Həmin məsələni dərindən araşdırmaq üçün Heydər Əliyev 15 gün Dağlıq Qarabağda olmuş, eləcə də, Şuşaya getmişdi. Şuşada olarkən 1905-1907, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi (390, s.330).

Bundan sonra, 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəlməmişdən az əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri, hətta XX əsrin 20-ci illərinin xəritələrini ortaya çıxarmış və ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. Azərbaycan KP MK bürosunun 1969-cu il mayın 21-də keçirilən iclasında iki respublika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi bəyənildi (390, s.326).

Heç şübhəsiz, bu qərarın qəbul edilməsinə Moskvadan edilən təzyiqlər də böyük təsir göstərmişdi. Ümummilli lider Heydər Əliyev həmin il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən kimi bu məsələni ön plana çəkdi. Heç şübhəsiz ki, Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev təzyiqləri rədd edərək prinsipial mövqe göstərmiş, erməni millətçilərinin qarşısını qətiyyətlə almışdı. Moskvadakı bəzi qüvvələr və Ermənistan SSR-in rəhbərləri qərarın həyata keçirilməsinə çox cəhd etsələr də, Heydər Əliyev buna imkan verməmişdi.

1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alınmış və ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbəri kimi bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərmişdir. Hər şeydən əvvəl Qarabağın tarixini mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşırdı. 1977-ci ildə SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan Konstitusiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağ məsələsini yenidən qaldırdılar. Lakin Heydər Əliyev bu zaman Sov.İKP MK-nın Baş katibi L.Brejnevlə görüşmüş və məsələni qəti həll edərək erməni millətçilərinin iddialarını puça çıxarmışdı (390, s.330).

Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər Əliyev həmin illərdə şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Bununla yanaşı, ümummilli lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra Heydər Əliyev Şuşanı abadlaşdırmaq, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər görmüşdür.

Belə ki, 1970-ci illərin ikinci yarısında Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə bir neçə xüsusi qərar qəbul edilmişdi. Qərarlara uyğun olaraq keçmişdə tikilmiş binalar, tarixi abidələr bərpa edilmiş, şəhərdə yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikilmişdi. Eyni zamanda, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Heç şübhəsiz ki, həmin qərarların yerinə yetirilməsinin çox böyük tarixi-siyasi əhəmiyyəti var idi.

Bütün bunlarla yanaşı, Heydər Əliyev Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Çünki erməni millətçiləri hər zaman Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər.

Ancaq Heydər Əliyev onların bu niyyətlərinin qarşısını qətiyyətlə aldı. Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha

da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq məqsədilə "Ağdam – Xankəndi (Stepanakert)" dəmiryolu çəkildi və 1979-cu il yanvarın 12-də ümummilli liderin özünün iştirakı ilə istifadəyə verildi (390, s.333). Nəticədə, dəmiryol xəttinin işə düşməsi ilə muxtar vilayətin iqtisadi cəhətdən Azərbaycanın digər rayonları ilə daha sıx əlaqəsi yaradıldı. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi.

Dəfələrlə məqsədlərinə nail olmayan Ermənistan Respublikasının rəhbərliyi və erməni lobbisi bir qədər sakitləşsə də, müəyyən bir məqam gözləyirdilər ki, bu şərait də 1980-ci illərin ikinci yarısında yetişdi. XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə SSRİ-də yaranmış aşkarlıq və demokratiya şəraitindən istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

# I. ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI VƏ HƏRBİ TƏCAVÜZÜ

**1984**

Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazılmış Z.Balayanın Yerevanda “Sovetakan qrox” nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan “Oçaq” (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirdi.

**1985**

**21 fevral –** Ermənistan KP MK-nın sovet rəhbərliyinə 24 aprel gününün “Soyqırımı qurbanlarının xatirə günü” kimi qeyd edilməsi haqqında müraciəti Sov.İKP MK Siyasi bürosunun iclasının gündəliyinə daxil edildi.

**Dekabr –** “Daşnaksütyun” partiyasının Afinada keçirilən XXII qurultayı “Böyük Ermənistan” uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul etdi.

**1986**

**Fevral –** Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) daş və mərmər karxanalarına müdir təyin edilmiş, millətçi kimi tanınan Arkadi Manuçarov SSRİ-də irəli sürülən “aşkarlıq” və “demokratiya” ideyalarından istifadə edərək Xankəndində tarix və mədəniyyət abidələrini qoruyan “Krunk” adlı təşkilat yaratdı. “Krunk” sözü erməni dilində durna deməkdir. Ancaq sonradan məlum oldu ki, “Krunk” sözü rus dilində “Комитет Революционного Управления Нагорного Карабаха” sözlərinin baş hərflərindən yaranmışdı. Təşkilatın əsas məqsədi isə tarixi abidələri qorumaq deyil, DQMV-ni Ermənistana birləşdirməyə nail olmaq idi.

**1987**

**İyun-iyul –** Ermənilər Xankəndinin (tarixən Şuşanın bir kəndi olan Xankəndi 1923-cü il avqustun 18-dən 1991-ci il noyabrın 26-dək Stepanakert adlandırılmışdır – muəllif) küçələrində Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün təbliğat apararaq bu istiqamətdə vərəqələr yayırdılar. Ayrı-ayrı adamların Moskvaya yazdıqları məktublar artıq bu dövrdə

müxtəlif kollektivlərdən imzalar toplanması kompaniyasına çevrildi və ərazi iddialarının yeni mərhələsinin təməli qoyuldu. Bu hərəkatın əsas aparıcı qüvvəsi olan “Krunk” təşkilatı da gizli fəaliyyət göstərirdi.

**İlin ikinci yarısında** – Yerevandan müntəzəm olaraq Xankəndinə gələn emissarlar ermənilər arasında fəal iş apararaq xüsusi imzalar toplamaqla Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşmək ideyasını təbliğ edirdilər.

**21 oktyabr –** Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin I müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən azad edildikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə “İnterkontinental” hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü.

**Oktyabr –** Yerevanda Puşkin adına parkda “Qarabağ” komitəsinin ilk mitinqi keçirildi ki, bu da ermənilərin ərazi iddialarının həyata keçirilməsi yolunda atılan ilk addım oldu.

**18 noyabr –** A.Aqanbekyanın Parisdə verdiyi müsahibə “L’Humanite” qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

**Noyabr –** Moskvada ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında əsassız tələblərini irəli sürdülər.

**Noyabr –** Ermənistan SSR-in Qafan və Mehri rayonlarında azərbaycanlılara qarşı hücumlar edilərək, onların Azərbaycana deportasiyasına başlanıldı.

**Noyabr-dekabr –** Yerevanda Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə nümayişlər keçirildi.

**1 dekabr –** Dağlıq Qarabağ ermənilərinin nümayəndələri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etdilər.

**1987-ci il ərzində –** S.Ayvazyanın tərtib etdiyi “Böyük Ermənistan” xəritəsi kiçik formatda DQMV-də geniş yayılmağa başladı. Bu xəritənin sərhədləri 3 dənizin (Aralıq, Xəzər və Qara dənizinin) sahillərini əhatə edirdi.

**1988**

**8 yanvar –** Ermənistandan nümayəndələr Moskvaya səfər edərək DQMV-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış daha bir müraciəti və toplanmış imzaları SSRİ Ali Soveti sədrinin müavini P.Demiçevə təqdim etdilər.

**25 yanvar –** Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində Ermənistan SSR-in Qafan və Mehri rayonlarından qovulmuş və didərgin salınmış ilk yüzlərlə azərbaycanlı qaçqınlar Azərbaycana gəlmişdir.

**Yanvar-fevral –** Ermənistan SSR-dən zorla qovulmuş 4 min nəfərdən çox azərbaycanlı Azərbaycana gələrək, əsasən, Sumqayıtda məskunlaşdılar.

**8 fevral –** Erməni millətçiləri Xankəndində DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başladılar.

**12 fevral –** DQMV-də gizli fəaliyyət göstərən millətçi "Krunk"un təşkilatçılığı ilə ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndində ilk mitinq keçirdilər.

**18 fevral** – Ermənistandan azərbaycanlıların qovulması artıq kütləvi hala çevrildi.

**20 fevral –** DQMV xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsadət qaldırmaq barəsində" qərar qəbul etdi.

**21 fevral** – Ermənilər tərəfindən Yerevanda qalmış son məscid də dağıdıldı.

**22-23 fevral –** "DQMV Azərbaycanın ayrılmaz tərkib hissəsidir" şüarları ilə Bakıda və Sumqayıtda ilk mitinqlər keçirildi.

**23 fevral –** Etnik təmizləmə siyasəti həyata keçirmək məqsədilə ermənilər Ermənistan SSR-in Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə kütləvi basqınlar təşkil etdilər.

**24 fevral –** Ermənilər Əsgəran rayonunda 2 nəfər azərbaycanlı gənci qətlə yetirdikdən sonra Ağdam rayonunun sakinləri ilə Əsgəran sakinləri arasında Xankəndi-Ağdam yolunda qarşıdurma olmuş, 19 nəfər yaralanmışdır.

**28 fevral –** Ermənilər tərəfindən qabaqcadan hazırlanmış plan əsasında və onların bilavasitə iştirakı ilə Sumqayıtda baş verən kütləvi iğtişaşlar

nəticəsində 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. Sonradan istintaqla müəyyən edilmişdir ki, iğtişaşların təşkilatçılarından biri milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. Belə ki, o, iğtişaşlar zamanı daha çox qəddarlıq edərək 6 ermənini qətlə yetirmişdir.

**Fevral – mart** – Quqark (Böyük Qarakilsə) rayonunda 100 nəfər azərbaycanlı qətlə yetirildi. Sovet ordusunun 13 min hərbi qulluqçusu əlavə olaraq Azərbaycana gətirildi.

**2 mart –** Ermənilər "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizə komitəsi" – iri müəssisə rəhbərlərini birləşdirən 55-lər komitəsini yaratdılar. Bundan əvvəl isə artıq Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi", Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət gostərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, "Miatsum" ("Birləşmə") hərəkatı geniş vüsət almışdı.

**2 mart –** Ermənistandakı tarixən yaşadıqları torpaqlardan azərbaycanlıların yeni kütləvi deportasiyası başlandı. Ermənistanın kəndlərindən zorakılıqla qovulmuş bir çox ailələr Azərbaycanın Zəngilan və ona qonşu rayonlarına gəldilər.

**10 mart –** Yerevan ətrafında 10 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Elə həmin gün Masis (Zəngibasar) rayonunun Mehmandar kəndində ermənilər 5 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər.

**13 mart –** Ali erməni kilsəsi rəhbərliyinin çağırışı ilə Nyu-Yorkda ermənilərin Dağlıq Qarabağ ermənilərini müdafiə edən mitinqi keçirilmişdir.

**24 mart –** Xankəndi şəhər İcraiyyə Komitəsi "Krunk" təşkilatını rəsmi olaraq Dağlıq Qarabağı Ermənistana birləşdirici komitə kimi tanımışdır. Qeyd olunan tarixdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə həmin komitə ləğv edilsə də, o, öz fəaliyyətini dayandırmadı.

**25 mart –** Ermənilərin ərazi iddiaları başladığı ilk vaxtlarda vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda müəssisələrin fəaliyyəti dayandırılır, kütləvi tətillər keçirilir

və davamlı mitinqlər təşkil edilirdi. Yəni, ermənilər hadisələr başladığı ilk vaxtlarda əsas diqqəti ona yönəltdilər ki, guya Azərbaycan rəhbərliyinin qərəzli siyasəti nəticəsində Dağlıq Qarabağın iqtisadi inkişaf səviyyəsi bütün respublikada olduğundan xeyli aşağıdır.

Lakin onu qeyd etmək vacibdir ki, erməni siyasətçilərinin iddia etdiyi bu saxta tezis ortaya atılana qədər DQMV-yə rəhbərlik edənlərdən heç biri DQMV iqtisadiyyatının Ermənistandan asılılığından, vilayətin geriliyindən danışmamış, əksinə, vilayətin sosial-iqtisadi inkişafının Azərbaycanın başqa bölgələrinə, hətta, Ermənistanın özünə nisbətən sürətlə irəli getdiyini daim qeyd edirdilər.

Bununla yanaşı, SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə Şurası Bürosu sədrinin birinci müavini V.P.Laxtin "İzvestiya" qəzetində (25 mart) bildirmişdi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti mənzillə təminat sahəsində Azərbaycanın digər bölgələrini orta hesabla 1,4 dəfə geridə qoyur. Bir sıra başqa göstəricilər üzrə də vilayətdəki vəziyyət hər iki müttəfiq respublikadakından yaxşıdır.

Azərbaycana qarşı açıq-aşkar ərazi iddialarını pərdələyərək, münaqişənin əsas səbəbinin guya DQMV-nin sosial-iqtisadi problemlərinin olması barədə erməni siyasətçiləri və onların arxasında dayananların bu tezisinin əsassızlığı konkret faktlar və rəqəmlərlə ifşa olunmuşdur. DQMV-nin sosial-iqtisadi və demoqrafik vəziyyətinə dair aparılan tədqiqatlarda göstərilir ki, 1986-cı ildə sənaye məhsullarının istehsalının ümumi həcmi vilayətdə 60 faiz təşkil edirdi, halbuki, 10 il əvvəl bu rəqəm 53 faiz idi. Bu müddət ərzində sənaye məhsulları istehsalının inkişaf sürətinə görə DQMV orta respublika göstəricisindən (178,7 faizə qarşı 183 faiz) qabaqda idi. Adambaşına düşən sənaye məhsullarının həcminə görə isə DQMV respublikanın digər regionları arasında birinci yerə çıxmışdı.

Azərbaycan SSR Dövlət Statistika İdarəsinin 1988-ci ilin əvvəllərinədək olan vəziyyəti əks etdirən rəqəmlərə nəzər saldıqda, doğrudan da, sosial-iqtisadi inkişafın bir sıra sahələrində DQMV nəinki Azərbaycanı, hətta Ermənistanı da qabaqlayırdı.

Ermənilərin Dağlıq Qarabağın sosial-iqtisadi geriliyi barədə iddiaları ilə yanaşı, DQMV əhalisinin guya "azərbaycanlılaşdırılması", erməni əhalisinin isə sayının guya azaldılması, ağır iqtisadi şərait ucbatından ermənilərin vilayətdən çıxıb getmələri və başqa uydurmaları da konkret faktlarla təkzib olunur.

Belə ki, sovet dövründə vilayətin əhalisi başdan-başa savadlı olmuşdur. Vilayətdə 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Xankəndi Pedaqoji İnstitutunda dərslər azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-də dərslər erməni dilində keçirilirdi. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Xankəndi şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində "Sovetakan Karabax" qəzeti (rus dilində dublyajı nəşr olunan "Sovetskiy Karabax"), 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Erməni millətçilərinin düşmənçilik hisslərini qızışdırmaq cəhdlərinə baxmayaraq, Azərbaycan hökuməti Dağlıq Qarabağ bölgəsinin sosial-iqtisadi və mədəni inkişafına daim xüsusi diqqət və qayğı göstərmişdir. Eyni zamanda, sovet dövründə DQMV özünü idarəetmənin bütün əsas elementlərinə malik olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit edilmişdi. SSRİ və Azərbaycan SSR Konstitusiyalarına əsasən DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim edilmiş və 1981-ci il iyunun 16-da qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanunla tənzimlənirdi.

Milli ərazi vahidi kimi DQMV inzibati muxtariyyət formasına və əhalisinin xüsusi tələbatlarının həyata keçirilməsini təmin edən bir sıra hüquqlara malik idi. SSRİ Konstitusiyasına uyğun olaraq DQMV SSRİ Ali Sovetinin Millətlər Sovetində 5, Azərbaycan SSR Ali Sovetində isə 12 deputatla təmsil olunurdu. DQMV-nin hakimiyyət orqanı olan Xalq Deputatları Soveti geniş səlahiyyətlərə malik idi, milli və digər xüsusiyyətləri nəzərə alaraq, vilayətdə yaşayan vətəndaşların maraqları əsasında bütün yerli məsələləri həll edirdi. Muxtariyyət forması əhalinin özünəməxsus iqtisadi, sosial, mədəni, milli xüsusiyyətlərini və muxtar regionda həyat tərzini tam şəkildə əks etdirirdi.

Bununla yanaşı, əhalinin etnik tərkibinə gəldikdə isə, DQMV-nin əhalisi 1979-cu il ümumittifaq siyahıya alınması zamanı 162 min 181 nəfər olmuşdur. Bunun 123 min 76 nəfərinin erməni (76%), 37 min 264 nəfərinin (23%) isə azərbaycanlı olduğu göstərilirdi. Belə ki, əhalinin bu siyahıya alınmasının

məlumatına görə respublikada yaşayan ermənilərin ümumi sayının 25,9 faizi DQMV-nin payına düşürdü.

**25 mart** – Ermənistan SSR Ararat rayonunun azərbaycanlılar yaşayan kəndində 100-dən çox ev talan edildi, yandırıldı, əhalisi öz yurdlarından qovuldu.

**24 aprel –** Xankəndi şəhər İcraiyyə Komitəsinin qərarı ilə ilk dəfə olaraq uydurma "erməni soyqırımı"nı anma mərasimi keçirildi.

**1 may** – Ermənistandan 2 mindən çox azərbaycanlı deportasiya olundu.

**3 may –** Ermənilər Hadrut rayonunun Tuğ kəndində Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaşlar törətdilər.

**13 may –** Ermənilərin Xankəndində azərbaycanlıların yaşadıqları məhəllələrə hücumu nəticəsində 6 nəfər yaralanmışdır.

**15 may –** Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Kapalı kəndində bir ev partladılmış, 3 nəfər həlak olmuşdur.

**16 may –** Bakıda tələbələrin və ziyalıların nümayəndələrinin Dağlıq Qarabağda baş verən hadisələrə qarşı izdihamlı etiraz mitinqi keçirildi.

**18 may** – Bakıda Azadlıq (keçmiş Lenin) meydanında Dağlıq Qarabağda baş verən hadisələrə və azərbaycanlıların Ermənistandan qovulmasına qarşı izdihamlı etiraz mitinqi keçirildi.

**12 iyun** – DQMV Xalq Deputatları Soveti muxtar vilayətin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-in tərkibinə qatılması haqqında qərar qəbul etdi.

**14 iyun –** Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycana Ermənistandan daha 4 min azərbaycanlı qaçqın gəlmişdir. Beləliklə, Respublika Statistika İdarəsinin məlumatına əsasən bu tarixə qədər Ermənistandan Azərbaycana 17 min 256 nəfər qaçqın gəlməsi göstərilir.

**15 iyun –** Ermənistan SSR AIi Soveti DQMV Xalq Deputatları Sovetinin DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə qəbul edilməsi xahişi ilə bağlı müraciətinə müsbət cavab vermək haqqında qərar qəbul etmişdir.

**17-20 iyun** – Yerevanda teatr meydanında müxtəlif ağır və soyuq silahlı alətlərlə erməni dəstələrinin avtobuslarla Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqını nəticəsində 20-dən çox azərbaycanlı yaralandı, Masis rayonundan 3 mindən çox soydaşımız evlərindən qovuldu, 10 mindən çoxu isə SSRİ-Türkiyə sərhəddinə toplaşaraq, orada gecələməyə məcbur oldular.

**17 iyun –** Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qərarda deyilirdi ki, Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin müraciətinə cavab olaraq, ölkənin təşəkkül tapmış və SSRİ Konstitusiyası ilə təsbit edilmiş milli-ərazi quruluşunu qoruyub saxlamaq mənafeyini əsas götürərək DQMV-nin Azərbaycan SSR-nin tərkibindən Ermənistan SSR-ə verilməsini mümkün hesab etmir.

**4 iyul –** DQMV İcraiyyə Komitəsi heç bir hüquqi əsası olmadan Ermənistandan gələn azərbaycanlı qaçqınların Şuşada və onun ətraf kəndlərində yerləşdirmələrini qadağan edən qeyri-qanuni qərar qəbul etdi.

**12 iyul –** DQMV Xalq Deputatları Sovetinin sessiyası muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında qərar qəbul etdi.

**13 iyul –** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti DQMV Xalq Deputatları Soveti sessiyasının 12 iyul 1988-ci il tarixli qərarını qeyri-qanuni hesab etdi.

**19 iyul –** DQMV Xalq Deputatları Sovetinin sessiyası növbəti dəfə DQMV-nin Azərbaycanın tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul etdi.

**20 avqust –** Xankəndi şəhər meydanında keçirilən mitinqdə Ermənistandan gələn azərbaycanlı qaçqınların muxtar vilayətin ərazisindən çıxarılmaları tələbi irəli sürülmüşdür.

**24 avqust –** DQMV Xalq Deputatları Sovetinin sessiyası bir daha DQMV-nin Azərbaycanın inzibati tabeçiliyindən çıxarılaraq Ermənistana tabe etdirilməsi barədə qəbul edilmiş qərarı müdafiə etdiyini bəyan etmişdir.

**3 sentyabr** – Ermənilər azərbaycanlılar yaşayan Kərkicahan kəndinə silahlı hücum etdilər.

**18 sentyabr –** Xankəndi şəhərində keçirilən mitinqdən ayrılan 5 min nəfərədək erməni azərbaycanlılar yaşayan Xocalı şəhərinə hücum etdilər. Atışma nəticəsində 1 nəfər azərbaycanlı həlak oldu, bir neçə nəfər isə yaralandı.

**18-21 sentyabr** – Ermənilər tərəfindən Xankəndi şəhərində azərbaycanlıların mənzillərinə basqınlar edilmiş, 850-dən çox ailənin evi yandırılmış və ya dağıdılmışdır. Nəticədə, şəhəri tərk etməyə məcbur edilmiş 15 mindən çox azərbaycanlı əhalinin xeyli hissəsi Şuşa, Xocalı və Ağdam şəhərlərində məskunlaşmağa məcbur olmuşdur.

**21 sentyabr –** DQMV ərazisində və Ağdam rayonunda xüsusi vəziyyət və komendant saatı tətbiq edildi.

**16 noyabr** – Ermənilər Şuşa şəhərinin yaxınlığındakı Topxana meşəsində qanunsuz olaraq meşəni qırıb yerində Yerevandakı Kənəkert alüminium zavodunun sexinin və istirahət kompleksinin tikintisinə başladılar.

**17 noyabr – 5 dekabr** – Bakıdakı Azadlıq meydanında SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində tutduğu ikili (ermənipərəst) mövqeyinə, azərbaycanlıların Ermənistandan deportasiyasına etiraz əlaməti olaraq davamlı mitinqlər keçirilmişdir.

**22 noyabr** – Ermənilər son iki həftə ərzində Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirdilər. Belə ki, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı, o cümlədən 57 qadın, körpə və 18 uşaq qətlə yetirilmişdir.

**24 noyabr** – Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edilmişdir. Ermənistan ərazisindən Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə hücum edilmiş, eləcə də Eyvazlı kəndi tamamilə yandırılmışdır.

**26-27 noyabr** – Ermənistanın Vartanlı kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülərək yandırılmışdır.

**Noyabr-dekabr** – Erməni millətçiləri Quqark rayonunda 70 nəfər azərbaycanlını qətlə yetirdilər. Rayonun təkcə Gözəldərə kəndində 21 nəfər, onlardan 12 kişi, 6 qadın, 3 körpə olmaqla öldürülmüşdür.

**1 dekabr** – Ermənistanın Quqark rayonunda azərbaycanlılarla dolu olan avtobusun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər isə ağır yaralanmışdır.

**10 dekabr** – Zəlzələ ilə əlaqədar olaraq keçmiş Yuqoslaviyadan göndərilən təyyarə Belqrad-Ankara-Yerevan marşrutu ilə Ermənistana uçarkən Ankara istiqamətindən gəldiyi üçün ermənilər onu türk təyyarəsi hesab edərək vurub qəzaya uğratdılar. Sonralar günahlarını yumaq üçün təyyarənin 6 nəfərlik şəxsi heyətinə abidə qoyuldu.

**11 dekabr** – Respublika Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının zəlzələdən zərər çəkənlərə yardım etmək üçün səfərbər edib Gümrüyə (Leninakana) göndərdiyi, içərisində müxtəlif peşə sahibləri (69 sərnişin, 9 ekipaj) olan "İL-76" təyyarəsi Gümrü yaxınlığında qəsdən qəzaya

uğradıldı. Qəzadan yalnız bir nəfər sağ çıxdı. Lakin həmin qəzanın səbəblərini araşdırmaq üçün heç bir komissiya yaradılmadı.

**Dekabr** – Moskvada "Erməni birliyi" adlanan təşkilat yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri olan və keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edən bu terrrorçu qurum Dağlıq Qarabağa silah və muzdluların göndərilməsində iştirak etmişdir.

**1989**

**Yanvar** – SSRİ-də keçirilmiş əhalinin ümumittifaq siyahıya alınması zamanı DQMV-nin 189 min 29 nəfər əhalisinin 145 min 450 nəfərinin (77%) erməni, 40 min 632 nəfərinin (21%) isə azərbaycanlı olduğu göstərilirdi. Lakin ümumittifaq siyahıya alınmasının bu məlumatlarını düzgün və obyektiv saymaq olmazdı. Ona görə ki, bu dövrdə DQMV-nin əhalisi siyahıya alınarkən burada yaşayan ermənilərlə əlaqədar şişirdilmiş rəqəmlər əsas götürülmüşdür. Yəni rəsmən vilayətdə qeydiyyatda qalan, lakin Ermənistan SSR-də, yaxud SSRİ-nin başqa şəhərlərində daimi yaşayan və işləyən ermənilər (15-20%) vilayətin sakini kimi qələmə verilmişdilər.

Bununla yanaşı, Dağlıq Qarabağ bölgəsində tarixən yaşamış azərbaycanlılar isə siyahıya alınarkən artıq 1988-ci il sentyabrın 18-də Xankəndindən (15 min nəfərdən çox), eləcə də müxtəlif vaxtlarda vilayətin bəzi azərbaycanlılar yaşayan kəndlərindən qovulmuş və siyahıya alma zamanı bu faktlar bilərəkdən nəzərə alınmamışdı. Demoqrafik göstəricilərin təhlili bir daha sübut edir ki, erməni siyasətçiləri və onların himayədarları Azərbaycan xalqına qarşı uzun müddət hazırladıqları proqramı məqsədyönlü və ardıcıl şəkildə həyata keçirməyi özlərinin ali məqsədi saymışlar.

**Mart-may** – Erməni silahlı dəstələri azərbaycanlıların Dağlıq Qarabağdan sıxışdırılıb çıxarılması kampaniyasını genişləndirdilər. Bununla da, DQMV-də hadisələr kəskinləşərək yeni mərhələyə qədəm qoydu.

**2 iyun** – Ermənistan KP MK-nın I katibi S.Arutyunyan Moskvada çıxışında bildirdi ki, 1989-cu il iyunun 1-nə Ermənistanda bir dənə də olsun azərbaycanlı ailəsi qalmamışdır, halbuki hələ də Azərbaycanda 450 min erməni yaşayır.

**13 iyun** – Xüsusi İdarə Komitəsinin ermənipərəst mövqeyi sayəsində DQMV-dəki azərbaycanlıların yaşayış məntəqələri blokada vəziyyətinə düşdü.

**28 iyun –** Ermənilər tərəfindən Bədərə kəndindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanmışlar.

**7 iyul –** Ermənilər Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan kəndinə silahlı hücum edərək kəndi yandırdılar.

**8 iyul –** Sonralar Ermənistan Respublikasının prezidenti olmuş Robert Koçaryanın rəhbərliyi altında Xankəndində "Arsax Erməni Xalq Hərəkatı" – "Miasum" ("Birləşmə") hərəkatının təsis konfransı keçirilmişdir.

**11 iyul –** Xankəndində ermənilər tərəfindən 3 nəfər azərbaycanlıya hücum edilmiş, onlardan 2 nəfəri öldürülmüş, 1nəfəri isə ağır yaralanmışdır.

**22 iyul –** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ABŞ Senatının erməniləri müdafiə məqsədi ilə qəbul edilmiş 19 iyul tarixli qətnaməsinə qarşı etiraz bəyanatı qəbul edərək Birləşmiş Ştatların rəsmi dövlət hakimiyyət orqanları tərəfindən belə hərəkətlərə son qoyulmasını tələb etmişdir.

**29 iyul –** Azərbaycandan Ermənistana gedən qatarlar Ermənistan ərazisində hücumlara məruz qaldığına görə onların hərəkəti dayandırıldı. Azərbaycanın Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokada vəziyyətinə düşdü.

**6 avqust –** Əsgəran rayonunun Meşəli kəndində 1 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi.

**16 avqust –** Xankəndində "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı" keçirilmişdir. Qurultayda DQMV müstəqil İttifaq ərazisi elan edildi. Bununla da, vilayətdə hakimiyyət Milli Şura adlanan qeyri-qanuni qurum tərəfindən mənimsənilmişdir.

DQMV-nin yalnız erməni əhalisini təmsil edən "səlahiyyətli xalq nümayəndələri qurultayı"nın çağırılması və "Milli Şura"nın yaradılması isə xüsusi idarə forması ideyasının tam iflasa uğradığını göstərdi. Qurultay Azərbaycan SSR-in tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu tanımaqdan imtina etdiyini bildirmiş, vilayəti Azərbaycan SSR Konstitusiyasının və respublikanın digər qanunlarının icrasının dayandırıldığı "müstəqil ittifaq ərazisi" elan etmişdi. "Milli şura" DQMV-də yeganə xalq hakimiyyəti elan edilmişdi ki, bu da əslində Xüsusi İdarə Komitəsini səlahiyyətdən məhrum etmək, əslində vilayətdə Sovet hakimiyyətini devirmək cəhdi idi.

**26 avqust –** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "qurultay"ın

bu qərarlarını və DQMV-də "Milli Şura" yaradılmasını qanuna, Konstitusiyaya zidd hərəkətlər kimi qiymətləndirərək bu barədə qərar qəbul etdi.

**28 avqust** – Şuşadan Bakıya, Ağdama və respublikanın digər rayonlarına gedən 9 avtobus və 1 yük maşını karvanı ermənilərin hücumuna məruz qalmış, nəticədə 200-ə qədər adam yaralanmışdır.

**15 sentyabr** – Azərbaycan SSR Ali Sovetinin qərarı ilə DQMV-dəki Xüsusi İdarə Komitəsi ləğv olundu.

**16 sentyabr** – Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılmış və bu terror aksiyası nəticəsində 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

**20 sentyabr** – Ermənilər Zod mədəninin Kəlbəcər rayonu Söyüdlü yaylağında yerləşən sahəsinə partlayıcı qurğu qoyaraq partlatmış, nəticədə 1 nəfər yaralanmış və həmin dövrdə dövlətə 28 min 929 manat ziyan vurulmuşdur.

**7 oktyabr** – Şuşa şəhərini Ağdam şosse yolu ilə bağlayan Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Bununla da, Şuşa rayonu faktiki olaraq blokada vəziyyətinə düşmüşdür. Cinayəti törətmiş Abramyan Artur həbs olunmuş və 1992-ci il aprelin 29-da 15 il müddətinə azadlıqdan məhrum edilmişdir.

**16 oktyabr** – Ermənilər tərəfindən 2 nəfər Kərkicahan qəsəbə sakini qətlə yetirilmişdir.

**19 oktyabr** – Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında 2 nəfər yerli sakin ermənilər tərəfindən qətlə yetirilmişdir.

**Oktyabr** – Laçın yolunun Qala dərəsi ərazisində ermənilər tərəfindən açılan atəş nəticəsində 1 nəfər azərbaycanlı öldürülmüşdür.

**6 noyabr** – Ermənilər tərəfindən gecə Ağdam-Şuşa avtomobil yolunda Ağa körpüsünün partladılması nəticəsində Şuşanın ətraf rayonlarla əlaqəsi kəsildi və şəhər blokada vəziyyətinə düşdü. Həmin gün ermənilər Ağdam rayonunda Qarqar çayı üzərindəki körpünü və eləcə də Ağdərə rayonu ərazisində bir körpünü də partlatdılar.

**14 noyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Qubadlı rayonunun Seytas kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmiş, 1 nəfər azyaşlı uşaq yaralanmışdır.

**17 noyabr** – Hadrut rayonunun Tuğ kəndində ermənilər tərəfindən 1 nəfər kənd sakini qətlə yetirilmişdir.

**24 noyabr** – Ermənilər tərəfindən 3 nəfər Qaradağlı kənd sakini qətlə yetirilmişdir.

**28 noyabr** – Ermənilərin açdığı atəş nəticəsində Qubadlı ərazisində 2 nəfər azərbaycanlı öldürüldü.

**29 noyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Qubadlı rayonunda 3 nəfər qətlə yetirilmişdir.

**Noyabr** – Ermənistanda qalmış 30 nəfər azərbaycanlı kütləvi şəkildə öldürüldü.

**1 dekabr** – Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar.

**6 dekabr** – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin qəbul etdiyi 1 dekabr tarixli qərarı Azərbaycan SSR-in suverenliyinə yolverilməz müdaxilə, onun ərazi bütövlüyünə qəsd, regionda vəziyyətin sabitləşməsinə, normal münasibətlərin bərpasına kömək etməyən tədbir kimi qiymətləndirərək bu barədə qərar qəbul etdi.

## 1990

**4 yanvar** – Ermənilərin terrorçu qrupu tərəfindən Əsgəran-Ağdam yolunda körpü partladılmışdır. Həmin qrup 1991-ci il aprelin 18-də Xocavənd rayonunda Amaras kilsəsi yaxınlığında 3 nəfər azərbaycanlı polis əməkdaşını da qətlə yetirmişdir.

**5 yanvar –** Erməni terrorçuları Şuşa şəhərini su ilə təmin edən boru kəmərini partlatdılar.

**6 yanvar –** Erməni terrorçuları Ağdam şəhərində yeni istifadəyə verilmiş avtovağzal binasını partlatmış, nəticədə 2 nəfər həlak olmuşdur.

**9 yanvar** – Ermənilər tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndində 1 nəfər qətlə yetirilmişdir.

**9 yanvar –** Ermənistan SSR Ali Soveti özünün növbədənkənar iclasında "DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in 1990-cı il üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət planına daxil edilməsi" barədə Azərbaycana qarşı daha bir qeyri-qanuni qərar qəbul etdi.

**9 yanvar –** Sov. İKP MK katibi A.N.Girenko və SSRİ Millətlər Sovetinin sədri R.P.Nişanov Xankəndinə buraxılmadılar, ermənilər onları müşayiət edən daxili qoşunlara atəş açdılar.

**11 yanvar –** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin sessiyasının 9 yanvar tarixli qərarını respublikanın suverenliyinin kobudcasına pozulması kimi qiymətləndirdi.

**12 yanvar –** Ermənilər tərəfindən Todan kəndinə silahlı hücum nəticəsində 4 nəfər azərbaycanlı öldürülmüşdür.

**15 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Todan kəndində 2 nəfər, Kərkicahanda isə 3 nəfər öldürülmüşdür.

**16 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Xanlar rayonunun Şəfəq kəndində bir nəfər, Laçın rayonunun Hacılar kəndində bir nəfər azərbaycanlı öldürülmüşdür.

**18-19 yanvar –** Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hal-hazırda işğal altındadır.

**19 yanvar –** Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

**19-20 yanvar –** Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvanın Sədərək rayonunda 10 nəfər azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü. Həlak olanlar arasında 4 və 6 yaşlı körpələr də var idi.

**31 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Gədəbəy rayonunda 6 nəfər azərbaycanlı qətlə yetirilmişdir.

**Yanvarın sonu** – Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sədərək qəsəbəsində şərab zavodu partladılmış, 5 yaşayış evi dağıdılmış, 6 nəfər qətlə yetirilmiş, 23 nəfər yaralanmışdır.

**18 fevral –** Yevlax-Laçın yolunun 105-ci kilometrliyində ermənilər tərəfindən Şuşa-Bakı sərnişin avtobusunun partladılması nəticəsində 6 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

**4 mart –** Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Bağanıs-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 1 nəfər yaralanmış, 13 yaşayış evi partladılmışdır.

**8 mart –** Ermənilər tərəfindən 2 nəfər Xocavənd rayonunun Qaradağlı kənd sakini Vərəndəli fermasında qətlə yetirilmişdir.

**24 mart** – Bakı şəhərindən Bağanis-Ayrım kəndinə gedərkən Qazax rayonunun Çaylı kənd sakinləri olan 3 nəfər mülki şəxs ermənilər tərəfindən qətlə yetirilmişdir.

**24 mart** – Qazax rayonunun Bağanis-Ayrım kəndi erməni terorçu dəstələrinin silahlı hücumuna məruz qalmış, ermənilər tərəfindən kəndin günahsız mülki əhalisinə qarşı görünməmiş vəhşiliklər edilmişdir. Erməni silahlı qruplarının bu genişmiqyaslı hücumu nəticəsində kənd işğal olunmuşdur. İşğal zamanı Bağanis-Ayrım kəndində 100-dən çox ev talan edilmiş və yandırılmış, nəticədə 10 nəfər həlak olmuş, 15 nəfərdən çox insan yaralanmışdır. Xüsusu strateji əhəmiyyətli Bağanis-Ayrım kəndi İcevan-Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən ermənilər tərəfindən bu kəndin işğalı xüsusi plan əsasında həyata keçirilmişdir. Bununla da 600 nəfərdən çox əhalisi və Qazax rayonunun Aşağı Əskipara, Quşçu Ayrım, Xeyrimli və Məzəm kəndləri ilə həmsərhəd, eləcə də Dağlıq Qarabağdan xeyli kənarda yerləşən Bağanis-Ayrım kəndi ermənilərin işğalçılıq siyasəti nəticəsində zəbt olunmuşdur.

**24 mart –** “Noraşen-Bakı” yolunun 364-cü kilometrliyində dəmir yolunun partladılması nəticəsində teplovoz və 3 vaqon, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

**27 mart –** Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şada kəndində ermənilərin silahlı hücumu zamanı 6 nəfər yaralanmışdır.

**28 mart** – Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**28 mart** – Babək rayonunun Kərməçataq kəndində bir neçə yaşayış evi yandırılmış, 1 nəfər qətlə yetirilmişdir.

**29 mart –** Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər yaralanmışdır.

**29 mart –** Ermənilərin silahlı hücumu nəticəsində Babək rayonunun Kərməçataq kəndində 1 nəfər öldürülmüşdür.

**Mart –** Ermənilər tərəfindən Qazax rayonunda 1 nəfər, Bağanis- Ayrım kəndində isə bir ailənin 5 nəfər üzvü vəhşicəsinə öldürüldü.

**9 aprel –** Ermənilər tərəfindən Qubadlı rayonunun Çayzəmi kəndində "UAZ-462" markalı 96-92 AQD dövlət nömrə nişanlı avtomobil partladılmış, nəticədə 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**Aprel –** Ermənilərin təcavüzü nəticəsində Gürcüstanda yaşayan 1 nəfər azərbaycanlı öldürülmüşdür.

**19 may –** Ermənilərin silahlı hücumu nəticəsində Naxçıvanın Yaycı kəndində 1 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

**11 iyun –** Ermənilərin silahlı hücumu nəticəsində Xankəndində 1 nəfər azərbaycanlı öldürüldü. Həmin gün Kəlbəcərdə də ermənilər tərəfindən 1 nəfər qətlə yetirildi.

**21 iyun –** Erməni təcavüzü nəticəsində Laçın rayonunun Köhnəkənd kəndində 2 qardaş xüsusi qəddarlıqla öldürüldü.

**26 iyun –** Ermənilərin silahlı hücumu nəticəsində Gədəbəy rayonunun Göyəli adlanan ərazisində 3 nəfər qətlə yetirilmişdir.

**11 iyul –** Tərtərdən Kəlbəcərə hərbçilərin müşayiəti ilə gedən maşın karvanına erməni terrorçularının silahlı hücumu nəticəsində 14 nəfər həlak olmuş, 35 nəfər yaralanmışdır.

**21 iyul –** Ağdərə-Kəlbəcər yolunda ermənilər tərəfindən sərnişin avtobusunun atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, onlarca azərbaycanlı yaralanmışdır.

**İyul –** Ermənilər Gürcüstanda yaşayan azərbaycanlılardan 1 nəfəri öldürdülər.

**8 avqust –** Ermənilər tərəfindən Laçın rayonunun ərazisində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**10 avqust –** Ermənilər tərəfindən "Şamxor-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF nömrəli avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

**10 avqust –** Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayəti törətmiş erməni terrorçuları A. Avanesyan və M. Tatevosov həbs olunaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

İstintaq zamanı məlum olmuşdur ki, cinayətkarlar 1991-ci ilin iyulun 17-də Ağdam-Tbilisi marşrutu ilə hərəkət edən sərnişin avtobusunu da partlatmağı planlaşdırmış, lakin özlərindən asılı olmayan səbəblərdən aksiyanı həyata keçirə bilməmişlər.

**17-21 avqust** – Ermənilər tərəfindən Qazax rayonunda 3 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

**Avqust –** Ermənilər Gürcüstanda yaşayan azərbaycanlılardan 1 nəfəri öldürdülər.

**8 sentyabr –** Ermənilərin silahlı təcavüzü nəticəsində Laçın rayonunda 2 nəfər vəhşicəsinə öldürüldü.

**13 sentyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Ağdam rayonunda 1 nəfər öldürüldü.

**15 sentyabr –** Ermənilər tərəfindən Xankəndi şəhərində DQMV radio-televiziya mərkəzinin partladılması nəticəsində 2 nəfər yaralanmışdır.

**21 oktyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Laçın rayonunda 1 nəfər qətlə yetirildi.

**3 noyabr –** Ermənilərin silahlı hücumu nəticəsində Laçın rayonunun Zabux kəndində 3 nəfər öldürüldü.

**24 noyabr –** Ermənilərin hücumu nəticəsində Xocavənd rayonunun Qaradağlı kəndində 3 nəfər vəhşicəsinə qətlə yetirildi.

**30 noyabr** – Ermənilər tərəfindən Xanlar rayonunun Matunaşen kəndində 5 nəfər polis işçisi qətlə yetirildi.

**30 noyabr –** Xocalı aeroportunun yaxınlığında ermənilər tərəfindən sərnişin avtobusunun partladılması nəticəsində 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**30 noyabr –** Əsgəran-Xankəndi yolunda Ağa körpüsü adlanan ərazidə Azərbaycan SSR DİN-nin əməkdaşlarını Şuşadan Xocalı aeroportuna aparan

avtobus ermənilər tərəfindən partladılmış, nəticədə 2 milis işçisi yaralanmışdır.

**14 dekabr** – Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunda 1 nəfər öldürüldü.

**15 dekabr** – Ermənilər tərəfindən Əsgəran rayonunun Cəmilli kəndində 3 nəfər qəddarlıqla qətlə yetirildi.

**17 dekabr** – Erməni təcavüzü nəticəsində Şərur rayonunda 2 nəfər öldürülmüşdür.

**İlin sonunda** – Məşhur terrorçu, Suriya mənşəli ABŞ vətəndaşı, 1957-ci ildə Kaliforniya ştatında anadan olmuş, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, uzun illər axtarışda olan Monte Melkonyan 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuş, lakin erməni lobbisi, eləcə də erməni terror təşkilatlarının təzyiqi nəticəsində Fransa həbsxanasından buraxılaraq, Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir.

O, Avropada, xüsusilə Fransada neçə illər ərzində türk diplomatlarına, Türk Kültür Ocaqlarına qarşı həyata keçirilən terror aktlarına birbaşa başçılıq etmişdir. Beynəlxalq terrorçu M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. O, xüsusilə 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində, Xocalıda azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsinə başçılıq edənlərdən biri olmuşdur.

1993-cü il iyunun 12-də Dağlıq Qarabağda öldürülən "Avo" ləqəbli bu beynəlxalq terrorçunun Yerevanda keçirilən dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş, eləcə də onun Xankəndi və Yerevanda heykəli qoyulmuşdur.

## 1991

**9 yanvar** – Laçın-Şuşa yolunun 5-ci kilometrliyində "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərova və hərbi qulluqçular – podpolkovnik S.Larionov, mayor İ.İvanov və serjant İ.Qoekinin hərəkət etdiyi avtomobilin erməni terror qrupu tərəfindən atəşə tutulması nəticəsində onların 4-ü də (müxbir və hərbi qulluqçular) qətlə yetirilmişdir. Cinayətkarlar –

A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan, A.Arustamyan və terrorçu qrupun daha 5 üzvü həbs olunaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

**9 yanvar –** Xankəndi şəhərində ermənilər tərəfindən DQMV Daxili işlər idarəsinin rəisi general-mayor V.Kavalyovun həyatına sui-qəsd edilmişdir.

**9 yanvar –** Xocavənd rayonunun Qaradağlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**12 yanvar –** “Yevlax-Laçın” avtomobil yolunun 13-cü kilometrliyində 547 saylı hərbi hissəyə məxsus “UAZ” markalı avtomaşına ermənilərin silahlı hücumu nəticəsində, SSRİ Daxili İşlər Nazirliyinin polkovniki V.Qriqoryev həlak olmuş, 1 əsgər isə yaralanmışdır.

**27 yanvar –** Ermənilər tərəfindən Xanlar rayonunun Dozular kəndi yaxınlığında “VAZ-2106” markalı S 25-10 AQ və “QAZ-52” markalı 59-07 AQN dövlət nömrəli avtomaşınlar partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**20 fevral –** Xanlar rayonunun Dozular kəndi yaxınlığında “UAZ-469” markalı 27-29 AQD dövlət nömrəli avtomaşının ermənilər tərəfindən partladılması nəticəsində 2 nəfər həlak olmuşdur.

**24 fevral –** Ermənilər tərəfindən Xankəndi yaxınlığında Şuşadan Ağdama gedən “PAZ-32-05” markalı dövlət nömrəli avtobus partladılmış, nəticədə 7 nəfər yaralanmışdır.

**24 fevral –** Ermənilərin silahlı hücumu nəticəsində Əsgəran rayonunun Cəmilli kəndində 1 nəfər həlak olmuşdur.

**25 fevral –** Ağdam rayonunun Gülablı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**9 mart –** Ermənilərin silahlı hücumu nəticəsində Xocavənd rayonunun Qaradağlı kəndində 2 nəfər qətlə yetirilmişdir.

**14 mart –** “Ağdam-Şuşa” marşrutu üzrə hərəkət edən sərnişin avtobusunun Ağdamla Əsgəran arasında ermənilər tərəfindən avtomat silahlardan atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**1-2 aprel –** Əsgəran rayonunun Daşbulaq kəndindən Xocalı şəhərinə silahlı hücum zamanı ermənilər raketlərdən, qumbaraatanlardan istifadə edərək xeyli evi dağıtmış və yandırmışlar.

**7 aprel –** Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**8 aprel –** Ermənilər tərəfindən SSRİ DİN-nin Daxili Qoşunlarının Zaqafqaziya və Şimali Qafqaz üzrə idarəsinin rəis müavini polkovnik V.Blaxotin qətlə yetirilmişdir.

**16 aprel –** Ağdamdan Füzuli rayonuna gedən "Moskviç-412" markalı 93-69 AQZ dövlət nömrəli avtomaşın ermənilər tərəfindən Xocavənd rayonu ərazisində partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**16 aprel** – Goranboy rayonunun Zeyvə kəndinin otlaq sahəsində sovxozda işləyən 2 nəfər fəhlə ermənilər tərəfindən qətlə yetirilmişdir.

**18 aprel –** Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Aşağı Divanalılar kəndində 3 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**18 aprel –** Xocavənd rayonunda 3 azərbaycanlı milis işçisi ermənilər tərəfindən öldürülmüşdür.

**20 aprel –** Goranboy rayonunun Gürzəlilər kəndində 1 nəfər milis işçisi ermənilər tərəfindən qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**25 aprel –** Ermənistan Respublikasının Ali Soveti Dağlıq Qarabağda və Azərbaycanla həmsərhəd bölgələrdə yaranmış vəziyyətin müzakirəsi üçün SSRİ Ali Soveti qarşısında SSRİ xalq deputatları qurultayının çağırılması məsələsini qaldırdı.

**28 aprel –** Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda partlayış nəticəsində 14 nəfər ağır yaralanmışdır.

**28 aprel –** Ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində Şuşa şəhərində 2 beş mərtəbəli bina dağıdılmış, nəticədə 3 nəfər yaralanmışdır.

**29 aprel –** Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunda 3 nəfər ağır yaralanmışdır.

**1 may –** Hadrut rayonunun Tuğ kənd orta məktəbinə məxsus "UA2-469" markalı maşın ermənilər tərəfindən partladılmış, nəticədə 3 nəfər həlak olmuşdur.

**2 may –** Füzuli rayonundan Hadrut rayonunun Tuğ kəndinə gedən "UAZ-469" markalı 30-78 AQD dövlət nömrə nişanlı avtomaşın ermənilər tərəfindən partladılmış, nəticədə 1 nəfər ağır yaralanmışdır.

**2 may –** Ağdam rayonunun Gülablı kəndinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**3 may –** Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Yuxarı Fərəcli kəndinin kənarında yerləşən mühafizə postunda 1 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**3 may –** Ermənilərin açdığı atəş nəticəsində Qazax rayonunda 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**9 may –** DQMV təşkilat komitəsinin rəhbəri V.P.Polyaniçkoya ermənilər Xankəndində sui-qəsd təşkil etmiş, lakin bu baş tutmamış, ancaq o, 1991-ci il avqustun 1-də Şimali Osetiyada “naməlum” terrorçu tərəfindən öldürülmüşdür.

**15 may –** Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Yelican kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

**23 may –** Hadrut rayonunun Arpagədik kəndi yaxınlığında SSRİ Daxili İşlər Nazirliyininin Daxili Qoşunlarının 5460 saylı hərbi hissəsinin giziri ermənilər tərəfindən qətlə yetirilmişdir.

**26 may –** Ermənilərin hücumu nəticəsində Ağdərə rayonunun Umudlu kəndində 1 nəfər qətlə yetirilmişdir.

**30 may** – Erməni terrorçuları tərəfindən Dağıstanın Xasavyurd stansiyası yaxınlığında “Moskva-Bakı” sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər ağır yaralanmışdır.

**May –** Laçın rayonunun Ermənistanla həmsərhəd olan Sadıllar kəndində yerləşən mühafizə postunda Laçın rayon daxili işlər şöbəsinin 4 nəfər milis işçisi ermənilər tərəfindən qətlə yetirilmişdir.

**May** – Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Dolanlar kəndində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

**2 iyun –** Ermənilərin açdığı atəş nəticəsində Qubadlı rayonunun Yuxarı Çibikli kəndində 1 nəfər hərbi qulluqçu qətlə yetirilmişdir.

**9 iyun –** Ermənilərin hücumu nəticəsində Tərtər rayonunun Qapanlı kəndində 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**19 iyun** – Ermənilər tərəfindən “Yevlax-Laçın” avtomobil yolunun 106-cı kilometrliyində 5459 saylı hərbi hissəyə məxsus “UAZ-469” markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

**22 iyun –** Ağdərə rayonunun Baş Göytəpə kəndi yaxınlığında ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**22 iyun –** Ermənilər tərəfindən Ağdərə rayonunun Çərəkdar kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

**25 iyun –** Ağdərə rayonunun Vaqbaş kəndində ermənilər tərəfindən 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

**26 iyun –** Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunun İmarət-Qərvənd kəndinin 2 sakini qətlə yetirmişdir.

**27-28 iyun –** Xocavənd rayonunda ermənilərin “Qarabağ” terror

təşkilatının üzvləri Qaradağlı kəndinə hücum edərək Vərəndəli fermasında 6 nəfər kənd sakinini (3 nəfər qadın olmaqla) diri-diri yandırmışlar.

**28 iyun** – Xocavənd rayonunun Kəndxurd kəndində ermənilər tərəfindən 6 nəfər dinc sakin xüsusi qəddarlıqla qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**İyun** – Ermənilər tərəfindən Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN-nin Daxili Qoşunlarının mayoru Xomiç qətlə yetirilmişdir.

**3 iyul** – Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunun Umudlu kəndində 1 nəfər qətlə yetirilmişdir.

**6 iyul** – Goranboy rayonunun Erkec, Monaşit və Buzluq kəndlərində 3 milis işçisi ermənilər tərəfindən qətlə yetirilmiş, 12 nəfər ağır yaralanmışdır.

**7 iyul** – Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığındakı Ulbab adlanan ərazidə 4 nəfər kənd sakini ermənilər tərəfindən qətlə yetirilmişdir.

**17 iyul** – Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Xanımdərəsi və Uzungöl yaşayış məntəqələrində 2 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

**20 iyul** – Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Todan kəndində 2 nəfər qətlə yetirilmiş, 8 nəfər ağır yaralanmışdır.

**21 iyul** – Laçın rayonunun Əriməz yaylağında ermənilərin silahlı hücumu nəticəsində 9 nəfər xüsusi amansızlıqla qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**23 iyul** – Hadrut rayonunun Tuğ kəndi yaxınlığında Tuğ milis bölməsinin 1 nəfər əməkdaşı və 1 nəfər yerli sakin ermənilər tərəfindən qətlə yetirilmişdir.

**30 iyul** – Hadrut rayonunun 2 nəfər Zəncur kənd sakinləri ermənilərin silahlı hücumu nəticəsində xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

**31 iyul** – Ermənilər tərəfindən Ağdərə rayonunun Dronbon kəndi yaxınlığında avtomobil yolunun partladılması nəticəsində, SSRİ DİN-nin Daxili Qoşunlarının 5 nəfər hərbi qulluqçusu yaralanmışdır.

**31 iyul** – Dağıstan Respublikasının Temirtau stansiyasının yaxınlığında erməni terror qrupu tərəfindən "Moskva-Bakı" sərnişin qatarının partladılması nəticəsində 16 nəfər həlak olmuş, 20 nəfər ağır yaralanmışdır.

**2 avqust** – Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən "QAZ-53" markalı avtomaşının partladılması nəticəsində 3 nəfər həlak olmuş, 8 nəfər ağır yaralanmışdır.

**8 avqust –** Bir gün ərzində rus əsgərlərinin köməyi ilə Ermənistanın Nüvədi kəndinin azərbaycanlı əhalisi zorakılıqla Ermənistandan qovuldular.

**10 avqust –** Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Laketdağ kəndində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**12 avqust** – Ermənilərin açdığı atəş nəticəsində Kəlbəcər rayonunun Sarıyel adlanan otlaq sahəsində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər yaralanmışdır.

**18-22 avqust –** Erməni hərbi hissələri vertolyotlar və ağır texnikadan istifadə etməklə Qazax rayonuna hücuma keçdilər. Nəticədə, Bağanis-Ayrım kəndi ermənilər tərəfindən dağıdılmış, dinc əhali isə işgəncələr verilərək qətlə yetirilmişdir.

**21 avqust –** Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında “KaMAZ” markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobusun ermənilər tərəfindən partladılması nəticəsində 2 nəfər həlak olmuş, 10 nəfər ağır yaralanmışdır.

**23 avqust –** Şuşa-Cəmilli yolunda hərəkət edən avtomaşının ermənilər tərəfindən atəşə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır.

**29 avqust** – Goranboy rayonunun Şəfəq kəndində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**2 sentyabr –** Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində ermənilər qeyri-qanuni olaraq Dağlıq Qarabağ Respublikasının yaradılmasını elan etdilər.

**7 sentyabr** – Hadrut rayonunun Tuğ kəndində ermənilər tərəfindən 2 nəfər kənd sakini qətlə yetirilmişdir.

**7 sentyabr –** Ermənilərin açdığı atəş nəticəsində Qazax rayonunun Bağanis-Ayrım kəndində 1 nəfər yerli sakin ağır yaralanmışdır.

**8 sentyabr –** “Ağdam-Xocavənd” avtobusunun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 5 nəfər qətlə yetirilmiş, 34 nəfər yaralanmışdır.

**8 sentyabr –** “Ağdam-Qaradağlı” marşrutu ilə işləyən avtobusun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 8 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdır.

**8 sentyabr –** Ermənilər Qaradağlı kəndində 3 nəfər kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırmış, 2 nəfərin isə başını kəsmişlər.

**9 sentyabr –** Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Barxudarlı dəmir yol stansiyasında 1 nəfər ağır yaralanmışdır.

**10 sentyabr –** Ermənilər tərəfindən Xocalı şəhərində 2 nəfər qətlə yetirilmiş, 5 nəfər ağır yaralanmışdır.

**14 sentyabr –** Hadrut rayonunun Zəmzur kəndi yaxınlığında "UAZ" markalı avtomaşın ermənilər tərəfindən partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**14 sentyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Ordubad rayonunun Qaranquş adlanan ərazisində 2 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

**17 sentyabr –** Ermənilər tərəfindən Goranboy rayonunun Şəfəq kəndi yaxınlığında "Russkie borisi" kolxozuna məxsus "MAZ" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər həlak olmuşdur.

**17 sentyabr –** Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində 2 nəfər qətlə yetirilmişdir.

**18 sentyabr** – Ağdərə rayonunun Metşen kəndi yaxınlığında ermənilərin silahlı hücumu nəticəsində "ZİL-131" markalı avtomaşın partladılmış, nəticədə 1 nəfər həlak olmuş və 1 nəfər ağır yaralanmışdır.

**19 sentyabr –** Ağdərə rayonunun İmarət-Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**20 sentyabr** – Goranboy rayonunun Şəfəq, Todan, Erkec, Zeyvə kəndlərində ermənilərin açdığı atəş nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

**23 sentyabr** – Ağdərə rayonunun İmarət-Qərvənd kəndində ermənilər tərəfindən 6 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**24 sentyabr** – Ağdam rayonu Abdal-Gülablı kəndi yaxınlığında "UAZ" markalı avtomaşının ermənilər tərəfindən partladılması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**24 sentyabr –** Əsgəran rayonunun Ağbulaq kəndi yaxınlığında milis işçilərini aparan maşının ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**25 sentyabr** – Ermənilər tərəfindən Xankəndi şəhəri yaxınlığında "UAZ" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər milis işçisi həlak olmuş, 1 nəfər isə ağır yaralanmışdır.

**26 sentyabr** – Ermənilər tərəfindən "Yevlax-Laçın" yolunda "VAZ-2106" markalı 72-07 AQD nömrə nişanlı avtomaşının partladılması nəticəsində 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**26 sentyabr –** Ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində Şuşa şəhərində 1 nəfər qətlə yetirilmiş, 6 nəfər ağır yaralanmışdır.

**28 sentyabr –** Xocavənd rayonunun Muğanlı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

**29 sentyabr** – Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**1 oktyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində 1 nəfər qətlə yetirilmişdir.

**3 oktyabr** – Xocavənd rayonunda ermənilər tərəfindən "UAZ" markalı avtomobilin partladılması nəticəsində 2 milis işçisi həlak olmuş, 2 nəfər ağır yaralanmışdır,

**6 oktyabr** – Qazax rayonunun Xeyrimli kəndində ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

**8 oktyabr** – Ermənilər tərəfindən Xocalı yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

**9 oktyabr** – Ermənilərin silahlı təcavüzü nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

**11 oktyabr** – Ermənilər tərəfindən Şuşa rayonunun Nəbilər kəndi yaxınlığında Şuşa şəhərini içməli su ilə təchiz edən kəmər partladılmışdır.

**Oktyabrın ortaları** – Ağdərə rayonunun İmarət-Qərvənd kəndi erməni silahlı dəstələri tərəfindən tamamilə yandırılmış, onlarla dinc sakin həlak olmuşdur.

**17 oktyabr** – Ağdərə rayonunun Baş Güneypəyə kəndində ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

**18 oktyabr** – "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan xalqı 1920-ci ildə itirilmiş müstəqilliyini bərpa edərək tarixinin yeni mərhələsinin başlanğıcına qədəm qoydu.

**18 oktyabr** – Şuşa rayonunun Qaladərəsi kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

**18 oktyabr** – Xocavənd rayonunun Qaradağlı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

**19 oktyabr** – Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən "UAZ-469" markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**22 oktyabr** – Ağdərə rayonunun Baş Güneypəyə, Sırxavənd və Orta Güneypəyə kəndlərində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

**26 oktyabr** – Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Məzən kəndində 1 nəfər qətlə yetirilmişdir.

**27 oktyabr –** Goranboyun Todan kəndinə ermənilərin hücumu zamanı 1 nəfər milis işçisi həlak olmuşdur.

**28 oktyabr –** Xocavənd rayonunun Xocavənd kəndində ermənilər tərəfindən 3 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**29 oktyabr –** Xocalıdan Yevlaxa uçan "AN-2" təyyarəsi Əsgəran rayonu ərazisində ermənilər tərəfindən vurulmuş, bütün heyət həlak olmuşdur. Ermənilər təyyarəni və meyitləri yandırmışlar.

**29 oktyabr** – Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT və dünya dövlətlərinə müraciət etdi. Müraciətdə Azərbaycan dövlət müstəqilliyinin bərpasını elan edərək, demokratiya, azadlıq və bərabərlik yolu ilə getmək əzmini əsas tutaraq, dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, BMT Nizamnaməsinə sadiq qalacağını və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək BMT üzvlərindən xahiş etdi ki, təşkilatın üzvlüyünə qəbul olunmaq məsələsi nəzərdən keçirilsin.

**30-31 oktyabr –** Erməni silahlı birləşmələri Tuğ və Salakətin kəndlərini işğal etdilər. 230-dan artıq evi və ictimai binanı yandıran ermənilər azərbaycanlı əhalini təcavüzə məruz qoyaraq zorakılıqla öz doğma torpaqlarından didərgin saldılar.

**1 noyabr –** Ermənilər tərəfindən Əsgəran rayonunun mərkəzində "UAZ-469" markalı 30-76 AQD nömrəli avtomaşın partladılmış, 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**5 noyabr –** Qazax rayonunun Xeyrimli və Aşağı Əskipara kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmiş, 4 nəfər isə ağır yaralanmışdır.

**5 noyabr –** Şuşa rayonunun Nəbilər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

**7 noyabr –** Ermənilərin hücumu nəticəsində Hadrut rayonunun Xələfşə kəndində 2 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**11 noyabr –** Qazaxın Xeyrimli kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər kənd sakini isə yaralanmışdır.

**12 noyabr –** Xocalıdan Ağdama gələn "UAZ" markalı avtomobilin Əsgəran rayonunun Noraguh kəndi yaxınlığında ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

**12 noyabr –** Goranboy rayonunun Todan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 12 nəfər yaralanmışdır.

**14 noyabr –** Ermənilərin silahlı hücumu nəticəsində Ağdam rayonunun Əhmədavar kəndində 1 nəfər qətlə yetirilmişdir.

**15 noyabr –** Hadrut rayonunun Zəmzur və Lah kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 8 nəfər qətlə yetirilmiş, 4 nəfər yaralanmışdır.

**16 noyabr –** Ermənilərin silahlı hücumu nəticəsində Xocavənd rayonunun Xocavənd kəndində 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**19 noyabr –** Xocavənd rayonunun Xocavənd kəndinə erməni hərbi birləşmələrinin hücumu nəticəsində 4 kənd sakini həlak olmuş, 27 nəfər itkin düşmüş, 32 ev yandırılmışdır.

**20 noyabr –** Agdam rayonunun Əliağalı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

**20 noyabr –** Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli mülki vertolyot vurulmuşdur. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Dövlət katibi T.İsmayılov, Baş nazirin müavini, millət vəkili Z.Hacıyev, Dövlət müşaviri, millət vəkili, Daxili işlər naziri M.Əsədov, Baş Prokuror İ.Qayıbov, millət vəkilləri V.Cəfərov və V.Məmmədov, Azərbaycan Respublikası Prezident Aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və su təsərrüfat nazirinin birinci müavini Q.Namazəliyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru İ.Plavski, MTN-in DQMV üzrə idarəsinin şöbə rəisi S.İvanov, DQMV Daxili işlər idarəsinin rəisi V.Kovalyov, DQMV Fövqəladə vəziyyət rayonunun komendantı N.Jinkin, Azərbaycan Respublikası Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Respublikası Dövlət Teleradio Şirkətinin əməkdaşları, A.Mustafayev, A.Hüseynzadə və F.Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər general-mayor M.Lukaşov və podpolkovnik V.Koçaryov, Qazaxıstan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini S.Serikov və 3 nəfər ekipaj üzvü həlak olmuşdur.

Bu hadisə Jeleznovodskda Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə hallinə yönəldilən ilk cəhdin sonu oldu və bu da erməni təcavüzünün daha da genişlənməsinə təkan verdi.

**22 noyabr –** Ermənilərin Əsgəran rayonunun Ağbulaq kəndi tərəfdən

Ağdam rayonunun Abdal və Gülablı kəndlərini atəşə tutması nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**24 noyabr –** Şuşanın Xankəndindən keçən telefon-rabitə xətləri kəsilmiş, şəhər və digər azərbaycanlılar yaşayan kəndlər tamamilə ətraf aləmdən təcrid olunmuşdur. Nəticədə, Xocalı və Şuşa mühasirə vəziyyətinə düşmüşdür.

**26 noyabr –** Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Dağlıq Qarabağın muxtariyyət statusu qanuni və haqlı olaraq ləğv edildi. Halbuki, Dağlıq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan Respublikasının Konstitusiyasına tabe olmaması 1988-ci ildən belə bir addımın atılması üçün labüd idi. Təəssüf ki, hadisələrin başlanğıcında muxtariyyətin ləğv olunmaması, erməni millətçilərinin qarşısının alınmaması vəziyyəti get-gedə kəskinləşdirirdi. Nəticədə, Azərbaycan hökuməti tərəfindən nəzarət olunmayan vilayətdə ermənilər Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyi ilə azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər ki, bu da münaqişənin böyüyüb iri miqyaslı müharibəyə çevrilməsinə səbəb oldu.

**28 noyabr –** Qazax rayonunun Aşağı Əskipara kəndində ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**Oktyabr-noyabr –** Atəşkəs haqqında əldə edilmiş razılığa baxmayaraq, erməni silahlı qüvvələri Dağlıq Qarabağın Xocavənd və Hadrut rayonlarının azərbaycanlı əhalisinə qarşı kütləvi hücumlara başladı. 30-a yaxın kənd işğal olunaraq dağıdıldı və yandırıldı. Dinc sakinlər təcavüzə məruz qalaraq öz evlərindən didərgin salındı.

**1 dekabr –** Ermənilər rus əsgərlərinin köməyi ilə Kərkicahan qəsəbəsinə hücum edərək qəsəbə əhalisini qrantomyot, minamyot, raket və BMP ilə atəşə tutmuşlar. Nəticədə, 1 milis işçisi həlak olmuş, 3 nəfər qəsəbə sakini itkin düşmüş, 5 nəfər yaralanmış, 21 ev yandırılmışdır.

**2 dekabr –** Əsasən rus hərbçilərinin idarə etdiyi zirehli texnika növləri, o cümlədən döyüş maşınları ilə təmin olunmuş Ermənistan ordusu Xankəndi tərəfdən Kərkicahan qəsəbəsinə hücum edərək oranın bir hissəsini işğal etdi. Şuşadan qəsəbəyə əlavə kömək göndərmək qeyri-mümkün idi. Çünki rus hərbçiləri Şuşadan Kərkicahana gedən yolu bağlamışdılar. Eyni zamanda, Şuşa şəhərinin özü də hər gün erməni mövqelərindən intensiv top və raket atəşinə tutulurdu.

**7 dekabr –** Füzuli rayonunun Yuxarı Divanalılar kəndi erməni ordusu tərəfindən işğal edildi. Hərbi texnika ilə hücuma keçən ermənilər kəndin bütün evlərini yandırmış, 12 nəfər kənd sakinini isə əsir götürmüşlər.

**8 dekabr –** Dağlıq Qarabağ erməniləri öz müstəqilliklərinə dair qeyri-qanuni referendum keçirdilər. Lakin Azərbaycan əhalisi buna etiraz edərək referendumda iştirak etməmiş və nəticələrini tanımamışdır.

**8 dekabr** – Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının (İKT) Dakarda keçirilən dövlət və hökumət başçılarının V konfransında 46-cı tamhüquqlu üzv kimi təşkilata qəbul olunmuşdur. İKT Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn subyekti kimi qəbul olduğu ilk beynəlxalq təşkilatdır.

Həmin dövrdə Azərbaycanın İKT-yə üzv qəbul olunması həm Ermənistanın təcavüzünə məruz qalmış, eləcə də informasiya təbliğat imkanları zəif olan ölkəmizin öz haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması, həm də təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinə münasibət bildirməsi üçün əsas verməklə yanaşı, islam dövlətləri tərəfindən dəstəklənməsi üçün çox zəruri idi.

**10 dekabr** – Kərkicahan qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**11 dekabr –** Şuşa şəhəri və Kərkicahan qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**12 dekabr –** Ağdam rayonunun Çuxurməhlə, Əhmədavar, Xıdırlı, Çinli, Şelli, Qalayçılar kəndlərinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 5 nəfər ağır yaralanmışdır.

**13 dekabr –** Xocavənd rayonunun Qaradağlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**14 dekabr –** Ermənilər tərəfindən Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmişdir.

**15 dekabr –** Erməni silahlı birləşmələrinin Əsgəran rayonunun Cəmilli kəndinə hücumu nəticəsində 15 nəfər azərbaycanlı həlak olmuş, onlarla adam yaralanmışdır. Əhali doğma kənddən zorakılıqla qovulmuşdur.

**15 dekabr –** Ermənilərin silahlı hücumu nəticəsində Xocalı şəhərində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**16 dekabr –** Ermənilər tərəfindən Kərkicahan qəsəbəsinə silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**19 dekabr** – Ermənilər tərəfindən Füzuli rayonunun Qaradağlı kəndinə silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**20 dekabr** – Ağdam rayonunun Sırxavənd kəndində ermənilər tərəfindən 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

**20 dekabr** – Ermənilərin silahlı hücumu nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmişdir.

**20 dekabr** – Ağdərə rayonunun Umudlu kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**23 dekabr** – Şuşa rayonunun Malıbəyli kəndinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**23 dekabr** – Cəbrayıl rayonunun Daşbaşı və Banazur kəndinə ermənilərin hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

**23 dekabr** – "Qarabağ" terror təşkilatının üzvlərinin böyük silahlı qüvvə ilə Əsgəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 27 nəfər kənd sakini qəddarlıqla öldürülmüş, 15 nəfər isə yaralanmışdır. Bu hərbi həcavüz zamanı kənd sakinlərindən 3 nəfərin ailəsindən heç kəs salamat çıxa bilmədi. 12 nəfər – qadın, uşaq, qoca ermənilər tərəfindən diri-diri yandırıldı. Meşəli faciəsi zamanı kənddə digər ərazilərdən gələn müdafiəçilərlə birlikdə ümumilikdə 48 nəfər azərbaycanlı həlak oldu, 41 nəfər isə yaralandı.

Qarabağ silsiləsində, Qırxqız dağlarının ətəklərində yerləşən və münaqişə başlayandan ermənilərin hücümlarna qarşı mərdliklə dayanan Meşəli kəndi erməni hərbi birləşmələri, xüsusilə "Qarabağ" terror təşkilatının silahlı hücumu nəticəsində işğal edilərək yandırılıb dağıdıldı. Bu kənddə ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı əsil soyqırımı törədildi.

**24 dekabr** – Füzuli rayonunun Arış, Çuvarlı, Qovğa, Çiman kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

**25 dekabr** – Füzuli rayonunun Qaradağlı, Arış, Xatınbulaq, Çuvarlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 4 nəfər ağır yaralanmışdır.

**26 dekabr** – Şuşa-Laçın yolunun 4-cü kilometrliyində "ZİL-130" maşınının ermənilər tərəfindən partladılması nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**26 dekabr** – Erməni terrorçuları "Moskviç" maşınında Bakıdan Şuşaya gələn 5 nəfər Şuşa sakinini Şuşa-Laçın yolunda güllələmişlər.

**26 dekabr** – Erməni silahlı birləşmələrinin Kərkicahan qəsəbəsinə

hücumu nəticəsində “Mayak” radiostansiyasının xüsusi müxbiri L.Lazareviç həlak olmuş, 1 nəfər milis əməkdaşı isə yaralanmışdır. Qəsəbədə 50-yə qədər ev yandırılmışdır.

**27 dekabr –** Erməni silahlı birləşmələrinin ağır texnika ilə hücumu nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

**28 dekabr –** Erməni silahlı dəstələrinin böyük qüvvə ilə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə hücumu nəticəsində 34 nəfər həlak olmuş, 4 nəfər itkin düşmüş, 150 nəfərdən artıq dinc sakin yaralanmışdır. Nəticədə, strateji əhəmiyyətli Kərkicahan qəsəbəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə Xankəndi şəhəri bütünlüklə zəbt olundu.

**29 dekabr –** Ermənilərin silahlı hücumu nəticəsində Şuşa rayonunun Malıbəyli, Kosalar, Qeybalı kəndlərində 16 nəfər dinc sakin qətlə yetirilmişdir.

**29 dekabr –** Ağdam rayonunun Sırxavənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

**1991 –** Fransada “Erməni azadlıq hərəkatı” adlı terrorçu təşkilat yaradılmışdır. Bu qrup terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirirdi.

**İyun-dekabr** – Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Meşəli, Cəmilli, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Umudlu, Qaradağlı, Kərkicahan və s. bu kimi digər strateji əhəmiyyətə malik azərbaycanlıların yaşadığı kəndlər erməni terror qrupları tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. Bu dövrdə Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində yüzlərlə azərbaycanlı öldürüldü, əsir götürüldü və yaralandı.

**1988-91-ci illər –** Bu dövrdə etnik təmizləmə nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 250 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 51 min ev, 165 sovxoz və kolxoz əmlakı, çoxlu mal-qara talanmışdır.

Ermənilər tərəfindən 217 azərbaycanlı qətlə yetirilmişdir. Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərayanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir. Bu illərdə 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncələr verildi.

Qeyd olunan illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşətutma halları qeydə alınmışdır ki, bunların da nəticəsində 514 nəfər həlak olmuş, 1318 nəfər yaralanmışdır. 119 obyekt və 1134 azərbaycanlı evi ermənilər tərəfindən dağıdılmışdır.

## 1992

**1 yanvar –** Ermənilərin Ağdamın Çuxurməhlə kəndinə silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 28 nəfər yaralanmışdır.

**5 yanvar –** Kərkicahan qəsəbəsində ermənilər tərəfindən 2 nəfər qətlə yetirilmişdir.

**5 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Axullu kəndində 1 nəfər qətlə yetirilmişdir.

**6 yanvar –** Erməni silahlı dəstələri İmarət-Qərvənd kəndinin Murovdağ yaylağında Humaylar adlanan çoban alaçığına hücum edərək 2 nəfər azərbaycanlını yaralamışlar.

**6 yanvar –** Goranboy rayonunun Böyük və Kiçik Çanabazar adlanan ərazisində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 7 nəfər ağır yaralanmışdır.

**7 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli kəndində 1 nəfər qətlə yetirilmiş, 3 nəfər yaralanmışdır.

**8 yanvar –** Xocavənd rayonunun Qaradağlı kəndində ermənilərin silahlı hücumu nəticəsində 8 nəfər yaralanmışdır.

**8 yanvar –** Ermənilər tərəfindən "Krasnovodsk-Bakı" sərnişin bərəsinin partladılması nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdır.

**9 yanvar –** Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Qaradağlı, Cuvarlı, Arış və Hadrut rayonunun Axurlu kəndində 2 nəfər milis işçisi və 3 nəfər yerli sakin qətlə yetirilmiş, 5 nəfər yaralanmışdır.

**10 yanvar –** Ermənilərin açdığı atəş nəticəsində Kəlbəcər rayonunun Ağdaban kəndində 1 nəfər qətlə yetirilmişdir.

**13 yanvar –** Füzuli rayonunun Yuxarı Veysəlli, Arış, Ağbulaq kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**13 yanvar –** Ermənilərin Kərkicahan qəsəbəsinə silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**13 yanvar –** Xocavənd rayonunun Əmiralılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər qətlə yetirilmişdir.

**15 yanvar –** Ermənilər tərəfindən Naxçıvanın Culfa rayonunun Əylis kəndi yaxınlığında yerləşən hərbi postun atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**17 yanvar –** Şuşa rayonunun Kosalar və Malıbəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**18 yanvar –** Erməni silahlı dəstələri Şuşa rayonunun Nəbilər kəndinə hücum edərək oranı ələ keçirmiş və kəndi yandırmışlar.

**20 yanvar –** Ağdam rayonunun Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**21 yanvar –** Ermənilərin Ağdam rayonunun Xıdırlı kəndinə silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**22 yanvar –** Ağdam rayonunun Çinli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**25 yanvar –** Şuşa rayonunun Xəlfəli və Malıbəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər qətlə yetirilmişdir.

**25 yanvar –** Ağdam rayonunun ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**25 yanvar –** Xocavənd rayonunun Əmrallılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər yaralanmışdır.

**26 yanvar –** Goranboy rayonunun Şəfəq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**28 yanvar –** Ağdamdan Şuşaya uçan 27137 saylı, Mİ-8 vertolyot şəhərə çatmamış, yəni, Xəlfəli kəndinin üzərində Xankəndi istiqamətindən ermənilərin raket atəşi ilə partladılmış, nəticədə vertolyotda olan 3 nəfər heyət üzvü və 41 sərnişin faciəli şəkildə həlak olmuşlar.

**29 yanvar –** Ağdam rayonunun Şelli və Əhmədavar kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**Fevralın əvvəli –** Ermənistan ordusu bir-birinin ardınca Yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etmək məqsədilə genişmiqyaslı hücuma başladılar.

**1 fevral –** Ermənilərin Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmişdir.

**1 fevral –** Xocalı rayonunun Fərrux kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**5 fevral –** Xocavənd rayonunun Günəşli kəndi ermənilər tərəfindən işğal edildi.

**7 fevral –** Ağdam rayonunun Sırxavənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

**11-12 fevral –** Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu. Hücum zamanı 30-dan çox azərbaycanlı öldürülmüş, 140-dan çoxu yaralanmış və əsir götürülmüşdür. Bu qanlı hadisələr keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilmişdir.

**13-17 fevral –** Erməni silahlı dəstələrinin Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücumu zamanı 118 nəfər (uşaq, qadın, qoca) əsir götürülmüş, Kəndin Bəylik bağı adlanan yerində 33 nəfər ermənilər tərəfindən güllələnmiş, eyni zamanda öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək basdırmışlar.

Əsirlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürüldü və hamının gözü qarşısında güllələndi. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Əsirlikdə olan 68 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif dövrlərdə şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil. Xankəndi və Əsgəranda 2 aydan artıq saxlanılan 54 nəfərdən 18-i əsirlikdən qayıtdıqdan sonra ermənilərin verdikləri ağır işgəncə və əzabların nəticəsi olaraq vəfat etdi. Əsrlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin zorla çıxardılması, ac-susuz saxlanılması, işgəncə verilərək öldürülməsi insanlığa qarşı törədilmiş ən ağır cinayət hadisəsi idi. Qaradağlı kəndində 2 ailənin hər birindən 4 nəfər öldürülmüş, 42 ailə öz başçısını itirmiş, 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə, əhalisi ermənilər tərəfindən əsl soyqırımına məruz qalmış bu kənddə 91 nəfər, yəni kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir. Öldürülənlərdən 21 nəfəri ahıl və qocalar, 10 nəfəri qadın, 8 nəfəri məktəbli olmuşdur.

Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə apardı. Qeyri-bərabər döyüşlərdə biri qadın olmaqla

14 nəfər həlak oldu. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşdü. İşğal nəticəsində Qaradağlıda 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və çoxlu sayda digər sosial obyektlər dağıdılmışdır.

Qeyd etmək vacibdir ki, Xocavənd rayonunun ən çox itki verən və böyük döyüş yolu keçən kəndlərindən biri məhz Qaradağlıdır. Bütövlükdə 20-yə yaxın erməni kəndinin əhatəsində olan Qarabağlı kəndi Xankəndi yolunun üstündə yerləşirdi. 1988-1992-ci illərdə erməni silahlı dəstələri bu yoldan keçməyə cürət etməyərək digər erməni kəndlərindən keçib getməli olurdular. Vətəni kömək olmadan müdafiə edən qaradağlılar doğma yudun hər daşı, hər qayası uğrunda sonadək mübarizə apardılar.

**22 fevral –** Ermənilərin Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmiş, 3 nəfər itkin düşmüş, 12 nəfər ağır yaralanmışdır.

**22 fevral –** Qubadlı rayonunun Məlikməhəmmədli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmişdir.

**23 fevral –** Ermənilər tərəfindən Şuşa rayonunun mərkəzi raket və top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**26 fevral –** Ermənilər tərəfindən Tərtər rayonunun mərkəzinin raket və top atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 9 nəfər yaralanmışdır.

**25-26 fevral –** Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdilər. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılan və digər şəklə salınanlar çoxluq təşkil edirdi.

Bu soyqırımı nəticəsində, rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. Bunların içərisində

- 8 ailə tamamilə məhv edilmişdir;
- 56 insan işgəncə ilə öldürülmüşdür;
- 27 ailənin yalnız 1 üzvü qalmışdır;

- 25 uşaq hər iki valideynini itirmişdir;
- 130 uşaq valideynlərindən birini itirmişdir;
- 230 ailə öz başçısını itirmişdir;
- 487 insan şikəst olmuşdur (onlardan 76 nəfər həddi-buluğa çatmamışlardır);
- 1275 insan əsir götürülmüşdür;
- 1165 insan girovluqdan azad edilmişdir;
- 150 nəfər itkin düşmüşdür.

Qüvvələr nisbəti qeyri-bərabər olan döyüşlərdən sonra Xocalıda olan özünümüdafiə qüvvələri son nəfərinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Bunun özü də o dövrdə şəhəri müdafiə edən insanların göstərdiyi ən böyük qəhrəmanlıq nümunəsi idi. Xocalıya hücum zamanı mühasirədə qalmış şəhərin 3000 nəfərədək silahsız mülki əhalisi düşməndən xilas olmaq üçün şəhəri tərk etdi. Çox təəssüf ki, o dövrdə Xocalıya heç bir kömək olmadığından həmin əhalinin demək olar ki, böyük bir hissəsi erməni vəhşiliyindən xilas ola bilmədi.

İstintaq materiallarından məlum olur ki, hücuma rəhbərlik edən və hazırda Ermənistanın müdafiə naziri olan Seyran Ohanyanın, eləcə də 366-cı alayın 3-cü batalyonunun komandiri Yevqeniy Nabokixinin komandasında əlavə olaraq 50-dən çox erməni zabiti və gizirləri iştirak etmişlər.

Rus zabiti mayor Yuriy Girçenko gündəliyində yazır: "Xocalıya hücum planı çox məxfi hazırlanmışdı. Əvvəlcə şəhər mühasirəyə alındı. Burada xeyli silahlı OMON-çular da var idi. Odur ki, Ağdam istiqamətində bir koridor açıldı və səsucaldanla silahsız çıxmaq şərti ilə OMON-çulara getmək icazəsi verildi. Koridorla OMON-çularla bərabər əhali də çıxmağa başladı. Onlar koridorun sonuna çatdıqda əsl qırğın başladı. OMON-çular qırıldıqdan sonra uşaq, qadın, qoca olmasından asılı olmayaraq, bütün tutulanların diri-diri gözləri çıxarılır, qulaqları kəsilir, dərisi soyulurdu. Qaçanları isə, Gülablı kəndinə qədər təqib edib qırdılar. Koridorda 200-dən çox, şəhərdə isə 300-dən çox azərbaycanlı əsir götürüldü".

Ermənilərin Xocalıda törətdikləri vəhşilikləri faktlarla sübut edən Rusiyanın "Memorial" Hüquq-Müdafiə Mərkəzinin məlumatında hətta, diri adamın başının dərisinin soyulması faktı da qeydə alınmışdır.

Həmin silahlı birləşmələr Xocalı sakinlərinə qarşı soyqırımı törədərkən 111 nəfəri Xocalıda, mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş Xocalı

sakinlərini təqib edərək 16 nəfəri Kətik meşəsində, 130 nəfəri Naxçıvanik yolunda, 23 nəfəri Qaraqaya ətrafında, 23 nəfəri Dəhraz kəndi yaxınlığında, 8 nəfəri Şelli istiqamətində, 6 nəfəri Əsgəran asfalt yolunun 86-cı kilometrində və s. yerlərdə, əsir götürülənlərdən 18 nəfərini isə Əsgəran Rayon Daxili İşlər Şöbəsində işgəncə verərək xüsusi amansızlıqla qətlə yetirmişlər. Meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları müəyyən edilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, Ermənistan silahlı qüvvələri və keçmiş SSRİ-nin Xankəndində dislokasiya olunmuş 366-cı alayının hərbçiləri ilə birlikdə törətdikləri bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" 1948-ci il 9 dekabr tarixli konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətinin tərkibi vardır.

Həmçinin cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Ermənistanın hərbi birləşmələri, Dağlıq Qarabağdakı silahlı birləşmələr və keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət edilməmiş, 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan – döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar edilməsi kimi hərəkətlərin qadağan olunması barədə tələblər kobud surətdə pozulmuşdur.

Hazırda aşağıda göstərilən 38 nəfərin – 366-cı alayın hərbi qulluqçuları və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş və onların Azərbaycan Respublikası CM-in soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan CM-in 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (işgəncə), 115.4-cü (müharibə qanunlarını

və adətlərini pozma) maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxs kimi cəlb olunmaları barədə qərarlar çıxarılmış, barələrində məhkəmələr tərəfindən həbs qəti imkan tədbiri seçilmiş və beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir:

1. Zarviqorov Yuri Yuriyeviç – 366-cı alayın komandiri
2. Çitçyan Valeri İsaakoviç – 366-cı alayın 1-ci batalyonunun qərargah rəisi
3. Ayriyan Vaçaqan Qriqoryeviç – 366-cı alayın kəşfiyyat rəisi
4. Akopyan Movses Qrantoviç – 366-cı alayın 1-ci batalyonunun 2-ci rotasının komandiri
5. Abramyan Poqos Qarnuşeviç – Xankəndində 11-ci alayın komandiri
6. Kisebekyan Qriqoriy Akopoviç – 366-cı alayın rabitə rotasının komandiri
7. Arutyunyan Slavik Vadimoviç – 366-cı alayın 5-ci rotasının komandiri
8. İşxanyan Andrey Artyuşeviç – 366-cı alayın 1-ci rota təchizat vzvodunun komandiri
9. Beqlaryan Sergey Yurikoviç – 366-cı alayın 2-ci batalyonu, vzvod komandiri
10. Arutyunyan Kamo Rafaeloviç – 366-cı alayın təmir rotasının vzvod komandiri
11. Danielyan Armen Borikoviç – 366-cı alayın təmir rotasının vzvod komandiri
12. Qarmaş Viktor Anatolyeviç – 366-cı alayın zabiti
13. Smaqin Aleksandr Vladimiroviç – 366-cı alayın zabiti
14. Balyazin Oleq Viktoroviç – 366-cı alayın zabiti
15. Beqlaryan Armen Volodiyeviç – 366-cı alayın 1-ci rotasının baş texniki
16. Ayrapetyan Aleksandr Aleksandroviç – 366-cı alayın giziri
17. Mirzoyan Vaçik Qrantoviç – 366-cı alayın 2-ci rotasının starşinası
18. Ayrapetyan Vaçik Qurqenoviç – 366-cı alayın 3-cü rotasının starşinası
19. Abramyan Armo Aramoviç – Xankəndi şəhər DİŞ-nin rəisi
20. Qukasyan Mavrik Araratoviç – Əsgəran RDİŞ-nin rəisi

21. Aqacanyan Karlen Levonoviç – Əsgəran RDİŞ-nin sabiq rəisi

22. Barseqyan Şaqen Semyonoviç – Əsgəran rayon DİŞ-nin rəis müavini

23. Petrosyan Karo Vaniyeviç – Əsgəran RDİŞ yanğın təhlükəsizliyi bölməsinin rəisi

24. Koçaryan Serjik Sumbatoviç – Xankəndi şəhər həbsxanasının rəisi

25. Ayriyan Samvel Samurkayeviç – Əsgəran RDİŞ-də müfəttiş

26. Qriqoryan Edik Emirvaroviç – Əsgəran RDİŞ-nin əməkdaşı

27. Qriqoryan Ararat Rantikoviç – Əsgəran RDİŞ-nin əməkdaşı

28. Akopyan Oleq Nikolayeviç – Həsənabad kənd sovxozunun üzvü

29. Tumasyan Seyran Aprakoviç – Xasq kəndində sürücü

30. Babayan Georgi Ginikoroviç – Həsənabad kənd sovxozunda sürücü

31. Qriqoryan Valerik Sergeyeviç – Həsənabad kənd sovxozunun üzvü

32. Balasanyan Vitaliy Mixayloviç – DQMV erməni xalq cəbhəsinin sədri

33. Mirzoyan Maksim Mixayloviç – Stepanakert şəhəri 2718 saylı avtobazanın rəisi

34. Babayan Bahadur Giniqoroviç – Əvvəllər Xocalıda yaşamışdır

35. Manqasaryan Artik Qurgenoviç – Əsgəran rayonu, Daşbulaq kənd sakini

36. Kaqramanyan Hamlet Asriyeviç – Əsgəran rayonu, Daşbulaq kənd sakini

37. Qriqoryan Canpolad Xanlaroviç – Əvvəllər Xocalıda yaşamışdır

38. İşxanyan Yura Georgiyeviç – Əsgəran rayonunda yeməkxana müdiri işləmişdir

İstintaq zamanı Xocalı soyqırımı ilə bağlı 2213 nəfər şahid və zərərçəkmiş şəxs qismində dindirilmiş, 800-dən artıq ekspertizalar keçirilmişdir.

366-cı alayın həlak olmuş və yaralanmış hərbi qulluqçularının siyahısının təqdim edilməsi, hərbi texnikasının ermənilər tərəfindən ələ keçirilməsi və ya onlara verilməsi, habelə azərbaycanlıların yaşayış məntəqələrinin 366-cı alaya məxsus hərbi texnika ilə atəşə tutulması ilə əlaqədar məlumatların alınması və digər xüsusatlarla bağlı Rusiya Federasiyası, Özbəkistan və Qazaxıstan Respublikaları Baş prokurorluqlarına hüquqi yardım göstərilməsi barədə təqdimatlar göndərilmişdir.

Xocalı soyqırımının törədilməsində iştirak etmiş 366-cı alayın 2-ci batalyonunun komandiri olmuş mayor Ohanyan Seyran Muşeqoviçin, 366-cı alayın 3-cü batalyonunun komandiri olmuş Nabokix Yevgeni Aleksandroviçin və qeyrilərinin iştiraklarını sübuta yetirən materialların toplanması və Azərbaycan Respublikası CM-in müvafiq maddələri ilə nəzərdə tutulan cinayətləri törətməkdə təqsirləndirilən şəxslər kimi cəlb olunmaları, eləcə də əsir və girovlarla amansız rəftar edərək onlara işgəncələr verməklə qəddarlıqla qətlə yetirmiş, habelə Meşəlidə, Qaradağlıda, Bağanis-Ayrımda və digər yaşayış məntəqələrində soyqırım, həmçinin Azərbaycan millətindən olan yerli əhalinin qanuni yaşadığı yerlərdən məcburi surətdə didərgin salınaraq deportasiya etməklə, xüsusilə ağır cinayətləri törətmiş şəxslərin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Fevralın sonu** – Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının Xankəndindən Rusiyaya köçürülməsi zamanı 25 tank, 87 zirehli döyüş maşını, 28 piyada döyüş maşını, 45 artilleriya top sistemi ermənilərə qanunsuz verilmişdir.

**2 mart** – Xocalı soyqırımında izləri itirmək üçün 366-cı motoatıcı alay Gürcüstanın Vaziani şəhərinə köçürülmüşdür.

**8 mart** – Ağdam rayonunun Şelli kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 6 nəfər ağır yaralanmışdır.

**10 mart** – Marşal Şapoşnikovun əmri ilə 366-cı alay ləğv edilərək tərkibi başqa alaylara paylanmışdır.

**16 mart** – Ermənilər tərəfindən Füzuli rayonunun mərkəzinin raket atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 12 nəfər ağır yaralanmışdır.

**18 mart** – Ağdərə rayonunun Leninavan qəsəbəsindəki erməni mövqelərindən Tərtər şəhəri, habelə Qapanlı və Qaradağlı kəndlərinin intensiv raket, artilleriya atəşinə tutulması nəticəsində 3 nəfər həlak olmuşdur.

**18 mart** – Ermənilər tərəfindən Tərtər rayonunun mərkəzi raket atəşinə tutulmuş, nəticədə 3 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

**21 mart** – Qazax rayonunun Aşağı Əskipara və Məzəm kəndlərinin ermənilər tərəfindən raket atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 5 nəfər ağır yaralanmışdır.

**22 mart** – Ermənilər tərəfindən Qazax rayonunun Quşçu Ayrım kəndinin raket atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

**22 mart** – Ermənilər tərəfindən "UAZ-469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşın Qazax rayonunun Sofulu-Cəfərli yolunda partladılmış,

nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**22 mart** – Ağdam rayonunun Muğanlı kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 1 nəfər həlak olmuşdur.

**22 mart** – Erməni terrorçuları tərəfindən "UAZ-469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşının Qazax rayonu ərazisində partladılması nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**28 mart** – Ermənilər tərəfindən "KamAZ-5410" markalı 40-53 AQS dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**31 mart** – Ermənilərin Hoğa kəndinə silahlı hücumu nəticəsində 6 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

**1 aprel** – Füzuli rayonunun Günəşli kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 3 nəfər həlak olmuşdur.

**6 aprel** – Tovuz rayonunun Əlibəyli kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 2 nəfər həlak olmuş, 16 nəfər ağır yaralanmışdır.

**8 aprel** – Ermənilərin Ağdərə rayonunun Capar kəndi istiqamətindən Kəlbəcər rayonunun Çayqovuşan və Ağdaban kəndlərinə silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılmış, 779 nəfər dinc sakininə amansız işgəncələr verilmişdir. Ağdaban kəndində ermənilərin həyata keçirdikləri soyqırımı nəticəsində 33 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların arasında 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri odda yandırılmış, 2 nəfər itgin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. Ermənilər tərəfindən tarixi, memarlıq və mədəniyyət abidələri dağıdılmış, talanmış və məhv edilmişdir. Azərbaycanın klassik aşıq şeirinin ustadı Aşıq Qurbanın və oğlu Aşıq Şəmşirin əlyazmaları yandırılmış və məhv edilmişdir.

**9 aprel** – Şuşa şəhərinin mərkəzi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuşdur.

**13 aprel** – Qazax rayonunun Quşçu Ayrım kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**18 aprel** – Qazax-Cəfərli yolunun 10-cu kilometrliyində VAZ markalı maşına ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər ağır yaralanmışdır.

**23-27 aprel** – Qazağın Barxudarlı və Soflu kəndlərinə erməni silahlı dəstələrinin hücumu nəticəsində 230 evin hamısı talan edilərək yandırılmışdır. Qazax rayonundan bu kəndlərə gələn dəmir yolu xətti ermənilər tərəfindən

partladılmış, Soflu və Barxudarlı kəndləri yalnız 4 gün mühasirədə saxlanıldıqdan sonra işğal edilmiş və nəticədə 530 nəfər öz evlərini məcburi şəkildə tərk etməli olmuşdur. Hazırda Barxudarlı və Soflu kəndlərindən olan məcburi köçkünlərin 85 faizə qədəri Qazax şəhərinin mərkəzində, digərləri isə rayonun müxtəlif ərazilərində məskunlaşmışlar.

**25 aprel –** Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər ağır yaralanmış, 3 nəfər itkin düşmüşdür.

**25 aprel –** Ağdam rayonunun Şelli, Papravənd, Abdal kəndlərinin ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 2 nəfər mülki vətəndaş həlak olmuş, 1 nəfər yaralanmışdır.

**29 aprel –** Kəlbəcər rayonunun Narıclılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmış, 2 nəfər itkin düşmüşdür.

**29 aprel –** Ermənilərin Şuşa ətrafında Hacı talası və Daşaşıran adlanan ərazilərə güclü hücumu nəticəsində 4 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

**2 may –** Xanlar rayonunun Dosular kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**2 may –** Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havış kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**5 may –** Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**5 may –** Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havış və Günnüd kəndləri ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**6 may –** Ermənilər tərəfindən Füzulinin Qacar və Divanlılar kəndiləri zirehli maşınlardan, rayon mərkəzi isə toplardan atəşə tutulmuşdur. Hoğa kəndinə edilən hücum zamanı 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**8 may –** Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə, Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ işğal edildi. Ermənilərin öz məlumatlarına görə, Şuşaya hücumda 100-ə qədər zirehli maşın və tank, 11 min nəfər canlı qüvvə iştirak etmişdi. Ermənilərin tərəfində xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Nəticədə, 289 $km^2$ ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 30 səhiyyə müəssisəsi, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bütün bunlarla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində XVIII əsrə aid Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəyovun, Bülbülün ev muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi ermənilər tərəfindən vəhşiçəsinə dağıdılmış, təhqirlərə məruz qalmış, çox sayda nadir əlyazma nümunələri məhv edilmişdir.

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcədə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri Ermənistan silahlı qüvvələrin işğalı altındadır. Hazırda Şuşa rayonunun 32854 nəfər əhalisi Azərbaycanın 55 rayonunda müvəqqəti məskunlaşmışdır.

**8 may –** Tərtər rayonunun Seyidimli kəndinin ermənilər tərəfindən raket atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

**9 may –** Ermənilər tərəfindən Laçın rayonu güclü top atəşinə tutulmuş, nəticədə 7 nəfər həlak olmuşdur.

**11 may –** Ağdam rayonunun Şelli kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**13 may –** Ermənilər tərəfindən Bərdə rayonunun top atəşinə tutulması nəticəsində 5 nəfər həlak olmuş, 3 yaşayış binası dağıdılmışdır.

**14 may –** Tovuz rayonunun Əlibəyli kəndi ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**17 may –** Azərbaycanın Şuşa şəhərinin işğalından sonra erməni hərbi qüvvələrinin qarşısında duran vəzifə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda qədim Azərbaycan şəhəri Laçın yerləşirdi. Dağlıq Qarabağdan kənarda, Azərbaycanın cənub-qərbində yerləşən Laçın rayonuna Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində "dəhliz" adlandırılan, əslində isə böyük bir rayon qısa müddət ərzində işğal olundu.

Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən "dəhliz" silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ sərhədlərindən çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi.

**18 may –** Helsinkidə ATƏM-in yüksək vəzifəli rəsmiləri ilə görüşdə münaqişənin sülh yolu ilə həllinə dair müzakirələrin aparıldığı zaman Ermənistan silahlı qüvvələri 1835 km² ərazisi, 60 min nəfər əhalisi və 120 kəndi olan Laçın rayonunu bütünlüklə işğal etdilər. Beynəlxalq təzyiqlər olmasın deyə, bu işğal ermənilər tərəfindən "humanitar dəhliz" açmaq adı altında həyata keçirildi.

**18 may –** Ağdam rayonunun ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**18 may –** Naxçıvan Muxtar Respublikası Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 51 nəfər yaralanmışdır.

**20 may** – Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında "UAZ-469" markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşına ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**23 may** – Naxçıvan Muxtar Respublikası Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 19 nəfər həlak olmuş, 23 nəfər yaralanmışdır.

**25 may –** Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Soyuq

kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**26 may** – Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**1 iyun** – Kəlbəcər rayonunun Alqaya kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**1 iyun** – Ermənilər tərəfindən Qubadlı rayonunun mərkəzinin müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 29 nəfər yaralanmışdır.

**1 iyun** – Füzuli rayonunun Gövşadlı kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər mülki şəxs həlak olmuşdur.

**3 iyun** – Ağdam rayonunun Papravənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**3 iyun** – Cəbrayıl rayonunun Şuşaqax kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**5 iyun** – Tərtər rayonunun Seyidimli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

**8 iyun** – Tovuz rayonunun Əlibəyli və Böyükqışlaq kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**10 iyun** – Kəlbəcər rayonunun Ağdaban kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

**12 iyun** – Füzuli rayonunun Cuvarlı kəndində ermənilər tərəfindən yük maşınının partladılması nəticəsində 1 nəfər yerli sakin həlak olmuşdur.

**13 iyun** – Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**13 iyun** – Qazax rayonunun Fərəhli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**13 iyun** – Tərtər rayonunun Cəmilli və Seyidimli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 19 nəfər yaralanmışdır.

**14 iyun** – Qazax rayonunun Məzən və Fərəhli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**16 iyun** – Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**22 iyun** – Füzuli rayonunun Qaradağlı və Korazilli kəndlərinə

ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**22 iyun** – Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**22 iyun** – Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**27 iyun** – Füzuli rayonunun Dövlətyarlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**1 iyul** – Füzuli rayonunun Gövşadlı və Zərgərli kəndlərinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuşdur.

**1 iyul** – Qubadlı rayonunun mərkəzinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 27 nəfər yaralanmışdır.

**3 iyul** – Cəbrayıl rayonunun mərkəzinin ermənilər tərəfindən toplardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

**4 iyul** – Goranboy rayonunun Gülüstan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**5 iyul** – Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**7 iyul** – Ağdam rayonunun Şelli kəndinin ermənilər tərəfindən vertolyotlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**8 iyul** – Füzuli rayonunun Qacar kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 2 nəfər həlak olmuşdur.

**20 iyul** – Ağstafa rayonunun Köhnə Qışlaq, Yaradullu və Tatlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**22 iyul** – Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**27 iyul** – Füzuli rayonunun Xatınbulaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**27 iyul** – Ermənilər tərəfindən Qazax rayonunun Şıxlı kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuşdur.

**30 iyul –** Ağdərə rayonunun Aşağı Moxradağ kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 41 nəfər yaralanmışdır.

**31 iyul –** Ermənilər tərəfindən Kəlbəcər rayonunun Ağdaban kəndinə silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır.

**31 iyul –** Ağdərə rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 9 nəfər yaralanmışdır.

**1 avqust –** Tovuz rayon mərkəzinin ermənilər tərəfindən toplardan atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**1 avqust –** Gədəbəy rayonunun Şınıx və Novoivanovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**3 avqust –** Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikası Babək rayonunun Gərməçataq kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**5 avqust –** Laçın rayonunun Güləbird kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

**6 avqust –** Gədəbəy rayonunun Şınıx və Novosaratovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**7 avqust –** Ermənilər tərəfindən Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**8 avqust –** Qubadlı rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**8 avqust –** Gədəbəy rayonunun Şınıx və Novoivanovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

**10 avqust –** Gədəbəy rayonunun İnəkboğan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**10 avqust –** Tovuz rayonunun Böyükqışlaq kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**12 avqust –** Gədəbəy rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**15 avqust –** Cəbrayıl rayonunun ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 5 nəfər həlak olmuşdur.

**17 avqust –** Ermənilər tərəfindən Ağdam rayonunun Gülablı kəndinə silahlı hücum nəticəsində 6 nəfər həlak olmuş, 6 nəfər ağır yaralanmışdır.

**26 avqust** – Zəngilan rayon mərkəzinin ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 7 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**28 avqust** – Goranboy rayonunun Balıqçaya kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 24 nəfər qətlə yetirilmiş, 6 nəfər ağır yaralanmışdır.

**29 avqust** – Cəbrayıl rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**4 sentyabr** – Füzuli rayonunun Qaçaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**6 sentyabr** – Ağdam rayonunun Əhmədavar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**7 sentyabr** – Füzuli rayonunun Qaravəllər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**7 sentyabr** – Füzuli rayonunun Zərgər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**9 sentyabr** – Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

**11 sentyabr** – Ağdam rayonunun Sarıcallı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**14 sentyabr** – Ağdam rayonunun Muğanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**15 sentyabr** – Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonunun Biçənək kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**18 sentyabr** – Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**19 sentyabr** – Goranboy rayonunun Gülüstan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 22 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**30 sentyabr** – Zəngilan rayonunun Ermənistanla həmsərhəd kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**30 sentyabr** – Ağdərə rayonunun Ketavan kəndi yaxınlığında ermənilər

tərəfindən "QAZ-53" markalı maşının partladılması nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**Sentyabr –** Dağlıq Qarabağda R.Koçaryanın başçılığı ilə "Dövlət müdafiə komitəsi" yaradıldı. Bu komitə 18 yaşından 45 yaşına qədər bütün kişiləri Azərbaycana qarşı müharibəyə cəlb etdi. Hava hücumundan müdafiə məqsədi ilə Dağlıq Qarabağa Ermənistandan müasir texnika göndərildi.

**5 oktyabr –** Ağdam rayonunun Seyidli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**8 oktyabr –** Füzuli rayonunun Divanalılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 11 nəfər həlak olmuş, 60 nəfər yaralanmışdır.

**12 oktyabr –** Qubadlı rayonunun Balard kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmış, 2 nəfər itkin düşmüşdür.

**13 oktyabr –** Ağdam rayonunun Şelli və Əhmədavar kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

**13 oktyabr –** Naxçıvan Muxtar Respublikası, Şərur rayonunun Ermənistanla həmsərhəd kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

**21 oktyabr –** Tərtər rayonu ilə Kəlbəcər arasında, Sərsəng su anbarının 1,5 kilometrliyində hərəkət edən xalq təsərrüfatı malları daşıyan 4 maşın ermənilər tərəfindən qumbara atanlar vasitəsilə atəşə tutulmuş və nəticədə 6 nəfər mülki şəxs həlak olmuşdur.

**25 oktyabr –** Qazax rayonunun Fərəhli kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**1 noyabr –** Qubadlı rayonunun Muradxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**5 noyabr –** Zəngilan rayonunun Seyidlər kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**6 noyabr –** Ağdam rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 6 nəfər həlak olmuşdur.

**11 noyabr –** Goranboy rayonunun Aşağı Ağcakənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**17 noyabr –** Füzuli rayonunun Aşağı Divanlılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**19 noyabr –** Qubadlı rayonunun Əliquluşağı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**8 dekabr** – Ağdam rayonunun Novruzlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuşdur.

**9-12 dekabr** – Soçidə əldə edilən razılığı pozaraq, Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunun 8 kəndini işğal etdilər.

**10 dekabr –** Zəngilan rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 7 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

**1990-1992-ci illərdə** – Azərbaycanın Dağlıq Qarabağ bölgəsi (4,4 min km²) Ermənistan silahlı qüvvələri tərəfindən bütünlüklə işğal edildi. Bununla yanaşı, bu dövrdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Qazax rayonunun Bağanıs-Ayrım, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrımlı, Qızıl Hacılı, Sofulu, Barxudarlı kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən yandırılmış, talan edilmiş və dağıdılmışdır. İşğal olunmuş ərazilərdən 6.500 nəfər məcburən köçkün düşmüşdür. Hazırda 699 kv.km ərazisi olan Qazax rayonunun 75 yaşayış məntəqəsinin təxminən 8%-i işğal olunmuşdur.

Bu gün hələ də işğal altında olan Qazax rayonunun Bağanis-Ayrım, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrımlı, Qızıl Hacılı, Sofulu, Barxudarlı kəndlərinin işğal edilməsi nəticəsində maddi-mədəniyyət nümunələri talanmış, dağıdılmış və yandırılmışdır. Belə ki, Yuxarı Əskipara kəndində V-VIII əsrlərə aid qala, X əsrə aid Şəkərqala məbədi kompleksi, XVII əsrə aid Bürc, Qatır körpüsü, Kazım körpüsü və s. memarlıq abidələri, eləcə də XIV əsrə aid yeraltı yol, səkkizillik məktəb, tibb məntəqəsi, klub və 10048 nüsxə kitab fondu olan kitabxana dağıdılıb məhv edilmişdir. Aşağı Əskipara kəndində 1 orta məktəb, xəstəxana, mədəniyyət evi, 6850 və 9980 nüsxə kitab fondları olan 2 kitabxana da dağıdılaraq məhv edilmişdir. Bununla yanaşı, 8512 nüsxə kitab fondu olan Xeyrimli, 10335 nüsxə kitab fondu olan Qızılhacılı, 14829 nüsxə kitab fondu olan Sofulu, 16105 nüsxə kitab fondu olan Barxudarlı kənd kitabxanaları, eləcə də ictimai-iaşə obyektləri, məktəblər, xəstəxanalar dağıdılmış və məhv edilmişdir.

Bundan əlavə, bu dövrdə ərazisi 5.368 kv.km olan Naxçıvan Muxtar Respublikasının 221 yaşayış məntəqəsindən 1-i, Sədərək rayonunun ərazisinin bir hissəsi (0,5%) Kərki kəndi zəbt olunmuşdur. İşğal olunmuş ərazilərdən məcburən köçkün düşmüş insanların sayı 347 nəfərdir.

**1993**

**16 yanvar –** Zəngilan rayonunun Şotariz və Keçili kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**19 yanvar –** Ağdam rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 10 nəfər həlak olmuşdur.

**27 yanvar –** Ağdərə rayonunun Umudlu kəndində ermənilər tərəfindən "QAZ-69" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər həlak olmuşdur.

**27 yanvar –** Ağdərə rayonunun Dəstəgül kəndində ermənilər tərəfindən "QAZ-53" markalı avtomaşının partladılması nəticəsində 3 nəfər həlak olmuşdur.

**3 fevral –** Ağdərə rayonunun Ergi otlaq sahəsinə ermənilərin silahlı hücumu nəticəsində 21 nəfər həlak olmuşdur.

**6 fevral –** Qazax rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

**12 fevral –** Ağdərə rayonunun Baquas kəndinə ermənilərin silahlı hücumu nəticəsində 70 nəfər həlak olmuşdur.

**28 fevral –** Dağıstan Respublikası ərazisində, Qudermes stansiyası yaxınlığında ermənilər tərəfindən "Kislovodsk-Bakı" sərnişin qatarının partladılması nəticəsində 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**28 fevral –** Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

**2 mart –** Tovuz rayonunun Bozalqanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

**12 mart –** Gədəbəy rayonunun Mormor kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**18 mart –** Ağdərə rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğularından atəşə tutulması nəticəsində 5 nəfər həlak olmuşdur.

**21 mart –** Zəngilan rayonunun Şotariz kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 17 nəfər yaralanmışdır.

**27 mart –** Kəlbəcər rayonunun Narclılar və Çıraqlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 11 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**27 mart – 3 aprel –** Cenevrədə aparılan sülh danışıqları ilə eyni vaxtda Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı hücumu nəticəsində 1936 $km^2$ sahəsi, 55 min nəfər əhalisi, 1 şəhər, 1 qəsəbə və 122 kənddən ibarət olan Kəlbəcər rayonu zəbt olundu. Azərbaycanın Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı artıq münaqişəni mahiyyətcə yeni – işğalçılıq səviyyəsinə keçirdi.

**30 mart –** Ağstafa rayonunun Aşağı Kəsəmən kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**31 mart –** Kəlbəcər rayonunu məcburi tərk etmiş mülki şəxslərin rayonun Tunel adlanan ərazisində erməni silahlı dəstələri tərəfindən atəşə tutulması nəticəsində 3 yaşlı qız uşağı həlak olmuş, bir nəfər isə ağır yaralanmışdır.

**Aprelin əvvəlləri –** Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuşdur.

**3 aprel –** Gədəbəy rayonunun Novoivanovka kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**7 aprel –** Ağdam rayonunun Papravənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**15 aprel –** Qubadlı rayonunun Muradxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**16 aprel –** Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**17 aprel –** Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**19 aprel –** Tovuz rayonunun Koxanəbi kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**19 aprel –** Gədəbəy rayonunun Göyəli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**1 may –** Qazax rayonunun Quşçu Ayrım kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**10 may –** Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Sərxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuşdur.

**20 may –** Gədəbəy rayonunun Əyridərə otlaq sahəsinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**2 iyun –** Bakı dəmiryolu vağzalında sərnişin qatarının partladılması

nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi Kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

**İyun –** Füzuli rayonunun Xatunbulaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuşdur.

**İyun –** Ağcabədi rayonunun Qiyamədinli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 7 nəfər həlak olmuşdur.

**İyun –** Ağcabədi rayonunun Hindarx kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

**İyun –** Gədəbəy rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 11 nəfər həlak olmuşdur.

**İlin ikinci yarısı** – Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

**22 iyul** – Tərtər rayonunda ermənilər tərəfindən törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**22 iyul –** Qazax rayon mərkəzində ermənilər tərəfindən mina partladılması nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

**22 iyul –** Erməni terrorçuları tərəfindən Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**22 iyul –** Qazax rayonunda erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

**23 iyul –** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 1094 km² sahəsi, 165,6 min nəfər əhalisi, 1 şəhər və 123 kənddən ibarət olan Ağdam rayonu işğal edildi.

Hazırda Ağdam rayonunun Quzanlı qəsəbəsi və 43 kəndi Azərbaycanın nəzarətindədir və həmin ərazilərdə 92083 nəfər əhali (41200 nəfər yerli, 50883 nəfər məcburi köçkün) məskunlaşmışdır. Ağdam şəhəri və 123 kəndin 79-u Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

**23 iyul –** Ağdam rayonuna erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyətlə əlaqədar BMT Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi. Azərbaycan dövləti atəşin qəti şəkildə dayandırılması məqsədilə Ermənistan Respublikasından hərbi əməliyyatlara son qoymağı, habelə zəbt olunmuş Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb etdi.

**26 iyul –** Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalı ilə əlaqədar yazılı müraciət etmişdir.

**26 iyul –** Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT-nin Baş katibinə məktubunda qeyd etmişdir ki, Minsk konfransının keçirilməsi haqqında ATƏM-in Nazirlər Şurasının qərarından bir ildən çox keçməsinə baxmayaraq, o vaxt, yəni sənəd qəbul edilən zaman vəziyyəti bərpa etməyin və Minsk konfransını keçirməyin mümkün yolu kimi Şuşa və Laçının azad edilməsindən danışırdıqsa, indi Azərbaycan ərazisinin 17 faizindən çoxu erməni təcavüzkarları tərəfindən qəsb olunmuşdur. Eyni zamanda sənəddə göstərilirdi ki, Qarabağın bütün dağlıq hissəsinin, eləcə də Laçın, Kəlbəcər rayonları bütünlüklə, Naxçıvan Muxtar Respublikasının, Qazax, Füzuli, Zəngilan və Ağdam rayonlarının kəndləri, yəni 503 yaşayış məntəqəsinin işğal olunması nəticəsində qaçqın və köçkünlərin ümumi sayı 567 min nəfərə çatmışdır.

Bununla yanaşı, Azərbaycan rəhbəri kimi Heydər Əliyev Ermənistanın BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin azad edilməsi haqqında qəbul etdiyi sənədlərə, eləcə də 822 saylı qətnaməyə məhəl qoymadığını diqqətə çatdıraraq, təcavüzkarın qarşısının alınması, qan tökülməsinin dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi üçün Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş etmişdir.

**İyul –** Tərtər rayonunun Şəhriyar qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

**İyul –** Cəbrayıl rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**İyul –** Ağdam rayonunun Şaybalı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 7 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**İyul –** Tərtər rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**İyul –** Füzuli rayonunun Qoçəhmədli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**13 avqust –** Tovuz rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

**18 avqust** – Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubunda 822 və 853 saylı qətnamələrin qəbul edilməsindən kifayət qədər vaxt keçməsinə baxmayaraq, təcavüzkar Ermənistanın Azərbaycan ərazilərinə hücumunu genişləndirərək bütün beynəlxalq hüquq normalarına məhəl qoymadığını bir daha diqqətə çatdırmışdır. Bu səbəbdən Azərbaycan rəhbəri kimi Heydər Əliyev təcavüzkarın qarşısının alınması, qan tökülməsinin dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi üçün Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş etmişdir.

**23 avqust –** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 1386 km² sahəsi, 95,9 min nəfər əhalisi, 1 şəhər, 1 qəsəbə, 1 şəhər tipli qəsəbə və 71 kəndi olan Azərbaycanın Füzuli rayonu işğal edildi. Rayonun son kəndi 26 oktyabr 1993-cü ildə (bütün rayon üzrə təxminən 7 ay güclü döyüşlər getdikdən sonra) işğal olunmuşdur.

1994-cü ilin yanvar ayında Horadiz qəsəbəsi, eləcə də 22 kənd işğaldan azad edilmiş və hazırda Azərbaycanın nəzarətindədir. Azad olunan ərazilər minalardan təmizlənərək yeni qəsəbələr salınmışdır ki, burada 67700 nəfər yerli, 60000 nəfər isə məcburi köçkün məskunlaşmışdır. Hazırda Füzuli şəhəri və 81 kəndin 58-i Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

**23 avqust –** Ermənistan silahlı qüvvələri 1050 km² sahəsi, 52,6 min nəfər əhalisi, 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət olan Azərbaycanın Cəbrayıl rayonunu bütünlüklə işğal etdilər.

**25 avqust –** Cəbrayıl rayonunun Minbaşlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 50 nəfər itkin düşmüşdür.

**28 avqust** – Bütün Azərbaycan-Ermənistan sərhədi boyu atəşin dayandırılması haqqında Rusiyanın təklifi Ermənistan tərəfindən qəbul edilmədi.

**30 avqust –** Hadrut rayonu ərazisində ermənilər tərəfindən "ZİL" markalı maşının partladılması nəticəsində maşında olan Hoğa (indiki Üçbulaq) kəndinin mülki sakinləri 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra PAZ-66 markalı sərnişin avtobusu da Hoğa kəndindən çıxarkən ermənilər tərəfindən qumbaraatanla vurulmuş və nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır yaralanmışlar.

**31 avqust –** Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**31 avqust –** Ermənistan silahlı qüvvələri 802 $km^2$ sahəsi, 30,3 min nəfər əhalisi, 1 şəhər və 93 kənddən ibarət olan Azərbaycanın Qubadlı rayonunu bütünlüklə işğal etdilər.

**23 sentyabr –** Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidlə görüşdə BMT ilə əməkdaşlıqdan, onun Bakıdakı fəaliyyətindən razılıq ifadə etməklə yanaşı, ATƏM-in missiyasına münasibətini də bildirmişdir: "Biz bu təşkilatdan çox şey gözləyirik. Amma son vaxtlar bəzi dövlətlər bu təşkilatın fəaliyyətinin sıxışdırılmasını istəyirlər. Biz bununla qətiyyən razı deyilik, çünki ATƏM-ə BMT-nin bir hissəsi kimi baxırıq və istəyirik ki, bu təşkilatlar öz fəaliyyətlərinin əməli nəticələrini əldə etsinlər".

**Sentyabr –** Qazax rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**23 oktyabr** – Ermənistan Respublikasının silahlı qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq Azərbaycan Respublikasının cənub-qərb rayonlarına güclü hücuma keçdi. Ermənistan ordusunun bu hücumda başlıca məqsədi Azərbaycan Respublikasının Zəngilan rayonunu ələ keçirmək, bununla da Azərbaycanın cənub-şərq hissəsinin tamamilə işğal olunmasını başa çatdırmaq idi. Bu məqsədi həyata keçirmək üçün Zəngilan rayonuna hücumdan bir neçə gün əvvəl Ermənistan ordusu Azərbaycanın cənubunda mühüm kommunikasiya qovşağı olan Horadiz qəsəbəsini tutmaqla Horadiz-Zəngilan sahəsində avtomobil və dəmir yollarını kəsmişdi.

Beləliklə, Azərbaycanın 30 min nəfərdən artıq əhalisi olan Zəngilan rayonu mühasirəyə düşmüş və onun Azərbaycanın digər rayonları ilə əlaqəsi kəsilmişdi. Zəngilan rayonuna hücum zamanı Ermənistan silahlı qüvvələrinin

ön hissələri Azərbaycanın İranla dövlət sərhəddinə bilavasitə yaxınlaşmış və sərhədin 70 kilometr uzunluğunda məsafəsini nəzarət altına almışdı. Nəticədə, Azərbaycanın onlarca yaşayış məntəqəsi Ermənistan Respublikasının qoşunları tərəfindən işğal olundu.

**25 oktyabr –** Qazax rayonunun Fərəhli kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**25 oktyabr –** Ağstafa rayonunun Dağ Kəsəmənli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**29 oktyabr –** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 707 km² sahəsi, 32,6 min nəfər əhalisi, 1 şəhər, 1 şəhər tipli qəsəbə və 81 kənddən ibarət olan Azərbaycanın Zəngilan rayonu bütünlüklə işğal edildi.

Nəticədə, Ermənistanın Azərbaycana qarşı açıq-aşkar müharibə apararaq BMT üzvü olan dövlətin ərazisinin ilhaqını davam etdirməsi nəticəsində ölkəmizin ərazisinin 20 %-dən çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı.

Ermənistan özünün minimum proqramını həyata keçirdikdən, yəni Dağlıq Qarabağ regionunun bütün ərazisini işğal etdikdən sonra onun sərhədləri boyunca "bufer zonası" yaratmağa başladı. Bu zona işğal edilmiş Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan rayonlarını əhatə edir. Təcavüzün gedişində Azərbaycanın Ermənistanla həmsərhəd rayonlarının, demək olar ki, hamısı iki istiqamətdə: zəbt edilmiş Dağlıq Qarabağ regionundan və bilavasitə Ermənistan Respublikası ərazisindən aparılan hücumlardan sonra işğal olunmuşdur. Nəticədə, Azərbaycanın Ermənistanla dövlət sərhəddinin 70 %-dən çoxu və İran İslam Respublikası ilə sərhəddinin 160 kilometri işğalçı dövlətin qoşunlarının nəzarəti altına düşdü.

**29 oktyabr** – Azərbaycan dövləti Ermənistanın təcavüzkarlığının genişlənməsi ilə əlaqədar olaraq BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı birbaşa təcavüz həyata keçirdiyinə cəlb etdi və təcavüzkara qarşı bütün lazımi tədbirləri görməyə çağırdı.

**Oktyabr –** Ağdam rayonunun Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

**Oktyabr –** Gədəbəy rayonunun Qaravəllər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**2 noyabr –** Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciətində Ermənistanın işğalçılıq siyasətinin nəticələri və ölkədə yaranmış ictimai-siyasi vəziyyət barədə məlumat vermişdir.

**10 dekabr –** Qazax rayonunun Quşçu Ayrım kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**19 dekabr** – Fransa Prezidenti F.Mitteranın dəvəti ilə Parisdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏM-in əsas sənədlərindən biri olan Yeni Avropa üçün Paris Xartiyasına Azərbaycan Respublikasının qoşulması barədə sənədi imzaladı. Bununla da. Azərbaycan Respublikası dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinə tərəfdar olduğunu bir daha təsdiq etdi.

**24 dekabr –** Tərtər rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**24 dekabr –** Ermənilər tərəfindən Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 28 nəfər yaralanmışdır.

**24 dekabr –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında bəyanatında Dağlıq Qarabağ bölgəsində yaşayan və elə bir qüvvəsi olmayan 100 mindən bir qədər çox erməninin 7 milyonluq əhalisi olan ölkəyə qarşı genişmiqyaslı hərbi əməliyyatlar apara və onun ərazisinin 20 faizini işğal edə bilməzliyini, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin 50 min azərbaycanlı əhalisinin hüquqlarını inkar etməyə cəhd göstərildiyini, etnik təmizləmə nəticəsində onların Şuşa, Xocalı, Xocavənd, Hadrut və Ağdərə rayonlarından tamamilə qovulduğunu bildirmişdir.

**25 dekabr –** Ağstafa rayonunun Dağ Kəsəmən kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

**25 dekabr –** Ermənilər tərəfindən Füzuli rayonuna silahlı hücum nəticəsində 49 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**25 dekabr –** Tərtər rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**25 dekabr –** Ermənilər tərəfindən Qazax rayonunun Məzəm kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**26 dekabr –** Füzuli rayonuna ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**27 dekabr –** Ermənilər tərəfindən Goranboy rayonunun Gülüstan kəndinə silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**27 dekabr –** Ağdam rayonunun Xaçınstroy kəndinə ermənilərin silahlı hücumu nəticəsində 14 nəfər qətlə yetirilmişdir.

**Dekabr –** Xocavənd rayonunun Ağburun yüksəkliyinə ermənilərin silahlı hücumu nəticəsində 9 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

**Dekabr –** Ağdam rayonunun Xaçınstroy kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**Dekabr –** Ermənilər tərəfindən Füzuli rayonuna silahlı hücum nəticəsində 2 nəfər həlak olmuşdur.

**Dekabr –** Beyləqan rayonu ərazisindəki hərbi hissəyə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**Dekabr –** Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**Dekabr –** Qazax rayonunun Canalı kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 5 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**1993-cü il ərzində –** Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km$^2$) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Azərbaycanın Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

**1988-1993-cü illərin yekunu –** Bu dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox insan (ümumi əhalinin 15 %-i) qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Azərbaycanın 20 %-dən çox ərazisi işğal edilmişdir. Etnik təmizləmə siyasəti həyata keçirilməklə Ermənistanda yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından zorla qovulmuşlar. Bu təcavüz nəticəsində həmin dövrdə 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfərdən çoxu yaralanmış, 50 min nəfərə qədər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Münaqişə dövründə 4853 nəfər itkin düşmüş, onlardan 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədirlər. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ölmüşdür.

**1988-1993-cü illərdə –** Eyni zamanda, bu dövrdə dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan tərəfindən Azərbaycan ərazilərində ümumilikdə, müxtəlif səpkili 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır. Ayrılıqda götürdükdə:

- sərnişin avtobuslarında törədilmiş terror aktları nəticəsində 68 nəfər həlak olmuş, 132 nəfər yaralanmışdır;
- sərnişin və yük qatarlarında törədilmiş terror aktları nəticəsində 74 nəfər həlak olmuş, 125 nəfər yaralanmışdır;
- Bakı metropolitenində törədilən terror aktları nəticəsində 27 nəfər həlak olmuş, 91 nəfər yaralanmışdır;
- hava nəqliyyatında törədilmiş terror aktları nəticəsində 104 nəfər həlak olmuşdur;
- yaşayış məntəqələrində və mülki obyektlərdə törədilmiş terror aktları nəticəsində 881 nəfər həlak olmuş, 1239 nəfər yaralanmışdır;
- mülki və dövlət obyektlərinə qarşı törədilmiş terror aktları nəticəsində 10 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır;
- sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min $km^2$ ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 150 min yaşayış binasının, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km avtomobil yolunun, 160 körpünün, 23 min km. su və 15 min km. elektrik xəttinin dağıdılmasına səbəb olmuşdur. Ermənilər işğal olunmuş ərazilərdə olan 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət etmiş və yandırmışlar. 44 məbəd və 9 məscid dağıdılmış, 927 kitabxanada 4,6 mln. kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir.

İşğal nəticəsində 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti – çox qiymətli əşyalar, nadir eksponatlar talan olunmuş və oğurlanmışdır.

Belə ki, Kəlbəcər tarix diyarşunaslıq muzeyi yerlə-yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-

mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Hazırda Ermənistan Respublikası “Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında” Haaqa Konvensiyasının və “Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında” Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Sonadək dəqiqləşdirilməmiş məlumata görə, həmin dövrdə mənəvi-psixoloji zərbələrdən əlavə Azərbaycan iqtisadiyyatına təxminən 320 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

## 1994

**1 fevral –** Bakı Dəmir yolu vağzalında Kislovodsk-Bakı sərnişin qatarında ermənilər tərəfindən terror aktı törədilməsi nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**1 mart –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımı qurbanlarının ailələrinə müraciətində bildirmişdir: “26 fevral 1992-ci ildə Xocalı şəhərində dünya, misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə-yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir”.

**18 mart –** Xankəndi üzərində Moskvadan uçan İran hərbi hava qüvvələrinə məxsus “Herkules” təyyarəsinin ermənilər tərəfindən vurulması nəticəsində 34 nəfər İran diplomatı və onların ailə üzvləri həlak olmuşdur.

**19 mart –** Bakı metropoliteninin “20 Yanvar” stansiyasında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. İstintaq zamanı məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı “Sadval” ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir.

Müəyyən olunmuşdur ki, “Sadval” separatçı təşkilatının həmin fəalları

1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında milliyyətcə ləzgi olan 30 nəfər Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq “20 Yanvar” stansiyası ilə yanaşı Bakının “Nizami” kinoteatrında, Respublika Sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar. “20 Yanvar” metro stansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

**13 aprel –** Moskva-Bakı sərnişin qatarının Dağıstan Respublikasının “Daqestanskiye Oqni” stansiyasının yaxınlığında ermənilər tərəfindən partladılması nəticəsində 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**12 may –** Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş qüvvəyə minmişdir.

**3 iyul –** Bakı metropoliteninin “28 May” – “Gənclik” stansiyaları arasında elektrik qatarında erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

**22 iyul –** Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşündə Fransa parlamentinin xarici işlər üzrə komissiyasının üzvü R.Blüm bölgəyə səfərinin məqsədinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yerində öyrənməkdən ibarət olduğunu bildirərək bu məsələnin həllində ATƏM-in rolunun başlıca olduğunu etiraf etsə də, qeyd etmişdi ki, bu təşkilat lazımi fəaliyyət göstərmir.

**29 sentyabr –** Ümummilli lider Heydər Əliyev Azərbaycan Prezidenti kimi ilk dəfə BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır.

**13-14 dekabr –** Azərbaycanın üzv dövlət kimi ilk dəfə iştirak etdiyi Mərakeş Krallığının Kasablanka şəhərində İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının VII Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı, keçirdiyi görüşlər ölkəmizin bu təşkilat daxilində mövqeyini xeyli möhkəmləndirdi.

**1995**

**25 fevral** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində qeyd etmişdir ki, xaricdəki imperiyapərəst qüvvələrin dəstəyi ilə törədilən bu soyqırımı erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktı, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olmuşdur. Azərbaycan Prezidenti vurğulamışdır ki, günahsız dinc əhaliyə tutulmuş amansız divan, ağlasığmaz qəddarlıq erməni irticasının və onun xaricdəki havadarlarının iç üzünü beynəlxalq ictimaiyyət qarşısında bütünlüklə açıqladı.

**26 fevral** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar Təzəpir məscidində keçirilən mərasimdə demişdir: "...Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş veribdir. Azərbaycana qarşı Ermənistan qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımlar xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır...Xocalı hadisələri bir də onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir...Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. O gecə, o günlər həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır,

şəhiddirlər. Onların faciəli surətdə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir...”

**26 aprel –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycanın yəhudi icmasına müraciətində eyni zamanda Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq demişdir: “1988-ci ildən başlayaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı yeritdiyi soyqırımı siyasəti, günahsız əhalimizin kütləvi qırğınları, zəbt olunmuş torpaqlarımızda misli görünməyən talanlar, vəhşiliklər, nəhayət, bütün dünyanı sarsıdan Xocalı faciəsi xalqımızın qəlbində sağalmaz yara kimi göynəməkdədir...”

**22 oktyabr –** BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Assambleyasının xüsusi iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə, Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır.

**1996**

**24 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasətinin insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacağını və əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımının erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdiyini qeyd etmişdir.

**24 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar Prezident sarayında Xocalı sakinlərinin bir qrupu ilə görüşdə Xocalı soyqırımının Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımı olduğunu və bunun bizim tariximizdə belə də həkk olmasını qeyd edərək bildirmişdir: “Bu soyqırımının nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdənkənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, bütün xalqlara anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Zaman keçdikcə, əksinə, bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik,

hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz Vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir...Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı gələcək nəsillərimizin xatirindən yüz il bundan sonra da çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir..."

**25 aprel** – Lüksemburqda Cənubi Qafqaz respublikalarının Avropa İttifaqı ilə "Əməkdaşlıq və Tərəfdaşlıq haqqında Saziş"i imzalamasından sonra Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatla çıxış etdilər.

## 1997

**25 fevral** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının beşinci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...1992-ci il fevral ayının 26-da Ermənistan silahlı birləşmələri imperiyapərəst qüvvələrin bilavasitə iştirakı və havadarlığı ilə Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş Xocalı soyqırımını törətdilər. Xocalı şəhərinin minlərlə əliyalın mülki əhalisi müasir hərbi texnika ilə silahlanmış düşmənin qəfil və amansız hücumuna məruz qaldı. Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edildi, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetirildilər, girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldular...Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır..."

**3 may** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikasının yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımının ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babiy Yarda, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durduğunu bildirmişdir.

**27 iyul – 7 avqust** – Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyevin Birləşmiş Ştatlara ilk rəsmi səfəri zamanı iki dövlət rəsmiləri arasında keçirilən görüşlərdə də Ermənistan-Azərbaycan münaqişəsi daha çox müzakirə obyektinə çevrilən məsələlərdən idi. Səfər zamanı Azərbaycan dövlətinin başçısı Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq, məhz təcavüzə məruz qalan tərəfin – Azərbaycanın ABŞ Konqresi tərəfindən ədalətsiz olaraq 907-ci düzəliş ilə dövlət səviyyəsində humanitar yardım göstərilməsinə qadağa qoyulması faktlarını xüsusi olaraq qeyd etmiş və 907-ci düzəlişi iki dövlət arasında münasibətlərin inkişafında ciddi maneə kimi qiymətləndirmişdir.

**8 oktyabr –** Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin “mərhələli” tənzimlənməsinə dair təkliflərinə cavab verdilər.

**10 oktyabr –** Strasburqda Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin “mərhələli həll” planını dəstəkləyən birgə bəyannaməsi imzalandı.

**5 noyabr –** Ermənistan Prezidenti L.Ter-Petrosyanın “Nezavisimaya qazeta”da “Müharibə, yoxsa sülh? düşünmək zamanı” adlı məqaləsi çap edildi. Məqalədə aşağıdakı tezislər erməni ictimaiyyətinin diqqətinə çatdırıldı:

1. Münaqişənin nizama salınmayacağı təqdirdə Ermənistan Respublikası və Dağlıq Qarabağ bir il ərzində nəzərə çarpacaq dərəcədə zəifləyəcək;

2. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ ətrafında yaranan vəziyyətlə həmişəlik barışmayacaq, çünki bu vəziyyət təhlükəsizliyə və regional əməkdaşlığa, habelə Qərbin neft maraqlarına təhlükə törədir;

3. Bizim meydan oxuduğumuz beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın müstəqilliyinin əleyhinədir;

4. Əvvəlcə paket, sonra mərhələli həll təkliflərini rədd etməklə, indi isə yenidən paket həllə qayıtmağı təklif etməklə Dağlıq Qarabağ tərəfi həm özünü, həm də Ermənistanı namünasib vəziyyətdə qoymuşdur;

5. Amerika Konqresindəki lobbiçilik hərəkatının öz sərhədləri vardır və həmin hərəkat ABŞ-ın milli maraqlarına toxunan yerdə dayandırılır;

6. Bu gün əsas məsələ dayanmış danışıqları bərpa etməkdir. Bunun üçün də gələcək danışıqlar üçün əsas olan sənədin layihəsini razılaşdırmaq lazımdır.

Həmin ərəfədə Rusiyanın kütləvi informasiya vasitələrinin müxbirlərinə verdiyi müsahibədə isə Ermənistan Prezidenti özünün iki əsas tezisini irəli sürmüşdü:

1. Əgər Qarabağ böhranı aradan qaldırılmazsa, yalnız Dağlıq Qarabağın deyil, Ermənistan Respublikasının da strateji və iqtisadi vəziyyəti yaxşılaşdırıla bilməz. Ermənistanın xarici aləmlə əlaqələri məsələsi həll edilmədən erməni millətinin və erməni dövlətinin inkişafı mümkün deyil.

2. Azərbaycanın ərazi bütövlüyünün de-yure qorunub saxlanması ilə bir sırada Dağlıq Qarabağın faktiki müstəqilliyinin təmin edilməsinin Azərbaycan tərəfindən həyata keçirilməsi başqa münaqişələrin də həlli üçün yeni imkanlar açacaqdır.

Bu məqalə Ermənistan Prezidentinin sentyabrın 26-da keçirdiyi və münaqişənin həllinə dair yeni yanaşmanın mümkünlüyü barədə irəli sürdüyü fikirlərin ictimaiyyətə çatdırılması və problemin mürəkkəbliyini, eləcə də Ermənistanın gələcəkdə qarşılaşacağı çətinlikləri izah etmək üçün atdığı ilk cəhd idi ki, bu da az sonra onun hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi.

**8-11 dekabr –** Azərbaycan Prezidenti Heydər Əliyev İKT ölkələrinin dövlət və hökumət başçılarının İran İslam Respublikasının Tehran şəhərində keçirilən VIII Zirvə konfransında nitqində İKT-nin müsəlman dünyasında və beynəlxalq aləmdə apardığı işlərə böyük əhəmiyyət verərək üzv dövlətləri fəal əməkdaşlıq etməyə, müsəlman ölkələrində davam edən münaqişələrin sülh yolu ilə həllində, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında, eləcə də sabit inkişafa nail olunmasında əməkdaşlığın daha da artırılmasının zəruriliyini qeyd etmişdir. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı İKT rəhbərliyinə və üzv dövlətlərin başçılarına təşkilatın yüksək səviyyəli toplantılarında Ermənistanın təcavüzkar siyasətini pisləyərək ədalətli qərarlar qəbul etdiklərinə görə təşəkkürünü bildirmişdir.

Ümummilli lider Heydər Əliyevin apardığı səmərəli danışıqlar və məqsədyönlü fəaliyyəti nəticəsində İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII Konfransının qəbul etdiyi qətnamənin adı 1997-ci ildə Tehranda keçirilən VIII Konfransda dəyişdirilərək, "Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırıldı.

**18 dekabr –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzaladı.

Fərman Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**1998**

**23 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının altıncı ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımının ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə tayı-bərabəri olmayan vəhşilik aktı, insanlığa qarşı tarixi bir cinayət olduğunu bildirmişdir. Azərbaycan Prezidenti nahaq qanın yerdə qalmadığını, eləcə də Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağını və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağının labüd olduğunu qeyd etmişdir.

**26 mart –** Ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

**28 aprel –** Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan və Ermənistan prezidentləri birgə bəyannamə imzaladılar. Sənəddə tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə siyasi vasitələrlə ATƏT-in Minsk qrupu çərçivəsində aradan qaldırılmasına sadiq olduqlarını təsdiq etdilər.

**7 iyun –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə günü münasibətilə çıxışında bildirmişdir: "... Ermənistan-Azərbaycan münaqişəsinin başlanması, Ermənistanın Azərbaycana təcavüz etməsi ilə əlaqədar döyüşlər gedibdir, insanlarımız həlak olubdur, şəhid olubdur, qurbanlar vermişik. Təəssüf ki, hələ böyüməmiş, dünyanı görə bilməmiş uşaqlar da həlak olublar, bu faciənin qurbanları olublar. Uşaqlar 1990-cı il 20 yanvar faciəsinin də qurbanları olublar. Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilmiş Xocalı soyqırımında da uşaqlar həlak olublar, uşaqlar qurban gediblər. Bunlar hamısı bizi kədərləndirir, cəmiyyətimizin, həyatımızın yaralı yerləridir və bütün bu döyüşlər, münaqişə, Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində əhalimizin böyük bir qismi yerindən-yurdundan didərgin düşmüşdür, onların əksəriyyəti çadırlarda

yaşayır və bizim körpələr, uşaqlar, balalarımız artıq bir neçə ildir ki, çadırlarda yaşamaq məcburiyyətindədirlər. Onlar çadırda yaşayırlar, çadırda böyüyürlər, çadırda təhsil alırlar. Bizim həyatımızın bu cür narahatedici, sıxıntılı cəhətləri də vardır...”

**1999**

**8 fevral –** Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Fransa, Rusiya) başcılarına eyni məzmunlu məktubla müraciət etdi. Azərbaycanın dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş görülən işləri ətraflı təhlil edərək problemin hələ də həll olunmaması ilə əlaqədar narahatlığını bildirdi. Minsk qrupu həmsədrlərinin sonuncu təklifini ciddi surətdə tənqid edən Prezident Heydər Əliyev “ümumi dövlət” konsepsiyasının ATƏT prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə həll olunması üçün səylərini ciddi sürətdə artırmağa çağırdı.

**26 fevral –** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev Xocalının düşməndən müdafiəsində iştirak etmiş, şəhid olmuş milli qəhrəmanların, döyüşçülərin valideynlərinə, ailə üzvlərinə və fərqlənənlərə “Qızıl Ulduz” medalları, “Azərbaycan Bayrağı” ordenlərinin təqdim edilmə mərasimində nitqində qeyd etmişdir: “XX əsrdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə təcavüz edilibdir, soyqırımı törədilibdir. Onlardan ən dəhşətlisi Xocalı faciəsi, soyqırımıdır... O müdhiş fevral gecəsi Ermənistan silahlı qüvvələri Sovet İttifaqı ordusunun 366-cı alayının köməyi və iştirakı ilə Azərbaycanın gözəl bir diyarı olan Xocalının sakinlərinə qarşı dəhşətli soyqırımı etmişlər. Böyük, misli görünməmiş vəhşiliklə həyata keçirilən bu soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir. Dinc, silahsız xocalılılara bir gecənin içində böyük zərbələr vurulmuşdur. Soyqırımı nəticəsində yüzlərlə xocalılı qadın, kişi, yaşlı, gənc, körpə, uşaq həlak olmuşdur. Yüzlərlə xocalılı yaralanmış, xəsarət almış, şikəst olmuşdur. Yüzlərlə insan əsir düşmüşdür... Bu ifadə Azərbaycan xalqına qarşı Ermənistan-Azərbaycan müharibəsi dövründə vurulmuş ən ağır zərbədir. Xocalılılar bu faciəni mərdliklə, qəhrəmanlıqla qarşılamışlar.

Öz evini, şəhərini, ailəsini qəhrəmancasına müdafiə edənlər həlak olmuşlar, şəhid olmuşlar. Vəhşi ermənilər tərəfindən açılan atəşlərin nəticəsində Xocalı ərazisi qana bulanmışdır...Bu faciə bütün Azərbaycan xalqını sarsıtmış, xocalılılara ağır bir mənəvi zərbə olmuşdur. Ancaq xocalılıların iradəsi sınmamış, insanlar qəhrəmanlıqla, mərdliklə şəhid olmuşlar. Xocalılılar bu ağır faciəni mərdliklə yaşamışlar...Xocalı faciəsi təkcə xocalılıların yox, bütün Azərbaycan xalqının dərdi, qəmidir. Ona görə də bu gün bütün ölkəmizdə kədər günü, hüzn günüdür, matəm günüdür. Mən bütün həlak olanlara bir daha Allahdan rəhmət diləyir və xocalılılara, bütün Azərbaycan xalqına başsağlığı verirəm. Çünki həlak olmuş hər bir soydaşımız öz ailəsi ilə bərabər Azərbaycanın övladıdır və bu, Azərbaycan xalqının matəmidir...”

**2 aprel** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moskvada MDB üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının iclasında Respublikanın suverenliyinə, ərazi bütövlüyünə, regionda sülhə və sabitliyə təhlükə törədən problem haqqında bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi ki, “Rusiya silahının və hərbi texnikasının Ermənistana göndərilməsi, onun ərazisində hərbi bazaların yerləşdirilməsi bütün beynəlxalq hüquq prinsiplərinin pozulması ilə yanaşı 1992-ci il may ayının 15-də Daşkənddə imzalanan MDB ölkələrinin kollektiv təhlükəsizliyi haqqında müqavilənin müddəalarının kobud şəkildə pozulması deməkdir”.

**Sentyabr** – Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in fəaliyyətdə olan sədri K.Vollebek ilə görüşdə Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlara yol verdiyini vurğulamış və onun fəaliyyətsizliyini ciddi tənqid edərək demişdi: “Belə nəticə çıxarmaq olar ki, Minsk qrupu bu məsələyə birtərəfli baxır, Azərbaycana qeyri-obyektiv münasibət göstərir. O, bizim razılaşdığımız təklifi Ermənistan qəbul etməyəndə bunu normal hesab edir, amma bizim razı olmadığımız təklifi Ermənistan qəbul edəndə bunu bizim üçün qeyri-normal hesab edir... İndi bir ildir ki, bizi qınayırlar ki, nə üçün biz bu “ümumi dövlət” formulunu qəbul etmirik və Minsk qrupu yeni bir təklif vermir”.

**11 oktyabr** – Azərbaycan-Ermənistan sərhədində – Sədərəkdə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirildi. Vyanada ATƏT-in Minsk qrupunun iştirakı ilə təşkilata üzv olan dövlətlərin ərazisindəki münaqişəli vəziyyətlə bağlı Daimi Şuranın genişlənmiş iclası keçirildi.

**2000**

**29 mart** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətində 1992-ci ilin fevralında keçmiş sovet qoşunlarının yaxından köməyi ilə erməni hərbi birləşmələri tərəfindən müasir tarixdə analoqu olmayan müdhiş faciə törədildiyini, Azərbaycan şəhəri Xocalının minlərlə müdafiəçisi və dinc sakininin öldürüldüyünü, əsir alındığını, şəhərin yerlə yeksan edildiyini bildirərək qeyd etmişdir ki, bu misilsiz vandalizm və soyqırımı aktlarında məqsəd xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq olmuşdur.

**2 iyul** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini (ABŞ, Fransa və Rusiya) qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.

**4 iyul** – Avstriyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanın Xarici işlər naziri xanım Benita Ferrero-Valdnerlə keçirdiyi görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

**6-8 sentyabr** – Nyu-Yorkda BMT Baş Məclisinin 55-ci yubiley sessiyası çərçivəsində keçirilmiş və "Minilliyin zirvə görüşü" adı ilə tarixə düşmüş sammitdə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

**2001**

**17 yanvar** – Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi.

Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artması, dünya birliyinə inteqrasiya olunması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu.

Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Prezidenti Heydər Əliyev Avropa ölkələrinin parlament nümayəndələrinə müraciətində onları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini qətiyyətlə birləşdirməyə çağırdı. Dövlət başçısı qeyd etdi ki, bu münaqişəni həll etmədən, eləcə də digər münaqişələrə son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir.

**25 yanvar –** Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Starsburqda ölkəmizin Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilmiş və Azərbaycanın üçrəngli bayrağı ucaldılmışdır. Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək demişdi: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

Azərbaycanın Avropa Şurasının bərabərhüquqlu üzvü olması – respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Dövlət başçısı Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra onun AŞPA-dakı fəaliyyəti ümummilli liderin qarşıya qoyduğu vəzifələri reallaşdırdı.

**21 fevral –** Azərbaycanda rəsmi dövri mətbuatda ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə tərəflərinə 1997-ci il iyul və dekabr, 1998-ci il noyabr ayında təqdim olunmuş üç təklifi çap olundu. Azərbaycanın ardınca hər üç layihə Ermənistanda da ictimaiyyətə açıqlandı.

**23 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Məclisin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, bu münaqişənin aradan qaldırılması üçün görülmüş işlər, aparılmış danışıqlar, ATƏT-in Minsk qrupunun fəaliyyəti və digər məsələlər barəsində geniş nitq söyləmişdir.

**24 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Məclisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün keçirilən iki günlük geniş müzakirələrdən sonra yekun nitq söyləmişdir.

**24 fevral –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...1992-ci il fevralın 26-da ən müasir silahlar və texnika ilə təchiz olunmuş Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə yeksan etdilər, yüzlərlə günahsız mülki əhaliyə – qadınlara, qocalara, uşaqlara amansızcasına divan tutdular. Xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi. Əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aksiyaları törədilmişdir. Amma Xocalı soyqırımı bunların ən dəhşətlisi olmuşdur... Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimizin vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməkdir".

**Fevral –** "Geqaron" terror qrupu ASALA tərəfindən yaradılmışdır. Məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və iş adamlarına qarşı terror aktlarının həyata keçirilməsidir.

**24-27 aprel –** Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyətinin ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdiyi plenar sessiyada Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən sənədlər: 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar" adlı sənəd AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, eyni zamanda, işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil

olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər öz əksini tapmışdır.

**25-29 iyun –** AŞPA-nın növbəti plenar sessiyası zamanı Azərbaycanla bağlı daha 2 mühüm sənəd AŞ PA-nın rəsmi sənədləri kimi yayılmışdır. “Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) ekoloji vəziyyət” və “Azərbaycanın mədəni irsinin qəsb olunması və dağılması” adlı iki sənəddə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

**15 sentyabr –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sədri Lord R.Consonla görüşdə demişdir: “1988-ci ildən indiyə qədər Ermənistan-Azərbaycan münasibətlərində baş vermiş hadisələr – insanların qətlə yetirilməsi, Xocalı faciəsi, yaxud işğal olunmuş torpaqlarda kütləvi formada aparılan etnik təmizləmə, yenə də deyirəm, bunun nəticəsində insanların qətlə yetirilməsi, bunların özü də terrorun bir formasıdır”.

**24-28 sentyabr –** AŞPA-nın plenar sessiyasında Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi” adlı digər sənəd yayılmışdır. Qəbul edilən sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll olunmasının zəruriliyi qeyd edilirdi.

Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev ilk dəfə bu qurumun kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərin terrorizm və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etmişdir. Avropa Şurasının sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanınmış, işğalçı qoşunların dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edilmişdir. Söylənilən bu faktlar AŞPA-nın sənədlərində öz əksini tapmışdır.

**25 oktyabr –** Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Perinanı (ABŞ), F.Sürmeni (Fransa), Rusiyanın Xarici işlər nazirinin birinci müavini V.Trubnikovu və onları müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

## 2002

**23 yanvar** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev uzun illər ABŞ-da bir sıra mühüm vəzifələrdə çalışmış, 1992-1993-cü illərdə ATƏT-in Minsk qrupunda Birləşmiş Ştatların nümayəndəsi olmuş, Praqada açıq KİV üzrə tədqiqat institutunun rəhbəri və keçmiş sovet respublikalarına həsr olunmuş "Keçid" jurnalının baş redaktoru Con Mareska ilə söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini problemin elə ilkin mərhələsində həll etməyin mümkünlüyünü xatırlatmışdır.

**25 fevral** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşaiyət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir... Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycanı sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılılar hətta amansız soyqırımı günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar... Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı

aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir..."

**8 aprel** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq son on dörd ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən deportasiya və soyqırımı siyasəti, misli görünməmiş Xocalı müsibətinin XX əsrdə dünyanın ən böyük milli fəlakətlərindən biri olduğunu bildirmişdir.

**12-15 may** – Praqada Azərbaycan və Ermənistan Xarici işlər nazirləri müavinlərinin "Praqa prosesi" çərçivəsində ilk görüşü keçirilmişdir.

**13-15 may** – Praqa şəhəri yaxınlığında, Ştirin ərazisində Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin görüşü keçirilmişdir.

**14 avqust** – Azərbaycan-Ermənistan sərhədində – Sədərəkdə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirilmişdir.

**26 sentyabr** – Azərbaycan Parlamentinin Avropa Şurası Partlament Assambleyasında nümayəndə heyətinin rəhbəri, millət vəkili İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı.

**28 sentyabr** – Azərbaycan Prezidenti Heydər Əliyev Bakıya səfər etmiş Minsk qrupunun həmsədrləri R.Perina (ABŞ), Q.Perren (Fransa) və N.Qribkov (Rusiya) ilə görüşmüşdür. Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun ATƏT çərçivəsində aparılan səylərinin zəif olduğunu bir daha vurğulamış, həmsədrlərin kifayət qədər fəal olmadıqlarını bildirərək qeyd etmişdir ki, Azərbaycan öz torpaqlarını azad etmək üçün bütün səylərdən istifadə etməyə hazırdır.

**2003**

**25 fevral** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində

bildirmişdir: "...Xocalı faciəsi iki yüz ildən çox müddətdə davakar erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi incəliklə yeridilən bu mənfur siyasət və düşmənçilik heç zaman dayanmamış, gah açıq qarşıdurma və qanlı toqquşmalar şəklini almış, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir... 15 il əvvəl təcavüzkar erməni şovinistlərinin irəli sürdükləri ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarına və tam miqyaslı amansız müharibəyə səbəb oldu. Nəticədə, on minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Lakin 1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı sovet alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır... Xocalı soyqırımını törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi. Lakin düşmən öz məkrli niyyətlərinə çata bilmədi. Xocalı müdafiəçiləri təpədən dırnağa qədər müasir silahlarla təchiz olunmuş düşmən qarşısında özünü itirmədi, əyilmədi, qəhrəmanlıq və rəşadət nümunələri göstərdi. Onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq, əsl fədakarlıq və vətənpərvərlik nümayiş etdirdilər..."

**26 fevral** – Azərbaycanda Xocalı soyqırımı şəhidlərinin xatirəsinə ucaldılmış "Vətən harayı" abidəsi önündə və dünyanın 100-dən çox ölkəsində Xocalı qurbanlarının xatirəsi anılmışdır.

**27 mart** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinin XX əsrin sonunda da davam etdiyini bildirərək demişdir: "...1992-ci ilin fevralında törədilmiş Xocalı faciəsi isə insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və amansızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır.

Davakar erməni millətçilərinin və onların ideoloqlarının xalqımıza qarşı cinayətlərinin tam olmayan siyahısı belədir: Yüzillər boyu davam edən bu şovinist və davakar siyasət nəticəsində əzəli Azərbaycan torpaqları təcavüzkar qonşular tərəfindən qəsb olunmuş, on minlərlə soydaşımız vəhşicəsinə öldürülmüş, minlərlə maddi və mənəvi mədəniyyət abidələri vandallıqla dağıdılmışdır. Keçən dövrdə mütəmadi olaraq erməni xalqının geniş dairələri azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə olunmuş, kütlənin şüurunda "türk-azərbaycanlı" düşmən obrazı yaradılmış, bu məqsədə xidmət edən "mədəni-milli cəmiyyətlər", terrorçu təşkilatlar şəbəkəsi qurulmuşdur..."

**27 aprel –** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın yəhudi icmasına məktubunda Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq demişdir: "...Azərbaycan xalqı da öz tarixi boyu dəfələrlə belə milli müsibətlərlə üzləşməli olmuşdur. Xüsusən 1988-ci ildən başlayan növbəti erməni hərbi təcavüzü nəticəsində xalqımızın məruz qaldığı soyqırımı və deportasiya, kütləvi qətl və qırğınlar, zəbt olunmuş torpaqlarımızda dəhşətli erməni vandalizmi, nəhayət Xocalı müsibəti kimi ağır cinayətlər dünyanın gözü qarşısında baş vermiş, lakin, təəssüf ki, hələ də beynəlxalq birlik tərəfindən hüquqi-siyasi qiymətini almamışdır..."

**24 sentyabr –** BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycanın Baş naziri İlham Əliyev qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurasında həm bugünkü, həm də yarıməsirlik reallıqlar öz əksini tapmalıdır.

**1993-2003-cü illər ərzində** – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu illərdə münaqişənin sülh yolu ilə həll edilməsi üçün Azərbaycan Prezidenti Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan

prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər ümummilli liderin apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Bu dövrdə Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 150-yə qədər görüş keçirmişdir. Ümummilli liderin Azərbaycan Prezidenti kimi bu illərdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə ATƏT-in, NATO-nun, Avropa Şurasının, İslam Kofransı Təşkilatının, MDB-nin, GUAM-ın, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələləri müzakirə edilmiş, Ermənistanın Azərbaycana hərbi təcavüzü və işğalçılıq siyasəti haqqında geniş məlumat verilmişdir.

## 2004

**4 fevral –** ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Q.Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev qeyd etdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir.

**24 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdir: ”...1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlarından birini yaşadı. Həmin gün qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən yer üzündən silindi. Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur...Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi...Xocalı faciəsi öz

qəddarlığına, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə bəşəriyyətə qarşı ağır cinayətlər sırasına daxil olmuşdur...”

**25 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Siyasi işlər komitəsinin üzvü, bu qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi T.Devisi qəbul etmişdir. Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın hərbi təcavüzü faktlarını bir daha vurğulayaraq Avropa Şurasının bu məsələyə siyasi qiymət verməsinin vacibliyini bildirmişdir.

**17 mart –** Azərbaycan Prezidenti İlham Əliyev Bratislavada “Daha geniş Avropaya doğru: yeni gündəlik” mövzusunda keçirilən beynəlxalq konfransda Ermənistanın işğalçılıq siyasətinin bütünlüklə Avropada, xüsusilə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə ciddi maneə olduğunu vurğulayaraq təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizdən çoxunun işğal olunduğunu, nəticədə bir milyondan artıq insanın acınacaqlı vəziyyətdə yaşadığını bildirməklə ölkəmizin prinsipial mövqeyini bəyan etmişdir.

**22 mart –** Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması prosesində fəallığının artdığını və bu problemin həllinə böyük diqqət göstərdiyini və münaqişənin həlli ilə gələcəkdə də daha yaxından məşğul olacağına ümid etdiyini Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi H.Talvitiyenin Azərbaycana növbəti səfəri zamanı onun nəzərinə çatdırdı.

**29 aprel –** AŞ PA-nın növbəti yaz sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük rezonansa səbəb oldu və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında geniş məlumat verən dövlət başçısı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirdi: “...Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara, köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şura-

sının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".

**26-27 iyun –** İstanbul zirvə görüşü çərçivəsində NATO-nun "Avroatlantika İttifaqı yol ayrıcında" mövzusunda keçirdiyi beynəlxalq konfransda Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların roluna toxunaraq qeyd etmişdir: "Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır".

**3-12 avqust –** Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələri tərəfindən hərbi təlimlər keçirilmişdir.

**24 sentyabr –** BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Təhlükəsizlik Şurasının problemin həllinə biganəliyini qeyd edərək beynəlxalq qurumun bir çox hallarda bu münaqişəyə qeyri-konstruktiv münasibətinin problemin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əksinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumilikdə bölgədə vəziyyətin daha da gərginləşməsinə zəmin yaratdığını diqqətə çatdırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını vacib məsələ kimi irəli sürmüşdür. Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir.

Belə ki, Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini bildirməklə yanaşı, Azərbaycanın Prezidenti İlham Əliyev qeyd etmişdir ki, təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir.

Eyni zamanda, dövlət başçısı Azərbaycan xalqının öz torpaqlarının

işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizlənmənin nəticələri ilə heç zaman barışmayacağını bildirmişdir.

**14 oktyabr** – "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı əlavə maddənin BMT Baş Məclisinin 59-cu iclasının gündəliyinə daxil edilməsi barədə Azərbaycan tərəfi müraciət etmişdir.

## 2005

**3 yanvar** – Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində artıq proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin "Praqa prosesi" əsasında həllində yeni mərhələlərin başlandığını bəyan etmişdir.

**28 yanvar** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğal olunmuş ərazilərdə məskunlaşdırma üzrə ATƏT-in Minsk qrupunun faktaraşdırıcı missiyası"nın üzvlərindən və onları müşaiyət edən şəxslərdən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev yeni faktaraşdırıcı missiyanın səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirmişdir. Azərbaycan Prezidenti hazırkı mərhələdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Xarici işlər nazirlərinin birbaşa cəlb olunduğu yeni danışıqlar formatının əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin dəyişməz qaldığını, bu mövqeyin yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə – ölkələrin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslandığını bir daha bəyan etmişdir.

**24 fevral** – Şuşa şəhəri ərazisində guya erməni izi tapmaq (daha doğrusu qoymaq) adı ilə arxeoloji qazıntı işləri aparmaq xəbərinə görə Dağlıq Qarabağın azərbaycanlı icması ATƏT-in Bakı ofisinin rəhbərinə etiraz müraciəti ünvanladı.

**16-17 may** – Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Varşavada keçirilən III Zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında təşkilata üzv ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlərin görülməsinin vacibliyini bildirərək Ermənistanın hərbi təcavüzünün ağır nəticələrini beynəlxalq

ictimaiyyətin diqqətinə çatdırdı. Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu vurğulayan dövlət başçısı İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini bildirərək qeyd etdi ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltməklə problemin beynəlxalq hüquq norma və prinsiplərinə əsasən həllinə nail olunması üçün səlahiyyətli olan ATƏT-in Minsk qrupu, Avropa Şurası və Avropa İttifaqının bu cür vacib məsələyə daha böyük diqqət yetirmələrini nəzərə çatdırmışdır.

**2007**

**15 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş “Azərbaycan XXI əsrdə – inkişaf və perspektivlər” mövzusunda müzakirələr zamanı qeyd etmişdir ki, Dağlıq Qarabağ müstəqil ola, yaxud Ermənistana birləşə bilməz, Azərbaycanın əraziləri Ermənistanın işğalından azad edilməli və bizim qaçqınlarımız, məcburi köçkünlərimiz eyni zamanda, Dağlıq Qarabağdan olan, xüsusən də qədim Azərbaycan şəhəri Şuşadan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar. Bununla yanaşı, dövlət başçısı demişdir: “Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar calışırlar ki, bu iki prinsipi – ərazi bütovlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edibdir, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır. Eyni zamanda, beynəlxalq sülhyaratma əməliyyatları olmalıdır və biz buna razıyıq. Dağlıq Qarabağın gələcək statusu məsələsi iki tərəf arasında müzakirə olunacaq və Dağlıq Qarabağa dünyada mövcud olan, yaxud mövcud olmayan, biz bu haqda düşünməliyik, muxtariyyət statusu verilə bilər. Bizim

təklif etdiyimiz mövqe konstruktivdir və maksimumdur. Bu, ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir, onlar bu məsələ ilə məşğul olur və bu, regiona sülh gətirə bilər".

**15 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın "Deutsche Welle" teleradio kanalına müsahibəsində bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir, eləcə də Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət verilməklə həll olunmalıdır. Eyni zamanda, bunun yeni və ya fövqəladə bir şey olmadığını, belə halların dünyanın başqa bölgələrində də baş verdiyini, eləcə də bir çox ölkələrdə milli azlıqların yaşadığını, yalnız Ermənistanda milli azlıq yaşamadığını və monodövlət olduğunu bildirən dövlət başçısı demişdir: "Lakin bütün digər ölkələrdə milli azlıqlar var. Ancaq milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər yaşadıqları dünyanın bütün ölkələrində öz müqəddəratlarını təyin etməyə çalışsalar, nə baş verər?! Neçə yeni erməni dövləti yaranacaq?! Nə üçün onlar öz müqəddəratlarını Azərbaycanda təyin etməlidirlər?! Onların artıq Ermənistan dövləti var. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. İndi onlar bizim ərazimizdə, tarixi torpaqlarımızda başqa bir dövlət yaratmaq istəyirlər. Sabah onlar başqa ölkələrin ərazilərində də dövlət yaratmaq istəyəcəklər. Bu, qəbulolunmazdır"!

Bununla yanaşı, Azərbaycan Prezidenti ərazi bütövlüyü prinsipinin belə münaqişələr həll olunan zaman əsas prinsip kimi götürülməli olduğunu və əgər bu prinsip pozularsa, zəncirvari reaksiyanın baş verəcəyini bildirərək, müxtəlif ölkələrdə, Avropada, Asiyada, digər yerlərdə çoxlu milli azlıqlar yaşadığını diqqətə çatdırmaqla demişdir: "Əgər onlar hamısı müstəqil dövlət yaratmağa başlasalar, nə baş verəcək?! Bizim məlumatlara və beynəlxalq müşahidələrə əsasən hazırda Dağlıq Qarabağda 60 minə qədər insan yaşayır. Dünya xəritəsində 60 min əhalisi olan yeni xırda bir ölkənin peyda olunmasını kim istər?! Heç kəs bunu istəməz və Azərbaycan da buna razı olmayacaqdır. Ölkələrdə istənilən ərazi dəyişikliyi yalnız həmin ölkənin razılığı ilə ola bilər. Bizim halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyi ilə razılaşmasa, o, heç zaman müstəqil olmayacaqdır. Beynəlxalq birlik də heç zaman Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır". Buna görə də, beynəlxalq

münasibətlərin əsas prinsiplərinin qorunmalı olduğunu, əgər bu prinsip bir dəfə pozularsa, digər prinsiplərin pozulması üçün heç bir məhdudiyyət olmayacağını və bu halda beynəlxalq münasibətlərin bütün sisteminin zərər çəkəcəyini bildirən dövlət başçısı "Nə üçün BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrin həyata keçirilməməsi məsələsi bu qədər vacibdir?!" – deyə qeyd etmişdir: "Çünki bu, onu göstərir ki, mexanizm işləmir. Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi Ermənistan üçün məcburiyyət yaratmır və Ermənistan onlara məhəl qoymur. Deməli, sabah da heç kəs Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayacaqdır. BMT beynəlxalq mübahisələri və münasibətləri nizama salmaq üçün universal mexanizmdir. Əgər bu halda o işləmirsə, digər hallarda da işləməyəcək, bu isə fəlakətə gətirib çıxaracaqdır".

**19-26 fevral –** Heydər Əliyev Fondunun təşəbbüsü ilə Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün Türkiyənin İstanbul və daha 25 vilayətində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində anım mərasimləri keçirilmişdir.

**23 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "...1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi...Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi... Xocalı qırğınını törətməklə erməni millətçiləri hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin düşmənin niyyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi..."

**26 fevral –** Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq

aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Brüsseldə təşkil olunan “təcavüzün qurbanları” adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamı olmuşdur.

**29 mart –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinin mərhələlərlə davam etdiyini vurğulayaraq demişdir: “...1905-ci və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir...”

**18 may –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın “La Lettre Diplomatique” jurnalına müsahibəsində qeyd etmişdir ki, Ermənistan, bütün digər beynəlxalq təşkilatların mövqeyi kimi, Avropa İttifaqının da mövqeyinə məhəl qoymur və beynəlxalq hüququn bütün normaları və prinsiplərini pozur. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, işğalçı qüvvələrin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əhəmiyyət vermədiyini bildirən dövlət başçısı İlham Əliyev qeyd etmişdir ki, Ermənistan Dağlıq Qarabağ və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirmiş və bu siyasətin nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Bununla yanaşı, Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olduğunu, Azərbaycanın ərazi bütövlüyünün BMT və bütün beynəlxalq birlik tərəfindən tanındığını və buna görə də, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət statusu verilməklə həll edilməli olduğunu bildirən Azərbaycan Prezidenti demişdir:

“Bir çox ölkələrdə milli azlıqlar yaşayır. Lakin milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər dünyanın yaşadıqları bütün ölkələrində öz müqəddəratını təyin etməyə çalışsalar, nə baş verər? Neçə yeni erməni dövləti yarana bilər?! Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki, Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı heç bir güzəştə getməyəcəkdir”.

Eyni zamanda, beynəlxalq təşkilatların da münaqişənin həlli ilə bağlı daha fəal və qəti mövqe nümayiş etdirməli olduğunu bildirən dövlət başçısı demişdir: “Son genişlənmə prosesindən bəri Cənubi Qafqaz Avropanın qonşusuna çevrilmişdir. Zənnimcə, Avropa İttifaqı qonşuluğunda münaqişə ocaqlarının mövcudluğuna biganə qala bilməz. Belə ki, bu münaqişə ocaqları yalnız Cənubi Qafqaz regionu üçün deyil, bütünlükdə Avropa üçün, onun sabit iqtisadi inkişafı üçün təhlükə yaradır”.

**2008**

**14 fevral –** Berlində keçirilmiş “Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər” adlı elmi konfransda Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış “Xocalı – uşaqların gözü ilə” adlı sərgi nümayiş etdirilmiş, eləcə də erməni qəddarlığını əks etdirən kitablar paylanmışdır.

**26 fevral –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşaya rəsmi səfəri zamanı birgə mətbuat konfransında bəyanatında 1992-ci il fevralın 26-da Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparmasını, məhz o gün Azərbaycanın Xocalı şəhərinin Ermənistanın təcavüzünə məruz qaldığını və azərbaycanlılara qarşı soyqırımı törədildiyini, eləcə də o gecə 600-dən çox dinc insanın qətlə yetirildiyini, onlardan 63-nün uşaq, 106-nın isə qadın olduğunu vurğulayaraq bu hadisəni çox böyük cinayət kimi qiymətləndirmişdir.

**29 mart –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinin XX əsrin sonunda da davam etdiyini bildirməklə 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsini öz qəddarlığına və amansızlığına görə misli görünməmiş soyqırımı aktı, insanlığın tarixində qara ləkə kimi qalacağını bildirmişdir.

**8 may –** Şuşa şəhərinin işğalının ildönümündə İslam Konfransı

Təşkilatının Gənclər Forumunun (İKT GF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” kompaniyası təsis edilmişdir.

**2009**

**Fevral** – İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” beynəlxalq informasiya və təşviqat kompaniyasına start verilmişdir. Bu kompaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Faciənin mənəvi və siyasi-hüquqi səviyyədə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 30 ölkəsində uğurla həyata keçirilmişdir.

**20 aprel** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq son iyirmi ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, xalqımıza qarşı həyata keçirilmiş deportasiya və etnik təmizləmə siyasətinin, kütləvi qətl və terror aksiyalarının, nəhayət, Xocalıda azərbaycanlıların dəhşətli qətliamının zəmanəmizin acı gerçəkliyi olduğunu bildirmişdir.

**28-29 aprel** – Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfəri zamanı Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə “Azərbaycan: Avropa İttifaqı üçün getdikcə əhəmiyyəti artan tərəfdaş” mövzusunda keçirilən görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması əsas məsələlərdən biri kimi müzakirə mövzusuna çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev bu məsələnin həllində qətiyyətli mövqeyini növbəti dəfə bəyan edərək, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəyini, münaqişənin həlli yolunun məhz Ermənistanın işğal altında saxladığı torpaqları azad etməsinin vacibliyini və işğal siyasətinin sonunun olmadığını xüsusi vurğuladı.

**13 iyul** – Azərbaycan Prezidenti İlham Əliyev Londonda Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşü zamanı Ermənistan rəhbərinin Moskva bəyannaməsini tərəf kimi imzaladığını vurğulamaqla yanaşı,

danışıqların Ermənistanla Azərbaycan arasında aparıldığını və bunun beynəlxalq format olduğunu bildirərək qeyd etdi ki, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi bəyannaməni imzalamazdı. Bununla yanaşı dövlət başçısı bəyan etdi ki, "Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər".

**17 noyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda məcburi köçkünlər üçün tikilmiş yaşayış binaları kompleksinin açılış mərasimində çıxışında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd etdi ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, ancaq onlar icra olunmur və belə olan halda o qətnamələr mənasını itirir. Dünyada beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmasını bunun nəticəsi kimi qiymətləndirdi. Ona görə də ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini vurğuladı. Problemin sülh yolu ilə həll olunmasına ümidlərini itirməyən və bu səbəbdən münaqişənin nizama salınmasında dinc vasitələrə üstünlük verdiyini söyləyən Prezident İlham Əliyev qeyd etdi: "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq".

## 2010

**Fevral –** Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin ildönümü artıq dünyanın 100-dən çox nöqtəsində qeyd olunmuşdur. Soyqırımına həsr olunmuş silsilə tədbirlər Fondun hazırladığı təbliğat materialları əsasında həyata keçirilmişdir. Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəlik tərəfindən İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində uğurla davam etdirilmişdir.

**6 oktyabr –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərini, ATƏT-in Minsk qrupunun həmsədrləri

İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiklə görüşdə 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə olarkən oradakı dağıntılar barədə hazırladığı məruzənin əhəmiyyətini qeyd etmişdir.

**1-2 dekabr** – Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Astana sammitindəki son çıxışında bəyan etmişdir ki, Ermənistanın danışıqlar prosesindəki davranışı bu dövlətin sülh istəmədiyini, işğal edilmiş əraziləri azad etmək fikrində olmadığını və bacardığı qədər status-kvonu saxlayaraq danışıqlar prosesini müddətsiz etməyi arzuladığını göstərir. Eyni zamanda, dövlət başçısı İlham Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq həll olunmasına hazır olduğunu bir daha vurğulamışdır.

**2011**

**14 yanvar** – Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2010-cu ilin yekunlarına həsr olunmuş iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: “Ermənistan tərəfi, demək olar ki, danışıqları pozmaq istəyir. Danışıqlar masasında əvvəlcə razılaşdırılmış məsələlərə yenidən qayıtmaq istəyir, vaxtı uzatmaq istəyir. Bir sözlə, bizdə belə fikir yaranır ki, Ermənistan işğal olunmuş torpaqları azad etmək istəmir, çalışırlar nə qədər mümkündürsə, o torpaqları işğal altında saxlasınlar”.

Dövlət başçısı Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, eləcə də beynəlxalq birlik tərəfindən Azərbaycan torpağı kimi tanındığını bir daha bəyan edərək qeyd etmişdir ki, Azərbaycan dövləti heç vaxt imkan verməyəcək ki, ikinci erməni dövləti yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılsın. Bu məsələnin heç vaxt danışıqlar mövzusu olmadığını və heç vaxt olmayacağını bildirən Azərbaycan Prezidenti məsələnin həlli üçün Ermənistanın öz işğalçı qüvvələrini zəbt edilmiş torpaqlardan çıxarmasını və ondan sonra sülh yarana biləcəyini vurğulamışdır.

Dövlət başçısı bəyan etmişdir: “Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar, Dağlıq Qarabağda muxtariyyət şəraitində yaşamalıdırlar. Bütün sivil ölkələrdə olduğu kimi, orada da işlər bütün demokratik prinsiplər əsasında

təşkil edilməlidir. Bundan kənarda məsələnin heç bir başqa istiqamətdə həlli mümkün deyildir. Azərbaycan buna razılaşmayacaqdır".

**27 yanvar –** Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və İşçi qrupunun 2010-cu ildəki fəaliyyəti ilə bağlı hesabat yayılmışdır. Hesabatda bildirilir: "Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası Prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqların nəticəsində tərəflər qarşılıqlı olaraq 4 nəfərin meyidinin qaytarılmasını və 1 nəfər mülki şəxsin azad olunmasını həyata keçiriblər. Hazırda Azərbaycan Respublikasının ərazisində 6 Ermənistan hərbçisi, 5 nəfərdən ibarət bir erməni ailəsi və bir erməni mülki şəxs (cəmi 12 nəfər) saxlanılır. 2010-cu il dekabrın 1-nə olan məlumata görə, Dövlət Komissiyasında qeydiyyatdan 4048 nəfər itkin düşmüş, 1399 nəfər əsir və girovluqdan azad olunmuş şəxs kimi keçmişdir".

**4 fevral –** Ermənilər işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlər keçirmişlər. Təlimlərin keçmiş Ağdərə rayonunun işğal altında olan "3 saylı sovxoz" adlanan ərazisində keçirildiyi bildirilir.

**10 fevral –** Goranboyda məcburi köçkünlər üçün salınmış yaşayış binalarının açılışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: "...Ermənistanın qeyri-konstruktiv mövqeyi və müxtəlif yollarla danışıqları uzatmaq taktikası hələlik imkan vermir ki, məsələ öz həllini tapsın. Lakin Azərbaycanın ərazi bütövlüyünün bərpası mütləq baş verəcək, bütün beynəlxalq təşkilatlarda bizim mövqeyimiz üstünlük təşkil edir, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək, ərazi bütövlüyümüzün tezliklə bərpası üçün səylərimizi davam etdirəcəyik".

**15 fevral –** Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibəsində indiki halda Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünün bütün dünya, bütün ölkələr tərəfindən, eləcə də BMT-yə üzv qəbul ediləndə sərhədlərimizin məhz mövcud çərçivədə tanındığını və Dağlıq Qarabağın praktik olaraq bizim ölkənin ortasında yerləşdiyini qeyd edərək, Azərbaycanın ərazi bütövlüyünün

bərpa edilməli olduğunu, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, eləcə də digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının da bu tezisi təsdiq etdiyini bildirmişdir.

Azərbaycan Prezidenti qeyd etmişdir ki, erməni tərəfi məsələyə konstruktiv yanaşarsa və Dağlıq Qarabağın müstəqilliyinin mümkünsüzlüyü barədə tezisi tamamilə başa düşər və qəbul edərsə, biz irəliləyişə nail olacağıq. Lakin əgər bizim qarşımıza məqbul olmayan şərtlər qoyularsa, sesessiya haqqında, separatizm haqqında, Dağlıq Qarabağın müstəqilliyinin hüquqi cəhətdən rəsmiləşdirilməsinə Azərbaycanın razılaşması haqqında məsələlər qoyularsa, onda, təbii ki, danışıqların perspektivləri olmayacaqdır.

**8 mart –** Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Şıxlar kəndi istiqamətində atəşkəsi pozması nəticəsində 2002-ci il martın 19-da anadan olmuş Orta Qərvənd kənd sakini, Fariz Arzu oğlu Bədəlov həyətdə oynayarkən aldığı güllə yarasından ölmüşdür.

**14 mart –** 9 yaşlı azərbaycanlı Fariz Bədəlovun erməni snayperi tərəfindən qətlə yetirilməsi ilə bağlı aparılmış monitorinqin nəticələrinə dair hesabat ATƏT-in fəaliyyətdə olan sədri A.Ajubalisə təqdim edilmişdir.

**21 mart –** Cəbhənin Tərtər istiqamətində ermənilər tərəfindən açılan atəş nəticəsində Füzuli rayonundan məcburi köçkün 1991-ci il təvəllüdlü Elnur Mübariz oğlu Məmmədov həlak olmuşdur.

**23 mart –** 1986-cı il təvəllüdlü Samir Hidayət oğlu Ağayev Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında erməni hərbçilərinin açdığı atəş nəticəsində həlak olmuşdur.

**12 aprel –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: “Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğala son qoyulmalıdır və bu məsələ tezliklə öz həllini tapmalıdır. Çünki Azərbaycan xalqının səbri tükənməz deyildir. Bir daha demək istəyirəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi birmənalıdır. Bu mövqe nəinki bizim arzularımıza, beynəlxalq hüquqa əsaslanır və beynəlxalq hüquq hələ ki, dünyada başlıca bir meyardır. Biz indi görürük ki, beynəlxalq hüquq normaları müxtəlif yerlərdə kobudcasına pozulur. Ona görə Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və heç bir şərt irəli sürülməməlidir. Hazırda danışıqlar masasında olan təkliflər Azərbaycanın ərazi

bütövlüyünün bərpasını təmin edəcəkdir. Eyni zamanda, məsələ öz həllini Dağlıq Qarabağda yaşayan insanların və oraya mütləq qayıdacaq Azərbaycan vətəndaşlarının muxtariyyət, özünüidarəetmə statusunda yaşamasını təmin edə biləcək prinsiplər əsasında tapa bilər. Dağlıq Qarabağa müstəqilliyin verilməsi, yaxud da nə vaxtsa müstəqilliyin verilməsi mümkünsüzdür. Bu, danışıqlar mövzusu deyildir və olmayacaqdır".

Azərbaycan Prezidenti ATƏT-in qiymətləndirmə missiyasının işğal edilmiş torpaqlara səfəri ilə bağlı məruzəsində göstərilən məsələlərin reallığı əks etdirdiyini bildirməklə yanaşı, status-kvonun, yəni indiki vəziyyətin davam edə bilməyəcəyinin öz əksini tapmasını məruzədə ən vacib məsələlərdən biri olduğunu qeyd etmiş və uzun illər Azərbaycan dövləti də bütün beynəlxalq təşkilatlarda, eyni zamanda, həmsədr ölkələrin rəsmiləri ilə birbaşa görüşlərdə status-kvonun dəyişdirilməli olduğunu dəfələrlə diqqətə çatdırmışdır.

Dövlət başçısı Ermənistan tərəfinin bütün imkanlardan istifadə edərək, danışıqları uzatmağa çalışdığını qeyd edərək bildirmişdir ki, müəyyən mərhələdə razılaşdırılmış məsələlər onlar tərəfindən yenidən danışıqlar masasına qoyulur və əvvəlcədən razılaşdırılmış məsələlərdən geri çəkilirlər. Yəni istəyirlər ki, bu proses sonsuz, daimi, əbədi olsun, daim bu danışıqlar getsin və guya ki, Ermənistan danışıqlarda özünü konstruktiv aparır.

Bununla yanaşı, Azərbaycan Prezidenti bəyan etmişdir ki, Ermənistan danışıqlarda qeyri-səmimidir və onların əsas məqsədi məsələnin həlli deyil, məqsəd işğal edilmiş torpaqları nə qədər mümkündür öz nəzarəti altında saxlamaq və de-fakto vəziyyətini gələcəkdə de-yure vəziyyətinə çevirməkdir. Dövlət başçısı bildirmişdir: "Onların niyyəti ondan ibarətdir ki, nə qədər çox vaxt keçsə, o qədər yaxşıdır, yəni dünya birliyi bu vəziyyətlə barışacaq və beləliklə, bu vəziyyət – danışıqlar prosesi sonsuz aparılacaqdır".

Ancaq Azərbaycan Prezidenti bunun mümkün olmadığını bildirərək qeyd etmişdir ki, Azərbaycan imitasiya, danışıqlar naminə danışıqlarda iştirak etməyəcək və status-kvo dəyişdirilməlidir, yəni Azərbaycan torpaqlarından işğalçı qüvvələr çıxarılmalıdır və məruzədə də bu tezisin göstərilməsi çox vacib məsələdir. Eyni zamanda, dövlət başçısı bəyan etmişdir ki, Ermənistana imkan verilməməlidir ki, danışıqları süni şəkildə müəyyən bəhanələrlə uzatsın. Ermənistan konkret təkliflərə konkret cavab verməlidir ki, torpaqlarımızın işğalçılardan azad edilməsi prosesi başlansın.

**11 iyun** – Azərbaycan Prezidenti İlham Əliyev Sloveniya Prezidenti

Danilo Türk ilə birgə Lyublyanada keçirdiyi mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün indi yaxşı şərait yaradıldığını, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının mayın sonunda verdikləri birgə bəyanatın artıq çox ciddi bir siqnal olduğunu qeyd edərək demişdir: "Orada göstərilir ki, status-kvo qəbuledilməzdir. Biz bunu uzun illərdir deyirik ki, status-kvo dəyişdirilməlidir, işğalçı qüvvələr işğal edilmiş torpaqları tərk etməlidir. Bəyanatın digər vacib məsələsi ondan ibarətdir ki, orada Helsinki Yekun Aktına istinad edilir. Prezident İlham Əliyev vurğulamışdır ki, Helsinki Yekun Aktında ölkələrin ərazi bütövlüyü və xalqların öz müqəddəratını müəyyənetmə prinsipləri arasında heç bir ziddiyyət yoxdur. Yəni bu iki prinsip bir sazişdə öz əksini tapmalıdır. Bu da çox müsbət haldır".

Prezident İlham Əliyev bildirmişdir ki, indiki mərhələdə Ermənistan tərəfi konstruktivlik və səmimiyyət göstərməlidir. Uzun illər Ermənistan danışıqların sadəcə olaraq danışıqlar naminə aparılmasına, imitasiya ilə məşğul olmağa çalışmışdır. İndi isə vaxt çatıb ki, təkliflərə dəqiq, konkret cavab versin. Əgər belə olarsa, Azərbaycan torpaqları tezliklə işğalçılardan azad ediləcəkdir.

**21 iyun** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4043 nəfər təşkil etmişdir. Belə ki, onlardan 3264 nəfər hərbçi, 776 nəfər mülki şəxslərdir. 3 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil. Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız), 248 nəfər qadın, 351 nəfər yaşlı şəxsdir (151 nəfər qadın).

Əsir, itkin düşmüş 4043 nəfərdən 878 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır. Bu vaxta kimi əsir və girovluqdan 1400 nəfər azad edilmişdir ki, onlardan 343 nəfər qadın, 1057 nəfər kişidir. Eyni zamanda, 175 nəfər uşaq (65 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın).

Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

**22 iyun** – Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev "Euronews" telekanalına müsahibəsində demişdir ki, nəinki Dağlıq Qarabağ, hətta onun ətrafında yerləşən və ermənilərin heç vaxt yaşamadıqları digər 7 rayon da işğal altındadır. Azərbaycan etnik təmizləmə siyasətinə və işğala məruz qaldığını vurğulayan Prezident İlham Əliyev elə bu səbəbdən də məsələyə beynəlxalq hüquq normaları baxımından yanaşmağın vacibliyini diqqətə çatdırmışdır. Danışıqlar prosesinə toxunan Azərbaycan Prezidenti vasitəçilər tərəfindən hər iki tərəfə təklif olunan baza prinsiplərinin beynəlxalq hüquq normalarına tam cavab verdiyini bildirərək demişdir: "Bunlar ölkələrin ərazi bütövlüyü və xalqların özünüidarəetmə hüququ prinsipləridir. Bu prinsiplər bir-birinə zidd deyildir. Onların hər ikisi vacibdir və sülh sazişində əks oluna bilər".

**26 iyun** – Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli barədə Azərbaycanın ərazi bütövlüyünün dünya birliyi tərəfindən tanınmasına baxmayaraq məsələnin öz həllini hələ ki, tapmadığını və bu ədalətsizliyin hələ də davam etdiyini, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının – dünyanın ən mötəbər qurumunun 4 qətnaməsi, digər beynəlxalq təşkilatların oxşar qərar və qətnamələrinin icra edilmədiyini bildirərək demişdir: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır".

Bununla yanaşı, Prezident İlham Əliyev bugünkü Ermənistanın tarixi Azərbaycan torpaqlarında yarandığını, Dağlıq Qarabağın həmişə əzəli və tarixi Azərbaycan torpağı olduğunu, sadəcə, müvəqqəti olaraq işğal altına düşdüyünü bildirərək bəyan etmişdir: "Ancaq bu işğal çox çəkə bilməz. Mən tam əminəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar, ölkəmizin inkişafı, bölgədəki mövqelərinin möhkəmləndirilməsi nəticəsində istədiyimizə nail ola biləcəyik".

**2011-ci ilin birinci yarısı** – Müdafiə Nazirliyinin məlumatları əsasında aparılan hesablamalara görə, 2011-ci ilin iyun ayı ərzində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi 69 dəfə pozulmuşdur.

Atəşkəsin pozulması nəticəsində 2 nəfər – 1 hərbçi və 1 mülki sakin şəhid olub, 2 hərbçi isə yaralanmışdır. Atəşkəsin pozulması ilə bağlı faktların

1-i Naxçıvan Muxtar Respublikasında, 57 fakt Qarabağ cəbhəsində, 11 fakt isə Ermənistan-Azərbaycan dövlət sərhədində qeydə alınmışdır. İyun ayında atəşkəsin ən çox pozulma faktı Füzuli rayonunda qeydə alınmış, cəbhənin bu istiqamətində atəşkəs rejimi 22 dəfə pozulmuşdur. Atəşkəsin pozulması ilə bağlı 15 hadisə Ağdamda və 9 hadisə isə Tərtər rayonunda baş vermişdir. Bundan başqa, iyun ayında ermənilər atəşkəsi Qazax istiqamətində 8, Goranboyda 6, Gədəbəydə 3, Xocavənddə 2, Göygöldə 2, Cəbrayılda 1, Naxçıvan Muxtar Respublikasında 1 dəfə pozmuşlar.

Monitorinqin nəticələrinə görə, 2011-ci ilin yanvar-iyun aylarında – 6 ay ərzində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi 345 dəfə (yanvar ayında 24, fevralda 56, martda 80, apreldə 36, mayda 80, iyunda 69 dəfə) pozulmuşdur.

Ümumilikdə, 2011-ci ilin birinci yarısında Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin 9 hərbi qulluqçusu, 2 mülki sakin (1 uşaq) şəhid olmuş, 8 nəfər isə yaralanmışdır. 2010-cu ildə isə Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində 16 nəfər həlak olmuşdur.

Ümumiyyətlə, 2003-2011-ci illərdə Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində 138 nəfər həlak olmuşdur ki, bunlardan 71 nəfər 2003-2006-cı illərdə, 67 nəfər isə 2007-2011-ci illərdə erməni təcavüzünün qurbanı olmuşdur.

**14 iyul** – Azərbaycanın Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Əlibəyli kəndində partlayıcı qurğunun işə düşməsi nəticəsində 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Zirəddin qızı həlak olmuş, onun anası 1979-cu il təvəllüdlü Şahmalıyeva Elnarə Məmmədtağı qızı isə xəsarət alaraq yaralanmışdır. 1994-cü ildə də həmin ərazidə analoji hadisə baş vermişdi. Belə ki, ermənilər tərəfindən çaya buraxılan oyuncağı götürərkən partlayışın baş verməsi nəticəsində 2 azyaşlı uşaq həlak olmuş, 1-i isə yaralanmışdı.

**26 iyul** – Azərbaycan erməni tərəfinin təxribat hərəkətləri və bəyanatlarına qarşı BMT-nin Baş Katibinə kəskin etirazını bildirmişdir. Bəyanatda Azərbaycan Ermənistan tərəfinin təxribat hərəkətləri və bəyanatlarına kəskin etiraz edərək, təcavüzkarın azğın davranışını onun törətdiyi cinayətlərə görə cəzasız qalması ilə əlaqələndirir. Sənəddə Ermənistan rəhbərliyinin ritorikasının yeganə məqsədi beynəlxalq ictimaiyyəti çaşdırmaq, münaqişənin həlli prosesinin diskteditasiyası və öz ölkəsinin

ictimaiyyətinin daxili problemlərinin pisləşməsindən diqqəti yayındırmaqdan ibarət olduğu bildirilmişdir. Bəyanatda qeyd olunur ki, son vaxtlar Ermənistan prezidentinin səsləndirdiyi bəyanatlar Azərbaycana qarşı Ermənistan tərəfindən başladılan müharibənin səbəblərinin, gedişatının və nəticələrinin təhrifinə ən aydın nümunədir.

**27 iyul –** Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanla Bakıda keçirdiyi birgə mətbuat konfransında Ermənistan prezidentinin Gənc Zabitlərin İlk Ordu Konfransında erməni gəncliyinə xitabən “Dağlıq Qarabağı düşməndən biz azad etdik, Ağrı dağı azad etmək də sizin öhdənizə düşür” bəyanatına münasibət bildirərkən qeyd etmişdir ki, əslində bu, Ermənistanın işğalçı mahiyyətini göstərir: “Bu ölkə problemlər içindədir. Bu ölkədən qaçanların sayı on minlərlə ölçülür. Ölkə iqtisadiyyatı tam böhran vəziyyətindədir – yoxsulluq, səfalət, ümidsizlik. Bir dənə də olsun əməlli-başlı müəssisə yoxdur, xarici ianələr, xaricdən himayədarlıq edənlər olmasa bu ölkə çökər. Belə vəziyyətdə, real əhalisi 1 milyon 800 min nəfər olan halda bu adamlar Türkiyənin əzəli, tarixi torpaqlarına iddia edirlər. Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsini həll ediblər. Onlar yanılırlar. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan torpağı kimi qalır. Vaxt gələcək, Azərbaycan Dağlıq Qarabağ üzərində öz suverenliyini ya barış yolu ilə, ya da hərb yolu ilə bərpa edəcəkdir”.

Eyni zamanda, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Dağlıq Qarabağ məsələsində Türkiyənin hər zaman Azərbaycanın yanında olduğuna diqqəti çəkərək bildirdi: “Dağlıq Qarabağ mövzusundakı mövqeyimiz, düşüncəmiz, mübarizəmiz – hər şeyimiz Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bilinməlidir ki, bizim üçün də elə qanayan bir yaradır. Bundan fərqli bir düşüncə bizdə əsla ola bilməz. Bu məsələni də sona qədər təqib edirik və bundan sonra da təqib etməkdə davam edəcəyik”.

**24 oktyabr –** Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bildirmişdir: ”Bizim üçün ən ağır olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, heç bir irəliləyiş yoxdur, Azərbaycanın prinsipial mövqeyi var, bu mövqe həm tarixi həqiqətə, həm beynəlxalq hüquq normalarına əsaslanır. Biz bu mövqedən kənara bir

addım atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, deyil və olmayacaqdır. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib ərazi bütövlüyümüzü bərpa edək".

**24 oktyabr –** Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən – 2013-cü il dekabrın 31-ə qədər davam etmişdir. Bununla yanaşı, iki il müddətində Azərbaycan növbə ilə 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını yerinə yetirmişdir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması tarixi hadisədir və bu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir. Eyni zamanda, Azərbaycan dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr quraraq bunu dövlətlərarası sivil münasibətlər müstəvisində daim inkişaf etdirir. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olmuşdur.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyəti müddətində bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail ola bilər. Yəni indiyə kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həll edilməmiş qalır. Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə, pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxarmaq imkanı qazanmışdır.

Xüsusilə, bir ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını icrası zamanı BMT TŞ-nin problemlə bağlı qəbul edilmiş 4 qətnaməsinin yerinə yetirilməsi üçün ən azı yeni təşəbbüslə çıxış edə və BMT Təhlükəsizlik Şurasında Ermənistanın işğalçılıq siyasəti ilə bağlı yenidən məsələ qaldıra bilərik. Bu səbəbdən Azərbaycan iki il müddətində Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyündən istifadə edərək beynəlxalq hüququn normalarının bərpasını tələb etmək hüququna malik olacaqdır. Çünki Azərbaycan artıq 20 ildir ki, dünyada ardıcıl olaraq sülh və inkişaf siyasəti yürüdərək beynəlxalq hüququn bərpa olunmasını tələb edir. Münaqişələrin nizama salınması ilə

bağlı ATƏT-in heç bir icraedici mexanizmi olmasa da, BMT-nin icraedici mexanizmləri vardır. Lakin qətnamələrin və qərarların yerinə yetirilməsi üçün dünyanın aparıcı dövlətlərinin də istəyi və iradəsi lazımdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi bir çox addımlar ataraq mövqeyini nümayiş etdirməklə yanaşı, "hücum diplomatiyası" taktikasını reallaşdıraraq mövqeyini dünyaya nümayiş etdirə bilər.

**25 oktyabr –** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə bəyanatında müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".

**2 dekabr –** Romada Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva çıxışında iyirmi ildən çox sürən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmadığını, ölkəmizin ərazisinin 20 faizinin işğal altında olduğunu, bir milyondan çox soydaşımızın isə məcburi köçkün və qaçqın şəraitində yaşadığını bəyan edərək, bu gün də Azərbaycanın münaqişənin sülh yolu ilə beynəlxalq hüquq və prinsiplər əsasında həllinin tərəfdarı olduğunu qeyd etmiş, ölkəmizin ərazi bütövlüyünün tezliklə bərpa olunacağına ümidvar olduğunu bildirmişdir.

**24 dekabr –** Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsinin açılışında bütün beynəlxalq təşkilatların qərarları, qətnamələrinin Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyini, ancaq Minsk qrupunun 20 ilə yaxındır ki, fəaliyyət göstərsə də, heç bir nəticənin olmadığını və məsələnin öz həllini tapmadığını qeyd edərək, dünyadakı

erməni lobbisi, ermənilərin havadarları, onlara dəstək verənlərin buna imkan verməndiyini, Azərbaycana qarşı dünya erməniləri və onların çirkli pulları ilə idarə edilən riyakar siyasətçilərin mübarizə apardıqlarını bildirmişdir. Beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməli olduğunu söyləyən dövlət başçısı İlham Əliyev qeyd etmişdir ki, bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü, eləcə də Dağlıq Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çəkilsin və bu da Azərbaycan vətəndaşlarının o torpaqlara qayıtmasına imkan versin. Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: “Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və bərpa ediləcəkdir. İşğal edilmiş bütün torpaqlarda Azərbaycanın suverenliyi təmin edilməlidir və ediləcəkdir”.

**26 dekabr** – Azərbaycan Prezidenti İlham Əliyevin İTAR-TASS agentliyi və “Rossiya 24” telekanalı üçün müsahibəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsini və bu cür dörd qətnamənin olduğunu bildirərək qeyd etmişdir ki, o sənədlərdə Ermənistanın işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının və digər təşkilatların da qətnamələrinin olduğunu qeyd edən dövlət başçısı Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli və bunun bizim suveren hüququmuz olduğunu bildirmişdir: “Dövlətimizin ərazi bütövlüyünün siyasi vasitələrlə deyil, hərbi vasitələrlə bərpa edilməsi də bizim suveren hüququmuzdur. BMT Nizamnaməsinə uyğun olaraq bizim belə hüququmuz vardır”.

**30 dekabr** – Azərbaycan Respublikası Milli Məclisinin Fransa Respublikasının Senatına müraciətində 2011-ci il dekabrın 22-də Fransa Respublikasının Milli Assambleyasında “erməni soyqırımı”nın inkar edilməsinə görə cəza müəyyənləşdirən qanun layihəsinin qəbul olunduğundan narahatlıq və bununla əlaqədar tam aydın olmayan uzaq tarixi hadisələrə ehtiyatla yanaşmağa çağırış ifadə edilir.

Sənəddə qeyd edilir ki, belə bir qanun qəbul ediləcəyi təqdirdə demokratik quruluşun təməlində dayanan, insan hüquqları və azadlıqları sırasında əsas yer tutan söz və fikir azadlığına zidd olacaqdır. Müraciətdə bildirilir ki, hazırda dinlər və mədəniyyətlər arasında dialoqun dərinləşdirilməsi zərurətinin mövcud olduğu bir dövrdə bu cür qanunun

qəbul edilməsi dünyada ikili standartların mövcudluğu barədə fikirləri təsdiqləyəcəkdir.

Daha sonra müraciətdə göstərilir ki, "erməni soyqırımı"nın baş verdiyi iddia olunan dövrdə, yəni XX əsrin əvvəllərində yüz minlərlə günahsız türk və azərbaycanlı erməni millətçiləri tərəfindən kütləvi şəkildə qətlə yetirilmişdir. Sənəddə deyilir: "Lap yaxın keçmişdə, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərinin yüzlərlə dinc sakin yalnız azərbaycanlı olduğuna görə Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüşdür. Bütün bunlar nəzərə alınarsa, yəqin, bizimlə razılaşarsınız ki, tarixi hadisələrə bir tərəfin mövqeyindən qiymət vermək cəhdləri tarixi həqiqətlərə hörmətsizliyə gətirib çıxara bilər. Ayrı-ayrı siyasi qrupların və etnik lobbiçilərin bədniyyətli fəaliyyəti nəticəsində qəbul edilə biləcək qanun 2 əsrdən də çox bundan əvvəl İnsan və Vətəndaş hüquqları haqqında Bəyannaməni qəbul etmiş Fransa kimi qədim demokratik ənənələrə malik ölkənin nüfuzuna yalnız ləkə vura bilər".

Bununla yanaşı, sənəddə qeyd edilir ki, belə bir qanun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın obyektivliyini şübhə altına alacaqdır. Ona görə də Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, Fransa Respublikasının Senatı adı çəkilən məsələnin müzakirəsi zamanı diqqətli və həssas olacaq, demokratik prinsiplərə zidd olan qanunun qəbul edilməsinə yol verməyəcəkdir.

**31 dekabr** – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesində göstərdiyi riyakarlıq, danışıqlardan faktiki olaraq imtina etməsi ilə bu prosesə böyük zərbə vurduğunu bildirərək demişdir: "Əfsuslar olsun ki, hələ də dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər birmənalı şəkildə danışıqların pozulmasında günahkarın kim olduğunu açıq demirlər". Bununla yanaşı, Azərbaycanın diplomatik və siyasi səylərini davam etdirəcəyini bildirən dövlət başçısı bəyan etmişdir: "Danışıqlarda bizim prinsipial mövqeyimiz vardır. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Münaqişə məhz bu prinsiplər

üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, ikinci dəfə əzəli Azərbaycan torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Bu, bizim prinsipial mövqeyimizdir. Bir daha demək istəyirəm ki, bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır".

## 2012

**16 yanvar –** Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, 2011-ci ildə heç bir nəticə olmamışdır. Bunun yeganə və başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir, danışıqlarda qeyri-səmimi davranışıdır.

Dövlət başçısı vurğulamışdır ki, faktiki olaraq danışıqların pozulmasına, yaxud da ki, dondurulmasına Ermənistan tərəfi çox çalışmışdır. Danışıqlar əlbəttə ki, iki tərəfin iştirakını tələb edir. Bir tərəf əgər danışıqlardan bu və ya digər formada boyun qaçırmaq istəyirsə, digər tərəfin imkanları da məhdudlaşır. Ancaq deyə bilərəm ki, 2011-ci ildə danışıqlar prosesində, bu məsələyə dair beynəlxalq qüvvələrin münasibətində müsbət hallar olmuşdur, – deyən Prezident İlham Əliyev bildirmişdir ki, biz bunu inkar edə bilmərik. Onlardan ən önəmlisi odur ki, üç həmsədr ölkə status-kvonun qəbuledilməz olduğunu bəyan etmişdir. Bu, birinci bəyanatdır, yəni bundan əvvəlki illərdə belə bəyanatlar verilmirdi. Bu bəyanat ədalətli bəyanatdır. Əlbəttə ki, status-kvo dəyişdirilməlidir və ümidverici bəyanatdır. Əgər bu bəyanatdan sonra həmsədr ölkələrin konkret təklifləri, addımları, hərəkətləri olarsa, münaqişəni tezliklə həll etmək mümkün olacaqdır. Dövlətimizin başçısı vurğulamışdır ki, bu münaqişənin həllinin iki yolu var: danışıqlar yolu və hərb yolu. Üçüncü yol yoxdur. Bu münaqişə dondurulmuş münaqişə deyildir və olmayacaqdır. Əgər kimsə fikirləşirsə ki, danışıqlarda əsas məsələ müharibənin qarşısını almaqdır, mən bununla razı deyiləm. Biz də müharibə istəmirik. Kim

müharibə istəyər? Özü də bu qədər böyük uğurlara nail olan Azərbaycan dövləti. Ancaq o demək deyil ki, danışıqlar prosesi kənarda qalacaq və bütün səylər müharibənin başlanmamasına yönəldiləcəkdir. Bu olmayacaqdır! Mən nə üçün bunu deyirəm? Çünki 2011-ci ildə həmsədrlər tərəfindən, xüsusilə ilin ikinci yarısında biz daha çox etimad tədbirlərinin gücləndirilməsinə, atəşkəs rejiminin pozulmamasına yönələn hərəkətləri və təşəbbüsləri görmüşük, nəinki danışıqların mahiyyətinə yönələn diqqəti. Biz də istəmirik ki, müharibə olsun. Ancaq bunun yolu var. O yol da hamıya bəllidir. Biz əvvəlki dövrdə də bəyan etmişik ki, 2009-cu ilin sonunda ATƏT-in xarici işlər nazirlərinin toplantısında iki tərəfə verilmiş təkliflərə prinsip etibarilə razılığımızı vermişik, – deyən Prezident İlham Əliyev qeyd etmişdir ki, bu prinsipləri biz yox, həmsədrlər ortaya qoymuşlar. Əgər o prinsiplər hələ də qüvvədədirsə, onda bu münaqişə öz həllini tapa bilər. O prinsiplər haqqında mən ictimaiyyətə kifayət qədər məlumat vermişəm. Sadəcə olaraq bir daha əsas məqamları təkrarlamaq istəyirəm. Azərbaycanın ərazi bütövlüyü şübhə altına qoyulmur, Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara qayıdırlar və gələcəkdə Dağlıq Qarabağın statusu haqqında qeyri-müəyyən vaxtda qeyri-müəyyən formada təkliflər irəli sürüləcəkdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövlətinin razılığı olmadan Dağlıq Qarabağa heç bir status verilə bilməz. Prinsiplər bundan ibarətdir. Biz danışıqları bu prinsiplər əsasında davam etdirməyə hazırıq və əgər qarşı tərəf də belə addımlar atarsa məsələ tezliklə öz həllini tapa bilər.

**17 yanvar** – Xocalı soyqırımının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilirdi: "Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırımı aktını törətmişlər. Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin

birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil. Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, Avropa Parlament Assambleyasının və bir sıra beynəlxalq qurumların Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində obyektiv həllini tapmasına dair qətnamə və qərarlarına baxmayaraq, bu günə qədər ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar heç bir nəticə verməmişdir. Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır. Sərəncamda göstərilir ki, Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin xatirəsini faciənin iyirminci ildönümü ərəfəsində dərin hüznlə bir daha yad edərək Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**15 fevral –** Azərbaycan Prezidenti İlham Əliyev Belçikaya işgüzar səfəri çərçivəsində NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşünüdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bir daha ölkəmizin mövqeyini diqqətə çatdıraraq bildirmişdir ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Üzv ölkələrin NATO yanında daimi nümayəndələri çıxış edilərək təmsil etdikləri ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirdilər. Daimi nümayəndələr Azərbaycanın NATO ilə əməkdaşlığına toxunaraq ölkəmizin Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirakını yüksək qiymətləndirərək bildirdilər ki, təmsil etdikləri ölkələr Azərbaycan ilə münasibətlərə böyük

əhəmiyyət verir və ölkəmizin iqtisadi inkişafını vurğulayaraq ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolunun önəmini qeyd etdilər.

**28 mart** – Azərbaycan Prezidenti İlham Əliyev Seulda Nüvə Təhlükəsizliyi Sammitində bildirmişdir ki, qonşu Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin davamlı işğalı səbəbindən beynəlxalq səviyyədə tanınmış cənub sərhədimizin 130 kilometrinə və Ermənistan ilə olan sərhədimizin böyük hissəsinə heç bir nəzarət mövcud deyildir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində həmin ərazilər artıq 20 ildir ki, Ermənistanın işğalı altındadır. Həmin torpaqlarda Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışdır. Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının bütün işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymur. Azərbaycan coğrafi şəraitini və ətraf mühit üçün baş verə biləcək transsərhəd fəsadları nəzərə alaraq, mülki məqsədlər üçün nüvə qurğularının təhlükəsizliyini və etibarlılığını möhkəmləndirmək məqsədilə göstərilən səyləri tam dəstəkləyir. Bu yaxınlarda sunami nəticəsində Fukusima Atom Elektrik Stansiyasında baş vermiş dəhşətli qəzaya çox ciddi şəkildə yanaşılmalıdır. Azərbaycan Ermənistanın 1976-cı ildə fəaliyyətə başlamış və hazırda köhnəlmiş Metsamor Atom Elektrik Stansiyasından olduqca narahatdır. Metsamor stansiyası bütöv region və yaxınlıqda olan qonşular üçün potensial fəlakət mənbəyidir. O, son illərini yaşayan reaktorun soyudulması üçün zəruri olan su resurslarının çatışmadığı yüksək dərəcəli seysmik zonada yerləşir. Avropa İttifaqı Şərqi Avropa və keçmiş Sovet İttifaqında tikilmiş 66 sovet reaktoru arasında Metsamor reaktorunu "ən köhnəlmiş və ən etibarsız" hesab etmişdir. Hesabatda Metsamor "bütöv region üçün təhlükə" adlandırılır. Bununla belə, biz nüvə enerjisi qurğusunu tikməyi arzulayan tərəfə səlahiyyətləri verəcək regional nüvə təhlükəsizliyini və etibarlılığını müəyyənləşdirən rejimlərin tətbiq edilməsini təklif edirik. Bu halda öz qonşularından razılığın alınması, həmin sahələrin etibarlılığı və təhlükəsizliyi barədə məlumatların şəffaf şəkildə mübadiləsi, yoxlamaların qəbulu və risklərə görə kompensasiyanın ödənilməsi kimi prosedurlar nəzərdə tutula bilər.

**9 aprel** – Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilirdi: "Şuşa Azərbaycanın unikal

mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır. 1977-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyətimizin və incəsənətimizin böyük simalarından Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün ev-muzeyləri təşkil olunmuş, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsi ucaldılmışdır. 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyinin bərpası haqqında müvafiq sənədlər qəbul edən Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın aqressiv etnik təmizləmə siyasəti ilə üz-üzə qaldı. Dərin siyasi, iqtisadi, sosial böhran keçirən və Dağlıq Qarabağda yaranmış gərgin vəziyyətdən çıxış yolu axtaran ölkəmiz hələ öz milli ordusu formalaşmadığından yüksək hərbi-strateji əhəmiyyətli Şuşa şəhərinin müdafiəsində yalnız könüllü özünümüdafiə dəstələrinin yardımına ümid edirdi. Lakin onların qəhrəmancasına döyüşmələrinə və layiqli müqavimət göstərmələrinə baxmayaraq, təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi. Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Erməni vandalları işğal vaxtı minlərlə eksponatın olduğu muzeyləri talan elədilər, yüzlərlə tarix-mədəniyyət abidəsini dağıtdılar, məbədgah və məscidləri təhqirlərə məruz qoydular, çox sayda nadir əlyazma nümunələrini məhv etdilər, təhsil və səhiyyə ocaqlarını xarabazara döndərdilər. Sərəncamda göstərilir ki, Şuşanın süqutunun iyirminci ildönümü ərəfəsində şəhərin müdafiəsi zamanı şəhid olmuş soydaşlarımızın xatirəsini bir daha dərin hüznlə yad edərək, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü

ilə əlaqədar müvafiq anma mərasimləri ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**14 aprel** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı demişdir: “Münaqişənin həlli ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməli, işğalçı qüvvələr torpaqlarımızdan geri çəkilməlidir. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz tam şəkildə bərpa ediləcəkdir. Mən buna şübhə etmirəm. Biz həm iqtisadi sahədə, həm beynəlxalq aləmdə güclənirik. Hərbi potensialımız da güclənir. Bu sahəyə daim böyük diqqət göstərilir və göstəriləcəkdir. Biz güclü hərbi sənaye yaradırıq, eyni zamanda, böyük həcmdə hərbi texnika, silah, sursat alırıq və alacağıq. Mən hələ hava hücumuna qarşı silahlardan danışmıram, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri, müxtəlif silahlar, döyüş aparmaq üçün lazım olan bütün müasir ləvazimatlar alınır və alınacaqdır. Deyə bilərəm ki, hər bir yerdə olduğu kimi, bu sahədə də biz şaxələndirilmiş siyasət aparırıq, bir istehsalçıdan asılı deyilik. Bu sahədə bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır və imkanımız vardır. Biz bəzi başqa ölkələrdən fərqli olaraq heç nəyi müftə almırıq, pulla alırıq və bu siyasət davam edəcəkdir. Azərbaycanın artıq güclü ordusu vardır. Bütün silahlı qüvvələr bu gün istənilən vəzifəni – ölkəmizin bütün maraqlarını müdafiə etmək üçün hazırdırlar, buna qadirdirlər. Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda Azərbaycanın suverenliyini bərpa etməyə hazırdırlar. Sadəcə olaraq biz istəyirik ki, bunu qan tökülmədən, sülh, danışıqlar yolu ilə edək və hər an, hər gün biz qələbəyə yaxınlaşırıq. Hər gün Ermənistan daha da böyük tənəzzülə uğrayır, Azərbaycan daha da güclənir. Biz hər gün qələbə gününü yaxınlaşdırırıq. Gün gələcək Azərbaycan bayrağı Xankəndidə və Şuşada dalğalanacaqdır.

**1 may** – Azərbaycan Respublikasının Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 20 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə, Avropa Şurasının Parlament Assambleyasına və dünya parlamentlərinə Müraciətində deyilirdi: “20 il bundan əvvəl, 1992-ci il mayın 8-də Azərbaycan Respublikasının Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Şuşa şəhərinin

işğalı Azərbaycanın Dağlıq Qarabağ bölgəsini qəsb etmək üçün Ermənistan Respublikasının həyata keçirdiyi hərbi təcavüzün bir mərhələsini təşkil etmişdir. Erməni millətçilərinin Dağlıq Qarabağda apardıqları etnik təmizləmə Şuşa şəhərinin azərbaycanlı əhalisinin qovulması ilə başa çatdırılmışdır.

Şuşa şəhərinin əsası 1756-cı ildə Azərbaycan feodal dövləti olan Qarabağ xanlığının başçısı Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına qədər Şuşa şəhəri Qarabağ xanının iqamətgahı və Qarabağ xanlığının inzibati mərkəzi olmuşdur. Bu şəhər Azərbaycanın dövlətçilik tarixində, ictimai-iqtisadi və mədəni-siyasi həyatında son dərəcə mühüm rol oynamışdır. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək niyyəti ilə başladığı işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Şuşa şəhərinin də yerləşdiyi Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon – Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmış, 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüş, 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. İşğalçılıq müharibəsinin gedişində erməni millətçiləri azərbaycanlı əhaliyə qarşı bir neçə soyqırımı cinayəti, o cümlədən Xocalı faciəsini törətmişlər.

Məlum olduğu kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məqsədi ilə 1992-ci ilin mayında ATƏT-in Minsk qrupu yaradılmışdır. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatlar müvafiq qətnamələr qəbul etmişlər. Münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil edən bütün bu sənədlərdə Azərbaycan Respublikasının ərazi

bütövlüyü birmənalı şəkildə dəstəklənmiş, Azərbaycan torpaqlarının işğalına son qoyulması tələb edilmişdir.

Təəssüf ki, beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair aktlarının həyata keçirilməsi indiyədək təmin edilməmiş, Minsk qrupunun fəaliyyəti ona bəslənən ümidləri doğrultmamışdır. Əgər vəziyyətin bu cür qalmasının bir səbəbi Ermənistan dövlətinin sülh danışıqları prosesində tutduğu qeyri-konstruktiv mövqe, Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsidirsə, digər səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, bir sıra hallarda işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, beynəlxalq birliyin tələblərini qulaqardına vuran, beynəlxalq qaydaya meydan oxuyan Ermənistan dövləti barəsində lazımi qətiyyət göstərilməməsidir. Bununla əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentini, Avropa Şurasının Parlament Assambleyasını və dünya parlamentlərini, münaqişənin həllində marağı olan bütün qüvvələri öz səylərini birləşdirməyə çağırır. Biz gözləyirik ki, nəinki Cənubi Qafqaz bölgəsində, həm də bütün Avropada sülh və sabitlik üçün təhlükə törədən bu münaqişə ocağının aradan qaldırılması, Ermənistan Respublikasının işğalçılıq siyasətindən əl çəkməyə sövq edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi üçün beynəlxalq birlik qəti mövqeyini nümayiş etdirəcəkdir.

**4 may** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda BMT-nin baş katibi Pan Gi Mun ilə görüşündə BMT-nin baş katibi Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına sədrliyi ilə əlaqədar Prezident İlham Əliyevin Nyu-Yorka işgüzar səfərinin əhəmiyyətini qeyd edərək, Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunun BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınmasını uğurlu addım kimi dəyərləndirdi və bu mövzunun hazırda dünyada çox aktual məsələ olduğunu bildirdi. BMT-nin baş katibi 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın əhəmiyyətinə toxundu və bu sənədin ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsinə verdiyi töhfələri vurğuladı. Pan Gi Mun Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratiyanın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

**7 may** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-

Yorkda BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında demişdir: “Azərbaycanın terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir. Terrorçuluq beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət, sosial və iqtisadi inkişafın bərqərar olunmasına ciddi təhdiddir”.

Dövlət başçısı vurğulamışdır ki, bütün terror aktları ağır cinayətdir, onlar pislənməli və bunu törədənlər isə cəzalandırılmalıdırlar. Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilməməlidir. Səbəblərindən asılı olmayaraq, heç bir terror aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzkar separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır.Azərbaycan Prezidenti bildirmişdir ki, silahlı münaqişələrə məruz qalan yerlərdə, xüsusən də xarici hərbi işğal altında olan ərazilərdə terrorçuluq ilə həmin məkanda olanlar arasında bir qayda olaraq sövdələşmənin yaranmasına şəraitlər formalaşır. Azərbaycanın müxtəlif yollarla terrorçuluğa məruz qaldığını vurğulayan dövlət başçısı qeyd etmişdir ki, Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarla terror aktı törətmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal fazasında Ermənistan etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir, – deyən Prezident İlham Əliyev bildirmişdir ki, həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı. Həmin vaxt 613 günahsız insan, o cümlədən qadınlar, uşaqlar və yaşlılar öz həyatı ilə vidalaşmışdır. Yüzdən artıq qadın, altmış üç uşaq qətlə yetirilmişdir. Ermənistan, həmçinin münaqişə zonasından uzaq məsafədə də ictimai nəqliyyatda və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktlarını törədərək, mülki əhaliyə qarşı mübarizə apardı.

**8 may** – Azərbaycanın BMT yanında daimi nümayəndəsi Dağlıq Qarabağda qondarma “prezident seçkiləri”nin keçirilməsi ilə əlaqədar

təşkilatın baş katibinə məktub göndərmişdir. Sənəddə deyilir: "Beynəlxalq səviyyədə, o cümlədən BMT Baş Məclisində və Təhlükəsizlik Şurasında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonun erməni hərbi işğalı altında olması təsdiq edilmişdir. Ermənistan Azərbaycan ərazisini işğal etmək və orada etnik əsasda oyuncaq separatçı qurum yaratmaq üçün qüvvə tətbiq etmiş və bu, son nəticədə, təcavüzün və irqi ayrı-seçkiliyin məhsulundan başqa bir şey deyilir. Bu rejim Ermənistan tərəfinin siyasi, hərbi, iqtisadi və digər dəstəyi sayəsində mövcuddur. Separatçı qurumun və onun strukturlarının qeyri-qanuniliyi beynəlxalq səviyyədə birmənalı şəkildə dəfələrlə təsdiq edilmişdir. Bu qurum heç kim tərəfindən tanınmır və əslində Ermənistan Respublikasının idarəçiliyi və nəzarəti altındadır. Azərbaycan dəfələrlə bəyan etmişdir ki, münaqişənin danışıqlar yolu ilə həllinə nail olunması üçün siyasi səylərə baxmayaraq, işğalçı ölkə olan Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində müxtəlif qanunsuz hərəkətlər çərçivəsində həyata keçirdiyi siyasət və praktik addımlar bu ərazilərin anneksiyasını möhkəmləndirmək niyyətindən aşkar xəbər verir".

Sənəddə deyilir ki, BMT Nizamnaməsinə, beynəlxalq hüquq prinsiplərinə və Baş Məclisin və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, habelə Azərbaycan Konstitusiyasına və milli qanunvericiliyə məhəl qoymayan Ermənistan artıq birinci dəfə deyildir ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qondarma "seçkilər" keçirir. Lakin hamıya məlumdur ki, demokratiya qılınc bahasına yayıla, qanunsuz akt isə qanuni hüquqları təmin edə bilməz. Buna görə də davam edən təcavüz, işğal və etnik təmizləmə şəraitində Azərbaycanın işğal olunmuş ərazilərində hər hansı seçkilər prosesinin təşkili "a priori" qanuni hesab edilə və birtərəfli qərarın zorla qəbul edilməsi üçün əsas sayıla bilməz. Sənəddə vurğulanır ki, beynəlxalq birlik Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində bütün əvvəlki "seçkiləri" birmənalı şəkildə pisləmişdir. Sənəddə deyilir: "Bununla əlaqədar, mənim hökumətim ümid edir ki, BMT və onun üzvü olan dövlətlər Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan, insan haqlarına və əsas azadlıqlarına hörmətsizlik nümayiş etdirən və münaqişənin nizama salınmasına yönəldilmiş siyasi səyləri əngəlləyən təxribatçı və qanunsuz hərəkətlərə qarşı yenidən birmənalı şəkildə münasibətini bildirəcəkdir. Biz beynəlxalq birliyi Ermənistan rəhbərliyindən pozucu anneksiya və etnik təmizləmə siyasətini dayandırmağı, sülh prosesini

diskreditasiya etmək cəhdlərindən əl çəkməyi və Azərbaycan ərazisinin işğalına son qoymağı tələb etməyə çağırırıq".

**25 may –** Azərbaycan Prezidenti İlham Əliyev 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqində demişdir: "...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir nəticə yoxdur. Ermənistan uzun illərdir ki, beynəlxalq hüququ kobudcasına tapdalayır, beynəlxalq hüquq normalarına riayət etmir. Dünyanın mötəbər, aparıcı beynəlxalq təşkilatlarının qətnamələrinə əhəmiyyət vermir, məhəl qoymur. Nə hərb, nə sülh vəziyyəti davam edir. Müharibə hələ bitməyib. Müharibənin birinci dövrü başa çatıbdır. Biz hamımız arzu edirik ki, müharibənin ikinci dövrü başlamasın. Ancaq buna nail olmaq üçün Ermənistan beynəlxalq hüquq normalarına əməl etməli və işğal edilmiş torpaqlardan çıxmalıdır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı dörd qətnaməsi vardır. Bir neçə gün bundan əvvəl Çikaqoda keçirilən NATO zirvə görüşündə yenə bu məsələ ilə bağlı çox əsaslı və ədalətli qətnamə qəbul edilmişdir, münaqişə ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ərazi bütövlüyü orada yeganə prinsip kimi göstərilmişdir. ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar münaqişə ilə bağlı kifayət qədər çox qətnamələr, qərarlar qəbul etmişdir. Yəni, məsələnin hüquqi müstəvidə həlli üçün əlavə heç bir addıma ehtiyac yoxdur. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi və indiki vəziyyəti uzatmaq cəhdləri hələ imkan vermir ki, məsələ həllini tapsın. Ancaq mən bu barədə dəfələrlə fikrimi bildirmişəm. Biz hər gün, hər an məsələnin həllinə yaxınlaşırıq. Bizi bu günə yaxınlaşdıran amillər həm siyasi, həm iqtisadi və digər sahələrlə bağlıdır. Siyasi sahədə bu gün Azərbaycan bölgənin lider dövlətidir. Bizim kifayət qədər güclü mövqeyimiz vardır. Dünya birliyində böyük dəstəyimiz vardır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz dünya birliyinin bizə olan münasibətini göstərir və hazırda Azərbaycan Təhlükəsizlik Şurasına sədrlik edir.

**11 iyul –** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimiz, yenə də deyirəm, ədalətə və beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın ərazi bütövlüyü məsələləri heç vaxt danışıqlar predmeti

olmamışdır və olmayacaqdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məndə bu barədə heç bir şübhə yoxdur. Danışıqlar prosesində müəyyən durğunluq vardır. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları yeni bəyanatla çıxış etmişlər və status-kvonun qəbuledilməz olduğunu bir daha təsdiq etmişlər. Hələ ki, status-kvonu dəyişdirən konkret, real addımlar atılmır. Ancaq bu, qaçılmazdır. Status-kvo dəyişdirilməlidir. Həm Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları, Avropa İttifaqı Şurasının prezidenti Bakıda olarkən, ATƏT nümayəndələri, digər beynəlxalq təşkilatlar və siyasətçilər status-kvonun qəbuledilməz olduğunu dəfələrlə bəyan edirlər. Bu, çox dəyərli bəyanatdır. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqlardan erməni işğalçı qüvvələrinin çıxarılması deməkdir. Bu işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxdıqca əlbəttə ki, danışıqlar prosesində də müsbət meyillər daha da güclənəcək və bu məsələ tezliklə öz həllini tapacaqdır. Ancaq bütün siyasi və diplomatik səylərlə yanaşı, şübhəsiz ki, biz öz hərbi qüdrətimizi artırırıq, gücləndiririk. Güclü ordu yaratmışıq və yaradırıq. Güclü ordu danışıqlarda bizim mövqeyimizi böyük dərəcədə gücləndirir. Azərbaycanın iqtisadi imkanları genişlənir. Azərbaycan nəinki bölgədə, dünya miqyasında güclü ölkəyə çevrilir. Əlbəttə ki, bizim iqtisadi və maliyyə, eyni zamanda, siyasi resurslarımız məsələnin ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə gətirib çıxaracaqdır. Bizim həm iqtisadiyyatımız, həm valyuta ehtiyatlarımız, həm də əhalimiz artır. Son məlumata görə, artıq Azərbaycanın əhalisi 9,3 milyon nəfərə çatmışdır. Ermənistana gəldikdə, ancaq onların rəsmi statistikasına görə ilin birinci beş ayında 80 min nəfər o ölkəni həmişəlik tərk etmişdir. İlin sonuna qədər bu rəqəm təqribən 170, 200 minə çatacaqdır. Beləliklə, bir neçə ildən sonra ümumiyyətlə, demoqrafik vəziyyət həlledici məqama çevriləcəkdir. Təsadüfi deyildir ki, son çıxışlarımda mən bu məsələyə xüsusilə diqqət yetirirəm. Azərbaycanda demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir. Ermənistana gəldikdə, bəlkə də Ermənistan rəhbərləri sevinir ki, əhali azalır. Çünki orada nə iş yerləri, nə pul, nə iqtisadiyyat, nə sənaye, nə də heç bir perspektiv yoxdur. Əhali nə qədər azalsa, hökumətin üzərinə düşən yük də o qədər azalır. Bu, bir yanaşmadır.

Bizim yanaşmamız tam başqadır. Bizim iqtisadiyyatımız, sənaye gücümüz və siyasi iradəmiz diktə edir ki, Azərbaycan əhalisi daha da artmalıdır. Bu, nəinki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli üçün lazımdır, – bu məsələni biz həll edəcəyik və Azərbaycan bayrağını Xankəndidə qaldıracağıq, – bu ümumiyyətlə gələcək üçün lazımdır. Çünki bu gün dünyada əfsuslar olsun ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Beynəlxalq hüquq normalarına məhəl qoyulmur. Güc amili ön plana çıxır. Bu, əslində ötən əsrlər üçün xas olan bir mənzərə idi. Sadəcə olaraq İkinci Dünya müharibəsindən sonra – dünyanın yeni quruluşu, yeni qaydaları tətbiq olunduqdan sonra beynəlxalq hüquq normaları əsas kimi qəbul edildi və bu gün də bu, belədir. Ancaq tendensiyalara və bölgədə, dünyada gedən proseslərə baxdıqda biz görürük ki, bəzi hallarda beynəlxalq hüquq normalarına kobudcasına zidd olan addımlar atılır, güc amili ön plana çıxır. Güclü kimdir, haqlı da odur. Bu, bizim seçimimiz deyildir, amma əfsuslar olsun ki, dünyada gedən proseslər bunu göstərir. Güclü olmaq üçün güclü iqtisadiyyat, hərbi sənaye potensialı və böyük əhali lazımdır. Ona görə biz bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq. Bu günə qədər bu proseslər təbii xarakter alırdı. Sadəcə olaraq, ölkə iqtisadiyyatı artdıqca təbii artım da, necə deyərlər, daha da sürətli idi. Biz statistik rəqəmlərdə bunu görürük. Son illər ərzində doğulan uşaqların sayı daha da çoxdur, nəinki 10-15 il bundan əvvəl. Yəni, bu, iqtisadi və sosial amillərlə birbaşa bağlı olan məsələdir. Ancaq yenə də deyirəm, biz bu məsələyə yeni prizmadan yanaşmalıyıq. Azərbaycan əhalisi daha da sürətlə artmalıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, onu da qeyd etmək istəyirəm ki, son müddət ərzində Xocalı soyqırımını soyqırımı kimi tanıtdırmaq üçün biz – həm dövlət, hökumət, diplomatiyamız, ictimai təşkilatlar, diaspor təşkilatlarımız çox böyük işlər görmüşük. Bu, çox vacib və çox önəmli məsələdir. Artıq üç ölkə – Kolumbiya, Meksika və Pakistan Xocalı soyqırımını soyqırımı kimi rəsmi qaydada qəbul etmişdir. Əminəm ki, bu proses davam etdirilməlidir və etdiriləcəkdir. Həm səfirliklərimiz, əlbəttə ki, dövlət qurumları, ictimai təşkilatlar bu məsələ ilə bağlı öz səylərini davam etdirəcəklər. Getdikcə Xocalı soyqırımını soyqırımı kimi tanıyan ölkələrin sayı daha da çoxalacaqdır.

**10 sentyabr –** Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə ATƏT-in üzvü olan ölkələrin səfirlərini qəbulu zamanı demişdir: "...Təkcə bizim üçün

deyil, həm də bütün dünya üçün əsas narahatlıq doğuran məsələ Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsidir. Münaqişə, onun başlanması səbəblərinin təfərrüatlarına varmaq istəməzdim. Siz bunu yaxşı bilirsiniz. Lakin bu iki məsələyə diqqətinizi yönəltmək istərdim. Azərbaycan erməni təcavüzünün qurbanıdır. Bu, danılmaz faktdır. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini işğal altında saxlamaqda davam edir.

Bildiyiniz kimi, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən bu ərazidə azərbaycanlılar məskunlaşıblar. Hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir. Sovet vaxtı Dağlıq Qarabağ muxtar vilayət olub, hətta muxtar respublika belə olmayıb, o, Ermənistanla inzibati sərhədlərə belə malik deyil. Beləliklə, Dağlıq Qarabağ Azərbaycanın ərazisi daxilində yerləşir və münaqişə başladıqda orada yaşayan insanların etnik tərkibi 75-25 faiz nisbətində idi. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulublar. Ermənistan 7 ətraf rayonda etnik təmizləmə siyasəti aparıb. Halbuki orada heç bir zaman erməni əhalisi yaşamayıb. Nəticədə bizim Dağlıq Qarabağın ətrafındakı rayonlardan 750 mindən çox, Qarabağın özündən 40 min, Ermənistandan qovulan 200 mindən çox qaçqın və köçkün soydaşımız var. Bu rəqəmlər aydın məsələdir ki, münaqişənin başlandığı, etnik təmizləmə aparıldığı dövrə aiddir. Keçən dövr ərzində məcburi köçkün ailələrdə demoqrafik artım baş verdiyinə görə bu rəqəmlər də artmaqdadır.

Dağlıq Qarabağın ətraf rayonları dağıdılıb. ATƏT iki missiya göndərib. Birincisi faktaraşdırıcı, ikincisi isə qiymətləndirmə missiyalarıdır. Onlar hər şeyin dağıdıldığını təsdiq ediblər. Bizim şəhərlər kimsənin yaşamadığı kabus şəhərlərinə çevrilibdir. Bütün infrastruktur darmadağın edilib, bütün qəbiristanlıqlar, məscidlər və tikililər yerlə-yeksan olunub. Bu, Ermənistan tərəfindən, gəlmələr tərəfindən törədilib. Bu, münaqişənin real mənzərəsidir.

Beynəlxalq ictimaiyyət məsələnin həllində fəal iştirak edir. Bizim məsələni həll etmək üçün hərtərəfli hüquqi bazamız vardır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır. Onların heç biri yerinə yetirilməyib. ATƏT-in qərarları, Lissabon sammiti və digər qərarlar, hamımız bunları xatırlayırıq. Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda, NATO-nun Çikaqoda keçirilmiş sammitində də bu məsələyə baxılıb. Münaqişənin həlli beynəlxalq hüquq normaları və Helsinki Yekun Aktına əsaslanmalıdır. Ermənistan prezidentinin, mənim

və Rusiya Prezidenti Dmitri Medvedevin tərəfindən imzalanmış Mayndorf bəyannaməsində də göstərilir ki, münaqişə beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında həllini tapmalıdır. Bu qərar və qətnamələr birmənalıdır.

Məsələnin həlli ilə bağlı Helsinki Yekun Aktına da istinad edilir. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyin etmə prinsipi arasında balans açıq-aydın göstərilir. İnsanların öz müqəddəratını təyin etmək hüququ ərazi bütövlüyü prinsipinə xələl gətirməməlidir. Üstəlik, ermənilər artıq bir dəfə öz müqəddəratlarını təyin ediblər, Ermənistan dövlətini yaradıblar və bu dövlət tarixən azərbaycanlılar tərəfindən məskunlaşmış ərazidə yerləşir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılandan bir gün sonra İrəvan şəhərinin Ermənistan dövləti üçün paytaxt şəhəri olmasına razılıq vermişdi. Çoxları bundan xəbərsizdir, lakin bu, həqiqətdir. Biz daha bir erməni dövlətinin Azərbaycan ərazisində yaradılmasına icazə verməyəcəyik. Bu, qeyri-mümkündür. Ermənistan anlamalıdır ki, onların maksimalist yanaşması, Dağlıq Qarabağ üçün müstəqillik tələb etmələri mümkünsüzdür. Bunu heç kim dəstəkləməyəcəkdir. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma “seçkilər” beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb, Dağlıq Qarabağı heç kim tanımır.

Azərbaycan Dağlıq Qarabağı heç vaxt tanımayacaqdır. Buna görə də Ermənistanın irəliləyiş əldə etmək üçün ən yaxşı variantı 2009-cu ilin sonunda ATƏT-in Minsk qrupunun təqdim etdiyi təkliflərə qayıtmaqdır. Azərbaycan bunları dəstəkləyir. Siz bu təkliflərin nədən ibarət olduğunu bilirsiniz: işğal olunmuş bütün ərazilər Azərbaycana qaytarılmalı, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmalı, təhlükəsizlik təmin edilməlidir. Yalnız bundan sonra Ermənistan ilə əlaqələr təmin olunacaq, Dağlıq Qarabağın gələcək statusu hər iki tərəf hazır olduqda müəyyənləşdiriləcəkdir. Ermənistanın rədd etdiyi formulanı biz qəbul etmişik. Bundan sonra danışıqlar prosesi bir ildən çoxdur ki, durğunluq mərhələsinə daxil olub. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin, xüsusən də, onların status-kvonun qəbuledilməz olması barədə bəyanatı bizi çox ruhlandırdı. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin Ermənistan status-kvonu saxlamağa çalışır və danışıqlar masasında oturmaq istəmir. Onların bütün təxribatçı əməlləri və bəyanatları bir məqsəd güdür, bu da münaqişənin həllinin uzadılmasıdır. Onlar bir şeyi başa düşməlidirlər ki, status-kvonu bu neçə illər ərzində saxladıqları kimi davam etdirə bilməyəcəklər. Qüvvələr və güc

balansı dəyişir, Azərbaycan 20 il bundan əvvəlki ölkə deyildir. Azərbaycan özünü qorumaq iqtidarında olan ölkədir. Ermənistan üçün ən yaxşı çıxış yolu onun gələcəyinin regionun inkişafından asılı olduğunu anlamasıdır. Qonşular birgə yaşamağa öyrənməli və işğala son qoymalıdırlar. Hər şey işğalla əlaqəlidir. Bəzən Ermənistan liderləri deyirlər ki, Azərbaycan bu ölkə ilə bütün əlaqələrə son qoyub. Axı, siz torpaqlarımızı işğal edən ölkə ilə əməkdaşlığımızı necə gözləyə bilərsiniz?! Siz, öz ölkələrinizin bütün tarixi abidələrini darmadağın etmiş, ərazilərinizi işğal etmiş və bu işğalı davam etdirmək niyyətində olan işğalçı bir ölkə ilə əməkdaşlığı necə təsəvvür edə bilərsiniz? Bu, mümkün deyildir. İşğala son qoyulmalıdır. Ərazilərin işğaldan azad olunması prosesi mümkün qədər tez başlamalıdır. İşğaldan azad olunma prosesi başlayan kimi, biz münasibətlərin normallaşdırılması, gərginliyin kəskin dərəcədə azaldılması istiqamətində mühüm addımlar atmaq məsələsini nəzərdən keçirməyə hazırıq. Amma əvvəlcə bu proses başlanmalıdır. Sözdən əmələ keçmək lazımdır. Bu, bütün ölkələrin, eləcə də bizim, əminəm ki, Ermənistanın da marağındadır. Bütün insanlar sülh və əmin-amanlıq şəraitində yaşamalı və beynəlxalq hüquq mümkün qədər tez bərpa edilməlidir. Mən bir daha qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağa müstəqillik verilməsi məsələsi qətiyyən müzakirə mövzusu ola bilməz. Ermənistan tərəfi bunu nə qədər tez başa düşsə və maksimalist, qeyri-realist, qeyri-qanuni yanaşmalardan imtina etsə, bu, onlar üçün də, sülh prosesi üçün də bir o qədər faydalı olar. Mən indi çıxışımı yekunlaşdırmalıyam, çünki bu münaqişə ilə bağlı çox danışa bilərəm, amma söhbətimizi fikir mübadiləsi şəklində davam etdirməyi daha məqsədəuyğun hesab edirəm.

**22 sentyabr –** Azərbaycan Prezidenti İlham Əliyev diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsindəki nitqində. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunaraq bildirmişdir: “...Hazırda əgər onlar danışıqlar masasında olan varianta razılıq verərlərsə və işğal edilmiş torpaqlardan qoşunlarını çıxarарlarsa, o zaman öz xalqının gələcəyini təmin etmiş olarlar. Çünki onları gələcəkdə böyük təhlükələr gözləyir. Dünya dəyişir, bölgədə gedən proseslər sizə bəllidir. İstisna edilmir ki, vaxt gələcək və hər bir ölkə təkbaşına öz maraqlarını müdafiə etmək zorunda qalacaqdır. Azərbaycan buna hazırdır. Çünki onsuz da biz iyirmi il ərzində təkbaşına mübarizə aparırıq. Bəzi hallarda bizdən qat-qat böyük qüvvələr qarşısında öz

maraqlarımızı təmin edirik, heç kimin qarşısından geri çəkilmirik". Dövlət başçısı İlham Əliyev demişdir: "...Regionda baş verən bəzi son hadisələr onu göstərir ki, bizim maraqlarımızı nəzərə almadan bölgədə siyasi təşəbbüslər icra edilə bilməz. Biz ən böyük sınaqlardan üzüağ çıxmışıq. Biz təkbaşına mübarizəyə nəinki hazırıq, bu mübarizəni aparırıq, özümüzü dünyada təsdiq edirik, gələcəyimizi özümüz müəyyən edirik. Ermənistan isə aydın məsələdir ki, xarici yardım olmadan ümumiyyətlə, heç bir gələcəyi olmayan ölkədir...Ona görə onların xeyrinədir ki, əsassız iddialardan əl çəksinlər, özlərinə məxsus olmayan torpaqlardan çıxsınlar. O zaman bölgədə sülh, əməkdaşlıq yaranar. O zaman Ermənistan da regional məsələlərə qoşula bilər".

**10 oktyabr –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Bu yaxınlarda Qoşulmama Hərəkatının zirvə görüşündə 120 ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair qətnamə qəbul etmişdir. Bu, bizim növbəti böyük diplomatik uğurumuzdur, Ermənistanın növbəti məğlubiyyətidir. Çünki 120 ölkə dünya ictimaiyyətinin əksəriyyətini təşkil edir. Dünyada 200-dən bir qədər çox ölkə vardır. Bunlardan 120-si ərazi bütövlüyümüzü dəstəkləyir, münaqişənin həllini yalnız bu prinsiplər əsasında görür. Əgər biz NATO-nun Çikaqo sammitinin qərarlarını, bəyannamələrini nəzərə alsaq, – təbii ki, NATO-ya üzv olan ölkələr Qoşulmama Hərəkatının üzvü ola bilməz, – orada da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunması açıq şəkildə vurğulanmışdır. Bu da ermənilərin növbəti məğlubiyyəti, bizim növbəti uğurumuzdur. Yəni, dünya birliyinin dörddə üç hissəsi məsələnin həllini yalnız ərazi bütövlüyü prinsipi əsasında görür. Əlbəttə, bu, çox ədalətli mövqedir və məsələnin həlli üçün başqa mövqe, başqa variant ola bilməz. O ki qaldı xalqların müqəddəratını təyinetmə prinsiplərinə, ermənilər çalışırlar dünya birliyini çaşdırsınlar, artıq dediyim qərarlar və bəyannamələr bütün bu yalan təbliğatını alt-üst edir. Xalqların öz müqəddəratını təyinetmə prinsipləri ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Helsinki Yekun Aktının sənədlərində məsələ məhz belə qoyulubdur. Ona görə, bütün bu növbəti diplomatik uğurlar, siyasi qələbələr, Ermənistan üzrə mütləq qələbəmiz bizi daha da ruhlandırır

və məsələnin həllinə yaxınlaşdırır.

Biz daha da güclü olmalıyıq və oluruq. Beynəlxalq mövqelərimizi möhkəmləndiririk, dünya miqyasında böyük dəstəyə malikik. Mən bu yaxınlarda Azərbaycan Diplomatik Akademiyasının açılışında və ölkəmizin xaricdəki səfirləri ilə görüşdə xarici siyasətlə bağlı strateji baxışlarımı kifayət qədər geniş ifadə etdim, təkrar etmək istəmirəm. Bir şeyi demək istəyirəm ki, biz indi dünyada yeni tərəfdaşlar əldə edirik və görürük ki, bizim üçün, əməkdaşlıq üçün ənənəvi olmayan qitələrdən də Azərbaycana böyük maraq vardır. Xüsusilə Latın Amerikasından. Biz də Latın Amerikası ölkələri ilə çox sıx əlaqələr qururuq və görürük ki, bu əlaqələr çox səmimidir, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və dostluq əsasında qurulur. Münasibətlər hər bir ölkə ilə məhz bu prinsiplər üzərində qurulmalıdır. Biz bunu dəfələrlə bəyan etmişik. Mən dəfələrlə demişəm ki, Azərbaycan ancaq bərabərhüquqlu münasibətləri qəbul edir. Əgər kimsə fikirləşirsə ki, öz iradəsini bizə qəbul etdirə bilər, səhv edir. Biz ancaq bərabərhüquqlu, qarşılıqlı maraqlar, bir-birinin işinə qarışmamaq prinsiplərini qəbul edirik. Biz Latın Amerikası ölkələri ilə münasibətlərimizi məhz bu prinsiplər əsasında sıx bağlayırıq və hesab edirəm ki, həm xarici siyasət və həm də iqtisadi məsələlərin həlli üçün bu istiqamət çox perspektivlidir. Həm xarici siyasət sektoruna, həm iqtisadi məsələlərlə bağlı olan qurumlara müvafiq tapşırıqlar verilmişdir ki, biz Latın Amerikası ölkələri ilə münasibətlərimizi daha da sürətlə qurmalıyıq. Əlbəttə, ənənəvi tərəfdaşlarla da bizim dostluq münasibətlərimiz vardır. Təbii ki, bu əlaqələr davam etdiriləcəkdir.

**31 dekabr –** Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirmişdir ki, “Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Azərbaycan heç vaxt buna imkan verməyəcəkdir. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu tarixi biz yaxşı bilirik. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı – bütün bunlar bizim tarixi torpaqlarımızdır. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir və bu gün işğal altında olan bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanacaqdır”.

## 2013

**15 yanvar** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "... Eyni zamanda, keçən il beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox vacib qərarlar qəbul edilmişdir. Onların arasında Qoşulmama Hərəkatının zirvə görüşündəki yekun bəyannaməni mən xüsusilə qeyd etmək istəyirəm. Qoşulmama Hərəkatında dünyanın əksər ölkələri toplaşmışdır və Azərbaycan bu təşkilata bu yaxınlarda üzv olmuşdur. Buna baxmayaraq, iştirak etdiyimiz birinci zirvə toplantısında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə, beynəlxalq hüquq normalarına söykənən çox ciddi qətnamə qəbul edilmişdir. Orada da göstərilir ki, bu münaqişə yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu, hesab edirəm ki, bizim böyük siyasi və diplomatik uğurumuzdur. Bu, artıq başqa beynəlxalq təşkilatların bundan əvvəlki dövrdə qəbul edilmiş qətnamələrini daha da gücləndirir. Eyni zamanda, keçən il NATO-nun zirvə görüşündə də buna oxşar qətnamə qəbul edilmişdir. Orada da göstərilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkələrin ərazi bütövlüyü əsasında öz həllini tapmalıdır. Qoşulmama Hərəkatı və NATO dünyanın əksər ölkələrini birləşdirir və beləliklə, dünya birliyinin mövqeyi birmənalıdır. Bu mövqe ədalətli və beynəlxalq hüquq normalarına əsaslanan mövqedir. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağla bağlı gedən danışıqlar Ermənistanın qeyri-konstruktiv yanaşması səbəbindən indi dondurulmuş vəziyyətdədir. Ancaq prinsiplər var ki, biz bu prinsiplərdən bir addım geri çəkilməyəcəyik. Bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. İşğal edilmiş bütün torpaqlardan işğalçı qüvvələr çıxarılmalıdır. Diplomatik və siyasi əsaslar əlbəttə ki, bizim mövqeyimizi gücləndirir. Bizim mövqeyimiz həm hüquqi, həm siyasi cəhətdən sarsılmazdır. Eyni zamanda, iqtisadi gücümüz, hərbi gücümüz də yerindədir. Biz bu gücü artırırıq. Əminəm ki, Ermənistanda məsələyə real prizmadan yanaşan qüvvələr açıq-aydın dərk edirlər ki, Azərbaycan ilə bu münaqişə və bu rəqabət onlara heç də yaxşı nəticələr vəd etmir, əksinə onlar getdikcə bu mübarizədə uduzurlar. Həm beynəlxalq müstəvidə, həm beynəlxalq təşkilatlar çərçivəsində, eyni zamanda, bölgədə gedən proseslər mövqeyimizi

gücləndirir. Bu gün Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır və bizim gözəl gələcəyimiz vardır. Ermənistanın iqtisadiyyatı tənəzzülə uğrayır. Mən bu barədə bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, bu ölkənin gələcəyi böyük sual altındadır. Çünki onların işğalçı siyasəti özlərini bu vəziyyətə qoyubdur. Nə qədər ki, bu münaqişə davam edəcəkdir, onların vəziyyəti daha da ağırlaşacaqdır. Biz isə öz növbəmizdə bütün imkanlardan istifadə edib gələcəkdə də Ermənistanı sıxışdırmalıyıq. Onları onsuz da bütün layihələrdən təcrid etmişik. Bu siyasət davam etdiriləcəkdir. Buna nail olmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Biz siyasi, diplomatik, iqtisadi və hərbi imkanlardan istifadə edə bilərik və lazım gələrsə istifadə edəcəyik. Ordu quruculuğuna gəldikdə isə, deyə bilərəm ki, keçən il bu istiqamətdə də böyük işlər görülmüşdür. Ordumuzun gücləndirilməsi üçün böyük tədbirlər görülmüşdür, böyük sayda texnika, silah-sursat alınmışdır, infrastruktur yaradılmışdır. Keçən il ümumi hərbi xərclərimiz üç milyard dollardan çox idi. Bu il büdcəmizdə hərbi sahəyə ayrılan ümumi xərclər 3,7 milyard dollar səviyyəsindədir. Müqayisə üçün deyim ki, Ermənistanın ümumi büdcəsi iki milyard dollardan azdır. Əlbəttə, bu, bizə yeni imkanlar yaradır. Biz bu imkanlardan da istifadə edəcəyik. Ordu quruculuğu işində, əlbəttə, təkcə maddi-texniki təchizat rol oynamır, eyni zamanda, peşəkarlıq və nizam-intizam da öz rolunu oynayır. Həm peşəkarlıq, həm nizam-intizam artmalıdır. Ordu cəmiyyətin bir parçasıdır. Orduda xidmət edən vətəndaşlar cəmiyyətin üzvləridir. Hər bir sahədə olduğu kimi, orduda da qüsurlar, nöqsanlar ola bilər. Ən önəmli məsələ ondan ibarətdir ki, bu nöqsanlar və qüsurlar vaxtında aşkarlanır və dövlət tərəfindən ciddi ölçülər götürülür. Biz gələcəkdə də ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, peşəkarlığın, nizam-intizamın artırılması istiqamətində siyasətimizi aparacağıq. Bu gün bizim ordumuz Cənubi Qafqazda aparıcı hərbi qüvvədir. Bizim ordumuz böyük nailiyyətlərə çatıbdır. Biz heç vaxt imkan verə bilmərik ki, antimilli ünsürlər ordumuzu qaralasınlar, ləkələsinlər, ordumuza kölgə salsınlar. Biz buna heç vaxt imkan verməyəcəyəm. Azərbaycan xalqı da buna imkan verməyəcəkdir və ordumuza kölgə salmaq istəyən ünsürlərə öz layiqli cavabını verəcəkdir və verir.

**18 mart** – Bakıda Azərbaycan Hökumətinin, BMT-nin və İSESCO-nun təşkilatçılığı ilə “Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi” mövzusunda Beynəlxalq konfransda iştirak edən Azərbaycan

Prezidenti İlham Əliyev öz çıxışında demişdir: "...Fikrimcə, terrorçuluğa qarşı konfransın Azərbaycanda keçirilməsi böyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycan keçmişdə beynəlxalq terrorçuluqdan əziyyət çəkib və eyni zamanda, hazırda ölkəmiz terrorçuluğun dünya səviyyəsində qarşısının alınmasına böyük töhfə verir. Təəssüf ki, ölkəmiz 1990-cı illərin əvvəllərində erməni terror təşkilatlarının törətdiyi terror aktlarının hədəfinə çevrilmişdi. Azərbaycan vətəndaşlarına qarşı çoxlu sayda terror aktları törədilmişdir, 2 min günahsız insan qətlə yetirilmiş və təxminən bir o qədər də insan xəsarət almışdır. Azərbaycan təcavüzdən, işğaldan əziyyət çəkir. Bildiyiniz kimi, bir çox hallarda bu hadisələr təcavüzkar separatçılıqla müşayiət olunurdu. Azərbaycana qarşı təcavüzkar separatçılıq aktları və terror hücumları ölkənin beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələndi. Həmçinin, Azərbaycan etnik təmizləmə siyasətinə məruz qaldı, bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvalarından didərgin düşdü. Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə və təhlükəsizliyə ən böyük hədələrdən biridir. Bu, dünyada ən böyük ədalətsizliklərdən biridir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatlar da qətnamə və qərarlar qəbul etmişlər. Təəssüf ki, bütün bu qətnamələr kağız üzərində qalır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri iyirmi ildən artıqdır ki, işğal atındadır. Artıq qeyd etdiyim kimi, bu məsələ beynəlxalq, həmçinin regional sabitliyə və təhlükəsizliyə ən böyük hədə yaradır. Bu məsələ beynəlxalq hüquq normaları, Helsinki Yekun Aktı əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır. Biz münaqişənin dinc yolla həllinə göstərdiyimiz səyləri davam etdiririk. Lakin əfsuslar olsun ki, Ermənistan "status-kvo"nun mümkün qədər uzun müddət saxlanmasına və bacardığı qədər münaqişənin dondurulmasına çalışır. Lakin bu, mümkün olmayacaqdır. Çünki dünya dəyişir, regional tarazlıq dəyişir. Azərbaycan siyasi və iqtisadi inkişaf baxımından güclənir, Azərbaycanın qlobal miqyasda oynadığı rol artır. Buna görə mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna mümkün qədər tez nail olmaq istəyirik. Çalışırıq ki, bunu sülh yolu ilə edək.

Eyni zamanda, xalqımız XX əsrin ən böyük faciələrindən birini – Xocalı soyqırımını yaşamışdır.

1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri Xocalı şəhərinin sakinlərinə hücum etmişlər. Belə bir vəhşi hücumun nəticəsində 613 günahsız vətəndaş qətlə yetirilmişdir. Onların arasında 100-dən artıq qadın, 63 uşaq olmuşdur. Artıq dörd ölkənin parlamenti Xocalı faciəsini rəsmən soyqırımı kimi tanımışdır. Xocalı hadisələrinin soyqırımı kimi tanınması prosesi digər ölkələrdə də gedir".

**14 aprel –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bir neçə gün bundan əvvəl MDBMİ-nin forumunda mən Azərbaycanın rəsmi mövqeyini bir daha bildirmişəm. Bir daha demək istəyirəm ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıbdır, heç vaxt olmayacaqdır. Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik və çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə bu münaqişəni həll edək. Bu münaqişənin həlli beynəlxalq hüquq normaları əsasında olmalıdır, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qeyd-şərtsiz icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan çəkilməlidir. Bununla bərabər, biz bundan sonra da öz gücümüzü – siyasi, iqtisadi, hərbi gücümüzü artırmalıyıq, artırırıq və bu, bizim suveren hüququmuzdur. Bir daha demək istəyirəm, məndə heç bir şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Hər gün, hər ay bizim qələbəmizi yaxınlaşdırır. Hər ay, hər il Azərbaycan daha da güclənir, Ermənistan daha da zəifləyir. Bunu artıq bu məsələ ilə məşğul olan bütün maraqlı qurumlar, ölkələr də görür, bilir. Tarixin gedişatı, inkişafı belədir ki, Azərbaycan ilə rəqabət aparmaq Ermənistan üçün mümkün olmayacaqdır. Onların əsas ümidi xarici qüvvələrə, erməni lobbisinə, onun havadarlarına və bəzi başqa ölkələrin dairələrinədir. Bizim isə ümidimiz öz gücümüzdür – Azərbaycan xalqıdır, haqq və ədalətdir, beynəlxalq hüquqdur və artan gücümüzdür. Əminəm ki, Azərbaycan ədaləti bərpa edəcək və öz ərazi bütövlüyünü təmin edəcəkdir".

**7 may –** Bakıda keçirilən Birinci Cənubi Qafqaz Forumunun rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "...Ölkəmiz

üçün keçid dövrünün başa çatmasına baxmayaraq, Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişə nəinki bizim üçün, həmçinin regional inkişaf, sülh və sabitlik üçün ən böyük hədədir. Biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsini istəyirik. Biz beynəlxalq ictimaiyyətin tanıdığı ərazi bütövlüyümüzün bərpasını istəyirik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, Azərbaycanın qədim torpağıdır. İyirmi ildən artıqdır ki, nəinki Dağlıq Qarabağ, həmçinin onun ətrafındakı 7 rayon da Ermənistanın işğalı altındadır. Artıq iki on illikdən çoxdur ki, bu işğal davam edir. Beynəlxalq təşkilatlar işğalçı qüvvələrin çıxmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər. Onların arasında mən Azərbaycan ərazilərindən erməni qoşunlarının qeyd-şərtsiz və dərhal çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilməyib. Burada biz beynəlxalq təşkilatların və qətnamələrin effektivliyi kimi mühüm məqama gəlib çıxırıq. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri 20 ildən çoxdur ki, yerinə yetirilməyib. Biz ölkəmizi gücləndirməkdə davam edəcəyik. Siyasi və iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Nə qədər güclü olsaq, münaqişəni bir o qədər tez həll edə bilərik. Sülh bundan sonra regionda bərqərar ola bilər. Bu gün Cənubi Qafqaz haqqında danışdıqda deyə bilərik ki, Gürcüstan ilə Azərbaycan arasında gözəl əməkdaşlıq nümunəsi vardır. Lakin Cənubi Qafqazın digər dövləti ilə çox mənfi münasibətlərimiz mövcuddur. Buna görə regionda davamlı inkişafı təmin etmək üçün əlbəttə ki, Cənubi Qafqaz daha çox inteqrasiya olunmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll edilmədən və Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri azad olunmadan bu, mümkün deyildir. Bu çətinliyə və Ermənistanın təcavüzü nəticəsində dəymiş ziyana baxmayaraq, biz güclü ölkə qurmaq və insanlarımızın rifahını yaxşılaşdırmaq kimi məqsədlərə sadiq qalmışıq. Bir sözlə, 1990-cı illərin ortalarından biz diqqətimizi siyasi və iqtisadi islahatlara yönəltdik. Bu proses davam edir. Siyasi baxımdan Azərbaycan inkişaf edir, çünki müstəqilliyimizi qazandıqdan əvvəl heç bir siyasi sistem mövcud deyildi. Hazırda bizim bütün siyasi təsisatlarımız vardır, beynəlxalq ictimaiyyətin üzvüyük. Biz siyasi islahatları həyata keçiririk və cəmiyyətimizin daha da demokratikləşməsi bizim üçün əsas prioritetdir".

**21 iyun** – Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy mətbuata bəyanatlarla çıxış

etmişlər. Dövlət başçısı İlham Əliyev bildirmişdir: "...Biz ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin verdiyi bəyanatı yüksək dəyərləndiririk. Biz onlara minnətdarıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini gündəliyin əsas hissəsində saxlayırlar və onlar "səkkizlər" qrupu kimi mötəbər forumundan öz münasibətini və narahatlığını bildirmək üçün istifadə etdilər. Biz onların münaqişənin mümkün qədər tez həllinə nail olmaq üçün bütün lazımi addımların atılmasına dair verdikləri şərhləri tam dəstəkləyirik. Helsinki Yekun Aktına edilən istinad çox vacibdir. Helsinki Yekun Aktı məsələnin hansı prinsipilər əsasında həllini açıq şəkildə müəyyən edir. Xalqların öz müqəddəratını təyin etməsi ölkələrin ərazi bütövlüyünə zidd olmalı deyildir. Ermənistana gəldikdə, onlar artıq müqəddəratını təyin ediblər və Ermənistan dövləti artıq mövcuddur. Erməni xalqının ikinci dəfə öz müqəddəratını Azərbaycan ərazisində təyin etməsi qəbuledilməzdir. Azərbaycan münaqişənin beynəl-xalq hüquq normaları, o cümlədən Azərbaycanın beynəl-xalq səviyyədə tanınmış ərazilərindən Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi əsasında mümkün qədər tez həllində maraqlıdır".

**21 iyun** – Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun birgə mətbuat konfransında dövlət başçısı bildirmişdir: "...Biz münaqişənin həllinə aid məsələləri müzakirə etdik və bu baxımdan Avropa İttifaqının göstərdiyi səyləri yüksək dəyərləndiririk. Azərbaycan prosesdə ən maraqlı tərəfdir, çünki bizim torpaqlarımız işğal altındadır, nəinki Dağlıq Qarabağ, o cümlədən Dağlıq Qarabağın ətrafında yerləşən yeddi rayon da iyirmi ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Biz buna son qoymalıyıq. ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkə prezidentlərinin bu yaxınlarda Şimali İrlandiyada verdiyi bəyanat bizi çox həvəsləndirdi. Qeyd edildi ki, məsələnin həlli Helsinki Yekun Aktına əsaslanmalıdır. Hər iki tərəf danışıqlar prosesini sual altına çəkə biləcək hərəkətlərdən çəkinməlidir. Azərbaycan münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında mümkün qədər tez həllini və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistanın işğalçı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinin həyata keçirilməsini istəyir".

**18 iyul** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Eyni zamanda, bu hərbi parad son illər ərzində ordu quruculuğu işində görülmüş işlərin hesabatı idi. Əlbəttə, bilirəm ki, Azərbaycan xalqı bu paradı böyük maraqla izləmişdir və qürur hissi keçirmişdir ki, bizim belə güclü imkanımız, güclü ordumuz vardır. Eyni zamanda, bu parad Ermənistanda böyük narahatlığa səbəb oldu. Bilirəm ki, paraddan sonra orada yaşanan isterika, panika və qorxu hissi bu günə qədər hələ çəkilməyib. Bu da təbiidir, çünki düşmən Azərbaycanın qüdrətini öz gözü ilə gördü və bir daha bildi ki, biz istənilən varianta hazırıq. Biz əldə etdiyimiz texnika ilə düşmənin istənilən nöqtəsini məhv etməyə qadirik. Paradda dediyim kimi, düşmənlə istənilən dildə danışa bilərik. Bütün siyasi və diplomatik səylərlə yanaşı, bizim hərbi gücümüz Dağlıq Qarabağ məsələsinin həllində həlledici rol oynayacaqdır. Biz bundan sonra da hərbi qüdrətimizi artıracağıq, bundan sonra da ən müasir texnikanı alacağıq. Bildiyiniz kimi, bu texnikanın alınması ilə heç bir problem yoxdur. Biz müxtəlif ölkələrdən texnika alırıq, eyni zamanda, Azərbaycanda istehsal edirik. Bizimlə hərbi sahədə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqdadır. Mətbuatda rəqəmlər səslənir ki, Azərbaycan bəzi ölkələrdən 1 milyard dollar dəyərində silah alıb, bəzi ölkələrdən 1,6 milyard dollar həcmində silah alıb. Deyə bilərəm ki, bu rəqəmlər reallığı əks etdirmir. Əslində, bizim hərbi texniki əməkdaşlıq bu rəqəmlərdən bir neçə dəfə böyük rəqəmlərlə ölçülür. Sadəcə olaraq biz bu rəqəmləri açıqlamırıq. Vaxtaşırı xarici mətbuatda gedən məlumatlara şərh veririk. Amma biz bütün məlumatları açıqlaya bilərik. Çünki bizim dövlət büdcəmiz şəffafdır, bütün xərclərimiz də açıqdır. Ermənistan xalqı isə hesab edərəm ki, bundan qorxmamalıdır. Ermənistan xalqı öz rəhbərliyindən qorxmalıdır. Onların fəaliyyətindən qorxmalıdır. Qaniçən, gözü doymayan, korrupsiyaya uğramış, kriminal hakimiyyətdən qorxmalıdır ki, bu hakimiyyət onları bu vəziyyətə salıb. Bu hakimiyyətin fəaliyyəti nəticəsində hər il 100 minə qədər erməni öz ölkəsini həmişəlik tərk edir. Belə getsə 5-6 ildən sonra orada 1 milyondan az əhali qalacaqdır. Bu günah bilavasitə Ermənistanın rəhbərliyi üzərinə düşür. Çünki onların işğalçı və yırtıcı siyasəti, onların qaniçən, gözü doymayan mahiyyəti Ermənistanı bax bu fəlakətə gətirib çıxarıbdır. Biz isə inamla qabağa gedirik.

Biz güclü dövlətik. Bizim gücümüz getdikcə artacaqdır. Bu gücü daha da möhkəm etmək üçün biz daha da fəal işləməliyik.

**18 sentyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında mərasimində çıxışında demiş etmişdir: "...Son dövrlərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmışdır. Bu işdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır. Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılması Fondun bu məsələyə nə dərəcədə həssas yanaşdığını nümayiş etdirir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilmişdir. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilmiş, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınmışdır. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılmış, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılmışdır. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilmişdir".

**7 oktyabr –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı əfsuslar olsun ki, son aylar ərzində heç bir irəliləyiş yoxdur. Ancaq biz bu aylar və əvvəlki illər ərzində Azərbaycanı böyük dərəcədə gücləndirə bilmişik. Bu gün Ermənistan ilə Azərbaycan arasındakı fərq dərinləşir, böyüyür. Azərbaycan dinamik inkişaf edən güclü dövlətdir, Ermənistan isə ildən-ilə zəifləyən və yoxsullaşan bir ölkədir. Son hadisələr bir daha onu göstərdi ki, Ermənistan öz hesabına yaşaya bilmir, asılı vəziyyətdədir. Artıq Ermənistanın yüksək vəzifəli şəxsləri də etiraf etməyə məcbur olmuşlar ki, Ermənistan öz təhlükəsizliyini özü təmin

edə bilmir. Bu, əslində iflasın etirafıdır. Bu, əslində məğlubiyyətin etirafıdır. Çünki əgər bir ölkə 22 ildir müstəqil ölkə kimi özünü təqdim etməyə çalışır, etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, o ölkə müstəqil ölkə kimi yaşaya bilməz. Sadəcə olaraq, buna vaxt lazımdır və əminəm ki, regionda gedən proseslər, güclənən Azərbaycan, tamamilə dəyişən güclər nisbəti bizi məqsədimizə çatdıracaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Mənim şübhəm yoxdur ki, belə də olacaqdır. Sadəcə, biz siyasətimizi bundan sonra da davam etdirməliyik. Bizim siyasətimiz həm tarixi ədalətə söykənir, eyni zamanda beynəlxalq hüquq normaları da bizim mövqeyimizi müdafiə edir. İqtisadi sahədə biz Ermənistandan ən azı 10 dəfə güclüyük. Hərbi sahədə də üstünlüyü əldə edə bilmişik. Sadəcə olaraq, geosiyasi vəziyyət və bölgədə gedən proseslər hələ ki, bizi sülh danışıqlarına sövq edir. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır və Ermənistan çox ciddi təhlil apararaq, real vəziyyəti dərk edərək ona aid olmayan torpaqlardan çəkiləcək və beləliklə, qan tökülmədən Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Ancaq biz onu da bilirik ki, dünyada beynəlxalq hüquq normaları bir çox hallarda kobudcasına pozulur, onlara məhəl qoyulmur, ikili standartlar mövcuddur. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri saatlar içərisində icra edilir. Bizim məsələdə isə 20 ildən artıqdır ki, bu qətnamələr qəbul edilib, amma icra edilmir və heç kim də Ermənistanı məcbur etmir ki, o qətnamələr icra edilsin. Burada əlbəttə ki, biz yenə də ikili standartlarla üzləşirik. Artıq bu, sirr deyildir. Bizim üçün çoxdan sirr deyildir. Əminəm ki, Azərbaycan xalqı da bu məsələləri yaxşı dərk edir və anlayır ki, ikili standartlar, bəzi hallarda Azərbaycana qərəzli münasibət, Ermənistana əsassız xoş münasibət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində ən böyük əngəldir. Ancaq biz öz səylərimizi davam etdirəcəyik. Biz daha da güclü olmalıyıq. Həm diplomatiyada, siyasətdə, iqtisadi, regional təşəbbüslərdə biz Ermənistanı bundan sonra da təcrid vəziyyətində saxlamalıyıq və saxlayacağıq. Ermənistanda depopulyasiya sürətlə baş alıb gedir. Hər il 80-90 min əhali azalır və belə getsə 5-10 ildən sonra bir milyondan az əhali olacaqdır və demoqrafiya özü bir çox məsələləri həll edəcəkdir. Bizdə isə demoqrafik vəziyyət çox müsbətdir. Əhali artır. Özü də əhalimizin əksəriyyəti gənclərdir, çox fəaldırlar. Beləliklə, münaqişənin həlli qaçılmazdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağda, Şuşada, Xankəndidə, işğal edilmiş digər torpaqlarda

Azərbaycan bayrağı qaldırılacaqdır. Əvvəlki çıxışlarımda qeyd etdiyim kimi, azərbaycanlılar nəinki işğal edilmiş torpaqlarda, bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bu, bizim suveren hüququmuzdur. Soydaşlarımız nəinki Dağlıq Qarabağdan, tarixi torpağımız olan İrəvandan, Zəngəzurdan, Göyçədən də zorla çıxarılıbdır, deportasiya edilibdir, 1940-1950-ci illərdə, ondan sonra 1980-ci illərdə. Bu, böyük ədalətsizlikdir. Biz o torpaqlara da qayıdacağıq, mütləq qayıdacağıq. Gənc nəsil o arzularla, o fikirlərlə yaşamalıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Ümumiyyətlə, xalqımıza məxsus olan bütün tarixi torpaqlarımızda azərbaycanlılar yaşayacaqlar, yaşamalıdırlar. Bunu etmək üçün biz indidən öz siyasətimizi aparırıq. Ona görə regionda gedən proseslərdə güclənən Azərbaycan artıq beynəlxalq amilə çevrilibdir. Ümid edirəm ki, bu, Ermənistan rəhbərliyinə çox ciddi siqnal olacaqdır ki, münaqişənin tezliklə həlli, o cümlədən onların da xeyrinədir".

## 2014

**9 yanvar** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...Xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində, əfsuslar ki, heç bir irəliləyiş olmamışdır. Ermənistan tərəfi il ərzində danışıqlar prosesini yenə də müxtəlif bəhanələrlə uzatmaq taktikasını seçmişdir. Demək olar ki, il ərzində danışıqlar prosesində heç bir irəliləyiş olmamışdır, durğunluq hökm sürmüşdür. Sadəcə olaraq ilin sonunda müəyyən canlanma müşahidə edilib. Görərik, əgər Ermənistan məsələnin həlli ilə bağlı konstruktiv mövqe nümayiş etdirərsə, qısa müddət ərzində razılaşmaya gəlmək mümkün olacaqdır. Müəyyən ümidlər, müəyyən nikbin məqamlar vardır, ancaq 2014-cü ildə biz bunları araşdıracağıq. Hər halda 2014-cü ildə Ermənistanın həqiqi niyyəti tam bəlli olacaqdır. Sözün düzü, keçən dövr nikbinliyə o qədər də əsas vermir. Çünki Ermənistan bütün danışıqlar prosesi zamanı qeyri-konstruktiv mövqe sərgiləmişdir, vaxtı uzatmaq taktikasını seçmiş və beləliklə, danışıqlar prosesini iflic vəziyyətə salmışdır. Ancaq əgər Ermənistanda realist yanaşmalar üstünlük təşkil edərsə, hesab edirəm ki, qısa müddət ərzində münaqişə ilə bağlı irəliləyiş ola bilər. Realist yanaşma isə gerçəyə, real güclər nisbətinə söykənməlidir.

Azərbaycanın artan gücü də burada öz rolunu oynayır və oynayacaqdır. Bu gün Ermənistan ilə Azərbaycan arasında müqayisə apardıqda bizim üstünlüyümüz hər bir sahədə açıq-aydın özünü büruzə verir. Bizim dövlət büdcəmiz Ermənistanın dövlət büdcəsindən 10 dəfə böyükdür. Ümumi daxili məhsul 8 dəfə, əhali 6 dəfə çoxdur. Bizim bütün potensialımız güclənir, böyüyür, artır, Ermənistanda isə həm çox ağır iqtisadi, həm də demoqrafik vəziyyət yaşanır. Deyə bilərəm ki, demoqrafik fəlakət yaşanır və bunu Ermənistanın rəsmi orqanları da təsdiq edir. Ona görə əgər Ermənistan rəhbərliyi məsələyə ciddi yanaşarsa və Ermənistan dövlətinin maraqlarını üstün tutarsa, açıq-aydın anlayar ki, Azərbaycan ilə bundan sonra rəqabət aparmaq üçün onlarda nə imkanlar var, nə də ki, potensial. Hesab etmirəm ki, hansısa bir ölkə üçün ancaq xarici yardıma arxalanmaq böyük şərəf gətirir. Hər bir ölkə hər halda çalışmalıdır ki, öz müstəqilliyini qorusun, öz seçimini müdafiə etsin, öz dövlətinin gələcəyi haqqında düşünsün. Hər halda güclər nisbəti çox ciddi şəkildə Azərbaycanın xeyrinə dəyişildi...Ümid edirik ki, danışıqlar prosesində müsbət dəyişikliklər olacaqdır. Beynəlxalq vasitəçilər çalışırlar ki, burada irəliləyiş olsun. Ancaq mən bunu qeyd etməliyəm, onların fəaliyyətinin hələ ki, heç bir nəticəsi olmamışdır. Bu da reallıqdır. Biz vasitəçilər tərəfindən, onların dövlət başçıları tərəfindən müsbət bəyanatları eşidirik. Onların içində xüsusilə qeyd etməliyəm ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının birgə bəyanatlarında status-kvonun qəbuledilməzliyi haqqında sözlər deyilmişdir. Bu, çox müsbət haldır. Eyni zamanda, onlar daim təkrarlayırlar ki, danışıqlara alternativ yoxdur. Bilirsiniz, müasir dünyada hər bir sahədə kifayət qədər alternativ vardır. Sadəcə olaraq biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll edilsin. Azərbaycan öz konstruktiv mövqeyini ortaya qoyur və ümid edirəm ki, danışıqlarla bağlı prosesdə vasitəçilər daha da fəal rol oynayacaqlar. Sadəcə olaraq Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməlidir, işğal edilmiş torpaqlardan çıxmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Razılaşmanın prinsipləri bundan ibarətdir. Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Mən buna şübhə etmirəm və buna nail olmaq üçün biz hələ ki, danışıqları davam etdirəcəyik, ancaq öz gücümüzü də artıracağıq”.

**21 mart** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Novruz bayramı münasibətilə keçirilmiş ümumxalq şənliyindəki nitqində bildirmişdir: "...Bizim xarici siyasətimiz tam müstəqildir, Azərbaycan xalqının milli maraqlarına söykənir. Biz milli maraqlarımızı şərəflə, uğurla qoruyuruq. Deyə bilərəm ki, bu gün bölgədə gedən proseslərdə Azərbaycan dövlətinin təsiri artır. Bir çox hallarda beynəlxalq layihələrin təşəbbüskarı da məhz Azərbaycan dövlətidir. Dövlət başçısı qeyd etmişdir ki, xarici siyasətimizin uğurlu olmasını BMT-də iki il bundan əvvəl aparılmış seçkilər də təsdiqləyir. Azərbaycan dünya ictimaiyyətinin mütləq əksəriyyətinin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. İki il ərzində bu təşkilatda ləyaqətlə iştirak edirdi. Dediyim kimi, beynəlxalq hüququ, ədaləti müdafiə edirdi.

Azərbaycan Prezidenti demişdir: "Xarici siyasətlə bağlı əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Uzun illərdir ki, beynəlxalq hüquq, ədalət pozulur. Çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bizim tarixi, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər Azərbaycan xalqının mədəniyyətini, tarixini əks etdirir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın böyük bir hissəsi qədim Azərbaycan torpaqlarıdır. Tarixi ədalət, beynəlxalq hüquq pozulub. Çünki bütün dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Azərbaycanın ərazi bütövlüyü bu məsələnin həllində əsas rol oynayacaqdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Bu, beynəlxalq hüququn əsas baza prinsipləridir və Helsinki Yekun Aktında məhz bu prinsiplər əsas götürülmüşdür. Mən əminəm ki, bu münaqişə ədalətli və beynəlxalq hüquq əsasında öz həllini tapacaq, Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa edəcəkdir. Biz azərbaycanlılar Dağlıq Qarabağa, işğal edilmiş digər torpaqlara və bütün tarixi Azərbaycan torpaqlarına qayıdacağıq. Mən buna əminəm, buna şübhə etmirəm və buna nail olmaq üçün biz daha da güclü olmalıyıq".

**13 aprel** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "...

Beynəlxalq məsələlərlə bağlı bizim əsas məsələmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, birinci rübdə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Baxmayaraq ki, keçən ilin sonlarında vasitəçilərin müəyyən nikbin fikirləri olmuşdur. Ancaq onlar özünü doğrultmur. Bu gün biz yenə də onun şahidiyik ki, Ermənistan sadəcə olaraq vaxt uzatmaqla məşğuldur. Nə hərb, nə sülh vəziyyətini saxlamaq istəyir və beynəlxalq vasitəçilər əfsuslar olsun ki, onlara ciddi təzyiq etmirlər. Əslində çoxdan Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməli idi. Çünki Ermənistan artıq iyirmi ildir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisini işğal altında saxlayır. Dinc əhaliyə qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımını törətmişdir. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıbdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi pozulur. Yəni, heç bir başqa buna oxşar halda bu qədər ədalətsizlik və qanun pozuntusu olmamışdır. Beynəlxalq normalar pozulur. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir. Digər beynəlxalq təşkilatların – Avropa Şurası, Avropa Parlamenti, ATƏT, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri icra edilmir. Onlara məhəl qoyulmur. Minlərlə Azərbaycan vətəndaşı həlak olubdur. Bizə qarşı soyqırımı törədilibdir. Nəticə etibarilə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmir. Sual olunur nə üçün? Nə vaxta qədər biz bu ikili standartlarla üzləşəcəyik? Bunun səbəbi nədir? Nə üçün qondarma "Dağlıq Qarabağ respublikası"nın rəhbərləri sanksiyalardan əziyyət çəkmir? Nə üçün onlara qarşı sanksiyalar tətbiq olunmur? Bu, ədalətsizlikdir, ikili standartlardır. Ona görə biz beynəlxalq münasibətlərdə ikili standartlara qarşı öz etiraz səsimizi ucaldırıq. Bizimlə əməkdaşlıq edən Qərb ölkələrinin rəhbərlərindən xahiş edirik ki, qondarma "Dağlıq Qarabağ respublikası"nın "rəhbərləri"ni öz ölkələrinə buraxmasınlar. Onlara qarşı sanksiyalar tətbiq edilsin. Onlar gedib qanunsuz telemarafonlar keçirirlər, pullar yığırlar. Sonra o pulları bizim əleyhimizə istifadə edirlər. Onların "rəhbərləri"ni Qərbin aparıcı ölkələrində qəbul edirlər. Vizalar verilir, onlar orada "nümayəndəliklər" açırlar, gedib-gəlirlər. Nə üçün? Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə bağlı fikrimizi daha da açıq şəkildə ifadə edək. Biz bu ikili standartlardan yorulmuşuq. Bu qədər ədalətsizliyə dözmək mümkün deyildir. Nə üçün təcavüzkar bu günə qədər qınaq obyektinə çevrilməyib?! Nə üçün Avropa Şurası Parlament Assambleyasında Ermənistan nümayəndə heyətinin səlahiyyətlərini dayandırmaq məsələsi müzakirə edilmir?! Biz bu məsələni

dəfələrlə qaldırmışıq. Yadımdadır ki, hələ 2001-ci ildə mən Azərbaycan Milli Məclisinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi, dəfələrlə bu məsələni qaldırmışam. Buna heç kim heç bir reaksiya vermir. Deyirlər, gedin razılaşın, gedin danışın, sülh yolu ilə həll edin bunu. Bizə qarşı etnik təmizləmə aparılmışdır, soyqırımı törədilmişdir. Azərbaycanlılar Dağlıq Qarabağdan qovulandan sonra orada dırnaqarası referendum keçirilmişdir. Hesab edilir ki, bu məqbuldur. Buna dözmək mümkün deyildir. Bizə qarşı olan ədalətsizliyi faktlarla, dəlillərlə ifşa etməliyik. Hesab edirəm ki, bu prinsipial mövqe həm ədaləti bərpa edəcək, həm də ki, riyakar siyasəti ifşa edəcəkdir. Bizə qarşı riyakar siyasət, ikili standart siyasəti davam edir. Biz isə bununla heç vaxt barışmayacağıq. O ki, qaldı münaqişənin həllinə, heç kim üçün sirr deyil, bu gün dünyada əsas amil güc amilidir. Bu, reallıqdır. Ona görə biz daha da güclü olmalıyıq və ilk növbədə hərbi gücümüzü artırmalıyıq. Bir daha bu məsələni müzakirə edərkən görürük ki, biz nə qədər düzgün addım atmışıq, ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlamışıq. Uzun illər ərzində alınan silahlar, texnikalar, sursatlar bu gün bizim gücümüzü böyük dərəcədə artırmışdır. Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır. Eyni zamanda, bu yaxınlarda Naxçıvanda olarkən oradakı yeni texnikanın nümayişi də göstərir ki, Naxçıvan ordusu da bu gün dünya ordularında olan ən müasir texnikaya malikdir. Artıq orada həm müasir artilleriya qurğuları, döyüş və nəqliyyat helikopterləri, tank əleyhinə qurğular, hava hücumuna qarşı qurğular, ən müasir "T-72", "T-90" tankları və digər hərbi silah-sursat vardır, daha da artacaqdır. Biz daha da güclü olmalıyıq və olacağıq".

**25 aprel** – Azərbaycan Prezidenti İlham Əliyev Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə çıxışında demişdir: "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub. Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli,

Zəngilan, Qubadlı, Cəbrayıl – Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə, 7 Azərbaycan rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq bu günədək davam edir. Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir. Eyni zamanda, onlar Azərbaycanı qeyri-konstruktiv yanaşmada günahlandırmaqda davam edirlər. Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada – Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti var, onlar öz müqəddəratını təyin edib. Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu, həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir.

**18 may** – Azərbaycan Prezidenti İlham Əliyev “The Business Year” jurnalına müsahibəsində demişdir ki, xarici siyasətimizin təməlində Azərbaycanın milli maraqlarının qorunması dayanır ki, bu istiqamətdə bütün lazımi addımlar atılacaqdır. Dövlət başçısı demişdir: “...Təəssüflə qeyd etməliyəm ki, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bu günə kimi ciddi bir irəliləyiş olmamışdır. Ermənistan tərəfi danışıqlar prosesini müxtəlif bəhanələrlə uzatmaqda davam edir və mövcud status-kvonun saxlanmasına çalışır. Düzdür, ötən ilin sonunda danışıqlar prosesində nisbi canlanma müşahidə edilmişdir. Buna görə də güman etmək olar ki, 2014-cü ildə bu proses davam etdiriləcəkdir. Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ediləcəkdir. Münaqişə davam etdikcə Ermənistan dövləti bölgənin bütün

transmilli və regional inkişaf layihələrindən kənarda qalacaq, erməni xalqının vəziyyəti pisləşməkdə davam edəcək və ölkənin olub-qalan sosial-iqtisadi potensialı tükənəcəkdir”.

**21 may** – Azərbaycan Prezidenti İlham Əliyev Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin dördüncü Zirvə Toplantısında demişdir: “...Asiyada təhlükəsizlik tədbirləri qlobal təhlükəsizliyin bir hissəsidir. Biz təhlükəsizlik tədbirlərinə kompleks yanaşmanın tərəfdarıyıq. Terrorizmə qarşı mübarizə, regional, enerji, nəqliyyat və informasiya təhlükəsizliyinin təmin olunması, dondurulmuş münaqişələrin həlli kimi məsələlər bir-biri ilə sıx bağlıdır və bəşəriyyətin təhlükəsizliyi üçün vahid mövqenin ortaya qoyulmasını zəruri edir. Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsini dəstəkləyir. Azərbaycan özü terrorizmin qurbanı olub. Təkcə müstəqillik illərində erməni terror təşkilatları Ermənistanın dövlət qurumlarının rəhbərliyi ilə Azərbaycana qarşı 30-dan artıq terror aktı törədiblər ki, bunun da nəticəsində 2000-dən çox insan həlak olub. Bu terror aktları Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsidir. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi, tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 1992-ci ilin fevral ayında erməni silahlı qüvvələri Xocalıda dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Bu soyqırımı nəticəsində 613 günahsız insan qətlə yetirilmişdir. Bu gün dünyada 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanımışdır. Beynəlxalq birlik və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Mən, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üzvü olan dövlətlərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllini dəstəklədiklərinə görə təşəkkür edirəm.

ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda bu günə qədər irəliləyiş əldə edilməyib. Ermənistan münaqişənin həllində maraqlı

deyil. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

**8 iyul** – Azərbaycan Prezidenti İlham Əliyev diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsindəki nitqində bildirmişdir: "... Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Siz bunu yaxşı bilirsiniz. Digər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. Yəni, bu, artıq çox möhkəm hüquqi zəmindir. Düzdür, bu, hələ ki, real nəticəyə çevrilməmişdir. Ancaq bu tarixi və hüquqi zəmin vardır. Belə olan halda təbii ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılması qətiyyən mümkün deyildir. Əlbəttə ki, Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikasını" müstəqil qurum kimi tanımayacaqdır. Orada keçirilən qanunsuz referendumlar dünya birliyi tərəfindən tanınmayıb və tanınmayacaqdır. Məsələnin həlli ölkəmizin ərazi bütövlüyü çərçivəsində olacaqdır. Başqa variant yoxdur! Mən bunu bir daha bəyan etmək istəyirəm. Heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir! Biz sadəcə olaraq istəyirik ki, bunu nə qədər mümkündürsə tez edək. Ancaq edəcəyik".

**10 iyul** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "... Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlər həm praktik nöqteyi-nəzərdən, eyni zamanda, gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələlərdir. Bu yaxınlarda səfirlərlə görüşdə bu məsələ ilə, ümumiyyətlə, xarici siyasətlə bağlı sözlərimi kifayət qədər geniş demişəm, təkrar etmək istəmirəm. Sadəcə olaraq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü beynəlxalq hüququn əsas norma və prinsipidir. Dağlıq Qarabağ münaqişəsi ancaq bu prinsip çərçivəsində öz həllini tapa bilər.

**6 avqust** – Azərbaycan Prezidenti İlham Əliyevin Ağdamdakı "N" saylı

hərbi hissədə hərbçilərlə görüşmüş və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış edərək demişdir: "Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan ordusu düşmənin istənilən obyektini məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki, təmin edilir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər. Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Ancaq, eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilmişdir və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz.

Bu gün düşmən panikadadır, isterikadadır. Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəfdə nələr baş verdiyini bilək. Biz

tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin – işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər. Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti,

vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu, məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir. Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlamışdır. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70-80 min vətəndaş həmişəlik tərk edirdi. Ancaq son günlər ərzində bu köç daha da güclü olmuşdur. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər çox böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı risk altına salırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbaycan xalqı da bilsin ki, bizim necə gözəl döyüşçülərimiz, qəhrəmanlarımız var.

Sizin gələcək fəaliyyətiniz uğurlu olacaqdır. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda yaşayırıq. Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də Azərbaycan torpağıdır, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da. Ağdam şəhərini erməni quldurları, vəhşiləri yerlə-yeksan ediblər. Buradan Ağdam şəhərinin qalıqları açıq-aydın görünür. İki binadan başqa bütün binalar dağıdılıb. Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağılmış bütün şəhərləri bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapmayana qədər daim öz prinsipial mövqeyimizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır”.

**6 avqust –** Azərbaycan Prezidenti İlham Əliyev Ağdam rayonunda 632 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbənin açılışında bildirmişdir: “Azərbaycan Ordusu güclü ordudur. Bu gün Azərbaycan vətəndaşlarının, xüsusilə cəbhəyanı bölgələrdə yaşayan vətəndaşların təhlükəsizliyi tam

şəkildə təmin edilir və əlbəttə ki, bizim ordumuz istənilən vəzifəni icra etməyə qadirdir. Bu gün hərbçilərlə müşavirə keçirildi. Müvafiq tapşırıqlar verilmişdir ki, tezliklə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin. Bizim ərazi bütövlüyümüz bərpa olunacaq. Bunu deməyə əsas verən bir neçə amil var. Bütün bunlar ictimaiyyət üçün də bəllidir. Azərbaycan güclənir, möhkəmlənir. Dağlıq Qarabağ, işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb, yaradıb və yaşayacaqdır. Beynəlxalq hüquq nöqteyi-nəzərindən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və heç vaxt qondarma "Dağlıq Qarabağ" müstəqil qurum kimi tanınmayacaq. Azərbaycan dövləti heç vaxt imkan verməyəcək ki, öz ərazisində ikinci qondarma erməni dövləti yaransın. Birinci erməni dövləti Azərbaycanın tarixi torpaqlarında yaradılıbdır. O vaxt 1918-ci ildə Azərbaycan hakimiyyəti böyük güzəşt etmişdir. Ancaq düşmən bunun qədrini bilməmişdir və bizə qarşı ərazi iddiaları davam etmişdir.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində Azərbaycanda yaşanan xaos, böhran, anarxiya bu vəziyyətə gətirib çıxarıb. Torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Ancaq, eyni zamanda, Füzuli istiqamətində bir neçə kəndi geri qaytara bilmişik və indi orada həyat canlanır, quruculuq-abadlıq işləri aparılır. Yəni biz hazırda işğal altında olan torpaqlara qayıdandan sonra da bütün şəhərlərimizi, kəndlərimizi bərpa edəcəyik".

**4 sentyabr** – Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun sammitində çıxışışı zamanı bildirmişdir ki, Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır. Bununla belə, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə Azərbaycan ərazisinin iyirmi faizini təşkil edən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir.

**2 oktyabr** – Azərbaycan Prezidenti İlham Əliyev Bakıda IV Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində qeyd etmişdir ki, humanitar əməkdaşlığa, humanitar məsələlərin həllinə həmişə böyük diqqət göstərməyimizə baxmayaraq, xalqımız və dövlətimiz humanitar fəlakətlə üzləşmiş, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur: "...Bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilibdir. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xocalı soyqırımı törədilmişdir ki, yüzlərlə günahsız insan bu soyqırımının qurbanı olmuşdur. Xocalı soyqırımını 10-dan çox ölkə rəsmi şəkildə soyqırımı kimi tanıyıbdır. Bu münaqişə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və biz burada böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıbdır. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər və bu format, bu hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin düşən soydaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur, hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları işğal edilmiş torpaqlara iki dəfə ezam olunmuşdur və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıb. Bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib. Yəni, bu, böyük humanitar fəlakətdir və Azərbaycan təkbaşına, öz gücü hesabına bu humanitar məsələnin həlli, köçkünlərin yerləşdirilməsi, onları işlə təmin etmək üçün böyük işlər görüb və hələ bu işlər davam edir. Çünki köçkünlərin bir hissəsi hələ ki, ağır vəziyyətdə yaşayır. Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaqdır”.

**8 oktyabr –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: “...Əfsuslar olsun ki, bu il də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmamışdır. Bunun başlıca səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv, qeyri-səmimi davranışıdır. Ermənistan çalışır ki, maksimum dərəcədə bu məsələni uzatsın və status-kvo dəyişməz olaraq qalsın. Baxmayaraq ki, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Ancaq əfsuslar olsun ki, bu bəyanatlar havada qalır, Ermənistan buna məhəl qoymur. Bu bəyanatları səsləndirən tərəflər isə ciddi ölçü götürmürlər və belə olan halda məsələ öz həllini tapmır. Biz çalışırıq və çalışacağıq ki, bu məsələ tezliklə öz həllini tapsın. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe beynəlxalq birlik tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Bu münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bunlar məsələnin həlli üçün əsas sənədlərdir. Digər beynəlxalq təşkilatlar da müvafiq qərar və qətnamələr qəbul etmişlər. Yəni hüquqi cəhətdən bizim mövqeyimiz kifayət qədər möhkəmdir.

İqtisadi cəhətdən əlbəttə ki, Ermənistanı Azərbaycanla müqayisə etmək mümkün deyil. Azərbaycan zənginləşən, güclənən müstəqil bir dövlətdir. Əlbəttə ki, güclər nisbəti bizim xeyrimizə dəyişir, dəyişəcək. Bizim aramızdakı uçurum daha da dərinləşəcək. Ermənistanın uğurlu inkişafı üçün heç bir amil yoxdur. Çünki ölkə tənəzzülə uğrayıbdır. Nə qədər ki, Ermənistanda kriminal diktatura rejimi hökm sürür, bu ölkə öz müstəqilliyini tamamilə bir o qədər də tez itirəcəkdir. İndi də Ermənistanı müstəqil ölkə adlandırmaq mümkün deyil.

Biz isə inkişaf edirik. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bizim

kifayət qədər imkanlarımız var. Ordu quruculuğu Azərbaycanda uğurla gedir və gedəcəkdir. Üçüncü rübdə təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatına da bizim hərbçilərimiz layiqli cavab vermişlər. Onlarla işğalçı məhv edilmişdir. Onlara böyük sarsıdıcı zərbə vurulmuşdur. Sadəcə olaraq onlar çalışırdılar ki, Soçi görüşü ərəfəsində özləri üçün daha da əlverişli mövqe əldə etsinlər. Ancaq onların səyləri iflasa uğradı və nəticə etibarilə erməni əsgərləri məhv edildi. Bunun da əsas günahkarı Ermənistanın kriminal rejimidir.

Bir də demək istəyirəm ki, bizim prinsipial mövqeyimizə heç bir qüvvə təsir edə bilməz. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Siyasi, diplomatik, iqtisadi, hərbi amillər burada əsas rol oynayır. Mən dəfələrlə demişəm, bir də demək istəyirəm ki, demoqrafik amil də az rol oynamır. Ermənistanın rəsmi statistikasına görə, təkcə bu ilin doqquz ayında ölkə əhalisi 80 min nəfər azalıbdır. Yəni 80 min erməni vətəndaşı ölkədən gedib və qayıtmayıb. Bu meyl ilin sonuna qədər davam edəcək və beləliklə, Ermənistanda 100 mindən artıq əhali azalacaqdır. Azərbaycan əhalisi isə artır və artacaq. Bu da öz növbəsində gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacaq. Ermənistan vətəndaşlarının kütləvi şəkildə ölkədən getməsinin bir neçə səbəbi var: korrupsiya, diktatura rejimi, biznes imkanlarının məhdud olması, işsizlik, yoxsulluq. Əlbəttə ki, təmas xəttində son hadisələrdən sonra bu kütləvi köç daha da geniş vüsət almışdır. Əgər Ermənistan bir daha təxribata əl atsa, yenə də layiqli cavab alacaq və görəcək ki, bu təxribat yeni köç dalğasına təkan verəcəkdir. Bir sözlə, bir də demək istəyirəm ki, Azərbaycan ictimaiyyəti də bilsin, biz öz prinsipial mövqeyimizdən geri çəkilməyəcəyik. Çalışırıq, çalışacağıq ki, məsələ öz həllini tapsın və tapacaqdır".

**28 noyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin "Rossiya-24" informasiya telekanalına müsahibəsində bildirmişdir: "Təəssüf ki, burada danışıqlar prosesində uğurlar barədə danışa bilmərik. Səbəb də kifayət qədər sadə və aydındır. Bizdə belə təsəvvür yaranıb və özü də bu təsəvvür cəmiyyətdə artıq kifayət qədər qərarlaşıb ki, Ermənistan sülh istəmir, bu məsələnin tənzimlənməsini istəmir, hər şeyi olduğu kimi saxlamaq istəyir. Başqa sözlə, status-kvonu saxlamaq istəyir. Hərçənd ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin – Rusiyanın, ABŞ-ın və Fransanın prezidentləri

dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir, o, dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deməkdir. Bu, münaqişənin tənzimlənməsi üçün başlıca şərtdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanındakı bütün başqa münaqişələrdən onunla fərqlənir ki, onun həlli üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri mövcuddur. Özü də bir yox, dörd qətnamə. Həmin sənədlərdə erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Artıq 20 ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir.

Ermənistan həmin qətnamələrə sadəcə məhəl qoymur. Çünki bu qətnamələrin reallaşdırılması mexanizmi yoxdur. Bu qətnamələr münaqişənin tənzimlənməsinin əsasını təşkil etməlidir, çünki başqa variant sadəcə mümkün deyil. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Dağlıq Qarabağ ona görə "dağlıq" adlanır ki, Aran Qarabağ da var. Qarabağ qədim Azərbaycan torpağıdır. Bu gün Qarabağın bir hissəsi işğal altındadır. Özü də yalnız keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarında yox, həm də keçmiş DQMV hüdudlarından kənarda yerləşən, erməni əhalinin, ümumiyyətlə, olmadığı ərazilər də işğal edilib. Biz etnik təmizləməyə məruz qalmışıq, bu gün ərazimizin xeyli hissəsi işğal altındadır.

Yəni, bu məsələnin həlli üçün hüquqi baza mövcuddur. Bu, BMT Təhlükəsizlik Şurasının qətnamələridir. Tarixi baza mövcuddur. Ona görə ki, "Qarabağ" sözünün özü Azərbaycan mənşəli sözdür, bu regionun tarixi tarixçilərə və bu mövzu ilə məşğul olanlara yaxşı məlumdur. Ermənistan isə öz hərəkətləri ilə danışıqlar prosesini hər vasitə ilə pozmağa çalışır.

Deməliyəm ki, bu il əvvəlki illərdən danışıqlar prosesinin intensiv xarakteri ilə fərqlənib. Bu il həm də onunla fərqlənib ki, Minsk qrupunun həmsədrləri olan ölkələrin rəhbərləri danışıqlar prosesində fəal iştirak ediblər, əvvəllər heç vaxt belə olmayıb. Avqust ayında prezident Putin Soçidə Azərbaycan və Ermənistan prezidentləri ilə görüş keçirdi. Sentyabr ayında ABŞ-ın dövlət katibi Kerri bizimlə analoji görüş keçirdi, oktyabrın axırında isə Fransa prezidenti Olland da Azərbaycan və Ermənistan prezidentlərini Parisdə görüşə dəvət etdi və biz həm ikitərəfli, həm də üçtərəfli diskussiyalar keçirdik. Müzakirə mövzuları arasında münaqişənin tənzimlənməsi və danışıqlar prosesi ilə yanaşı, etimad tədbirlərinin gücləndirilməsi, təmas xəttində insidentlərin azalması, tərəflərin bir-birinə daha çox etimad göstərməsi məsələləri də vardı.

Hər iki tərəf – həm erməni, həm də Azərbaycan tərəfi Paris görüşünü müsbət qiymətləndirdi və bunu açıq şərhlərində qeyd etdi. Lakin düz iki həftədən sonra Ermənistan bizim ərazimizin işğal edilmiş hissəsində qondarma hərbi təlimlər keçirməyə başladı. Özü də onlar bu təlimləri Ermənistan və hətta keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarında deyil, Azərbaycanın Ağdam rayonunun ərazisində, bilavasitə təmas xətti boyunca keçirirdilər. Ermənistanın özünün məlumatına görə, orada 47 min hərbi qulluqçu və minlərlə texnika növü iştirak edib. Sual olunur: Parisdəki müsbət görüşdən dərhal sonra provokasiyalar törətməyə nə lüzum vardı?! Üstəlik, həmin təlimlər keçirilən bir neçə gün ərzində Azərbaycan təmkin və səbir nümayiş etdirmiş, buna heç bir reaksiya verməmişdi. Görünür, erməni tərəfi bununla kifayətlənməmiş və bizim mövqelərə Mi-24 döyüş helikopterləri ilə hərbi hücum etməyə cəhd göstərmişdi. Helikopterlər praktiki olaraq bizim qoşunların mövqelərinə hücum edəndə ordumuz onlardan birini vurmağa məcbur oldu. Yəni, bu, bizi cavab tədbirlərinə təhrik etmək və bununla da danışıqlar prosesini yenidən pozmaq üçün bundan bir bəhanə kimi istifadə etmək məqsədilə şüurlu surətdə törədilən fitnəkarlıq idi.

Zənnimcə, ATƏT-in Minsk qrupu ermənilərin bu fitnəkarlığına daha dəqiq münasibət bildirməli və onların belə hərəkətlərini pisləməli idi. Lakin bu, baş vermədiyinə görə onlar bildiklərini edirlər. Buna görə 2015-ci ildə tənzimləmənin perspektivləri bir neçə amildən asılı olacaq və həmin amillərdən biri vasitəçilərin erməni tərəfini buna inandırmağı bacarmalarıdır ki, münaqişənin tənzimlənməsi onların da xeyrinədir".

**4 dekabr –** Parisdə səfərdə olan Azərbaycanın birinci xanımı, Milli Məclisdə Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fransa Senatının sədri Jerar Larşe ilə görüşündə bildirdi ki, Azərbaycan regionda sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdır. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli müstəsna əhəmiyyətə malikdir. Ancaq 23 ildən artıqdır ki, davam edən sülh danışıqları Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə heç bir müsbət nəticə verməyib. Fransa Prezidenti Fransua Ollandın təşəbbüsü ilə cari ilin oktyabrında Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə keçirilmiş Paris görüşündən sonra Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarında irimiqyaslı hərbi təlimlər keçirib. Bu da Ermənistanın təxribat xarakterli addımı idi. Bu cür addımlar sözsüz ki,

münaqişənin sülh yolu ilə həllinə əngəl törədir. Azərbaycanın birinci xanımı ölkəmizin bu münaqişənin beynəlxalq hüquq normaları əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu bir daha diqqətə çatdırdı. Ümidvar olduğunu bildirdi ki, münaqişə tezliklə öz ədalətli həllini tapacaq, işğal olunmuş ərazilərimiz azad ediləcək, qaçqın və məcburi köçkünlərimiz doğma yurd-yuvalarına qayıdacaqlar.

**2015**

**10 yanvar –** Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2014-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində 2014-cü ildə heç bir nəticə olmamış və keçən il də Ermənistan sadəcə olaraq danışıqlar prosesində imitasiya taktikasını seçmişdir: "…Hesab edirəm, bu, artıq nə bizim üçün, nə də vasitəçilər üçün sirr deyil ki, Ermənistan sülh istəmir. Ermənistan istəyir ki, bu münaqişə öz həllini tapmasın və işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə demişlər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözlərdən başqa bir şey deyil. Sadəcə olaraq sözlərdir və bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə, – bu, əlbəttə ki, qəbuledilməzdir, – onda bir tədbir görülməlidir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O, məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Yoxsa bu da riyakarlığın bir növüdür. Bir bəyanat verilir, onun arxasında iş görülmür. Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, bu, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, maraqlıdır bu münaqişə dondurulmuş, yarıdondurulmuş vəziyyətdə qalsın və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etsinlər. Son illərdə müxtəlif bölgələrdə – Avropada, Yaxın Şərqdə gördüyümüz mənzərə bax, bu mövqeyi, bu yanaşmanı daha da gücləndirir. Proseslərdən belə nəticə çıxır. Ona görə,

buna da aydınlıq gətirilməlidir ki, biz nə vaxta qədər bu ikili standartlarla üzləşəcəyik?!"

Bununla bərabər, dövlət başçısı bildirmişdir ki, Ermənistan keçən il yay aylarında və ilin sonunda bir neçə dəfə açıq təxribatlara əl atmış və hər iki dəfə Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtmuş, yay aylarında 50-dən çox işğalçı məhv edilmiş, noyabr ayında isə ermənilərin təxribatı cavabsız qalmamışdır: "Bütün bu təxribatların nəticəsində baş verən hadisələrə görə Ermənistan rəhbərliyi – kriminal, diktatura rejimi məsuliyyət daşıyır. Ermənistanın bugünkü acınacaqlı vəziyyətinə görə də bu ölkənin indiki və əvvəlki rəhbərliyi bilavasitə cavabdehlik daşıyır. Çünki məhz onların işğalçı siyasətinə görə Ermənistan müstəqil ölkə kimi özünü göstərə bilməmişdir. Faktiki olaraq heç müstəqilliyi əldə etməmişdir. Sadəcə olaraq bu, formal bir məna daşıyır".

Azərbaycanın isə bu məsələdə də prinsipial mövqedə durduğunu, və bizim mövqeyimizin beynəlxalq hüquq normalarına əsaslandığını bildirən Azərbaycan Prezidenti qeyd etmişdir: "Bizim mövqeyimizi gücləndirən ordumuzdur. Bizim ordumuz keçən il öz qüdrətini, nəyə qadir olduğunu göstərdi. Düşmənə də, düşmənin havadarlarına da göstərdi ki, istənilən vaxtda Azərbaycan ordusu öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə bu məsələ öz həllini danışıqlar yolu ilə tapsa, əlbəttə ki, daha yaxşı olar. Hesab edirəm ki, bu bir neçə amilin mövcudluğu bizim mövqeyimizi daha da möhkəmləndirir".

Dövlət başçısı demişdir: "Danışıqlar prosesində heç bir irəliləyişin olmamasına baxmayaraq, mən hesab edirəm ki, keçən il Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox böyük işlər görmüşdür – həm siyasi sahədə, həm regional çərçivədə və həm də hərbi sahədə – döyüş meydanında. Biz ermənilərə elə dərs verdik ki, indiyə qədər özlərinə gələ bilmirlər, təşvişdədirlər, isterikadadırlar. İndi bizi müxtəlif beynəlxalq tədbirlərdə ittiham etməyə çalışırlar. Amma sual olunur: Erməni əsgərinin Ağdamda, Füzulidə nə işi var? Erməni ordusunun orada nə işi var? Nə üçün onlara bunu bizdən başqa heç kim açıq-aydın şəkildə demir? Bu məsələ ilə məşğul olan vasitəçilər buna nə üçün biganə yanaşırlar? Bax, bu suallar ritorik suallardır. Biz bilirik nə üçün. Amma yenə də biz bu sualları hər bir tədbirdə, hər bir forumda verməliyik. Dövlət məmurları, ictimai xadimlər, deputatlar, adi vətəndaşlar, vətəndaş cəmiyyətinin üzvləri bu sualları verməlidirlər. Qoy, bu suallara, ikili standartlar siyasətinə,

ermənipərəst siyasətinə görə cavab versinlər. Yoxsa bu qədər riyakarlığa artıq dözmək çətindir. Hesab edirəm ki, artıq burada diplomatik dillə danışmağa da heç ehtiyac yoxdur. Bir daha demək istəyirəm, həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik. 2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni, növbəti illərdə ancaq bu proses daha da sürətlə gedəcək".

**14 yanvar** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edtmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər geniş müzakirə olunmuş görüşdə Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan münaqişənin tez bir zamanda sülh yolu ilə nizamlanmasında maraqlıdır və ölkəmiz beynəlxalq birlik tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsi istiqamətində irəliləyişə nail olunması üçün səylərini əsirgəmir.

Bu prosesdə Ermənistanın da konstruktiv mövqe nümayiş etdirməsinin vacibliyini qeyd edən dövlət başçısı bu vəziyyətin uzun zaman davam etdirilməsinin yolverilməz olduğunu bildirərək münaqişənin ədalətli həlli istiqamətində Minsk qrupunun həmsədrlərinin, həmçinin beynəlxalq təşkilatların, o cümlədən Avropa İttifaqının və onun müxtəlif qurumlarının daha fəal addımlar atmasının vacibliyini vurğulamışdır.

**29 yanvar** – AŞPA-da Dilqəm Əsgərov və Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair qətnamə layihəsi irəli

sürülmüşdür. Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş və Ermənistanın işğal edilmiş ərazilərimizdə formalaşdırdığı separatçı rejimin "birinci instansiya məhkəməsi" tərəfindən azadlıqdan məhrum olunmuş Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair qətnamə layihəsi hazırlayanaraq, AŞPA katibliyinə təqdim edilmişdir. AŞPA-nın prosedur qaydalarına əsasən qətnamə təklifi ən azı 5 üzv dövləti təmsil edən 20 deputat tərəfindən imzalandıqdan sonra gündəliyə daxil edilir. Təqdim olunan qətnamə layihəsinə isə 24 ölkəni təmsil edən 46 deputatın imza atması haqq-ədalətin bu günahsız insanların tərəfində olduğunun göstəricisidir.

Dilqəm Əsgərov və Şahbaz Quliyev 2014-cü ilin iyun ayında Azərbaycanın işğal altında olan Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülmüş və onun cəsədi sonradan Azərbaycan tərəfinə verilmişdir. Bu torpaqlar hüquqi baxımdan Azərbaycan əraziləridir və Azərbaycan vətəndaşları öz ölkələri hüdudlarında sərbəst hərəkət etmək hüququna malikdirlər.

Burada cinayət törədən tərəf Ermənistandır. Bu təcavüzkar dövlət tərəfindən Azərbaycan ərazilərinin 22 ildən artıq davam edən bu işğalı beynəlxalq hüquq normaların pozulması deməkdir. Digər tərəfdən, beynəlxalq hüquqa əsasən işğalçı Ermənistan təkcə Azərbaycan qarşısında deyil, ümumiyyətlə dünya ictimaiyyəti qarşısında beynəlxalq-hüquqi məsuliyyət daşımalıdır. Göründüyü kimi, cinayət törədənlər öz ata-baba yurdlarını ziyarət etmək istəyən Dilqəm Əsgərov və Şahbaz Quliyev deyil, əksinə onları girov götürən və Həsən Həsənovu qətlə yetirən Ermənistan tərəfidir.

Ermənistanın işğal etdiyi ərazilərdə formalaşdırdığı separatçı rejim heç bir dövlət və beynəlxalq təşkilat tərəfindən tanınmayıb və hüquqi baxımdan qeyri-legitimdir. Bu baxımdan onun formalaşdırdığı "məhkəmə" də qeyri-legitim sayılır. Belə qeyri-legitim "birinci instansiya məhkəməsi" 2014-cü il dekabrın 19-da D.Əsgərovu ömürlük, Ş.Quliyevi isə 22 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib. Qətnamə layihəsində bu qərarın qeyri-qanuni olduğu əsaslandırılır və vurğulanır ki, "İki hökm çıxarmış "məhkəmə" tanınmamış separatçı siyasi təsisat tərəfindən yaradıldığına görə nə hər hansı dövlətin məhkəmə orqanı tərəfindən hüquqi şəkildə tanınmır, nə

də ümumi yurisdiksiya məhkəməsi proseslərinin əsaslandığı təməl prinsiplərə uyğun gəlmir. Belə ki, bu "məhkəmədə" həmin tanınmamış separatçı siyasi təsisatın insan hüquqlarına, yaxud hüququn aliliyinə zəmanət verən beynəlxalq müqavilələrə qoşulmasından irəli gələn nəzarət və əsas qaydalar mövcud deyildir. Məlumdur ki, D.Əsgərov və Ş.Quliyev qanunsuz olaraq saxlanılmışlar və onlar üzərində qurulan məhkəmə saxtadır. Odur ki, qətnamə layihəsinin əsas məqsədlərindən biri işğalçı Ermənistanın yaratdığı separatçı rejim tərəfindən qurulan saxta məhkəmə oyununu ifşa etmək və beynəlxalq aləmə çatdırmaqdan ibarətdir.

Qətnamə layihəsində, həmçinin D.Əsgərovun və Ş.Quliyevin qanunsuz saxlanılması və məhkum edilməsinə görə məsuliyyət daşıyan bütün tərəflərdən bu şəxslərin dərhal azadlığa buraxılmasına və hüquqlarının bərpasının təmin olunmasına çağırış edilir.

**7 fevral** – Azərbaycan Prezidenti İlham Əliyev 51-ci Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsində iştirak etmişdir.

(Bax! Sual verən kimdir?) Ukraynada üzləşdiyimiz böyük bir böhranın bəzən unutduğumuz dondurulmuş münaqişələrin həll edilməsi üçün yaxşı təşəbbüslərə təkan verə biləcəyinə dair kifayət qədər nikbinsinizmi sualına dövlət başçısı İlham Əliyev cavab verərkən demişdir: "Əlbəttə, Ukraynadakı faciəvi vəziyyət uzun illərdir davam edən və həlli uzanan digər münaqişələrə də diqqəti yönəldir. Bizim timsalımızda Ermənistan və Azərbaycan arasında münaqişənin 20 ildən çox tarixi var. Bu münaqişə hətta Sovet İttifaqı dağılmamışdan əvvəl başlamış və dağılandan sonra daha da kəskinləşmişdir. Münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı ilə nəticələnmişdir. Ərazilərimizin 20 faizi işğal altındadır və Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ zəbt olunub. Dağlıq Qarabağdan bütün azərbaycanlılar zorla çıxarılıb. 700 min nəfər əhalinin yaşadığı 7 ətraf rayon da Ermənistanın işğalı altındadır. İşğal olunmuş ərazilərdə hər şey məhv edilib və biz hər hansı bir nəticə əldə etmədən 20 ildən çoxdur ki, danışıqlar aparırıq. ATƏT bu məsələ ilə məşğul olur. ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünün – Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk qrupu adlı xüsusi qrupu var. İyirmi iki ildən artıqdır ki, bu qrup fəaliyyət göstərir, lakin heç bir nəticə hasil olunmamışdır".

Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistanın üzərində

kifayət qədər beynəlxalq təzyiq yoxdur: “Biz bəzən onu görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb. Çünki Ermənistan əsasən asılı olan ölkədir. Bu ölkə özünü təmin edə bilmir. Onlar inkişaf edə bilmirlər və hətta onların dövlətçiliyi belə sual altındadır. Ermənistana xarici dəstək göstərilmədən bu ölkə yaşaya bilməz. Onlara dəstək əsasən Minsk qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərilir. Bu da paradoksdur. Biz burada ikili standartları görürük və bu məsələ bizi məyus edir. Qeyd etmək istəyirəm ki, postsovet məkanındakı bütün münaqişələrə eyni münasibət göstərilməlidir. Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir”.

Dövlət başçısı demişdir ki, əslində, bu münaqişə digər vacib beynəlxalq hadisələrin kölgəsində qalmışdır: “Yeri gəlmişkən, Ukrayna məsələsi bu münaqişəyə müəyyən diqqəti cəlb etdi. Hesab edirəm ki, Ukrayna məsələsindən çıxarılan dərslər çox diqqətlə öyrənilməlidir. Ermənistan-Azərbaycan münaqişəsi həll edilmiş olsaydı, bəlkə də Ukrayna indi bu münaqişə ilə üzləşməzdi. Çünki burada eyni ssenari – ərazi bütövlüyünün eyni qaydada pozulması, eyni nəticə, işğal, separatizm var. Bunlar sanki bir-birinin güzgüdəki əksidir. Ona görə də biz beynəlxalq ictimaiyyətdən, dünyanın aparıcı ölkələrindən eyni yanaşmanı gözləyirik. Bizə gəldikdə, postsovet məkanının digər münaqişələrindən fərqli olaraq BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə var. Bu qətnamələrin icra olunmaması faktı onu göstərir ki, həmin qətnamələri qəbul edən ölkələr öz qərarlarına hörmət etmirlər.

Azərbaycan Prezidenti bildirmişdir ki, ilk addım işğal olunmuş ərazilərin bir hissəsinin Ermənistan tərəfindən geri qaytarılmasına başlanılmasıdır: “Dağlıq Qarabağ və 7 ətraf rayon işğal olunub. Beləliklə, danışıqlar prosesini davam etdirəcəyimizi nəzərə alaraq bu ətraf rayonların bir qisminin geri qaytarılmasına başlanılması mənzərəni dərhal dəyişəcək, hərbi əməliyyatlar dərhal dayanacaq, atəşkəs rejiminə tam riayət olunacaq. Biz artıq Azərbaycan ilə Ermənistan arasında bütün kommunikasiyaların açılacağına

dair təklif irəli sürmüşük. Beləliklə, Ermənistanın bizim ərazimizdən dəmir yolu vasitəsilə Rusiyaya çıxışı olacaq. Həmçinin Türkiyə də Ermənistan ilə bütün kommunikasiyalarını açacaq. Beləliklə, biz hərbi əməliyyatların başlanması ilə əlaqədar istənilən potensial riskləri aradan qaldırmış olacağıq və etimad qurmağa başlayacağıq.

Lakin Ermənistan bizim bütün təkliflərimizə məhəl qoymur. Çünki Ermənistan sülh istəmir. Düşünürəm ki, bu, münaqişənin həll olunmamasının səbəbi ilə bağlı ən vacib məsələlərdən biridir. Çünki bir tərəf sülh, ərazi bütövlüyünün bərpasını istəyir, digər tərəf isə sülh istəmir. Ermənistan hər şeyin dəyişməz qalmasını istəyir. Çünki onların torpaqları işğal altında deyil, onların bizim üzləşdiyimiz bir milyon qaçqın və məcburi köçkün kimi böyük problemi yoxdur. Onlar danışıqlar prosesində sadəcə imitasiya xarakterli müəyyən addımlar atırlar. Bəs nə etmək lazımdır? Necə edək ki, Ermənistan daha çox məsuliyyətli olsun? Biz beynəlxalq təşkilatlarla, ilk növbədə vasitəçilərlə bu məsələlər üzərində işləməliyik. Ermənistan rəhbərliyinə çox aydın siqnal göndərilir: İşğalı dayandırın, işğal olunmuş ərazilərin geri qaytarılmasına başlayın. Azərbaycan bu təklifləri etdi. Biz hətta təkliflər irəli sürdük ki, Dağlıq Qarabağda müəyyən sosial proqramlar icra edə bilərik. Çünki oradakı insanlar çox pis vəziyyətdə yaşayırlar. Biz nəqliyyat, energetika sahələrində əməkdaşlıq edə bilərik. Biz açığıq. Biz Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət təklif edirik. Lakin bütün təkliflərimiz qəbul olunmur".

"Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində və Gürcüstan böhranında məqsədi varmı?" sualına cavab verərkən dövlət başçısı demişdir: "Bizim üçün ən əhəmiyyətlisi bu münaqişənin həll yolunun tapılmasıdır. Biz ümid edirik ki, həll yolunun tapılmasına şərait yaratmaq üçün Minsk qrupunun həmsədrləri daha çox iş görəcəklər. Hesab edirik ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunarsa və sülh bərqərar edilərsə bu, bütün tərəflərin maraqlarına xidmət edəcək. Buna görə də əlbəttə ki, regional əməkdaşlığı artırmaq üçün biz çoxlu işlər görürük. Məsələn, bizim Gürcüstanla ikitərəfli əlaqələrimiz regional əməkdaşlığın və Cənubi Qafqazda əməkdaşlığa necə nail olmağın çox yaxşı nümunəsidir. Əgər Ermənistan-Azərbaycan münaqişəsi öz həllini taparsa, o zaman Ermənistan enerji, təhlükəsizlik, nəqliyyatın təhlükəsizliyi kimi layihələrimizə qoşula bilər. Ümid edirik ki, Rusiya hökumətinin də eyni maraqları var. Çünki hər bir ölkə öz sərhədləri xaricində

sülh və dostluq mühitinin olmasında maraqlı olmalıdır. Buna görə də hesab edirəm ki, münaqişənin həlli yolunun tezliklə tapılması çox vacibdir. Çünki süni gərginliklərin olması siyasətinin istənilən qonşuya fayda verməsini düşünmürəm. Qonşu sabitlikdə maraqlı olmalıdır, regionda sabitlik isə sizin ölkənizdə və bölgənizdə sabitlik deməkdir. Rusiyanın bir hissəsi Qafqazdır və Qafqaz da böyük bir yerdir. Burada üç ölkə var, lakin eyni zamanda, Rusiyada çoxlu muxtariyyətlər mövcuddur və Azərbaycan ilə Rusiya Federasiyanın Qafqazdakı respublikaları arasında güclü mədəni əlaqələr var".

Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsinin Dağlıq Qarabağla bağlı sualına cavab verərkən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan əlbəttə ki, bu münaqişənin həllində ən maraqlı tərəfdir. Çünki biz torpaqlarımızın geri qayıtmasını istəyirik. Biz qaçqın və məcburi köçkünlərimizin öz evlərinə qayıtmaq hüququna malik olmasını istəyirik. Baxmayaraq ki, onların evləri yoxdur və hər şey məhv edilib. Yeri gəlmişkən, ATƏT faktaraşdırıcı və qiymətləndirmə missiyasını iki dəfə Azərbaycanın işğal olunmuş ərazilərinə göndərib və hesabat yayıb. Bu hesabatda göstərilir ki, hər şey – bütün binalar, qəbiristanlıqlar, məscidlər məhv edilib. Beləliklə, işğal edilmiş ərazilər tamamilə boş torpaqlardır. Məcburi köçkünlərimiz torpaqlarına qayıdandan sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamalı olacağıq. Buna görə də ilk növbədə bizim insanların torpaqlarına qayıtmaq hüququ var və biz münaqişənin tez bir zamanda həll edilməsində maraqlı tərəfik.

Problem burasındadır ki, nəyə görə münaqişə öz həllini tapmır? Çünki Ermənistan münaqişənin həll olunmasını istəmir. Ermənistanı beynəlxalq hüquq normaları ilə razılaşmağa vadar edən heç bir mexanizm yoxdur. Hər bir münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüququn bu normaları çox aydın şəkildə BMT-nin Nizamnaməsində və Helsinki Yekun Aktında öz əksini tapıb. Helsinki Yekun Aktında ərazi bütövlüyü prinsipi və öz müqəddəratını təyinetmə ilə bağlı çox aydın tərif var. Biz öz müqəddəratını təyinetmə prinsipinə qarşı deyilik, lakin bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağ erməniləri və Ermənistan ordusu tərəfindən qovulan Dağlıq Qarabağ azərbaycanlıları öz torpaqlarına qayıtdıqdan sonra öz həyatlarını qurmaq hüququna malik olacaqlar. Lakin bu, ölkənin ərazi bütövlüyünü pozmamalıdır. Ermənistanın cəhd etdiyi kimi, hər hansı bir ölkənin ərazi bütövlüyü güc tətbiq olunaraq

dəyişdirilə bilməz. Üstəgəl istənilən ölkənin ərazi bütövlüyü bu ölkə ilə razılıq əldə olunmadan dəyişdirilə bilməz. Bunlar əsas prinsiplərdir. Mən yenə də deyirəm, biz beynəlxalq hüququn əsas prinsiplərinə qarşı deyilik. Lakin Ermənistan ilk növbədə beynəlxalq hüquqa hörmətlə yanaşmalıdır və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməni yerinə yetirməlidir".

Bosniya və Herseqovinanın Baş nazirinin müavininin "Biz Srebrenitsa soyqırımının 20 illiyini qeyd edirik. Bu soyqırımları keçmişi dəyişmir, bəs onların gələcəkdə bu cür faciələrin bir daha baş verməməsi və barışığa nail olunmasındakı rolu nədən ibarətdir" sualının cavabında Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, səhvlərdən nəticə çıxarılmalı və dünyanın digər yerlərində oxşar faciələrin yaşanmaması üçün beynəlxalq ictimaiyyət baş verənlərə biganə qalmamalıdır: "Əfsuslar olsun ki, Xocalı faciəsi barədə xüsusilə Avropa ictimaiyyətində geniş məlumat yoxdur. Baxmayaraq ki, 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Bu soyqırımı nəticəsində 600-dən çox günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq qətlə yetirilib və bu insanların yeganə günahı ondan ibarət idi ki, onlar azərbaycanlı idilər. Təəssüflər olsun ki, bu günə kimi Ermənistan bu hərbi cinayəti törətdiyini etiraf etməyib. Onlar heç üzr də istəməyiblər. Onlar Xocalıda törətdikləri ilə bağlı beynəlxalq ictimai rəyi səhv istiqamətə yönəltmək istəyirlər. Avropa və ABŞ-dakı fəal erməni lobbisinin fəaliyyəti nəticəsində onlar beynəlxalq ictimaiyyətin bu faciədən diqqətini yayındırmağa nail olublar. Bu faciə ilə bağlı kifayət qədər məlumat yayılmamışdır, baxmayaraq ki, hər şey sənədləşdirilmişdi, lentə alınmışdı. Bu soyqırımından xilas olan adamların şahid ifadələri var. Xüsusi amansızlıqla qətlə yetirilən uşaq və qadınların lentə alınmış görüntüləri var. Ona görə də bu cür halların təkrar baş verməməsi üçün bunu törətmiş insanlar öncə ən azından üzr istəməli və bunun baş verməsini etiraf etməlidirlər. Bu hərbi cinayəti etiraf etməlidirlər ki, o yenə də təkrarlanmasın. Yalnız bundan sonra barışıq ola bilər. Belə olan təqdirdə barışmaq daha asan olacaq. Düşünürəm ki, bu, mümkündür, çünki biz bir yerdə yaşayırdıq. Biz ermənilərlə sülh şəraitində bir yerdə yaşayırdıq. İndi də Bakının mərkəzində təmir olunmuş erməni kilsəsi var. Lakin Şuşada, Ağdamda Azərbaycan məscidləri tamamilə dağıdılıb. İlk növbədə onlar bu məscidləri dağıtmamalı idi, amma indi onlar bunun yanlış olduğunu etiraf

etməli və üzr istəməlidirlər. Sonra biz onlarla əlbəttə ki, barışacağıq, çünki gec və ya tez sülh olacaq, iki xalq yenə də birlikdə yaşayacaq".

Almaniya Bundestaqının üzvünün ikili standartlarla bağlı sualının cavabında dövlət başçısı demişdir: "Əlbəttə ki, Ermənistan-Azərbaycan münaqişəsinin lap əvvəlində üzləşdiyimiz problemlərdən biri də ikili standartlar siyasəti idi. Mən çıxışımın əvvəlində qeyd etdim ki, postsovet məkanındakı bütün münaqişələrə eyni mövqedən yanaşılmalıdır. Azərbaycanın ərazi bütövlüyü Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Əgər Ukraynanın ərazi bütövlüyü möhkəm dəstəklənirsə, Azərbaycan da onun ərazi bütövlüyünü çox güclü şəkildə dəstəkləyir. Ermənistandan fərqli olaraq biz BMT Baş Məclisində Ukraynanın ərazi bütövlüyünün lehinə səs verdik. Ermənistan isə Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs verdi. Bu da Ermənistanın ərazi bütövlüyü prinsipinə nə dərəcədə əməl etməsi ilə bağlı bu ölkənin buradakı digər nümayəndəsinin sualına cavabdır. Onlar hətta Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs veriblər. Bu da onların yürütdüyü siyasətin nəticəsidir. Çünki bu ölkə müstəqil deyil. Onlar özləri qərar qəbul edə bilmirlər və həmişə başqalarının arxasınca gedirlər. Lakin ikili standartlar reallıqdır. Xüsusilə sanksiyaların tətbiq olunduğunu gördüyümüzdə biz özümüzə sual veririk: Nəyə görə bu sanksiyalar Ermənistana qarşı tətbiq olunmur? Axı onlar da eyni əməli törədiblər. Niyə onların üzərinə sanksiyalar qoyulmur? Şübhəsiz cavab budur ki, dünyada Ermənistanı bütün potensial və adekvat məsələlərdən qoruyan çox güclü erməni diasporu var. Buna görə də ikili standartlar siyasəti beynəlxalq gündəlikdən çıxarılan kimi Dağlıq Qarabağ münaqişəsi də tez bir zamanda öz həllini tapacaq.

Ermənistan nümayəndəsinin təmas xəttində və Ermənistanla sərhəddə atəşkəs rejiminin davamlı olaraq pozulması ilə əlaqədaq sualına cavab olaraq demişdir: "Əslində, həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, Xocalıda soyqırımı törədiblər, tarixi və dini abidələrimizi məhv ediblər və bizi günahlandırırlar. Sual isə ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə Ermənistan əsgərlərinin nə işi var? Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o ölmək istəmirsə onda qoy Ağdama getməsin, olduğu yerdə qalsın, Yerevanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin özünüz üçün ölkənizdə kifayət qədər yeriniz var. Ermənistanda o qədər də çox insan qalmayıb. Sizin Ağdamda, Füzulidə nə işiniz var? Gərginliyin

kimin tərəfindən artırılması ilə bağlı suala cavab olaraq mən keçən ildən bir nümunə gətirə bilərəm. Keçən il beynəlxalq vasitəçilərin fəallığı nöqteyi-nəzərindən əlamətdar bir il olmuşdur. Ötən ilin avqust ayında Prezident Putin mənimlə prezident Sarkisyan arasında bir görüş təşkil etdi. Sentyabr ayında NATO sammiti zamanı ABŞ dövlət katibi Kerri üçümüzün iştirakı ilə belə bir görüş keçirdi. Oktyabrın sonunda Prezident Olland məni və prezident Sarkisyanı Parisə dəvət etdi. Bizim çox yaxşı və konstruktiv görüşümüz oldu. Hər iki tərəf – həm Azərbaycan, həm Ermənistan tərəfi ictimaiyyətə bu görüşün çox uğurlu keçdiyini və təmas xəttində gərginlikləri azaltmağa çalışacağını bəyan etdi. Bundan sonra nə baş verir? Heç 10 gün keçməmiş Ermənistan işğal olunmuş ərazilərdə, xüsusilə Ağdamda genişmiqyaslı hərbi təlimlər təşkil edir. Onların özlərinin verdiyi məlumata görə, işğal olunmuş ərazilərdə 47 minlik ordunun iştirakı ilə təlimlər keçirilmişdir. Aviasiyadan, helikopterlərdən istifadə olunmuşdur. Üç gün ərzində bizim ordumuz səbir edərək heç bir reaksiya göstərməmişdir. Sonra onlar “Mİ-24” hərbi helikopterlərini bizim mövqelərimizə istiqamətləndirərək hücuma keçdilər. Bizim ordumuz helikopterləri vurmaq məcburiyyətində qaldı və onlardan biri vuruldu. Onlar Azərbaycanı günahlandırmaq üçün bundan bəhanə kimi istifadə etdilər. Onlar təxribatlar törədir, bizi təhrik edir, bizi gərginliyi azaltmağa sövq etmək üçün çoxlu səylər göstərən Fransa, Rusiya və ABŞ-ın dövlət başçılarına hörmətsizlik edirlər, heç bir məhəl qoymurlar. Onlar hesab edirlər ki, istədikləri hər şeyi edə bilərlər və buna görə cəzalandırılmayacaqlar. Bu, əsas səbəbdir. İndi isə onlar bizi günahlandırırlar və bizə deyirlər ki, atəş açmayaq. Mənim Ermənistana mesajım odur ki, işğalı dayandırsın. İşğalı dayandırdığı an bizdə sülh də, qarşılıqlı ünsiyyət də, barışıq da olacaq. Bunun baş verməməsinin səbəbi odur ki, erməni əsgəri Ağdamda, Füzulidədir”.

**27 fevral –** Azərbaycan Xarici İşlər Nazirliyinin qəbul etdiyi bəyanatda bildirilir ki, 2015-ci il 3 may tarixində Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda qondarma separatçı rejimin “parlamenti”nə qurama “seçkilər”in keçirilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının XİN Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan Respublikası tərəfindən yaradılmış separatçı rejimin təcavüz və irqi ayrı-seçkiliyin mütləq nəticəsi olduğunu bir daha vurğulayır. Bu rejim Ermənistanın idarəçiliyi və nəzarəti altındadır. Ermənistanın Azərbaycana qarşı müharibəyə başladığı və zordan istifadə edərək, Dağlıq

Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi və bir milyondan artıq azərbaycanlını öz doğma torpaqlarından didərgin salaraq etnik təmizləmə həyata keçirdiyi və digər ağır cinayətlər törətdiyi hamıya yaxşı məlumdur.

Beynəlxalq ictimaiyyət Azərbaycana qarşı zor tətbiq edilməsi və Azərbaycan ərazilərinin işğalını ardıcıl olaraq kəskin şəkildə tənqid edib. 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən və Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti bir daha təsdiq edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələr qəbul edib. Bu qətnamələrdə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ regionunu Azərbaycanın tərkib hissəsi kimi tanıdığını təsdiq edir və işğalçı qoşunların Azərbaycanın zəbt edilmiş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Digər beynəlxalq təşkilatlar da bənzər mövqedən çıxış edib.

Azərbaycan ərazilərinin hərbi işğalı və etnik təmizləmənin davam etdiyi zəmində qondarma separatçı rejimin strukturlarına "seçkilər"in keçirilməsi Azərbaycan Respublikası Konstitusiyasının və beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır və buna görə də bu "seçkilər"in heç bir hüquqi qüvvəsi ola bilməz.

Ermənistan işğal edilmiş Azərbaycan ərazilərini ilhaq etməyə müyəssər ola bilməz. Davamlı və uzunmüddətli nizamlanmaya nail olunmasının yeganə yolu Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionu və digər işğal edilmiş ərazilərindən qeyd-şərtsiz və tamamilə çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları üçün ayrılmaz hüquqlarının təmin edilməsi və bir-birinin suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin qurulmasıdır.

Azərbaycan Respublikası bir daha Ermənistan tərəfini əbəs yerə vaxt itirmək, öz xalqını və beynəlxalq ictimaiyyəti aldatmaq əvəzinə təcavüz və etnik təmizləmə siyasətinə son qoymağa, münaqişənin nizamlanması prosesində konstruktiv şəkildə iştirak etməyə və beynəlxalq öhdəliklərinə əməl etməyə çağırır".

**13 mart –** Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının siyasi işlər və demokratiya komitəsinin məruzəçisi Robert Volteri qəbul etmişdir. Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında

əməkdaşlığın inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və münaqişənin nizama salınması perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**10 aprel –** Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı demişdir: "...Bizim əsas problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, həll olunmamış qalır. Bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, bunun yeganə səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir. Baxmayaraq, Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçıları dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymur və bu dövlətlər bu bəyanatlardan başqa heç bir konkret addımlar da atmırlar. Ona görə bu bəyanatlar havada qalır və beləliklə, münaqişə uzanır, öz həllini tapmır. Keçən ilin ortalarından həmsədr ölkələrin başçıları tərəfindən fəallıq göstərilirdi. Avqust, sentyabr, oktyabr aylarında Rusiya, Amerika və Fransa rəhbərləri zirvə görüşləri keçirmişlər ki, biz vəziyyətdən çıxış yollarını tezliklə tapaq və münaqişəyə son qoyaq. Azərbaycan əlbəttə ki, bu fəallığı dəstəkləyir. Çünki həmişə qeyd etdiyim kimi, münaqişənin həll edilməsində ən maraqlı tərəf məhz Azərbaycandır. Ancaq Ermənistan bu görüşlərdə qeyri-səmimi mövqe nümayiş etdirir, hər vəchlə çalışırdı ki, danışıqların mahiyyəti kənarda qalsın və hansısa etimad tədbirləri haqqında daha da çox söhbət aparılsın. Biz buna etiraz etmirdik. Etimad tədbirləri də önəmlidir, ancaq işin mahiyyəti işğala son qoyulmasıdır. Buna baxmayaraq,Paris görüşündən sonra biz şifahi olaraq razılaşdıq ki, hər iki tərəf təmas xəttində gərginliyi azaltmağa çalışacaq və bəlkə bu, danışıqlar prosesinə müsbət təsir göstərə bilər. Ancaq Ermənistanın riyakar siyasəti bir daha özünü büruzə verdi. İki həftə keçməmiş Ağdam rayonunda genişmiqyaslı hərbi təlimlərə başladılar. O təlimlərin bir məqsədi var idi- Azərbaycanı təxribata çəkmək və danışıqlar prosesini pozmaq. Biz bu təxribatlara bir neçə gün dözərək ondan sonra düşmənə layiqli cavab verdik və beləliklə, onlara öz yerini göstərdik. Onlar isə bundan istifadə edərək Azərbaycanı aqressiv davranışda ittiham etməyə başladılar.Əlbəttə ki, heç kim buna, bu tezisə ciddi yanaşmırdı. Azərbaycan həmişə çox təmkinli mövqe nümayiş etdirir. Danışıqlarda 20 ildən çox iştirakımız onu göstərir ki, biz məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Məsələnin həll

olunmamasını Ermənistan istəyir. Çünki torpaqlarımızdan çıxmaq istəmir. Keçən ilin sonlarından Ermənistan tərəfi daim bizim mövqelərimizə hücumlar çəkir, bu, bu il də davam edir. Bu hücumlar nəticəsində onlarla erməni öz həyatını itirmişdir. Bizdə olan məlumata görə son 3-4 ay ərzində 50-dən çox işğalçı təmas xəttində məhv edilmişdir. Bunun günahkarı kriminal Ermənistan rejimidir, onun başçılarıdır, Ermənistanda hökm sürən diktatura rejimidir. Bu barədə mən artıq öz fikirlərimi bildirmişəm. Əgər ölmək istəmirsinizsə, Azərbaycan torpaqlarından rədd olun".

Azərbaycan öz prinsipial mövqeyindən əl çəkməyəcəyini bildirən dövlər başçısı demişdir: "Biz bu mövqeyi müdafiə edəcəyik. Ermənistan isə bu işğalın yüksək qiymətini ödəyir – həm iqtisadi tənəzzül, həm müstəqillik qalıqlarının tamamilə itirilməsi, təmas xəttindəki itkilər, Ermənistan ordusunda artan fərarilik halları. İndi Azərbaycan tərəfinə keçən erməni əsgərləri qeyd edirlər ki, Azərbaycan tərəfinə keçmək istəyənlərin sayı kifayət qədər çoxdur. Sadəcə olaraq qorxurlar, çünki orada əmr verilib ki, əgər kimsə Azərbaycan tərəfinə keçmək istəyərsə, onlar onu arxadan güllələməlidirlər, öldürməlidirlər. Yəni, budur reallıq. Bu, işğalçı dövlətin ödədiyi qiymətdir və nə qədər ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunmayıb onlar bu qiyməti ödəyəcəklər.

Biz Ermənistana qarşı daha da fəal mübarizə aparmalıyıq, aparırıq, bütün beynəlxalq, regional layihələrdən onları təcrid etmişik. Onların rəsmi statistik məlumatlarına görə əhalinin 30 faizi yoxsulluq, səfalət içində yaşayır. Amma real məlumat 50-60 faizdir. Onların rəsmi məlumatlarına görə hər il ölkədən 60-70 min insan həmişəlik köçür. Amma bizdə olan məlumat onu göstərir ki, bu rəqəm 100 minə yaxındır. Yəni, bir neçə ildən sonra artıq Ermənistan dövlətində, tarixi Azərbaycan torpaqlarında yaradılan bu dövlətdə erməni əhalisi qalmayacaq.

Mən bunu dəfələrlə demişəm, bizim cəmiyyətimiz, xüsusilə gənc nəsil heç vaxt unutmamalıdır ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim tarixi dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni, bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün

deyil. Bu, bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq. İqtisadi, siyasi, hərbi gücümüz, demoqrafik vəziyyətimiz bunu deməyə əsas verir. Maşallah, Azərbaycan əhalisi yaxın zamanlarda artıq 10 milyonu keçəcəkdir və bu, məsələnin həlli üçün az əhəmiyyət daşımır".

Ərazi bütövlüyümüzün bərpası üçün bundan sonra da fəal səylər göstərəcəyimizi bildirən Azərbaycan Prezidenti demişdir: "Münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. İkili standartlara son qoyulmalıdır. Ölkəmizin ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyündən az əhəmiyyət daşımır. Əgər Qərb dünyası postsovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edirsə, bizim münaqişə də öz həllini bu prinsiplər üzərində tapmalıdır. Amma bizə gəldikdə görürsünüz ki, münasibət fərqlidir. Bu, riyakarlıqdır, ikili standartlardır, ədalətsizlikdir. Hər bir görüşdə, ən yüksək səviyyədə keçirdiyim görüşlərdə bu sözləri mən bax dediyim ifadələrlə tərəf-müqabillərimə çatdırıram. Bu riyakarlığa, ikili standartlara son qoyulmalıdır. Ermənistan Azərbaycanın tarixi, qanuni torpaqlarını işğal edibdir. Ancaq rəsmi bəyanatlara gəldikdə, çox mücərrəd ifadələr işlədilir. Biz öz sözümüzü deyirik, deyəcəyik. Qeyd etdiyim kimi, bizim beynəlxalq nüfuzumuz artır. Azərbaycanla hesablaşmamaq artıq mümkün deyil və ölkəmizin iştirakı, razılığı olmadan bölgədə heç bir təşəbbüs irəli sürülə və öz həllini tapa bilməz".

**4 may** – Azərbaycan Xarici İşlər Nazirliyinin qondarma "seçkilər"lə bağlı bəyanatında bəyanatda deyilir: "Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "parlamenti"nə 2015-ci il mayın 3-də qurama "seçki"lər Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır və buna görə də bu "seçkilər"in heç bir hüquqi qüvvəsi ola bilməz".

Bəyanatda göstərilir ki, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, NATO və ATƏT-in Minsk qrupunun həmsədrləri statusunda və fərdi əsasda Rusiya, Fransa, ABŞ və bir çox digər dövlətlər tərəfindən verilmiş bəyanatlarda əks olunduğu kimi, beynəlxalq ictimaiyyət bu qurama "seçki"lərin rədd edilməsində və dəhşətli etnik təmizləmə və beynəlxalq hüququn imperativ normalarının pozulması ilə müşayiət olunaraq, Azərbaycanın ərazi bütövlüyünə qarşı gücdən istifadə nəticəsində yaranmış

vəziyyəti legitim olaraq tanımamaqda əsaslı şəkildə rəsmi Bakı ilə həmrəy olmuşdur.

Sənəddə qeyd edilir ki, bu təxribatçı addım Ermənistanın silahlı münaqişənin siyasi həllində həqiqətən maraqlı olmadığını bir daha aydın şəkildə göstərir və bunun müqabilində Ermənistan gərginliyi artırmaq, işğal olunmuş ərazilərdə genişmiqyaslı hərbi təlimlər keçirmək, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişmək, iqtisadi və digər fəaliyyətlər, xüsusilə son məqsəd olaraq "fait accompli" vəziyyəti tətbiq etmək üçün erməni əhalisinin bu ərazilərə köçürülməsi vasitəsilə işğal siyasətinin nəticələrini və ilhaqçı niyyətlərini cəmləşdirmək məqsədilə davamlı addımlar atır.

Bəyanatda deyilir: "Azərbaycan Respublikası ərazilərinin işğalı ilə heç zaman barışmayacağını bir daha vurğulayır. Münaqişənin həlli yalnız beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür. Münaqişənin həllinin prinsipial əsası BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) və BMT Baş Assambleyasının 62/243 (2008) qətnamələrində təsbit olunub. Bu sənədlər Azərbaycana qarşı gücdən istifadəni və ölkənin ərazilərinin işğalını pisləyir və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edir. Bu qətnamələrdə BMT Dağlıq Qarabağ regionunun Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edir və Azərbaycanın zəbt olunmuş bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ermənistan silahlı qüvvələrinin qeyri-qanuni mövcudluğunun davam etməsi və Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyətlərlə əlaqədar beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü qorumaq üçün Azərbaycanın atmaq məcburiyyətində qala biləcəyi addımların istənilən nəticələrinin məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".

**22 may –** Azərbaycan Prezidenti İlham Əliyevin "The Business Year" jurnalına müsahibəsində bildirmişdir ki, Azərbaycan həm də qlobal təhdidlərə, o cümlədən terrorizmə qarşı mübarizənin fəal iştirakçısıdır və beynəlxalq antiterror koalisiyasının üzvlərindən biridir: "Azərbaycan BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi dövrdə müzakirəyə çıxardığı iki məsələdən biri terrorizmə qarşı mübarizəyə həsr olunmuşdur. Çünki terrorizmin müxtəlif təzahürləri ilə mübarizədə Azərbaycan kifayət qədər problemlərlə üzləşmişdir.

Ermənistan tərəfindən müxtəlif dövrlərdə ölkəmizə qarşı 30-dan çox terror aktı həyata keçirilmiş, nəticədə 2000-dən artıq soydaşımız qətlə yetirilmişdir.

Azərbaycan üçün çağırış həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başda olmaqla bu tipli problemlərin beynəlxalq hüquq normaları əsasında həll edilməsidir. Biz 20 ildən artıqdır ki, Ermənistanın işğalından əziyyət çəkirik. Təəssüf ki, bu gün dünyada mövcud olan ikili standartlar, bəzi hallarda işğalçı ilə işğala məruz qalan tərəflərin eyniləşdirilməsi münaqişənin həllini ləngidir. Hesab edirəm ki, keçmiş sovet məkanındakı və ümumiyyətlə, dünyadakı bütün münaqişələrə eyni beynəlxalq hüquq normaları prizmasından baxılmalı, onların həlli üçün eyni yanaşma tətbiq edilməlidir. Çünki hər hansı münaqişə həll olunmursa və ya dondurulursa, onda digər münaqişələr üçün zəmin yaranır.

Forumda da qeyd edildiyi kimi, 2015-ci ildə biz yol ayrıcındayıq: bir tərəfdə ayrı-seçkilik, fundamentalizmə, nifrətə, qarşılıqlı ittihamlara şərait yaradan meyillər, digər tərəfdə isə həmrəylik və əməkdaşlığa aparan yol var. Azərbaycanın inkişaf, əməkdaşlıq və inteqrasiya modeli siyasi və iqtisadi proseslərin proqnozlaşdırılması, ümumi maraqların təmin edilməsi üçün etibarlı zəmin yarada bilər".

**1 iyun –** Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-ATƏT əməkdaşlığının perspektivləri, Azərbaycan ilə Serbiya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesi, təmas xəttində baş verən hadisələr, problemin həllinin uzadılması, münaqişənin həllinə yanaşmada ikili standartların mövcud olması və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

**13 iyul** – Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur və Ermənistan sadəcə olaraq danışıqlar prosesini boykot edir və çalışır ki, bu məsələni maksimum dərəcədə uzatsın: "Ancaq məsələ uzandıqca Ermənistan daha da çox tənəzzülə uğrayır. Qeyd etdiyim kimi, ölkə

dərin siyasi, mənəvi, psixoloji və maliyyə böhranı içindədir. Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. İqtisadiyyat çöküb, sənaye ölüb, insanlar ölkəni tərk edir, yəni, insan resursları da yoxdur. Belə getsə gələcəkdə Ermənistan kimi ölkə bəlkə də dünya xəritəsində heç olmayacaq da. Əgər belə olarsa, bunun günahkarı ancaq bugünkü kriminal diktatura rejimidir.

Biz isə güclənirik, öz tədbirlərimizi görürük, iqtisadi, siyasi, hərbi güc toplayırıq. Əlbəttə ki, Ermənistan və Azərbaycan müqayisəedilməz səviyyədədir. Sadəcə olaraq, xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Ermənistan hələ ki, bizim torpaqlarımızı işğal altında saxlayır. Mən bu auditoriyada bir dəfə demişəm ki, bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş daş üstündə qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük.

Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Onu da deməliyəm ki, – Azərbaycan ictimaiyyəti də bilir, – bizə qarşı çox çirkin kampaniya aparılır. Bu kampaniya dayanmır, önəmli beynəlxalq tədbirlər ərəfəsində daha da alovlanır, güclənir, əgər belə demək mümkündürsə, ondan sonra bir az səngiyir. Ancaq bu, daimi bir kampaniyadır, səbəbləri də aydındır. İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub. Xüsusilə, bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır. Yəni, bu hərəkət təkcə müsəlmanlara qarşı deyil. Əlbəttə ki, onlar müsəlman ölkəsinin bu qədər inkişaf etməsini istəməyən qüvvələrdir”.

**21 iyul** – Azərbaycan Prezidenti İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə bildirmişdir ki, biz erməni təbliğatını ifşa etməliyik: “...Biz dünya ictimaiyyətinə çatdırmalıyıq ki, bizə qarşı olan hücumların arxasında nələr dayanır. Bu da çox sadə bir yanaşmadır. Erməni lobbisi nəyə

görə bizə qarşı bu fəaliyyəti aparır? İlk növbədə, düşmənçiliyə görə. Biz onların əbədi düşmənləriyik. Bunu heç kim heç vaxt yaddan çıxarmasın. Digər tərəfdən, sübut etməyə çalışırlar ki, Azərbaycanda demokratiya yoxdur, insan haqları pozulur və beləliklə, erməni azlığı gələcəkdə Azərbaycanın tərkibində yaşaya bilməz. Halbuki bu, tam cəfəngiyatdır. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bütün millətlərin, dinlərin nümayəndələri Azərbaycanda qardaşlıq şəraitində yaşayırlar. Bizim ölkəmizdə nadir şərait yaradılıbdır və bu, indi bir çox ölkələr üçün nümunə ola bilər. Ancaq bu təbliğatın və anti-Azərbaycan kampaniyasının arxasında əsas tezis məhz bundan ibarətdir. Yenə də Qarabağ mövzusudur, Dağlıq Qarabağ münaqişəsidir. Ona görə, biz Azərbaycanı dünya media məkanına müasir, inkişafda olan, açıq, tolerant ölkə kimi təqdim etməliyik. Bununla bərabər, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həm tarixi həqiqətləri, həm Azərbaycanın mövqeyini və ümumiyyətlə, indiki vəziyyəti daha geniş işıqlandırmalıyıq. Çünki Ermənistan daim çalışır ki, mahiyyətlə bağlı məlumatlar heç yerə çıxmasın. Bəli, deyirlər münaqişə var, gəlin bunu sülh yolu ilə həll edək. Amma münaqişə necə yaranıb? Bunun səbəbləri nədir? İşğalçı kimdir? İşğalın qurbanları kimlərdir? Yəni, bu barədə əlbəttə ki, onlar və onlarla əlbir olan xarici media qurumları heç bir məlumat vermirlər. Bu missiya bizim üzərimizə düşür və həm özümüz bunu etməliyik. Xarici media resursları ilə bizim daha sıx əlaqələrimiz olmalıdır. Bilirəm ki, indi xarici jurnalistlər Azərbaycana vaxtaşırı səfərlər edirlər. Həmçinin erməni təbliğatı nəticəsində Azərbaycan haqqında formalaşmış qeyri-adekvat rəy də onlar ölkəmizə gələndən sonra tamamilə aradan götürülür. Ona görə, həm xarici media nümayəndələrini Azərbaycana dəvət etmək, Azərbaycan jurnalistlərinin xaricə səfərlərini təşkil etmək vacibdir. Qərbin aparıcı media qurumları ilə əməkdaşlıq formatı yaradılmalıdır, məsləhətləşmə, yaxud da ki, sadəcə olaraq informasiya mübadiləsi aparılmalıdır. Biz bu yolla, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xarici media məkanına daha çox çıxış əldə edə bilərik.

Əlbəttə, bu açıq, yəni, ədalətli mübarizədə bizim arqumentlərimizə qarşı erməni tərəfi heç bir arqument qoya bilməz. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan əzəli Azərbaycan torpağıdır. Bunu siz bəlkə də hamıdan yaxşı bilirsiniz. Bugünkü Ermənistanın ərazisində yerləşən şəhərlərin, kəndlərin mütləq əksəriyyətinin

adları Azərbaycan mənşəlidir və Azərbaycan xalqı o torpaqlarda əsrlər boyu yaşamışdır.

Məsələnin hüquqi tərəfi Azərbaycanın mövqeyini birmənalı dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Postsovet məkanında olan heç bir başqa münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə qəbul etməmişdir. Yəni, bu, məsələnin həlli üçün əsas sənəddir. Yəni, hüquqi, tarixi amillər bundan ibarətdir və bu gün də Ermənistan, sadəcə olaraq, bir marionetka kimi bu bölgədə xarici ianələr hesabına fəaliyyət göstərir.

Ermənistan dövlət müstəqilliyini çoxdan itiribdir. Ən yaxşı halda ona forpost deyirlər. Amma əslində o, bölgədə nökərlik edir. Əgər erməni xalqının seçimi budursa, biz heç nə deyə bilmərik. Amma inanmıram ki, erməni xalqı müstəqillik arzuları ilə yaşadığı dövrdə bax bu müstəqilliyi təsəvvür edirdi və bunun səbəbi nədir? İşğalçı siyasətdir. Əgər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmasaydı, əlbəttə ki, erməni xalqı da real müstəqilliyə qovuşa bilərdi.

Bir sözlə, hesab edirəm ki, xarici media məkanında bizim fəaliyyətimiz bax, bu iki istiqamət üzrə aparılmalıdır – münaqişə ilə bağlı həqiqətlər və Azərbaycan reallıqları ilə bağlı həqiqətlər. Biz bunları çatdırmalıyıq. Biz istəyirik ki, bizi daha da yaxşı tanısınlar. Avropa Oyunları zamanı bizə bəziləri irad tuturdular ki, Azərbaycan bu Oyunları özünü tanıtmaq üçün keçirir. Burada heç bir qəbahət yoxdur. Hər bir ölkə istəyir ki, özünü təqdim etsin. İnkişaf etmiş ölkələr istəmirmi? Əlbəttə istəyir. İstəməsəydilər, onlar da buna bənzər oyunları keçirməzdilər. Bu, bizim təbii istəyimizdir. Biz istəyirik ki, bizi tanısınlar, görsünlər necə inkişaf edirik. Görsünlər ki, cəmi 24 il ərzində biz nələr əldə etmişik, nələr yaratmışıq. Kənardan heç bir yardım almadan, heç bir himayədar olmadan bunları özümüz yaratmışıq. Hələ Qarabağ münaqişəsi ola-ola. Ona görə, biz çalışacağıq bundan sonra da Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər keçirilsin. Azərbaycan təqdimatları keçirilsin ki, xaricdə bizi daha da yaxından tanısınlar, daha da çox hörmət etsinlər, bizimlə daha da çox hesablaşsınlar. Belə olan halda, bizim maraqlarımız daha da böyük dərəcədə təmin ediləcək".

Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun birgə mətbuat konfransında dövlət başçısı demişdir: "Biz bu gün regional təhlükəsizlik məsələsini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini və bu münaqişənin necə həll

olunması yollarını müzakirə etdik. Mən danışıqlar masası arxasında olan indiki vəziyyət və münaqişənin tarixi barədə cənab prezidentə məlumat verdim. Münaqişə iki onillikdən çoxdur ki, davam edir. Azərbaycanın beynəlxalq səviyyədə tanınan hissəsi – Dağlıq Qarabağ və 7 digər rayonumuz 20 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin onlar icra olunmur. Ermənistan Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edib, bir milyon azərbaycanlı bu təcavüzün qurbanına çevrilib və onlar məcburi köçkün və qaçqın vəziyyətinə düşüblər. İnsanlarımız Ermənistan tərəfindən etnik təmizləmə siyasətinə məruz qalıblar. Beynəlxalq hüquq normaları və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında münaqişənin tezliklə həll edilməsi Cənubi Qafqaz regionunun bütün xalqları üçün faydalı olardı. Biz ümid edirik ki, beynəlxalq ictimaiyyət Azərbaycan torpaqlarından çıxması üçün təcavüzkara daha çox təzyiq göstərəcək və işğal olunmuş ərazilər azad edilən kimi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə başlanıla bilər. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və münaqişə də bu zəmin üzərində öz həllini tapmalıdır.

**23 iyul** – Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki (ABŞ), İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

**31 avqust** – Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinın bəyanatında bildirilir ki, Xarici İşlər Nazirliyi Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin təcavüzün və irqi ayrı-seçkiliyin mütləq nəticəsi olduğunu bir daha vurğulayır. Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci il 16 iyun tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə çıxardığı qərarında da təsdiq edildiyi kimi, bu rejim Ermənistanın idarəçiliyi və nəzarəti altındadır. O, Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində öz mövcudluğunu davam etdirir.

Sənəddə bildirilir: "Ermənistanın Azərbaycana qarşı müharibəyə başladığı, zordan istifadə edərək Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil

olmaqla, Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi, bir milyondan çox azərbaycanlını öz doğma torpaqlarından didərgin salaraq etnik təmizləmə həyata keçirdiyi və digər ağır cinayətlər törətdiyi hamıya yaxşı məlumdur. BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrində təsbit olunduğu kimi, beynəlxalq ictimaiyyət Azərbaycana qarşı zor tətbiq edilməsi və bunun nəticəsində Azərbaycan ərazilərinin işğalını kəskin şəkildə pisləyib, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan istənilən əməlləri rədd edərək, bu əməllərin nəticəsində yaradılmış vəziyyətin qanuniliyinin tanınmaqdan imtina edib. Qondarma "seçkilər"in keçirilməsi niyyəti bir daha aydın şəkildə göstərir ki, status-kvonun saxlanılması, işğalçı siyasətin və ilhaq niyyətinin möhkəmləndirilməsi üçün davamlı addımlar atan Ermənistan silahlı münaqişənin siyasi həllində həqiqətən maraqlı deyil, əksinə, təxribat və vəziyyəti gərginləşdirmək yolunu tutub.

Azərbaycan ərazilərinin hərbi işğalının və etnik təmizləmə siyasətinin davam etdiyi şəraitdə qondarma rejimin "özünüidarə orqanları"na qanunsuz "seçkilər" keçirilməsi Azərbaycan Respublikası Konstitusiyasının, beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır, buna görə də bu "seçkilər"in heç bir hüquqi qüvvəsi ola bilməz.

Ermənistan Azərbaycanın işğal altında saxladığı ərazilərini ilhaq etməyə müyəssər ola bilməz. Davamlı və uzunmüddətli nizamlanmaya nail olunmasının yeganə yolu BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd edilən qətnamələrində də tələb olunduğu kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionundan və işğal olunmuş digər ərazilərindən qeyd-şərtsiz və tamamilə çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına və mülkiyyətlərinə qayıtmaları hüquqlarının təmin edilməsidir. Bu münaqişə yalnız Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyü əsasında həll edilə bilər. Azərbaycan Respublikasının Konstitusiyasını pozan və beynəlxalq hüquqla uyğun olmayan fəaliyyət münaqişənin həlli yolu ola bilməz. Güc tətbiq etməklə ərazinin işğalı beynəlxalq ictimaiyyət tərəfindən heç zaman qanuni tanına bilməz. Azərbaycan heç zaman öz ərazilərinin işğalı ilə barışmayacaq. Azərbaycan ərazilərinin hərbi işğalı həll yolu deyil və heç zaman Ermənistanın arzuladığı siyasi nəticəni verə bilməz.

Azərbaycan Respublikası dünya ictimaiyyətinin bütün üzvlərini

beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə uyğun olaraq, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımamağa, bu vəziyyətin saxlanılmasına yardım və kömək göstərməməyə, bu istiqamətdə təsirli tədbirlər görməyə çağırır. Ermənistan öz xalqını və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyan lüzumsuz cəhdlərindən əl çəkməli, ilhaqçılıq və etnik təmizləmə siyasətinə son qoymalı, münaqişənin nizamlanması prosesində konstruktiv şəkildə iştirak etməli, beynəlxalq öhdəliklərini yerinə yetirməlidir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qeyri-qanuni mövcudluğunun davam etməsi və işğal altındakı ərazilərdə qanunsuz fəaliyyətlərlə əlaqədar beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü qorumaq üçün Azərbaycan Respublikasının atmaq məcburiyyətində qala biləcəyi addımların istənilən nəticələrinin məsuliyyəti tam şəkildə Ermənistan Respublikasının üzərinə düşəcək".

**11 sentyabr** – Azərbaycan Prezidenti İlham Əliyev Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitdə bildirmişdir ki, regional təhlükəsizlik məsələləri də böyük əhəmiyyət daşıyır və bu gün qəbul edəcəyimiz Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox dəyərli fikirlər var, sənəddə beynəlxalq hüququn norma və prinsipləri öz əksini tapır.

Dövlət başçısı demişdir: "Bildiyiniz kimi, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, qədim türk torpağı olan Zəngəzur da bizim əzəli torpağımızdır. XX əsrin əvvəllərində Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verməklə əslində bütün türk dünyasının coğrafi bağlılığını artıq aradan götürüblər. Bizim bağlılığımız təbii ki, gündən-günə güclənir. Amma coğrafi baxımdan biz bir-birimizdən ayrıyıq.

Azərbaycan xalqına qarşı ədalətsizliklər olmuşdur və XX əsrin sonlarında da ədalətsizliklər olmuşdur. Bu gün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və ətraf yeddi bölgə erməni işğalı altındadır. Ermənistan bütün hüquq normalarını kobudcasına pozub, bu bölgələrdə etnik təmizləmə siyasəti aparıb, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşüb.

Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz fikirlərini bildirmişlər. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, orada Ermənistan

silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, işğalı davam etdirir, danışıqlar prosesində özünü səmimi və konstruktiv aparmır. Bu münaqişə və bütün başqa münaqişələr ancaq beynəlxalq hüququn norma və prinsipləri, ölkələrin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü əsasında öz həllini tapmalıdır".

**30 sentyabr** – Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin Azərbaycana son səfərindən ötən dövr ərzində regionda və eləcə də dünyada bir çox hadisələrin baş verdiyini bildirən dövlət başçısı bu məsələlərlə bağlı fikir mübadiləsi aparılmasının vacibliyini qeyd etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, münaqişənin həlli regional sabitlik üçün ən əhəmiyyətli amillərdən biridir.

Dövlət başçısı qeyd etmişdir ki, Ermənistan tərəfinin məqsədi danışıqlar prosesini uzatmaq və mövcud status-kvonu saxlamaqdan ibarətdir. Prezident İlham Əliyev status-kvonun uzun müddət davam etməsinin qəbuledilməz olduğunu və bu məsələnin ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri tərəfindən də dəfələrlə bəyan edildiyini vurğuladı. Təmas xəttində baş verən hadisələrə toxunan Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan tərəfinin təxribata çəkdiyini vurğuladı. Belə halların Ermənistan tərəfinin taktikası olduğunu qeyd edən dövlətimizin başçısı beynəlxalq vasitəçilərin də bu məsələyə tam ciddiliyi ilə yanaşmadıqlarını dedi.

**28 oktyabr** – Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Prezident İlham Əliyev bildirmişdir ki, Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir: "Keçən ilin oktyabrında prezidentlərin Paris danışıqlarından iki həftə keçməmiş Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterləri Azərbaycanın mövqelərinə hücumlar etmişdir. Azərbaycan tərəfi bir neçə gün buna cavab verməmişdir.

Nəhayət, davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri həyata keçirən Ermənistan silahlı qüvvələrinin hərbi helikopterləri açıq şəkildə mövqelərimizə atəş açmağa cəhd etdikləri zaman məhv edilmişdir”.

Dövlət başçısı daha sonra qeyd etmişdir ki, bu ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun ərazimizdə təxribat törətmək cəhdlərinin də qarşısı alınmış və işğalçılar xeyli sayda itki vermişlər və bütün bu təxribatlara görə Ermənistan məsuliyyət daşıyır.

Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistan hazırda regionda böyük təhlükə mənbəyinə çevrilib: “Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən dinc əhaliyə mütəmadi olaraq atəş açır, hətta toy məclislərində iştirak edən insanlar belə atəşə tutulur və nəticədə mülki əhalimiz arasında itkilər olur. Azərbaycan tərəfi bu cür təxribatlara cavab verdikdə isə bizi günahlandırırlar. Prezident İlham Əliyev təəssüf hissi ilə vurğuladı ki, beynəlxalq ictimaiyyət və xüsusilə də vasitəçilər Ermənistan tərəfinin bu azğınlaşmış hərəkətlərinə adekvat reaksiya vermirlər”.

**6 noyabr** – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, Ermənistanın xarici işlər nazirinin UNESCO-nun Baş Assambleyasının 38-ci sessiyasında yalan və təhriflərə əsaslanan çıxışına cavab olaraq, “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı hesabat hazırlanmışdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, hesabatda Ermənistan 1987-ci ilin sonlarından etibarən açıq şəkildə Azərbaycanın Dağlıq Qarabağ regionu ərazilərinə iddia edib və 230 minə qədər azərbaycanlı Ermənistandakı evlərindən zorla çıxarılıb. 1987-1989-cu illər ərzində Ermənistanda qadın, uşaq və ahıllar da daxil olmaqla 216 azərbaycanlı öldürülüb. 1991-ci ilin sonlarında Sovet İttifaqının süqutundan, Azərbaycanın və Ermənistan beynəlxalq aləmdə müstəqilliyinin tanınmasından az sonra Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi əməliyyatlar başlayaraq güc tətbiq etməklə Dağlıq Qarabağ və ona bitişik yeddi rayon işğal edilib.

Qeyd edilir ki, Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonun, eləcə də Dağlıq Qarabağ regionundan uzaqda, Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndinin və Naxçıvanın Kərki kəndinin 738 tarixi abidə, 83 min 500-dən çox eksponatla 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə

kompleksi və 1107 mədəni müəssisədən ibarət 1891 mədəni resursla işğal olunması Azərbaycan üçün böyük mədəni itkiyə gətirib çıxarıb. Həmin ərazilərdə milli əhəmiyyət kəsb edən tarixi abidələrə VI əsrin Alban Ağoğlan monastırı, Laçında XIV əsrin Məlik Əjdər türbəsi, Xocavənddə IV əsrin Alban Amaras monastırı və əhəmiyyətli sayda Alban məbədləri, XVIII əsrin Əsgəran qalası, Xocalıda XIV əsrin türbələri və tarixi Orta əsrlərə gedib çıxan bir sıra Alban məbədləri, VI əsrin Alban Müqəddəs Yakob və XIII əsrin Alban Xatirəvəng monastırları, Kəlbəcərdə XIII-XIV əsrlərin Lek qalası, Qazaxda V-VIII əsrlərin Alban monastırı, Füzulidə XIII-XIV əsrlərin Mirəli türbəsi və XVII əsrin karvansarayı, Zəngilanda XIV əsrin türbəsi, Cəbrayılda XVII əsrin məscid kompleksi, Şuşada XVII-XIX əsrlərin Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri, karvansarayları və evləri, Ağdamda XIX əsrin məscidi, Qaraköpəktəpə, Xantəpə, Günəştəpə, Uzuntəpə, Meynətəpə və Zərgərtəpə kimi arxeoloji yerləri, Füzulidə Neolit və Bürünc dövrlərinin yaşayış əraziləri, Bürünc dövrünün Çıraqtəpə və Qaraqhacı kimi yaşayış əraziləri, Ağdamda Orta dövrün Gavurqala yaşayış ərazisi, 5 Cəbrayılda Bürünc dövrünün İmanqazantəpə və Qışlaq qum təpələri, Kəlbəcərdə Bürünc dövrünün qaya rəsmləri, Xocalıda Bürünc və Dəmir dövrlərinin daş nekropolu, Sədərəkdə Bürünc dövrünün yaşayış sahəsi və nekropolu, Laçında Bürünc və Dəmir dövrlərinin qum təpələri, Daş dövrünün mağarası, Şuşada Bürünc və Dəmir dövrlərinin qum və daş qəbiristanlıqları, Zəngilanda XIII-XIV əsrlərin yaşayış ərazisi daxildir. Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli abidələrə Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri və Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavanq monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası və Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar daxildir.

Bildirilir ki, 1992-ci ilin mayındakı hərbi əməliyyatlardan dərhal sonra Şuşa şəhərində mədrəsələri ilə birgə Yuxarı və Aşağı Gövhərağa məscidi, Vaqif Mavzoleyi, Natavanın evi, karvansaray kimi arxeoloji abidələr dağıdılıb, yandırılıb və talan edilib. Digər şəhərlər üzrə, Ağdamın Əbdal və Gülablı kəndlərində “Pənah xan İmarəti” məscidlər kompleksi, Ağdam rayonunda Uğurlu bəy məzarlığı və Qurban Pirimovun ev muzeyi, Xocalıda XIV əsrə aid kurqanlar, Başlıbel və Otaqlı kəndlərində məscidlər, Kəlbəcərin Moz, Keşdağ

və Yuxarı Ayrım kəndlərində qədim məzarlıqlar, Zəngilanın Qıraq Muşlan, Malatkeşin, Babaylı və İkinci Ağalı kəndlərində məscidlər, Zəngilanın Babaylı və Şərifan, Cahangirbəyli kəndlərində orta əsr məzarlıqları, Qubadlı rayonunda Qayalı və Məmər kəndlərində qədim məzarlıqlar və məscid, Laçının Qarıqışlaq kəndində məscid və Zabux kəndində qədim məzarlıq, Cəbrayılın Çələbilər kəndində məscid kompleksi və Xubyarlı kəndində qədim məzarlıq, Füzuli şəhərində məscidlər və Qoçəhmədli, Mərdmli, Qarğabazar kəndlərində, Xocavəndin məzarlıqları, Ağhullu, Kuropatkina, Düdükçü və Salakatin kəndləri və Xocavəndin Tuğ kəndində qədim məzarlıq, Tərtərin Ümüdlü kəndində qədim hamamlar, Sədərəkin Kərki kəndində məzarlıq dağıdılıb, yandırılıb və talan edilib.

Hesabata əsasən, Kəlbəcər rayonunda qədim sikkələr, qızıl və gümüş işləmələr, nadir və qiymətsiz daşlar, xalça və digər əl işlərindən ibarət nadir kolleksiyaya malik Tarix Muzeyi, Şuşa muzeyləri, Laçın Tarix Muzeyi, Ağdam Tarix və Qida Muzeyindəki sərgi nümunələri digər dövlətlərdə satışa çıxarılıb. Şairə Natəvanın, bəstəkar Üzeyir Hacıbəylinin və ifaçı Bülbülün tunc heykəlləri Azərbaycan hökuməti onları 500 min dollar qiymətinə almayacağı təqdirdə, Gürcüstanda metal parçası kimi satılacaqdı. Həmçinin Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda Sotheby`s auksionunda 80 min dollara satılıb.

Həmçinin hesabatda Ermənistanda olan Azərbaycan tarixi abidələrinin də eyni aqibəti yaşadığı bildirilir. Qeyd edilir ki, Azərbaycanın orta əsr şəhərlərindən biri İrəvandakı (hazırda Yerevan) Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə "yenidən təmir edilib". Dağıdılmış arxitektura abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi və Səfəvi və Qacar dövrünün qiymətli saray arxitektura nümunəsi olan "Sərdar sarayı" və ya "Xan sarayı" saraylar kompleksidir. İrəvanın Sərdar məscidi (bəzən Abbas Mirzə məscidi adlandırılır) də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib. Ermənistanda Cəfərabad (ad Argavand adı ilə dəyişdirilib) kəndində 1413-cü ildə tikilmiş Əmir Saad mavzoleyi də dağıdılmış abidələr sırasındadır. Mavzoleyin Azərbaycana məxsusluğu əlamətinin aradan 8 qaldırılması üçün üzərində ərəb dilində yazılmış "Pir Budaq xanın hakimiyyəti dövründə Əmir Pir Hüseynin əmri ilə tikilmişdir" sözləri silinərək, abidənin adı "Türkmən Əmirləri

ailəsinin mavzoleyi" adlandırılıb. Həmçinin Ermənistanda olan qədim və yeni Azərbaycana məxsus qəbiristanlıqlar məhv edilib. İşğal edilmiş ərazilərdə olduğu kimi, Azərbaycanın Ermənistanda olan tarixi yerlərində toponimlərin orijinal xarakteri dəyişdirilib.

**9 noyabr** – Azərbaycan Prezidenti İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda demişdir: "...Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. "Qarabağ", "Xankəndi" Azərbaycan sözləridir. Mən dəfələrlə bildirmişəm ki, əgər Xankəndinin hər hansı bir tarixi adı olsaydı ermənilər o adı bərpa edərdilər. Onun "Stepanakert" adı bolşevik erməni quldur dəstəsinin rəhbəri Stepan Şaumyanın şərəfinə qoyulubdur. Yəni, bunu biz hamımız bilirik, amma dünya da bilməlidir. Hər yerdə bilməlidirlər ki, bu, bizim torpağımızdır, bizim haqqımız var o torpaqda yaşamağa. Beynəlxalq hüquq təbii ki, bizim mövqeyimizi müdafiə edir. Ancaq bütün dünya ictimaiyyəti bilməlidir ki, təkcə beynəlxalq hüquqla məsələ məhdudlaşmır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Ermənilər Dağlıq Qarabağa və bəzi başqa yerlərə XIX əsrdə İrandan, Şərqi Anadoludan köçürülmüşlər. Hansı məqsədlə köçürülmüşlər biz bunu yaxşı bilirik. Bütün bunları biz gərək kitablar formasında daha da geniş şəkildə yayaq və beləliklə, bütün dünyaya sübut edək ki, bu, bizim tarixi, əzəli torpağımızdır".

**16 noyabr** – Prezident İlham Əliyev “G20”nin Sammiti çərçivəsində keçirilən işçi naharda terrorizmə qarşı mübarizə və qaçqınlar böhranı mövzusunda müzakirələrdə çıxış zamanı bildirmişdir ki, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edir, Əfqanıstanda koalisiya qüvvələrinin işinə qoşulan ilk ölkələrdən biri olmuşdur.

Dövlət başçısı eyni zamanda, qeyd etmişdir ki, Azərbaycan özü terrorizmdən əziyyət çəkən ölkələrdəndir və bu terrorizm Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin tərkib hissəsidir. Ermənistan terror təşkilatı tərəfindən Azərbaycanda törədilən terror aktları nəticəsində iki mindən çox Azərbaycan vətəndaşı həlak olmuşdur.

Azərbaycan torpaqlarının işğalı məsələsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi zəbt olunmuş, xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdir. İşğal nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşmiş, bir milyona yaxın soydaşımız öz doğma torpaqlarından didərgin düşmüşdür. BMT Təhlükəsizlik Şurasının 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfi indiyədək buna məhəl qoymur. Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçılarının diqqətini dünyanın bir nömrəli beynəlxalq təşkilatının qəbul etdiyi qərarlara Ermənistan tərəfindən əməl olunmaması faktına cəlb etmiş və xüsusi olaraq vurğulamışdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır.

**17 noyabr** – Azərbaycan Prezidenti İlham Əliyev Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda demişdir: “...Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi. Beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi Təhlükəsizlik Şurasında sədrlik etdiyimiz iki il ərzində biz diqqəti iki vacib məsələyə yönəltdik. Bunlar beynəlxalq

terrorizmə qarşı mübarizə və mədəniyyətlərarası dialoqdur. Əfsuslar olsun ki, müstəqillik illərinin lap əvvəlindən Azərbaycan erməni təcavüzünün qurbanına çevrilmişdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmışdır, 750 min nəfər isə öz ölkəmizdə məcburi köçkünə çevrilmişdir. Biz humanitar fəlakətlə üzləşmişdik. Biz o zaman iqtisadi cəhətdən o qədər də inkişaf etməmişdik, çox kasib ölkə idik. Bu gün televiziyada Avropanın üzləşdiyi miqrasiya böhranı ilə bağlı reportajları izləyərkən əlbəttə ki, biz evlərini tərk etmək məcburiyyətində qalan insanların ağrısını baş düşürük. Eyni zamanda, biz bu prosesin Avropada yaşayanlar üçün çətinliklər törətdiyini də anlayırıq. Lakin, eyni zamanda, 1992-ci, 1993-cü illəri xatırlayırıq. Bu illər ərzində biz Azərbaycanda bir milyona yaxın insanı yerləşdirməli idik. O vaxtlar Azərbaycanın əhalisi təxminən səkkiz milyondan bir az artıq idi. Beləliklə, bu, dünya miqyasında adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayının ən yüksək göstəricisi idi. Qaçqın və məcburi köçkünlərin cəmiyyətimizə inteqrasiyası üçün əlimizdən gələni etdik. Bu gün onlar ölkəmizin inkişafında çox vacib rol oynayırlar”.

Dövlət başçısı bildirmişdir ki, Ermənistan nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozur: “BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, o dövrdən iyirmi ildən artıq vaxt ötmüşdür və bu qətnamələr icra olunmur. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizlik və qlobal konfiqurasiya ilə bağlı çox vacib məsələ ilə üzləşirik. Söhbət aparıcı beynəlxalq təşkilatların qərarları və qətnamələrinə məhəl qoyulmamasından və buna görə heç bir cəzanın tətbiq edilməməsindən gedir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir və bu hərəkətinə görə heç bir təzyiqlə qarşılaşmır.

Azərbaycan Prezidenti bidemişdir ki, bu məsələ ciddi şəkildə nəzərdən keçirilməlidir: “Biz Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmlərini təkmilləşdirməliyik ki, ikili standartlara yol verilməsin. Çünki biz hamımız bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri

bir neçə günə, hətta bir neçə saata icra olunur. Lakin bizim timsalımızda 20 ildən artıqdır ki, danışıqlar masasında heç bir irəliləyiş yoxdur, çünki Ermənistan sülh istəmir. Onlar bizimlə sülh şəraitində yaşamaq istəmirlər. Onlar imkanları olduğu qədər işğalçılıq siyasətini davam etdirmək istəyirlər və əfsuslar olsun ki, bu günə qədər buna nail ola biliblər. Lakin zaman bizim tərəfimizdədir, zaman ədalətin tərəfindədir, beynəlxalq hüququn tərəfindədir və mən əminəm ki, Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. İşğal nəticəsində bizim tarixi, memarlıq və dini abidələrimiz məhv edilmişdir.

Siz bu vəziyyətlə video və rəsmlərlə, internet vasitəsilə tanış ola bilərsiniz. Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilmişdir. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilmişdir. O cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır. Erməni işğalçıları tərəfindən 10 məscid yerlə-yeksan olunmuşdur. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz. Bu, multikulturalizmə olan yanaşmada bir fərqdir, bu, dini tolerantlığa olan yanaşmada bir fərqdir və bu, bir daha terrorizmin heç bir dinə, milli mənsubiyyətə aid olmadığını nümayiş etdirir.

İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir. Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda,

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. “Qarabağ” sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, Qara Bağ deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur.

Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb. Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaradılmışdır. Bu respublikanın qəbul etdiyi ilk qərarlardan biri Yerevanı Azərbaycandan Ermənistana vermək oldu. Ermənistanın bugünkü paytaxtı XX əsrin əvvəlində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir. Bu gün bu şəhər tamamilə etnik təmizlənməyə məruz qalıb. Beləliklə, tarix və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir və sizin də təsəvvür edə bildiyiniz kimi, bu məsələ Azərbaycan üçün, Azərbaycanın hər bir vətəndaşı üçün bir nömrəli məsələdir. Bu faciəvi hadisələrə və bu günədək davam edən işğala baxmayaraq Azərbaycan transformasiyada böyük uğura imza ata bilmişdir”.

**24 noyabr –** Azərbaycan Prezidenti İlham Əliyev beşinci çağırış Milli Məclisinin ilk iclasında bildirmişdir: “...Bu gün mən qarşıda duran bəzi vəzifələr haqqında fikirlərimi bildirmək istəyirəm. Baxmayaraq ki, son illər ərzində böyük uğurlar əldə edilib, həll olunmamış, həllini gözləyən problemlər var. Biz öz fəaliyyətimizi bu problemlərin həllinə yönəltməliyik. Problemlərin arasında birinci məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Əlbəttə ki, son illər ərzində bu sahədə heç bir irəliləyiş yoxdur. Ona görə ki, Ermənistan tərəfi sülh istəmir, münaqişəni həll etmək istəmir. Vaxt uzatmaq istəyir, müxtəlif bəhanələrlə danışıqlardan boyun qaçırır, təmas xəttində törədilən təxribatları da, Azərbaycanın bu təxribatlara adekvat cavabını da bəhanə kimi gətirir ki, danışıqlar prosesini pozsun.

Bu, reallıqdır. Biz real dünyada yaşayırıq. Beynəlxalq hüququn norma və prinsipləri əlbəttə ki, bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə, tarixi ədalət də bizim tərəfimizdədir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı bu torpaqlarda əsrlər boyu yaşamış, yaratmışdır. Ermənilər Dağlıq Qarabağ ərazisinə XIX əsrdə köçürülmüşdür. Bu tarixi biz yaxşı bilirik

və bütün dünya da bu tarixi bilməlidir. Son illər ərzində aparılan siyasət, o cümlədən deputatlar tərəfindən görülən işlər nəticəsində artıq geniş beynəlxalq ictimaiyyət bilir ki, bu, bizim tarixi torpağımızdır. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır və bunu sübut edən kifayət qədər dəlillər, tarixi faktlar var. Biz sadəcə olaraq bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, çatdırırıq və çatdıracağıq.

Bugünkü Ermənistan süni dövlətdir, tarixi Azərbaycan torpağında yaradılıb. Bir daha demək istəyirəm ki, bu həqiqətləri bütün dünya bilməlidir. Çünki münaqişənin həlli üçün əlbəttə, tarixi əsaslar da mühüm rol oynayır. Uzun illər erməni təbliğatı sübut etməyə çalışırdı ki, Dağlıq Qarabağ onların tarixi torpağıdır. Lobbi qrupları vasitəsilə müəyyən dərəcədə ictimai rəyi çaşdıra bilmişdi. Ancaq son illər ərzində Azərbaycanın diplomatik səyləri, eyni zamanda, ictimai təşkilatların fəaliyyəti, dövlət siyasəti əlbəttə ki, real mənzərəni dünya ictimaiyyətinin diqqətinə çatdırır və çatdıracaq.

Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsas rol oynayır. Bu qətnamələrdə birmənalı şəkildə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr yerinə yetirilməlidir. Bu münaqişənin həlli üçün başqa sənəd ola da bilməz. Çünki BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər beynəlxalq qurumudur. Digər beynəlxalq təşkilatlar, bildiyiniz kimi, o cümlədən deputatların səyi nəticəsində oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında ATƏT-in qərarlarını, Avropa Şurası Parlament Assambleyasının qətnaməsini xüsusilə qeyd etmək istərdim. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı da Azərbaycanın haqlı mövqeyini dəstəkləyir.

Münaqişə bu əsaslar üzərində öz həllini tapa bilər. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verə bilməz ki, Azərbaycan ərazisində ikinci qondarma "erməni dövləti" yaradılsın. Bizim bütün səylərimiz bu gün bu məqsədə xidmət edir. Biz bu məsələni bütün beynəlxalq təşkilatlarda müzakirə edirik. Bu məsələ bütün mötəbər tribunalardan səslənir və səslənməlidir. Mənim çıxışlarımda, deputatların çıxışlarında, bizim bütün digər ictimai xadimlərin çıxışlarında, xarici auditoriyalarda bu məsələ səslənməlidir.

Bununla bərabər, əlbəttə ki, diplomatik və siyasi səylər davam

etdiriləcək. Minsk qrupunun fəaliyyəti əfsuslar olsun ki, bu günə qədər heç bir səmərə verməyib. Ancaq buna baxmayaraq, biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırmalıyıq və qaldırırıq. Bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında çox dəyərli qərarlar qəbul edilibdir, digər təşkilatlarda bu fəaliyyət davam etdirilməlidir. Minsk qrupunun həmsədrləri dünyanın aparıcı ölkələridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Onlar əlbəttə ki, ilk növbədə öz qərarlarına hörmətlə yanaşmalıdırlar. Məhz onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrini qəbul etmişlər ki, orada erməni qüvvələrinin torpaqlarımızdan çıxarılması məsələsi qoyulubdur. Onlar ilk növbədə öz qərarlarına hörmət etməlidirlər. Biz onlardan bunu gözləyirik. Burada balanslı yanaşmadan söhbət gedə bilməz. Çünki işğalçını və işğala məruz olan ölkəni bir tərəziyə qoymaq olmaz.

Əlbəttə ki, biz başqa sahələrdə olduğu kimi, bu sahədə də ikili standartlarla üzləşirik. İkili standartlar bu gün reallıqdır. Yenə də demək istəyirəm ki, biz real dünyada yaşayırıq və bu reallıqları nəzərə almalıyıq. Ancaq, eyni zamanda, öz prinsipial mövqeyimizi daim ifadə edəcəyik. Bir daha demək istəyirəm ki, münaqişənin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər. Bu məqsədə nail olmaq üçün Azərbaycan daha da güclü olmalıdır. Bu gün əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları arxa plana keçibdir. İndi güc amili əsas rol oynayır. Kim güclüdür, o da haqlıdır. Biz daha da güclü olmalıyıq. Biz ölkəmizi gücləndiririk. Uzun illər iqtisadi islahatlarla, – burada digər amillər də rol oynayır, – hərbi potensialın möhkəmləndirilməsi ilə məşğuluq. Biz daha da güclü olmalıyıq. Həm siyasi, həm iqtisadi, həm hərbi gücümüz daha da artmalıdır.

Əlbəttə, əgər bu gün Ermənistanın arxasında güclü himayədarlar olmasa idi, bu məsələ çoxdan öz həllini tapardı. Ermənistan təkbaşına, xarici yardım almadan bizim qabağımızda duruş gətirə bilməzdi. Əlbəttə, bu gün Azərbaycan Ermənistandan bir neçə dəfə güclüdür, üstündür. Ancaq o da həqiqətdir ki, erməni lobbisi və müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları öz rolunu oynayır. Bu təşkilatlar müvafiq ölkələrin hökumətlərinə də təsir göstərir. Bax, bu amil bu gün münaqişənin həllində ən böyük əngəldir. Çünki Ermənistan təkbaşına beynəlxalq hüququ kobudcasına, bu dərəcədə kobud şəkildə poza bilməzdi. Yenə də deyirəm, Azərbaycan öz yolu ilə gedəcək. Heç bir ölkə qondarma "Dağlıq Qarabağ qurumu"nu tanımır,

tanımayacaqdır. Biz buna heç vaxt imkan verməyəcəyik, öz diplomatik, siyasi səylərimizi gücləndirəcəyik.

Eyni zamanda, hərbi potensialın gücləndirilməsi də bizim üçün prioritetdir. Son illərdə bu sahədə də böyük uğurlar əldə edilib. Ordumuzun döyüş qabiliyyəti artır. Ən müasir texnika, silah-sursat alınır. Bu gün beynəlxalq müstəvidə Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bu proses davam etdirilir. Baxmayaraq, bizim təbii ki, büdcə gəlirlərimiz azalıbdır. Ancaq hərbi xərclər ən prioritet məsələdir. Çünki, bir daha demək istəyirəm ki, bu, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ümumiyyətlə, ölkəmizin təhlükəsizliyini təmin etmək üçün lazımdır".

**26 noyabr** – Azərbaycan Prezidenti İlham Əliyev Bakıda ISESCO Baş Konfransının XII sessiyasının açılışında çıxış edərək bildirmişdir: "... İSESCO Azərbaycanı daim dəstəkləyir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində ISESCO daim Azərbaycanın mövqeyini, yəni, haqq-ədaləti açıq şəkildə dəstəkləyir. Cənab əl-Tuveycrinin çoxsaylı çıxışlarında bu məsələ ilə bağlı birmənalı mövqe nümayiş etdirilir. Buna görə biz ISESCO-ya minnətdarıq, bütün müsəlman aləminə minnətdarıq. Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınmış ərazimizin 20 faizi erməni işğalı altındadır. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı ermənilər tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər Xocalı soyqırımı törətmişlər. Bu gün 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyır. Ermənistan bütün beynəlxalq hüquq normalarını kobudcasına pozur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, orada erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. İyirmi ildən çoxdur ki, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası da oxşar qərar və qətnamələr qəbul etmişlər. Yəni, beynəlxalq hüquq tam şəkildə Azərbaycan mövqeyini dəstəkləyir. Eyni zamanda, tarixi ədalət də bizim tərəfimizdədir. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır. "Qarabağ" sözünün

özü Azərbaycan mənşəlidir. Ona görə həm tarix, həm beynəlxalq hüquq ölkəmizin mövqeyini dəstəkləyir və bu münaqişə yalnız ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllini tapa bilər.

Onu da qeyd etməliyəm ki, ATƏT işğal edilmiş ərazilərə iki dəfə missiya göndərmişdir. Missiyaların məruzələri göstərir ki, işğal edilmiş torpaqlarda hər şey – bizim şəhərlərimiz, kəndlərimiz, tarixi, dini abidələrimiz dağıdılıb. Ermənilər işğal edilmiş torpaqlarda 10 məscidi dağıdıblar. Bu, vəhşilikdir. Bu, İslam mədəniyyətinə qarşı terrorizmdir. Bir daha qeyd etmək istəyirəm ki, ISESCO bu məsələdə Azərbaycanın haqlı işini daim dəstəkləyir".

**31 dekabr –** Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirmişdir ki, xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir: "...Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin. Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqeyimizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Buna nail olmaq üçün əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır".

Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilmişdir. Düşmənə sarsıdıcı zərbələr endirilmişdir və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqeyimizdən dönməyəcəyik və lazım olarsa hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur".

---------------------

* Kitabda göstərilən yer adları hadisənin baş verdiyi dövrdə adlandırıldığı kimi verilmişdir. Bəzi hallarda isə xüsusilə, 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasına qədər olan dövrdə məqsədyönlü şəkildə dəyişdirilmiş yer adlarının kitabda təkrarlanmaması üçün Azərbaycanın yer adları tarixən olduğu kimi göstərilmişdir.

# II. ERMƏNİ TERROR TƏŞKİLATLARI HAQQINDA QISA MƏLUMAT

*Elmi araşdırmalar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixinin 100 ildən çox olduğunu göstərir. Erməni millətçiləri XIX əsrin sonunda – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hınçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. Erməni terror təşkilatları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutmuşlar.*

***1885-ci ildə –** Marseldə yaradılan və erməni terror təşkilatlarının birincilərindən olan **"Armenakan"** partiyası İran və çar Rusiyasında yaşayan ermənilərlə geniş əməkdaşlıq edərək Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində, eləcə də İstanbulda silahlı toqquşmalar və terror aktları törətmişdir.*

***1887-ci ildə** – Cenevrədə yaradılan **"Hnçaq"** partiyasının isə əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanı adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. Partiyanın proqramının 4-cü bəndində göstərilirdi ki, "qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".*

***1890-cı ildə –** Tiflisdə yaradılan və erməni millətçilərinin ən aparıcı təşkilatı hesab edilən **"Daşnaksütyun"** – erməni federativ inqilab partiyasının əsas qayəsi Azərbaycanın Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" partiyası "türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir.*

***

*XX əsrdə "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur ki, bu erməni terror təşkilatlarının fəaliyyəti keçən əsrin 70-80-ci illərində daha da genişlənmişdir:*

***1972-ci ildə –*** *ASALA-nın yaradılmasından əvvəl, Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılmış* ***"Erməni soyqırımı ədalət komandosları"****nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etmək olmuşdur.*

***1973-cü ildə*** *– yaradılan* ***"Erməni "soyqırımının" intiqamçıları"*** *qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirmiş, eləcə də daşnakların məxfi terror qrupu* ***DRO və onun DRO-8, DRO-88, DRO-888, DRO-8888*** *kimi bölmələrinin hal-hazırda bu istiqamətdə geniş fəaliyyəti davam edir.*

***1975-ci ildə*** *– Livanda yaradılan* ***"Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu" (ASALA)*** *adlı təşkilatın üzvləri həmin dövrdən başlayaraq Türkiyədə və Avropa ölkələrində bir sıra terror aktları törətmişlər ki, nəticədə günahsız insanlar erməni terrrorizminin qurbanı olmuşlar. Qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşən ASALA terror təşkilatının məqsədi Türkiyənin Şərqi Anadolu bölgəsi, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. Yarandığı vaxtdan təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir.*

*ASALA-nın* ***"Əbu Nidal", "Qara sentyabr"*** *kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri təşkilatın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan "Nyu-York Tayms" qəzetinə verdiyi müsahibədə bildirmişdir: "Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir". Bununla yanaşı, 1980-ci ilin aprelində Livanda ASALA birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişlər. Beyrut şəhərində 1993-cü il avqustun 28-də açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan nəzərdə tutulur) adlandırdığı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir.*

***1979-cu ildə*** *– yaradılan və ASALA-nın tərkib hissəsi sayılan* ***"Erməni azadlıq cəbhəsi"*** *də eyni zamanda, Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.*

***

***1980-ci illərin ikinci yarısı – 1990-cı illərdə** ASALA ilə yanaşı, uzun illərdir Qərbdə və bir sıra Şərq ölkələrində kök salmış erməni terror təşkilatları müxtəlif vaxtlarda bir sıra terror aktları həyata keçirmişdir:*

***1981-ci ildə** – Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılmış **"Orli qrupu"** 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirmişdir. Avropanın bir çox ölkəsində fəaliyyət göstərən **"İsveçrə qrupu"** Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür.*

***1981-ci ildə** – Parisdə yaradılmış **"İntiharçılar eskadronu"** həmin ildə Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir.*

***1987-ci il** – Xankəndi, Azərbaycan. Erməni lobbisinin maliyyə dəstəyi və iştirakı ilə "Dağlıq Qarabağın İnqilabi İdarə Komitəsi" – "KRUNK" ("Комитет Революционного Управления Нагорного Карабаха" sözlərinin baş hərfləri nəzərdə tutulur) yaradılmışdır. "KRUNK"-un sıralarında Yaxın Şərqdən olan xarici muzdlular da döyüşürlər. Təşkilatın ideoloji işlərinə Ermənistanın sabiq prezidenti Robert Koçaryan rəhbərlik edirdi. Hazırda təşkilat dünyanın müxtəlif ölkələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi və qondarma "erməni soyqırımı"na aid materialların yayılması ilə məşğul olan "Erməni mədəniyyət mərkəzi" kimi fəaliyyət göstərir.*

***1988-ci ildə** – Moskvada yaradılmış **"Erməni birliyi"**nin ASALA ilə sıx əlaqələri olmuş və keçmiş sovet məkanında ASALA terror təşkilatı üzvlərinin fəaliyyəti üçün onları saxta sənədlər və pulla təmin etmiş, eləcə də Qarabağa silah və muzdluların ötürülməsində iştirak etmişdir.*

***1990-cı ildə** – Fransada yaradılmış **"Gənc ermənilər ittifaqı"** diplomatların oğurlanması ilə məşğul olmuşdur.*

***1991-ci ildə** – İsveçrədə yaradılmış **"9 iyun qrupu"**nun əsas məqsədi həbsdə olan erməni terrorçularının azad edilməsinə çalışmaq olmuşdur.*

***1991-ci ildə** – Fransada yaradılmış və ASALA ilə sıx əlaqədə fəaliyyət göstərən **"Erməni azadlıq hərəkatı" (AOD)** Avropanın bir sıra ölkələrində çoxsaylı insan tələfatına səbəb olan terror aksiyaları həyata keçirmişdir.*

***1991-ci il** – "Azadlıq pələngləri" ("Freedom Tigers") təşkilatı yaradılmışdır. Təşkilatın üzvləri Qarabağda gedən döyüşlərdə iştirak etmiş, dinc əhaliyə qarşı cinayətlər törətmişlər.*

***1997-ci il –*** *Paris, Fransa. "Erməni Müqavimət Təşkilatı" ("Armenian Resistance Organization") təsis olunmuşdur. Təşkilat öz fəaliyyətində sosialist ideologiyasını rəhbər tutmuşdur.*

***2001-ci ilin fevralında*** *– ASALA tərəfindən yaradılmış* ***"Geqaron"*** *terror təşkilatının məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomatlara qarşı terror aktlarının keçirilməsidir.*

***2001-ci il aprel ayının 29-da*** *– əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmış* ***"Apostol"*** *təşkilatının məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktların həyata keçirilməsidir.*

*ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən* ***"Demokratik cəbhə"*** *qrupunun başlıca məqsədi Türkiyə dövlətinin parçalanmasıdır. Avropanın bir çox ölkəsində fəaliyyət göstərən* ***"İsveçrə qrupu"*** *adlı təşkilat Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür. Adı çəkilən erməni terror təşkilatları öz "missiyalarını" yerinə yetirdikdən sonra da qeyri-leqal şəraitdə fəaliyyətlərini davam etdirmişlər.*

***

# III. ERMƏNİ TERRORÇULARININ TÖRƏTDİYİ CİNAYƏTLƏRİN BİR HISSƏSİNİN QISA XRONİKASI

*"Daşnaksütyun" partiyasının keçirdiyi terror aksiyası* ***"Nemezis"*** *əməliyyatı adlanır. 1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayda "Nemezis" intiqamçı terror hərəkatına başlamaq haqqında qərar vermişdir. Armen Qaronun rəhbərlik etdiyi "Nemezis"in siyahısına Türkiyənin və Azərbaycanın 650 nəfər dövlət xadiminin və ziyalısının adları salınmışdı. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən 3-5 nəfərlik terrorçu qrupların məqsədi adları siyahıda olan şəxsləri axtarıb taparaq qətlə yetirmək idi. Həmin dövrdə Türkiyə və Azərbaycanın dövlət xadimləri, ziyalıları "Daşnaksütyun" partiyasının "Nemezis" terror hərəkatının hədəfinə çevrilmişdilər.*

***19 iyun 1920-ci il*** *– Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri Fətəli xan Xoyski Tiflis şəhərində erməni terrorçusu Aram Yerkanyan tərəfindən qətlə yetirilmişdir.*

***İyul, 1920-ci il –*** *Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Həsən bəy Ağayev Tiflis şəhərində ermənilər tərəfindən qətlə yetirilmişdir.*

***1920-ci il*** *– Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli Tiflis şəhərində ermənilər tərəfindən qətlə yetirilmişdir.*

***15 mart 1921-ci il*** *– Osmanlı imperiyasının Daxili işlər naziri Tələt paşa Berlində qətlə yetirilmişdir.*

***19 iyul 1921-ci il –*** *Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri Behbud xan Cavanşir Türkiyənin İstanbul şəhərində "Daşnaksütyun" partiyasının üzvü Misak Torlakyan tərəfindən qətlə yetirilmişdir.*

***25 iyul 1922-ci il –*** *Osmanlı imperiyasının keçmiş hərbi dəniz qüvvələri naziri, Osmanlı ordusunun Suriyadakı 4-cü ordusunun baş komandanı Camal paşa və onun müavini erməni terrorçuları Tiflis şəhərində Petros Ter-Poqosyan və Artaşes Gevorkyan tərəfindən qətlə yetirilmişdir.*

***4 avqust 1922-ci il*** *– Osmanlı imperiyasının Hərbi naziri Ənvər paşa Əfqanıstan yaxınlığında ermənilər tərəfindən qətlə yetirilmişdir.*

***

***XX əsrin 70-80-ci illərində*** *dunyann muxtəlif ölkələrində, əsasən Türkiyə diplomatlarına qarsı erməni terror təskilatları tərəfindən 200-dək terror aktı törədilmişdir:*

***5 sentyabr 1972-ci il –*** *Münhen, Almaniya. ASALA-nın banisi Akop Akopyanın təşkil etdiyi "Qara sentyabr" terror qruplaşması Münhendə keçirilən Olimpiya oyunlarında İsrail idmançılarını qətlə yetirmişdir. Akop Akopyan idmançıların öldürülməsinin fəal iştirakçısı olmuşdur.*

***27 yanvar 1973-cü il –*** *Kaliforniya, ABŞ. Türkiyənin Los-Ancelesdəki baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir erməni terrorçu Qurgen Yanikyan tərəfindən qətlə yetirilmişlər.*

***8 yanvar 1977-ci il –*** *Rusiya, Moskva. Metronun "İzmaylovskaya" və "Pervomayskaya" stansiyaları arasında qatar partladılmışdır.*

***8 yanvar 1977-ci il*** *– Rusiya, Moskva. "25 Oktyabr" küçəsindəki mağazada partlayış törədilmişdir. Hər iki terror aktı nəticəsində 7 nəfər həlak olmuş, 37 nəfər xəsarət almışdır. İstintaq sübut etmişdir ki, terror aktlarını Stepan Zatikyan, Akop Atepanyan və Zaven Baqdasaryan törətmişlər. S.Zatikyan Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan bölgələrinin Ermənistana birləşdirilməsi tələbini irəli sürən Ermənistan Milli Birlik Partiyasının üzvü olmuşdur.*

*7* ***avqust 1982-ci il –*** *Türkiyə, Ankara. Esenboğa hava limanı. ASALA-nın terror basqını nəticəsində 9 nəfər həlak olmuş, 82 nəfər yaralanmışdır.*

***16 iyun 1983-cü il –*** *Türkiyə, İstanbul. ASALA terror təşkilatının "Qapalı çarşı" adlanan bazarda törətdiyi partlayış nəticəsində 3 nəfər həlak olmuş, 21 nəfər yaralanmışdır.*

***15 iyul 1983-cü il –*** *Fransa, Paris. Orli hava limanında "Türk Hava Yolları"nın kassası qarşısındakı partlayış nəticəsində 8 nəfər həlak olmuş, 60 nəfər yaralanmışdır.*

***20 iyun 1984-cü il –*** *Vyana, Avstriya. Türkiyənin Avstriyadakı səfirliyinin sosial məsələlər üzrə müşaviri Ərdoğan Özənə məxsus avtomobil partladılmışdır. Hadisə nəticəsində Özən həlak olur və digər beş nəfər, eyni zamanda Avstriyanın iki polis əməkdaşı ağır yaralanır. Cinayətə görə EİO erməni terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür.*

***25 iyun 1984-cü il** – Paris, Fransa. Parisdə informasiya agentliyinə ASALA erməni terror təşkilatı tərəfindən imzalanmış məktubda Türkiyənin Los-Ancelesdə Olimpiya oyunlarında iştirakına hər hansı yolla kömək göstərən hökumət təşkilatlarına və şirkətlərinə qarşı terror aktı törətmək barədə hədə-qorxu ifadələri öz əksini tapmışdı.*

***13 avqust 1984-cü il** – Lion, Fransa. Dəmir yolu vağzalında partlayış baş vermiş və ASALA məsuliyyəti öz üzərinə götürmüşdür.*

***3 sentyabr 1984-cü il** – İstanbul, Türkiyə. Topqapı sarayının önündə saxlanılmış maşına bomba qoyarkən partlayıcı vaxtından əvvəl işə düşmüş və iki erməni terrorçusu ölmüşdür. EİO məsuliyyyəti öz üzərinə götürmüşdür.*

***19 noyabr 1984-cü il** – Vyana, Avstriya. BMT-nin sosial və humanitar məsələlər mərkəzinin Vyanadakı şöbəsində işləyən və milliyyətçə türk olan Ənvər Ərgün avtomobili qırmızı işıqda saxlayarkən qətlə yetirilmişdir. Avtomobildən EİO erməni terror təşkilatına aid maddi sübutlar götürülmüşdür.*

***29 dekabr 1984-cü il** – Beyrut, Livan. Şərqi Beyrutda iki fransız müəssisəsinin ofisləri partladılmış və ASALA məsuliyyəti üzərinə götürmüşdür.*

***3 mart 1985-ci il** – Paris, Fransa. ASALA erməni terror təşkilatından telefonla dövlət qurumlarına zəng edilərək bütün dünyada Fransanın maraqlarına zərbə vurulacağı bildirilmişdir. Onlar "Orli" hava limanında törədilmiş aktda günahkar bilinərək həbs edilmiş üç erməni terrorçunun azadlığa buraxılmasını tələb etmişlər.*

***12 mart 1985-ci il** – Ottava, Kanada. Üç erməni terrorçu Türkiyənin Kanadadakı səfirliyini atəşə tutmuşdur. Atışma zamanı "Pinkerton" federal təhlükəsizlik xidmətinin əməkdaşları öldürülmüşdür. Bununla yanaşı, terrorçular əsas qapını partladaraq səfirliyin binasına soxulmuş və girov götürmüşlər. Səfir Cosqun Kirsə özünü ikinci mərtəbənin pəncərəsindən ata bilmişdir. EİO-ya mənsub olan terrorçular polis tərəfindən yaxalanmış və məhkəməyə verilmişlər.*

***12 dekabr 1985-ci il** – Paris, Fransa. Ən iri supermarketlərdə iki bomba partladılmışdır. Nəticədə 41 adam xəsarət almış və bu hadisəyə görə ASALA məsuliyyəti üzərinə götürmüşdür.*

***20 mart 1986-cı il –*** *Paris, Fransa. Ticarət mərkəzinin binasına qoyulmuş partlayıcı qurğu işə düşmüş, nəticədə 2 nəfər həlak olmuş, 30-a yaxın adam yaralanmışdır. Bu aktı "Orli" hadisəsində təqsirli bilinərək həbs edilmiş V.Qarabedyanın (Karapetyan da deyilir) azad olunmasını yenidən tələb edən KSAMEPP terror təşkilatı öz üzərinə götürmüşdür. KSAMEPP terror təşkilatının tərkibi ermənilərdən, ərəb əsilli vətəndaşlardan və ASALA üzvləri tərəfindən təşkil edilmişdir.*

***9 sentyabr 1986-cı il –*** *Paris, Fransa. "Paris City Nall"ın binasında partlayış nəticəsində teleqraf xidmətinin işçisi həlak olmuş, 18 nəfər yaralanmışdır. KSAMEPP terror təşkilatı bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.*

***10-15 sentyabr 1986-cı il –*** *Paris, Fransa. Silsilə bomba partlayışları 2 nəfərin həlak olması və 100-dən artıq parislinin yaralanması ilə nəticələnmişdir. ASALA ilə birgə fəaliyyət göstərən KSAMEPP terror təşkilatı bu cinayətlərə görə məsuliyyəti öz üzərinə götürmüşdür.*

***16 sentyabr 1986-cı il –*** *Paris, Fransa. Fransa paytaxtının Montrarnass məhəlləsində KSAMEPP terrorçuları tərəfindən qoyulmuş bombanın partlaması nəticəsində 5 fransız həlak olmuş və 52 nəfər yaralanmışdır. Bir neçə nəfər aldığı yaralardan xəstəxanada ölmüşdür. Yenə də cinayətkarlar V. Qarabedyanın azadlığa buraxılmasını tələb edirdilər.*

***15 oktyabr 1986-cı il –*** *Beyrut, Livan. ASALA-nın nümayəndəsi Miqran Miqranyan başda olmaqla bu təşkilatın üç terrorçusu Livanın paytaxtında fransız jurnalistləri ilə görüşmüş və qətllərə, terror aktlarına görə həbs olunmuş həmkarları V.Qarabedyanın azad olunmayacağı təqdirdə Fransaya qarşı cinayətləri davam etdirəcəkləri barədə hədə-qorxu gəlirlər. M.Miqranyan ultimatum verərək demişdir: "... ASALA artıq bütün dünyada fransızları hərbi düşmənlər elan etmişdir. Siyasi məhbusları azad etmək barədə verdikləri vədə əməl etməsələr, biz Şiraka xəbərdarlıq edir, Miterana isə ölüm vəd edirik".*

***23 noyabr 1986-cı il –*** *Melburn, Avstraliya. Türkiyə konsulluğunun yanında maşın partladılmışdır. Nəticədə, bir nəfər həlak olmuş, beşmərtəbəli binaya böyük ziyan dəymişdir. İstintaq nəticəsində iki erməni terrorçu – Xaqop Levonyan və Levon Dəmiryanın şəxsiyyəti müəyyənləşdirilmişdir.*

*Partlayışa görə məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" (YBEC) öz üzərinə götürmüşdür. Erməni terror təşkilatı ilk dəfə idi ki, bu cür adla təqdim olunurdu.*

***19 noyabr 1987-ci il –** Brisben, Avstraliya. Poçt çeşidləmə şöbəsində bomba partlayışı nəticəsində Avstraliyanın altı vətəndaşı zərər çəkmişdir. Bu cinayətə görə məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" yenə öz üzərinə götürmüşdür.*

***3 fevral 1993-cü il –** Riqa, Latviya. Erməni terrorçuları "Latviyas Layks" qəzetinin redaktoru, tanınmış jurnalist Tatyana Çaladzeyə sui-qəsd etmişlər. T.Çaladze 90-cı illərin əvvəllərində Rusiyada Latviya Xalq Cəbhəsi qəzetinin və "Azad Avropa" radiosunun xüsusi müxbiri işləmiş və erməni terror təşkilatlarının cinayətlərini ilk olaraq işıqlandıran jurnalistlərdən biri olmuşdur.*

***28 fevral 1993-cü il –** Qudermes, Rusiya. Erməni terrorçuları Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarını partlatmış, nəticədə 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.*

***11 dekabr 1993-cü il –** Bağdad, İraq. Terrorçu erməni silahlıları Türkiyə səfirliyinin attaşesi Çağdar Yücelini qətlə yetirirlər.*

***4 iyun 1994-cü il –** Afina, Yunanıstan. Erməni terrorçuları tərəfindən Türkiyə səfirliyinin diplomatı Xaliq Sipahoğlu qətlə yetirildi.*

***11 may 2001-ci il –** İsrail, Təl-Əvivdən onlarca kilometr şimalda İsrail hava hücumundan müdafiə qüvvələri Livanın "Sessna" təyyarəsini vurub salmışdır. Təyyarəni milliyyətcə erməni olan Stefan Ohanes Nikolyan adlı bir nəfər idarə edirdi. Terrorçu kamikadze Nikolyan İsrailin yaşayış məntəqələrindən birini məhv etməyə cəhd göstərsə də, məqsədi baş tutmamışdır.*

***Dekabr 2001-ci il –** Los-Anceles, ABŞ. Erməni cinayətkar mafiyanın üzvləri Aşot Manukyan, Poqos Ketçejiyan, Ovanes İqarayan, Xovsep Keşişyan uzun müddətə azadlıqdan məhrum edilmişdir. Bir müddətdən sonra həmin cinayətkar dəstənin başqa bir üzvü Suzanna Onosyan da yaxalanmış və 45 il azadlıqdan məhrum edilmişdir.*

***

*Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarsı həyata keçirdikləri terror aktları 1980-ci illərin ikinci yarısından başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun isğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hətta hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur. Kitabda xronoloji ardıcıllıqla müxtəlif erməni terror təşkilatları və terrorçularının azərbaycanlılara qarşı həyata kerçirdikləri çoxsaylı terror aktları haqqında ətraflı bəhs edilmişdir.*

*Minlərlə insanın tələfatı ilə nəticələnən bu terror aktlarından sonra müxtəlif bəhanələrlə azadlığa buraxılan bu məşhur terrorçular beynəlxalq terrorizmə qarşı mübarizə aparılan müasir dövrdə çox rahat şəraitdə yaşayır və Ermənistan Respublikası davamlı olaraq dövlət terrorizmi siyasəti yürüdərək onları himayə edir.*

***Monte Melkonyan*** *– Məşhur terrorçu, Suriya mənşəli ABŞ vətəndaşı, 1957-ci ildə Kaliforniya ştatında anadan olmuş, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, uzun illər axtarışda olmuş, 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuşdur. Lakin erməni lobbisi, eləcə də erməni terror təşkilatlarının təzyiqi nəticəsində Fransa həbsxanasından 1990-ci ildə vaxtından əvvəl azadlığa buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilərək dinc azərbaycanlılara qarşı həyata kecirilən terror əməliyyatlarının iştirakçısı olmuşdur. O, Avropada, xüsusilə Fransada neçə illər ərzində türk diplomatlarına, Türk Kültür Ocaqlarına qarşı həyata keçirilən terror aktlarına birbaşa başçılıq etmişdir. Beynəlxalq terrorçu M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. O, xüsusilə 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində, Xocalıda azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsinə başçılıq edənlərdən biri olmuşdur. 1993-cü il iyunun 12-də Dağlıq Qarabağda öldürülən "Avo" ləqəbli bu beynəlxalq terrorçunun*

*Yerevanda keçirilən dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş, eləcə də onun Xankəndi və Yerevanda heykəli qoyulmuşdur.*

***Varjuan Karapetyan*** *– ASALA terror təşkilatının Fransa bölməsinin başçısı. Orli hava limanında törətdiyi terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş, 2001-ci ilin aprelində Fransadan Ermənistana ekstradisiya olunmuş Fransa məhkəməsi tərəfindən azad olunmuşdur. Baxmayaraq ki, o, Ermənistan vətəndaşı da deyildi, ancaq Ermənistan prezidenti onu əfv etmişdir.*

***Misak Torlakyan*** *– "Daşnaksütyun" partiyasının üzvü. Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri Behbud xan Cavanşiri Türkiyənin İstanbul şəhərində qətlə yetirmiş, lakin həmin dövrdə İstanbul şəhərini nəzarətə götürmüş İngiltərə qoşunlarının hərbi məhkəməsi tərəfindən ruhi xəstə adı ilə cinayətkara bəraət verilmişdir.*

***Soqomon Teyleryan*** *– Osmanlı imperiyasının Daxili işlər naziri Tələt paşanı Berlində qətlə yetirmiş bu cinayətkar həbs edilsə də, sonradan Berlin məhkəməsi tərəfindən ona bəraət verilmişdir.*

***Akop Akopyan –*** *ASALA-nın lideri. Münhendə keçirilən Olimpiya oyunlarında İsrail idmançıların öldürülməsinin fəal iştirakçısı olmuşdur. Akop Akopyanın 1982-ci ildə həlak olması barədə verilmiş xəbərlər sonradan təkzib edilmiş, onun həm Dəməşqdə, həm də Afinada yaşadığı və burada ona hər cür şərait yaradıldığı bildirilmişdir.*

***Qurgen Yanikyan –*** *Türkiyənin Los-Ancelesdəki Baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir bu erməni terrorçusu tərəfindən qətlə yetirilmişlər. Məhkəmənin ömürlük həbs cəzası haqqında qərarına baxmayaraq Qurgen Yanikyan "səhhətinə görə" bir müddətdən sonra azadlığa buraxılmışdır.*

***Caan Oqanesyan*** *– Ermənistan Respublikası Milli Təhlükəsizlik Bas idarəsinin şöbə rəisi. Onun rəhbərliyi ilə 1992-1994-cü illərdə Rusiyadan Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törədilmişdir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

***Aşot Qaloyan** – Ermənistan Respublikasi Milli Təhlükəsizlik Baş İdarəsinin əməkdaşı ”Moskva-Bakı” sərnişin qatarlarında partlayışların təşkilatçılarından biri olmuşdur. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

***Boris Simonyan** – Rusiya Federal Əks-kəşfiyyat Xidmətinin terrorizmlə mübarizə idarəsinin baş əməliyyat müvəkkili. Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb olunmuşdur. ”Moskva-Bakı” sərnişin qatarlarında partlayışların təşkilatçılarından biridir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

# IV. ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ RAYONLARI


AZƏRBAYCAN RESPUBLİKASI
ERMƏNİSTAN RESPUBLİKASI
İRAN İSLAM RESPUBLİKASI
DAĞLIQ QARABAQ MV
Göyçə gölü
Göygöl
Yuxarı Ağcakənd
Tərtər
Bərdə
Kür
Köçərli
Alpout
Lənbəran
Xanərəb
Qaravəlli
Lev
Qılıçlı
Kəlbəcər
02.IV.1993
Ağdaban
08.IV.1992
Umudlu
07.VII.1993
Ağdərə
Aşağı Oratağ
Boyəhmədli
Sərsəng su anb.
Sarıcalı
Hindarx
Vəngli
Pirlər
Ağdam
23.VII.1993
Minaxorlu
Arazbarı
Böy. Alagöl
Başlıbel
İstisu
Oğuldərə
Xocalı
26.II.1992
Əsgəran
Aran
Şəlvə
XANKƏNDİ
17.II.1992
Qaradağlı
Fərraş
23.XII.1991
Meşəli
Kərkicahan
Xocavənd
Hoçazsu
Şuşa
08.V.1992
Güneyxərman
Minkənd
Laçın
18.V.1992
Qırmızı Bazar
Aşağı Veysəlli
Füzuli
23.VIII.1993
Alxalı
Tuğ
Köhnə Tağlar
Gülebird
Başarat
Hadrut
Qarakollu
Horadiz
31.VIII.1993
Qubadlı
Dağ Tumas
Cəbrayıl
23.VIII.1993
Mil-Muğan su anb.
Xocik
Şahvəlli
Soltanlı
Xanlıq
Araz
Xocahan
Qumlaq
Cəbar
Zəngilan
Mincivan
Vejnəli
Həkəri
Azərbaycan SSR MİK-nin 7 iyul 1923-cü il dekreti ilə mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Azərbaycan SSR tərkibində DQMV-nin yaradılması Azərbaycan xalqının iradəsi əleyhinə, onun ərazi bütövlüyünə qarşı qeyri-qanuni zorakı akt nümunəsi idi. Sovet İttifaqında öz milli dövlət qurumu olan ermənilərə başqa bir dövlətin tərkibində əlavə dövlət qurumu yaradılması, alternativi olmayan məkirli bir tədbir idi.
Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan, Ermənistanla ümumi sərhəddə malik olmayan və 26.11.1991-ci il tarixdən Azərbaycan Respublikasının Qanunu ilə ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayəti.
Ermənilərin Azərbaycanlılara qarşı soyqırım törətdikləri yaşayış məntəqələri

## Dağlıq Qarabağ bölgəsinin tarixi Azərbaycan kəndləri*

### 1918-ci ilə qədər Şuşa rayonunda olan Azərbaycan kəndləri

1. Turşsu
2. Daşaltı
3. Zarıslı
4. Malıbəyli
5. Aşağı Quşçular
6. Yuxarı Quşçular
7. Xəlfəli
8. Dükanlar
9. Zamanpəyəsi
10. Laçınlar
11. Qaybalı
12. Şülü
13. Mirzələr
14. Şırlan
15. Çaykənd
16. Məmişlər
17. Səfixanlar
18. Xanlıqpəyə
19. Allahqulular
20. Turabxan
21. Xanalı
22. İmamqulular
23. Cəmillər
24. Paşalar
25. Göytala
26. Qaladərəsi
27. Əsgər dərəsi

### 1991-ci il ildə Şuşa rayonunda qalan Azarbaycan kəndləri

1. Turşsu
2. Zarıslı
3. Malıbəyli
4. Aşağı Quşçular
5. Yuxarı Quşçular
6. Xəlfəli
7. Dükanlar
8. Zamanpəyəsi
9. Laçınlar
10. Qaybalı
11. Şülü
12. Mirzələr
13. Şırlan
14. Çaykənd
15. Məmişlər
16. Səfixanlar
17. Xanlıqpəyə
18. Allahqulular
19. Turabxan
20. Xanalı
21. İmamqulular
22. Cəmillər
23. Paşalar
24. Daşaltı

**1918-ci ilə qədər Əsgəran rayonunda olan Azərbaycan kəndləri**

1. Ağbulaq
2. Cəmilli
3. Dəmirçilər
4. Mədədkənd
5. Daşbulaq
6. Kosalar
7. Yaloba
8. Canhəsən
9. Cavadlar
10. Qışlaq
11. Sərdaraşen
12. Xanabad
13. Ulubaba
14. Çanaqçı
15. Dağdağan
16. Xocalı
17. Meşəli
18. Kətik
19. Sığnaq
20. Ballıca
21. Başkənd
22. Qılıcbağ
23. Bəddərə
24. Fərrux
25. Dahraz
26. Pircamal
27. Aranzəmi
28. Pirəməki
29. Ağ kənd

**1991-ci il ildə Əsgəran rayonunda qalan Azərbaycan kəndləri****

1. Cəmilli
2. Kosalar
3. Xocalı
4. Meşəli
5. Daşbulaq
6. Həsənabad
7. Pirəməki

**1918-ci ilə qədər Xocavənd (Hadrut) rayonunda olan Azərbaycan kəndləri*****

1. Azıx
2. Bünyadlı
3. Daşbaşı
4. Mülkədərə
5. Məlikcanlı
6. Dolanlar
7. Ağbulaq
8. Axullu
9. Düdükçü
10. Tuğ
11. Arpagədik
12. Məmmədli
13. Qoçbəy
14. Salakətin

15. Xırmanlı
16. Edilli
17. Hindtağlar
18. Ağcakənd
19. Çıraqüz
20. Domı
21. Günəşli
22. Çəmənli
23. Bulutan

**1991-ci il ildə Xocavənd (Hadrut) rayonunda qalan Azərbaycan kəndləri**

1. Bulutan
2. Daşbaşı
3. Axullu
4. Tuğ
5. Salakətin
6. Günəşli
7. Çəmənli

**1918-ci ilə qədər Vərəndə-Xocavənd (Martuni) rayonunda olan Azərbaycan kəndləri******

1. Şəkər
2. Muğanlı
3. Əmiralılar
4. Qaradağlı
5. Yemişan
6. Müşkabad
7. Güneyqala
8. Quzeyqala
9. Mirikənd
10. Təkir
11. Xərxan
12. Xocavənd
13. Qarayonca
14. Abdur
15. Aşan
16. Qarakənd
17. Kəndyurd
18. Cavahan
19. Quzeyçərtər
20. Güneyçərtər
21. Vərəndə

**1991-ci ildə Xocavənd (Martuni) rayonunda qalan Azərbaycan kəndləri**

1. Muğanlı
2. Əmiralılar
3. Qaradağlı
4. Xocavənd
5. Kuropatkin

**1918-ci ilə qədər Ağdərə (Mardakert) rayonunda olan Azərbaycan kəndləri**

1. Həsənqaya
2. Qaralar
3. Çaylı
4. Heyvalı
5. Həsəniz
6. İmarət Qərvənd
7. Damğalı
8. Ağabəyli
9. Narıclar
10. Sırxavənd
11. Qaraşlar
12. Bəşirli
13. Umudlu
14. Cərəkdar
15. Baş Güney
16. Orta Güney
17. Manıklı
18. Telli Binə
19. Xatınbəyli
20. Qozlu
21. Xoruzlu
22. Dəvəboynu
23. Qızıl Qaya
24. Çayqovuşan
25. Qozlu Körpü
26. Yayıcı
27. Zərdəxan
28. Ağdərə
29. Sığnaq
30. Dəmirli

**1991-ci il ildə Ağdərə (Mardakert) rayonunda qalan Azərbaycan kəndləri*******

1. Umudlu
2. Qaralar
3. İmarət Qərvənd
4. Narıclar
5. Sırxavənd
6. Qaraşlar
7. Bəşirli
8. Cərəkdar
9. Baş Güney
10. Orta Güney
11. Manıklı
12. Telli Binə
13. Xatınbəyli
14. Gəşxana
15. Tala

## 1992-ci ildən sonra Dağlıq Qarabağın inzibati-ərazi bölgüsünə əsasən yaşayış məntəqələri******

### Şuşa rayonu

| | |
|---|---|
| 1. Turşsu | 12. Mirzələr |
| 2. Zarıslı | 13. Şırlan |
| 3. Malıbəyli | 14. Çaykənd |
| 4. Aşağı Quşçular | 15. Məmişlər |
| 5. Yuxarı Quşçular | 16. Səfixanlar |
| 6. Xəlfəli | 17. Xanlıqpəyə |
| 7. Allahqulular | 18. Nəbilər |
| 8. Zamanpəyəsi | 19. İmamqulular |
| 9. Göytala | 20. Xanalıqlar |
| 10. Qaybalı | 21. Laçınlar |
| 11. Şüşülü | 22. Paşalar |

### Xocalı rayonu

| | |
|---|---|
| 1. Başkənd | 7. Həsənabad |
| 2. Canhəsən | 8. Cavadlar |
| 3. Cəmilli | 9. Qaragiv |
| 4. Kocalar | 10. Meşəli |
| 5.Daşbulaq | 11. Yaloba |
| 6. Pirəməki | . |

### Xocavənd rayonu

| | |
|---|---|
| 1. Tuğ | 5. Kuropatkin |
| 2. Salakətin | 7. Muğanlı |
| 3. Qaradağlı | 8. Əmiralılar |
| 4. Xocavənd | 9. Günəşli |
| 5. Axullu | 10. Xətai |

-------------------------

* Dağlıq Qarabağ bölgəsində (Yuxarı Qarabağ) azərbaycanlılar yaşayan 16 kənd 1918-1919-cu illərdə erməni daşnakları tərəfindən tamamilə yer üzündən silinmişdir. 1923-cü ildə DQMV yaradılarkən vilayətin cəmi 238 kəndi olmuşdur. Bunlardan 130-da azərbaycanlılar, 98-də isə ermənilər

yaşamışlar. DQMV yaradılan zaman Azərbaycanın 1923-cü ilə qədərki inzibati-ərazi bölgüsü kobudcasına pozuldu və qəbul edilən qərara görə Cavanşir, Qubadlı, Şuşa qəzalarının əraziləri bölünüb DQMV yaradılmışdır.

**1924-cü il noyabrın 26-da** Azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edilən "DQMV haqqında Əsasnamə"də göstərilirdi ki, Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-yə verilmişdir. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilirdi. Ancaq az sonra, **1923-cü il sentyabrın 18-də** Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilib S.Şaumyanın şərəfinə Stepanakert adlandırıldı. Bununla da, Yuxarı Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.

****1923-cü ildə** Şuşanın Xankəndi, Xocalı, Kərkicahan, Ulubab, Pircamal, Cəmilli, Aranzəmi, Ballıca, Dəmirçilər, Sığnağ, Qarabulaq, Muxtarkənd, Dağdağan, Şuşakənd, Daşbaşı kimi onlarla kəndi alınıb Xankəndinə (Stepanakert) verilmiş, sonralar isə həmin torpaqlar hesabına Əsgəran rayonu yaradılmışdır. Sonradan isə yaradılan Stepanakert (Xankəndi) və Əsgəran rayonları bütünlüklə Şuşa qəzasının, əvvəllər Qaryagin (Füzuli) rayonunun bir kəndi hesab edilən Hadrut rayonu isə Füzuli rayonunun ərazisi hesabına yaradılmşdır. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri inzibati baxımdan rayon-nahiyə-kənd pillələri əsasında belə bölünmüşdü: **1. Ceraberd rayonu. 2. Vərəndə rayonu. 3. Şuşa rayonu. 4. Xaçın rayonu. 5. Dizaq rayonu.**

***Daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1930-cu ilin avqustunda Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisi yenə də 5 rayona bölünmüşdür: **1. Ceraberd 2. Martuni. 3. Stepanakert. 4. Dizaq. 5. Şuşa.**

Bu bölgüdə artıq Vərəndə rayonunun ərazisi Martuni, Xaçın rayonunun ərazisi Stepanakert rayonu, **1939-cu il avqustun 17-də** isə Ceraberd rayonunun ərazisi Mardakert rayonu, Dizaq rayonunun ərazisi isə Hadrut rayonu adlandırılmışdır. Lakin bu da Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə edilən son dəyişiklik olmamış, **1963-cü il yanvarın**

**4-də Şuşa rayonu ləğv edilmiş** və onun ərazisi Stepanakert rayonuna verilmişdir. İki il sonra **1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunmuş**, **1978-ci ildə isə Stepanakert rayonu əsasında Əsgəran rayonu yaradılmışdır**. SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsü belə qalmış və 5 rayondan ibarət olmuşdur: **1. Şuşa. 2. Mardakert. 3. Martuni. 4. Hadrut. 5. Əsgəran.**

****Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında **Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Qanununa əsasən** "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş hesab edilmişdir.

Bu Qanuna əsasən, Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq **Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri və Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu** adlandırılmışdır. Bundan əlavə, **Əsgəran** və **Hadrut** rayonları ləğv edilmiş, **Xocalı şəhəri** mərkəz olmaqla **Xocalı rayonu** yaradılmış, ləğv edilmiş **Əsgəran** rayonunun ərazisi **Xocalı** rayonunun tərkibinə, **Hadrut** rayonunun ərazisi isə **Xocavənd** rayonunun tərkibinə verilmişdir.

Nəticədə, Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonların sırasına daxil edilmişdir.

*****DQMV ləğv edildikdən sonra Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında **Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli 327** nömrəli Qərarı ilə Azərbaycan Respublikasının Ağdərə rayonu ləğv edilmişdir. Bu Qərara əsasən, ləğv edilmiş **Ağdərə rayonunun 8 kəndi** (Xatınbəyli, Qazançı, Maniklu, Baş Güneypəyə, Orta Güneypəyə, Sırxavənd, Yeni Qaralar, Kiçan) və onlara məxsus torpaq sahələri Ağdam rayonunun; **23 kəndi** (Çərəktar, Vaquas, Kotavan, Verin Oratağ, Arutunaqomer, Qoçoqot, Poqosaqomer, Drombon, Çıldıran, Mehmana, Araçadzor, Hayad, Tomaqahoğ, Şahmasur, Vənkli, Qarnakar, İmarət-Qərvənd, Zardaxaç, Çapar, Aterk, Nareştar, Damğalı,

Kolatağ) və onlara məxsus torpaq sahələri Kəlbəcər rayonunun; Ağdərə şəhəri, eləcə də **13 kəndi** (Umudlu, Zəylik, Metsşen, Möhrətağ, Ağabəyələnc, Mağavuz, Akop Kamari, Minqrelsk, Nerkin Oratağ, Qasapet, Canyataq, Dəmirli, Gülyataq) və onlara məxsus torpaq sahələri isə Tərtər rayonunun inzibati tərkibinə verilmişdir.

******Hazırda Dağlıq Qarabağ bölgəsi **Xankəndi** şəhərindən və **Şuşa, Xocalı, Xocavənd** rayonlarından ibarətdir.

# Şuşa rayonu


Şm
C
XOCALI
X O C A L I
R A Y O N U
ŞUŞA RAYONU
Qarqarçay
Badara
Ballıca
Qaraqaya
XANKƏNDİ
Xankəndi
Aşağı Quşçular
Yuxarı Quşçular
Malıbəyli
Çaykənd
2283
Şiştəpə d.
Şırlan
1760
Mirzələr
Paşalar
Mamişlər
Qaybalı
Laçınlar
Uzunyal d. 1989
Xəlfəli
Xəlfəliçay
Cəmillər
Allahqulular
Zamanpayası
ŞUŞA
Xanalı
İmamqulular
İsabulağı
Daşaltı
L A Ç I N
R A Y O N U
2072
1952 Qızıldaş d.
Sarıbaba d.
2295
Yumrudaş qayası
Zarıslı
Zarıslıçay
1462
1364
2214
Turşsu
Sarıbaba
Göytala
2346 Kiçik Kirs d.
Koroğlu qayası
Böyük Qaladərəsi
LAÇIN
2041
Dizdağ
Kiçik Qaladərəsi
2725
Böyük Kirs d.
L A Ç I N
R A Y O N U
X O C A V Ə N D
R A Y O N U
BKF

## Təbii-coğrafi mövqeyi

Dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan Şuşa şəhəri (Tarixi Şuşa qalası-Pənahabad) şimalda Xankəndi şəhəri, şərqdə və cənub-şərqdə Xocavənd, qərbdə və cənub-qərbdə Laçın rayonları ilə həmsərhəddir. Cənub tərəfdən, Girs dağından Şuşaya bir nəzər saldıqda, cənub-şərq tərəfdən şəhəri sıldırım qayalı dərə əhatə edir ki, bu da Şuşanın tarixən strateji əhəmiyyətli bir qala-şəhər oluduğunu göstərir.

- **İşğal olunmuşdur** – 8 may 1992-ci il
- **Ərazisi** – 289 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 24900
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 32854 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 30 kənd
- **Mədəni -məişət obyektləri** – 103
- **Şəhid olmuşdur** – 195
- **Əlil olmuşdur** – 165
- **Milli qəhrəmanlar** – 4
- **Şuşa rayonu ilə Bakı arasında olan məsafə** – 373 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Kurqan – tunc dövrü (Şuşa şəhərinin şimal-qərbində)
2. Şuşa və Şuşakənd daş qutusu qəbirləri – Son tunc və ilk dəmir dövrü (Şuşa şəhəri və Şuşa kəndinin yaxınlığında)
3. Şuşa mağara düşərgəsi – daş dövrü (Şuşa şəhərinin cənubunda, Daşaltı çayının sol sahilində)
4. Daş qutu nekropolu – dəmir dövrü (Qarabulaq kəndi)
5. Nekropol – son tunc və ilk dəmir dövrü (Dolanlar kəndi)
6. Şuşa qalasının divarları – 1750-ci il (Şuşa şəhəri)
7. Pənah xanın sarayı – XVIII əsr (Şuşa şəhəri)
8. Ağabəyim ağanın qəsri – XVIII əsr (Şuşa şəhəri)
9. Heydər türbəsi – XIX əsr (Şuşa şəhəri)
10. Hacı Quluların malikanəsi – XIX əsr (Şuşa şəhəri)

11. Natəvanın evi – XIX əsr (Şuşa şəhəri)
12. Əsəd bəyin evi – XIX əsr (Şuşa şəhəri)
13. Yuxarı Gövhərağa məscidi – 1768-1769-cu illər
14. Aşağı Gövhərağa məscidi – XVIII əsr (Şuşa şəhəri)
15. İkimərtəbəli karvansaray – XIX əsr (Şuşa şəhəri)
16. Mehmandarovların malikanə kompleksi: məscid, yaşayış evi, – XVIII əsr (Şuşa şəhəri)
17. İbrahim xanın bürcü – XVIII əsr (Daşaltı kəndi)
18. İsa bulağı – XIX əsr (Şuşa şəhərinin yaxınlığında)
19. İbrahim xanın qəsri – XVIII əsr (Daşaltı kəndi)
20. Üzeyir bəy Hacıbəyovun ev muzeyi – XIX əsr (Şuşa şəhəri)
21. Xanlıq Muxtar karvansarayı – XVIII əsr (Şuşa şəhəri)
22. Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarayı – XIX əsr (Şuşa şəhəri)
23. Zülfüqar Hacıbəyovun evi – XIX əsr (Şuşa şəhəri)
24. Saatlı məscidi – XVIII əsr (Şuşa şəhəri)
25. Gəncə qapısı – XVIII əsr (Şuşa şəhəri)
26. Ə. Haqverdiyevin evi – XVIII əsr (Şuşa şəhəri)
27. Qazançı kilsəsi – XIX əsr (Şuşa şəhəri)
28. Y.V. Çəmənzəminlinin evi – XVIII əsr (Şuşa şəhəri)
29. Yuxarı məscid mədrəsəsi – XVIII əsr (Şuşa şəhəri)
30. Səfərov qardaşlarının karvansarayı – XVIII əsr (Şuşa şəhəri)
31. Tarzən Sadıqcanın evi – XVIII əsr (Şuşa şəhəri)
32. Uğurlu bəyin evi – XVIII əsr (Şuşa şəhəri)
33. Xan sarayı – XVIII əsr (Şuşa şəhəri)
34. Şirin su hamamı – XVIII əsr (Şuşa şəhəri)
35. Xanəndə Seyid Şuşinskinin evi – XIX əsr (Şuşa şəhəri)
36. Şair M.P.Vaqifin türbəsi – XX əsr (Şuşa şəhəri)
37. Qasım Bəy Zakirin evi XVIII əsr (Şuşa şəhəri)
38. Mədrəsə – XVIII əsr (Şuşa şəhəri)
39. Behbudovların evi – XVIII əsr (Şuşa şəhəri)
40. Firudin bəyin evi – XVIII əsr (Şuşa şəhəri)
41. M.M.Nəvvabın evi – XVIII əsr (Şuşa şəhəri)
42. Bülbülün evi – XIX əsr (Şuşa şəhəri)
43. F.B.Köçərlinin evi – XIX əsr (Şuşa şəhəri)
44. Hüseyn bəyin evi – XVIII əsr (Şuşa şəhəri)
45. Keçəçi oğlu Məhəmmədin evi – XIX əsr (Şuşa şəhəri)
46. Karvansaray – XVIII əsr (Şuşa şəhəri)

47. Gəray Əsədovun evi – XVIII əsr (Şuşa şəhəri)
48. S.S.Axundovun evi – XIX əsr (Şuşa şəhəri)
49. C.Qaryağdıoğlunun evi – XVIII əsr (Şuşa şəhəri)
50. Realni məktəbinin binası – XX əsr (Şuşa şəhəri)
51. Xəstəxana binası – XIX əsr (Şuşa şəhəri)
52. Yaşayış binası – XIX əsr(Şuşa şəhəri)
53. Qız məktəbi – XIX əsr (Şuşa şəhəri)
54. Aslan Qaraşarovun evi – XIX əsr (Şuşa şəhəri)
55. Məşədi İbrahimin yaşayış evi – XIX əsr (Şuşa şəhəri)
56. Yaşayış evi – XVIII əsr (Şuşa şəhəri)
57. Məşədi Novruzun evi – XIX əsr (Şuşa şəhəri)
58. Həsən ağanın evi – XIX əsr (Şuşa şəhəri)
59. Yaşayış evi – XIX əsr (Şuşa şəhəri)
60. Yaşayış evi – XVIII əsr (Şuşa şəhəri)
61. Şükür Bəyin evi – XIX əsr (Şuşa şəhəri)
62. Cəfərqulu ağanın evi – XVIII əsr (Şuşa şəhəri)
63. Məbəd qalıqları – **?** (Şuşa şəhəri)
64. Türbə – **?** (Şuşa şəhəri)
65. Bulaq – XVIII əsr (Şuşa şəhəri)
66. “Laçın” su anbarı XIX əsr (Şuşa şəhəri)
67. Qız monastrı – XIX əsr (Şuşa şəhəri)
68. Süleyman Vəzirovun evi – XIX əsr (Şuşa şəhəri)
69. Hamam – XIX əsr (Malıbəyli kəndi)
70. Məscid – XIX əsr (Malıbəyli kəndi)
71. Novlu bulaq – XIX əsr (Malıbəyli kəndi)
72. İnzibati bina – XIX əsr (Malıbəyli kəndi)
73. Mamay bəyin evi – XVIII əsr (Şuşa şəhəri)
74. Məşədi Teymurun evi – XVIII əsr (Şuşa şəhəri)
75. Şor bulaq – XIX əsr (Şuşa şəhəri)
76. Xəlil Məmmədovun evi – XIX əsr (Şuşa şəhəri)
77. Ələkbər bəyin evi – XIX əsr (Şuşa şəhəri)
78. Məscid (Çuxur məhəllə) – XIX əsr (Şuşa şəhəri)
79. Lətif İmanovun evi – XVIII əsr (Şuşa şəhəri)
80. Hacı Abbas məscidi və karvansaray – XVIII əsr (Şuşa şəhəri)
81. Mərdinli məscidi – XIX əsr (Şuşa şəhəri)
82. Cahangir bəyin evi – XIX əsr (Şuşa şəhəri)
83. Hacı Məmmədin evi – XVIII əsr (Şuşa şəhəri)

84. Hacı Yusifli məscidi – XVIII əsr (Şuşa şəhəri)
85. Məşədi Salmanın evi – XVIII əsr (Şuşa şəhəri)
86. Culfalar məscidi – XIX əsr (Şuşa şəhəri)
87. Dəyirman – XX əsrin əvvəli (Şuşa şəhəri)
88. Hacı Əlibalanın evi – XIX əsr (Şuşa şəhəri)
89. Kəblə Azadın evi – XIX əsr (Şuşa şəhəri)
90. Hacı Sadığın evi – XIX əsr (Şuşa şəhəri)
91. "Çöl qala" bulağı – XVIII əsr (Şuşa şəhəri)
92. Məşədi Süleymanın evi – XVIII əsr (Şuşa şəhəri)
93. Musəvinin evi – XVIII əsr (Şuşa şəhəri)
94. Hacı Məmmədbağırın evi – XIX əsr (Şuşa şəhəri)
95. Hüsü Hacıyevin evi – XIX əsr (Şuşa şəhəri)
96. Məşədi Zeynal Hətəmovun evi – XVIII əsr (Şuşa şəhəri)
97. Məşədi Əlinin evi – XVIII əsr (Şuşa şəhəri)
98. Məşədi Səhliyarın evi – XVIII əsr (Şuşa şəhəri)
99. Hacı Dadaşın evi – XVIII əsr (Şuşa şəhəri)
100. A.Əzimovun evi – XVIII əsr (Şuşa şəhəri)
101. Məşədi İbrahimin evi – XVIII əsr (Şuşa şəhəri)
102. Məşədi Cəlalın evi – XVIII əsr (Şuşa şəhəri)
103. Meydan Bulağı – XVIII əsr (Şuşa şəhəri)
104. Hacı Bəşirin evi – XVIII əsr (Şuşa şəhəri)
105. Dərzi Bəhramın evi – XIX əsr (Şuşa şəhəri)
106. Məşədi Hüsünün evi – XIX əsr (Şuşa şəhəri)
107. Məmməd Həsən oğlunun evi – XVIII əsr (Şuşa şəhəri)
108. Kəlbə Məhəmmədin evi – XIX əsr (Şuşa şəhəri)
109. Xoca Mərcanlı məscidi – XVIII əsr (Şuşa şəhəri)
110. Xoca Mərcanlı bulağı – XVIII əsr (Şuşa şəhəri)
111. Bəhmən Mirzənin evi – XIX əsr (Şuşa şəhəri)
112. Bəhmən Mirzənin ərzaq anbarı – XIX əsr (Şuşa şəhəri)
113. Qulam şahın yaşayış evi – XIX əsr (Şuşa şəhəri)
114. N.B.Vəzirovun evi – XIX əsr (Şuşa şəhəri)
115. Köçərli məscidi – XIX əsr (Şuşa şəhəri)
116. Quyuluq məscidi – XVIII əsr (Şuşa şəhəri)
117. Seyid Məcidin evi – XVIII əsr (Şuşa şəhəri)
118. Bulaq (Seyidli məhəlləsi) – XVIII əsr (Şuşa şəhəri)
119. Seyidli məscidi – XVIII əsr (Şuşa şəhəri)
120. Məşədi Qaranın evi – XIX əsr (Şuşa şəhəri)

121. Kəlbə Yusifin evi – XVIII əsr (Şuşa şəhəri)
122. Zöhrabbəyovun evi XIX əsr (Şuşa şəhəri)
123. Məşədi İbişın evi – XVIII əsr (Şuşa şəhəri)
124. Məşədi Zülfüqarın evi – XIX əsr (Şuşa şəhəri)
125. Hacı Aslanın evi – XVIII əsr (Şuşa şəhəri)
126. Hacı Məlik oğlunun evi – XVIII əsr (Şuşa şəhəri)
127. Mir Həsən Vəzirovun evi – XIX əsr (Şuşa şəhəri)
128. Mamayı məscidi – XIX əsr (Şuşa şəhəri)
129. Mamayı bulağı – XIX əsr (Şuşa şəhəri)
130. Fərəməzovların evi – XIX əsr (Şuşa şəhəri)
131. Bulaq (Hacı Yusifli məhəllə) – XVIII əsr (Şuşa şəhəri)
132. Bulaq (Ağadədəli məhəllə) – XIX əsr (Şuşa şəhəri)
133. Bulaq (Köçərli məhəllə) – XVIII əsr (Şuşa şəhəri)
134. Bulaq (Çuxur məhəllə) – XVIII əsr (Şuşa şəhəri)
135. Saxsı bulaq – XVIII əsr (Zarıslı kəndi)


Шуша


















































ВАГИФ
































БУЛБУЛУН ЕВ-МУЗЕЈИ



























# Şuşa işğaldan sonra







































1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən ətraf 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri işğal edildi. İşğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi, 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyəti olan 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və ekspanatı, 44 məbəd və 9 məscid dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bundan əlavə, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir.

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhəri Ermənistan ordusu tərəfindən işğal edildikdən sonra şəhərdəki bütün maddi-mədəniyyət nümunələri məhv edilmişdir. Belə ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 30 səhiyyə müəssisəsi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi ilə yanaşı, işğala qədər memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bundan əlavə, Azərbaycan mədəniyyəti tarixində mühüm xidmətləri olan, opera musiqisinin banisi olmaqla yanaşı, istedadlı publisist və ictimai-siyasi xadim Üzeyir bəy Hacıbəyov, Azərbaycan vokal sənətinin banisi Bülbülün və görkəmli şairə Xurşudbanu Natəvanın Şuşadakı heykəllərini də ermənilər vəhşicəsinə güllələmişlər.

İşğaldan sonra həmin heykəllər çox çətinliklə əldə edilib Bakıya gətirilmiş və hazırda Azərbaycan İncəsənət Muzeyində qorunub saxlanılır (Şəkillər fotoqraf Mir Ələkbər Ağasiyevindir).

***

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində bütün maddi-mədəniyyət nümunələri dağıdılıb məhv edilməklə yanaşı, ermənilər azərbaycanlılara məxsus olan tarixi yazıları silmək, qaşıyıb pozmaq və təhrif etməklə kifayətlənməmiş, onları özününküləşdirməyə çalışıraq öz saxtakarlıq əməllərindən də əl çəkməmişlər.






Şuşa. Mamayı bulağı (işğaldan əvvəl)






*Şuşa. Mamayı bulağı (işğaldan sonra)*

















# Xocalı rayonu



## Təbii-coğrafi mövqeyi

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Qanununa əsasən DQMV ləğv edilərək Xocalı şəhəri və Əsgəran rayonlarının bazası əsasında Xocalı rayonu yaradılmışdır. Xocalı rayonu şimalda Ağdam, şimal-şəqdə indi artıq ləğv olunmuş Ağdərə rayonu, şərqdə Kəlbəcər və Laçın rayonları, cənubda Şuşa, cənub-qərbdə isə Xocavənd rayonu ilə həmsərhəddir. Xocalı şəhəri Xankəndindən 10 km cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağ bölgəsinin yeganə hava limanının məhz burada yerləşməsi idi. Hazırda Xocalıdan keçən Əsgəran-Xankəndi yolu və Xocalıda yerləşən hava limanı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

- **İşğal olunmuşdur** – 26 fevral 1992-ci il
- **Ərazisi** – 970 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 11567
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 15700 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri –** 1 şəhər, 1 qəsəbə, 52 kənd
- **Mədəni -məişət obyektləri** – 80
- **Şəhid olmuşdur** – 613
- **Əlil olmuşdur** – 487
- **Milli qəhrəmanlar** – 10
- **Xocalı rayonu ilə Bakı arasında olan məsafə** – 375 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Daş qutu nekropolu – tunc dövrü ( Xocalı şəhəri Əsgəran dağı)
2. Nekropol – ilk tunc və orta tunc dövrü (Xankəndidən cənubda)
3. Xocalı kurqanları – ilk tunc və dəmir dövrü (Xocalı rayonu)
4. Küp qəbirlər nekropolu – ilk orta əsrlər (Xankəndinin ərazisində)
5. Kurqan – dəmir dövrü (Xankəndi yaxınlığında)
6. Xankəndi kurqanları – tunc dövrü (Xankəndidən şimalda)

7. Xaçıncay kurqanları – ilk tunc və orta tunc dövrü (Seyidşən kəndindən şimal-şərqdə)
8. Küp qəbirləri nekropolu – tunc dövrü (Armudlu kəndindən 2 km. İlis kəndinə tərəf)
9. Kurqan – tunc dövrü (Armudlu kəndindən 15 km aralı, İlis çayının sahilində)
10. Daş qutu nekropolu – dəmir dövrü (Armudlu kəndi, qəbristanlığın yaxınlığında)
11. Köhnə qəbristanlıq – tunc dövrü (çanaqçı kəndi)
12. Daş qutu nekropolu – dəmir dövrü (Saruşen kəndi)
13. Daş qutu nekropolu – dəmir dövrü (Saruşen kəndi, dağın ətəyində)
14. Dairəvi məbəd – 1356-1357-ci il (Xocalı şəhəri)
15. Türbə – XlV əsr (Xocalı şəhəri)
16. Alban məbədi – 1100-ci il (Çanaxçı kəndi)
17. Alban məbədi – 1065-ci il (Çanaxçı kəndi)
18. Alban məbədi – 905-ci il (Şuşa kəndi)
19. Alban məbədi – 1122-ci il (Xansıx kəndi)
20. Alban məbədi – 1100-ci il (Xaçmaz kəndi)
21. Alban məbədi – 1202-ci il (Armudlu kəndi)
22. Qala – X əsr (Maşxmaat kəndi)
23. Qırxlar qalası – orta əsrlər (Badara kəndi)
24. Məbəd kompleksi – VII əsr (Badara kəndi)
25. Qala – IX əsr ( Daşbaşı kəndi)
26. Əsgəran qalası – XVIII əsr (Əsgəran qəsəbəsi)
27. Aslan qalası – IX əsr (Anabert kəndi)
28. Məbəd – XIII əsr (Xanabad kəndi)









# Xocalı işğaldan sonra









# Xocavənd rayonu



**Təbii-coğrafi mövqeyi**

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Qanununa əsasən DQMV ləğv edilərək keçmiş Martuni (Xocavənd) və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır. Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu şimalda Ağdam, Ağcabədi, şərqdə Füzuli, cənubda Cəbrayıl, cənub-qərbdə Qubadlı, Laçın rayonları, qərbdə Şuşa, şimal-qərbdə isə Xankəndi şəhərləri və Xocalı rayonları ilə həmsərhəddir.

- ❖ **İşğal olunmuşdur** – 2 oktyabr 1992-ci il
- ❖ **Ərazisi** – 1458 km²
- ❖ **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 9011
- ❖ **Hazırda əhalisinin sayı** (min nəfər) – 12145 **(2015)**
- ❖ **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 2 qəsəbə, 81 kənd
- ❖ **Mədəni-məişət obyektləri** – 75
- ❖ **Şəhid olmuşdur** – 145
- ❖ **Əlil olmuşdur** – 48
- ❖ **Xocavənd rayonu ilə Bakı arasında olan məsafə** – 334 km

**Tarixi abidələri və maddi-mədəniyyət nümunələri**

1. Nərgiztəpə yaşayış yeri – ilk və orta tunc dövrü (Xocavənd şəhərindən şərqdə)
2. Nekropol – son tunc və ilk dəmir dövrü ( Dolanlar kəndi)
3. Tağlar mağarası – daş dövrü ( Tağlar kəndi)
4. Alban məbədi – 1170-ci il (Hadrut qəsəbəsi)
5. Alban məbədi – 1147-ci il (Məmmədzar kəndi)
6. Alban məbədi – 1197-ci il (Tuğ kəndi)
7. Qırmızı məbəd – 1000-ci il (Tuğ kəndi)
8. Alban məbədi – 1094-cü il (Zoğalbulaq kəndi)
9. Alban məbədi – 900-cü il (Vəng kəndi)

10. Alban məbədi – 1131-ci il (Sakuri kəndi)
11. Alban məbədi – IV-VI əsrlər (Süsənlik kəndi)
12. Məbəd – 1635-ci il (Tağaser kəndi)
13. Məbəd (Xsaberd kəndi)
14. Məbəd – 1635-ci il ( Tağaser kəndi)
15. Dini kompleks – XIII əsr (Sor kəndi)
16. Qala – (Sor kəndi)
17. Məbəd – 1241-ci il (Böyük Tağlar kəndi)
18. Alban məbədi – 1236-cı il (Güneyçartar kəndi)
19. Alban məbədi – 995-ci il (Qavahın kəndi)
20. Alban məbədi – IV əsr (Sos kəndi)
21. İki alban məbədi – 701-ci il (Çörəkli kəndi)
22. Alban məbədi – VIII əsr (Çörəkli kəndi)
23. Alban məbədi – V əsr (Çörəkli kəndi)
24. Məbəd – 1270-ci il (Çörəkli kəndi)
25. Məbəd – XII əsr (Çörəkli kəndi)
26. Amaras monastrı – IV əsr (Cütçü kəndi)
27. Məbəd – XII əsr ( Şıxdursun kəndi)
28. Alban məbədi – 675-ci il (Tağaverd kəndi)
29. Qala – III əsr ( Tağaverd kəndi)
30. Bağır xan məbədi – XII əsr (Cəmiyyət kəndi)
31. Məbəd – XIV əsr (Dolanlar kəndi)
32. Məbəd – XIV əsr (Ataqud kəndi)
33. Türbə – XVII əsr (Xocəvənd qəsəbəsi)
34. Məbəd – XVII əsr (Tağavard kəndi)
35. Məbəd – XVIII əsr (Hadrut qəsəbəsi)
36. Məbəd – XIII əsr (Tuğ kəndi)
37. Məbəd – 1747-ci il (Tuğ kəndi)
38. Körpü – XVIII əsr (Tuğ kəndi yaxınlığında)
39. Ağ kilsə – XVII əsr (Vəng kəndi)
40. Məbəd – 1664-cü il (Qarqar kəndi)
41. Məbəd – XVII əsr (Sakuri kəndi)
42. Məbəd – XVII əsr (Sur kəndi)
43. Məbəd – XVIII əsr (Domi kəndi)
44. Məbəd – XIX əsr (Şaqah kəndi)

45. Məbəd – 1896-cı il (Noraşen kəndi)
46. Məbəd – XIX əsr (Qoçbəy kəndi)
47. Məbəd – 1698- ci il (Ağcakənd)
48. Məbəd – XVII əsr (Zamzur)
49. Məbəd – XVII əsr (Azıx kəndi)
50. Məbəd – XIX əsr (Bünyadlı kəndi)
51. Məbəd – XIII əsr (Dolanlar kəndi)
52. Türbənin sərdabə hissəsi – XII-XIII əsrlər (Dolanlar kəndi)
53. Albanbeki məbədi – XI əsr (Qarakənd kəndi)









# Laçın rayonu



## Təbii-coğrafi mövqeyi

Laçın rayonu Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə Xankəndi dəmiryol stansiyasının 60 kilometrliyində yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3.594 metr yüksəklikdəki Qızılboğaz zirvəsidir. İqlimi mülayim kontinentaldır. Ərazisindən axan əsas çay Həkəridir. Qərbdə Ermənistan Respublikası, şərqdə Şuşa, Xankəndi və Xocalı şəhərləri ilə, şimalda Kəlbəcər, cənubda isə Qubadlı rayonları ilə həmsərhəddir. Yevlax-Laçın-Naxçıvan magistral şosse yolunun üstündə yerləşir.

- ❖ **İşğal olunmuşdur** – 18 may 1992-ci il
- ❖ **Ərazisi** – 1835 $km^2$
- ❖ **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 60000
- ❖ **Hazırda əhalisinin sayı** (min nəfər) – 75147 **(2015)**
- ❖ **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 1 qəsəbə, 125 kənd
- ❖ **Mədəni -məişət obyektləri** – 575
- ❖ **Şəhid olmuşdur** – 304
- ❖ **Əlil olmuşdur** – 225
- ❖ **Milli qəhrəmanlar** – 6
- ❖ **Laçın rayonu ilə Bakı arasında olan məsafə** – 414 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Daş qutu – dəmir dövrü (Abdallar kəndi)
2. Kurqan – dəmir dövrü ( Cicimli kəndi)
3.“Qızqəbri” kurqanı – dəmir dövrü (Cicimli kəndi)
4. Kurqan – dəmir dövrü (Cicimli kəndi)
5. Kurqan – tunc dövrü (Ziyrik kəndi)
6. Kurqan – dəmir dövrü (Qoçaz kəndi)
7. Kurqan – dəmir dövrü (Güləbird kəndi)
8. Mağara məbədi – V əsr (Qoçaz kəndi)
9. Məbəd – XIX əsr (Ağoğlan çayının sahilində)
10. Məlik Əjdər türbəsi – XIV əsr (Cicimli kəndi)

11. Türbə – XVII-XVIII əsrlər (Cicimli kəndi)
12. Bulaq – XV əsr (Quşçu kəndi)
13. Behbudalı bulağı – XV əsr (Göybulaq kəndi)
14. Daşbulaq bulağı – XVII əsr (Pircahan kəndi)
15. Daşbulaq – XVII əsr (Sus kəndi)
16. Daşbulaq – XVII əsr (Seyidlər kəndi)
17. Məbəd – XVII əsr (Hoçaz kəndi)
18. Körpü – XVIII əsr (Bəhələ kəndi, Həkəri çayının üzərində)
19. Türbə – ? (Güləbird kəndi)
20. Həmzə Soltan sarayı – 1761-ci il (Hüsülü kəndi)
21. Soltan Əhməd sarayı – ? (Soltanlar kəndi)
22. Soltan Baba türbəsi – XIX əsr (Zeyvə kəndi)
23. Şeyx Əhməd türbəsi – XIX əsr (Zeyvə kəndi)
24. Türbə – XIX əsr (Zeyvə kəndi)
25. Kafir-Qala – XVII əsr (Zeyvə kəndi)
26. Məscid – 1718-ci il (Qaraqışlaq kəndi)
27. Qala – XI əsr (Qaraqışlaq kəndi)
28. Dəmirovlu Pir məbədi – XI əsr (Qaraqışlaq kəndi)
29. Məscid – ? (Piçəniz kəndi)
30. Məbəd – XVII əsr (Piçəniz kəndi)
31. Məbəd – XII əsr (Qorçu kəndi)
32. Məbəd – X əsr (Aşağı Fərəcan kəndi)
33. Məbəd – XV əsr (Şəlvə kəndi)
34. Məbəd – XVI əsr (Əhmədli kəndi)
35. “Ağbaxt xeyir” türbəsi – XVI əsr (Əhmədli kəndi)
36. Körpü – XIX əsr (Əhmədli kəndi)
37. Məbəd – XV əsr (Minkənd kəndi)
38. İkitağlı körpü – XIX əsr (Minkənd kəndi)
39. Birtağlı körpü – XIX əsr (Minkənd kəndi)
40. Mağara qalası – XV əsr (Güləbird kəndi)
41. Sınıq körpü – XV əsr (Ağdərə kəndi)
42. Qala – XIX əsr (Quşçu kəndi)
43. Sadınlar qalaçığı – XIX əsr (Quşçu kəndi)
44. Körpü – XIX əsr (Qaraqaş yaylağı)
45. Birtağlı körpü – XIX əsr (Zabux kəndi)
46. Körpü – XIX əsr (Zabux kəndi)
47. Sınıq körpü – XIX əsr (Malxələf kəndi)

48. Qala – XV əsr (Mirik kəndi)
49. Məbəd – XV əsr (Mirik kəndi)
50. Körpü – XIX əsr (Pircahan kəndi)
51. Körpü – XIX əsr (Pircahan kəndi)
52. Körpü – XIX əsr (Seyidlər kəndi)
53. Məbəd – XIX əsr ( Sonasar kəndi)
54. Körpü – XIX əsr (Şeytanlı kəndi)
55. Məbəd – XVII əsr Sadınlar kəndi
56. Ağoğlan qəsri – IX əsr (Kosalar kəndi)
57. Uşaq qalası – XV əsr (Quşçu kəndi)
58. Kəlbəlayı Behbudalı bulağı – XV əsr (Mirik kəndi)
59. Xəlifə türbəsi – XVII əsr (Malxələf kəndi)
60. Gavur qalası – XI əsr (Pircan kəndi)
61. Qarasaqqal türbəsi – XVI əsr (Ərikli kəndi)
62. Xallanlı qəbristanlığı – XVI əsr (Zabux kəndi)
63. Qədim qəbristanlıq – XIII əsr (Malıbəy kəndi)
64. Daş at fiquru – ərəb yazısı ilə – XVI əsr (Malıbəy kəndi)
65. Daş at fiquru- ərəb yazısı ilə – XVII əsr (Güləbird kəndi)
66. Daş qoyun fiquru – ərəb yazısı ilə – XV əsr (Küsülü kəndi)
67. Daş at fiquru – XVII əsr (Xallanlı kəndi)
68. Məbəd – IX əsr (Ərəb kəndi)
69. Qəbristanlıq – VI-VII (Ərəb kəndi)













































# Kəlbəcər rayonu



## Təbii-coğrafi mövqeyi

Kəlbəcər rayonu Azərbaycanın qərbində, Tərtər çayı vadisində, Böyük Qafqaz dağlarında, dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3724 metr yüksəkdəki Camışdağ zirvəsidir (Murovdağ). Rayonun ərazisindən axan əsas çaylar Tərtər, Bazarçay və onların qollarıdır. Ərazisinin çox hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlim tipləri hakimdir. Kəlbəcər rayonu qərbdə Ermənistan Respublikası, şərqdə Ağdam və Tərtər, şimalda Daşkəsən, Göygöl və Goranboy rayonları ilə, cənubda isə Laçın rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

- **İşğal olunmuşdur** – 2 aprel 1993-cü il
- **Ərazisi** – 1936 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 55000
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 74058 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 1 qəsəbə, 128 kənd
- **Mədəni -məişət obyektləri** – 134
- **Şəhid olmuşdur** – 217
- **Əlil olmuşdur** – 49
- **Milli qəhrəmanlar** – 2
- **Kəlbəcər rayonu ilə Bakı arasında olan məsafə** – 445 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Qayaüstü təsvirlər – ilk və orta tunc dövrü (Qırmızı dağın ətəyində)
2. Yaşayış yeri – ilk və orta tunc dövrü (İstisu qəsəbəsi)
3. Dovşanlı nekropol – son tunc ilk dəmir dövrü (Dovşanlı kəndi)
4. Balıqqaya nekropolu – son tunc ilk dəmir dövrü (Sırxavənd kəndinin şərqində)
5. Zar mağara düşərgəsi – paleolit (Zar kəndinin qərb tərəfində)
6. Qala – 1284-cü il ( Vəngli kəndi)

7. Məbəd – XIII əsr (Vəngli kəndi)
8. Məbəd – 1251-ci il (Bazarkənd kəndi)
9. Kilsə – 1668-ci il (Dovşanlı kəndi)
10. Kilsə – XVII əsr (Dəvədaşı kəndi)
11. Qırmızı məbəd – XVII əsr (Qozlu kəndi)
12. Alban məbədi – 718-ci il (Qasaped kəndi)
13. Kilsə – 1894-cü il (Qasaped kəndi)
14. Kilsə – 1898-ci il (Madaqiz kəndi)
15. Ürek məbədi – 1279-cu il (Talış kəndi)
16. Kilsə – 1883-cü il (Maxrataq kəndi)
17. Məbəd – 1881-ci il (Maxrataq kəndi)
18. Comərd qalası – (Pirilər kəndi)
19. Qalaboyun qalası – (Qalaboyun kəndi)
20. Körpü – (Zəylik kəndi)
21. Uluxan qalası – XVII əsr (Qaraxançallı kəndi)
22. Alban məbədi – 713-cü il (Dastaqir kəndi)
23. Daş qoç fiquru ərəb yazı ilə – XIX əsr (Zar kəndi)
24. Daş at fiquru – orta əsrlər – (Zəylik kəndi)
25. Lök qalası – XIII-XIV əsrlər (Qanlıkənd kəndi, meşədə)
26. Xanabert qalası (Vənkli kəndi)
27. Müqəddəs Yaqub kilsəsi – 635-ci il (Kolataq kəndi)
28. Alban məbədi – 614-cü il (Kolataq kəndi)
29. Qala – (Şaplar kəndi)
30. Alban məbədi – XII əsr (Çıldıran kəndi)
31. Qırmızı məbəd – XIII əsr (Çıldıran kəndi)
32. Alban məbədi – X əsr (Çormanlı kəndi)
33. Alban kilsəsi – XI əsr (Çormanlı kəndi)
34. “Xatırvank” məbədi – 1204-cü il (Qozlu kəndi)
35. Alban məbədi – 698-ci il (Yayıcı kəndi)
36. Alban məbədi – 672- ci il (Yayıcı kəndi)
37. Məbəd – 1283-cü il (Həsənriz kəndi)
38. Alban məbədi – 500-cü il (Həsənriz kəndi)
39. Gəncəsər monastrı – 1238-ci il (Vəngli kəndi)
40. Xudavənd monastrı – XII-XVII əsrlər (Kəlbəcər rayonu, Tərtər çayının qərbində)























# Ağdam rayonu



## Təbii-coğrafi mövqeyi

Ağdam rayonu Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında, yəni Qarabağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərb hissəsində yerləşir. Relyefi əsasən düzənlik, qismən dağlıqdır. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Şimalda Tərtər və Bərdə rayonları ilə, cənubda Xocavənd, şərqdə Ağcabədi rayonu ilə, qərbdə isə, Kəlbəcər rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

- **İşğal olunmuşdur** – 23 iyul 1993-cü il
- **Ərazisi** – 1094 km² (846,7 km² işğal altındadır)
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 165000
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 194800 (onlardan 153634 nəfəri məcburi köçkündür) **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndlərin sayı** – 1 şəhər, 79 kənd Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Hazırda Ağdam rayonunun Quzanlı qəsəbəsi və 44 kəndi Azərbaycanın nəzarətindədir və həmin ərazilərdə 92083 nəfər əhali (41200 nəfər yerli, 50883 nəfər məcburi köçkün) yaşayır.
- **Mədəni-məişət obyektləri** – 598
- **Şəhid olmuşdur** – 538
- **Əlil olmuşdur** – 587
- **Milli qəhrəmanlar** – 17
- **Ağdam rayonu ilə Bakı arasında olan məsafə** – 362 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Çıraqtəpə yaşayış yeri – tunc dövrü (Ağdam şəhəri)
2. Qarahacı yaşayış yeri – ilk tunc dövrü (Ağdam Xankəndi yolunun sağ tərəfində)
3. Qarahacılı nekropolu – tunc dövrü (Ağdam şəhəri)
4. Vəlixantəpə yaşayış yeri – eneolit dövrü (Ağdam-Ağcabədi şosesinin 1,5 km-də)
5. Kurqan – tunc dövrü (Novruzlu kəndi)

6. İlanlıtəpə yaşayış yeri – eneolit – dəmir dövrü (Baş Qərvənd kəndi)
7. Dəyirmantəpə kurqanı – tunc və dəmir dövrü (Orta Qərvənd və Mirəşəlli kəndlərinin arasında)
8. Yaşayış yeri – antik dövrü (Qərvənd kəndi)
9. Şomullutəpə yaşayış yeri – eneolit dövrü (Mirəşrəfli kəndindən 1 km şimal-şərqdə)
10. Bənövşələr təpəsi yaşayış yeri – eneolit dövrü (Mirəşəlli Armudlu kəndlərinin arasında)
11. Kültəpə yaşayış yeri – eneolit dövrü (Mirəşəlli kəndindən 300 m. şimal-şərqdə)
12. Yaşayış yeri – e.ə. II-I minilliklər (Armudlu kəndi)
13. Rəsultəpə yaşayış yeri – orta tunc dövrü, orta əsrlər (Armudlu kəndinin şimal-qərbində)
14. Rəsultəpə kurqanları tunc dövrü (Armudlu kəndi, Rəsultəpə yaşayış yerinin 30-40 m. şimalında)
15. İsmayılbəy təpəsi yaşayış yeri – eneolit dövrü (Armudlu kəndi)
16. Kəbləhüseyn yaşayış yeri – eneolit dövrü (Kəbləhüseyn kəndi)
17. Namazəli təpəsi yaşayış yeri – eneolit dövrü (Kəbləhüseyn kəndindən 500 m. şərqdə)
18. Kurqan çölü – e.ə. II-I minilliklər (Boyəhmədli kəndi)
19. Boyəhmədli kəndi kurqanları (80-a qədər)- ilk tunc dövrü (Boyəhmədli, Qızıllı Gəngərli və Salahlı Gəngərli kəndlərinin arasında)
20. Gavurqala yaşayış yeri – ilk orta əsrlər (Boyəhmədli kəndinin cənubunda)
21. Daş qutusu nekropolu – ilk orta əsrlər (Boyəhmədli kəndinin cənubunda)
22. Papravənd-Boyəhmədli kurqanları (Möhülü təpələri, Əli kişi təpəsi, Molla Mustafa oğlu təpəsi, həmşəri təpəsi və.s)- tunc-dəmir dövrü- (Boyəhmədli kəndinin şimal-şərqində)
23. Qarapirim təpələri – tunc və ilk dəmir dövrü (Qarapirim kəndinin qərbində)
24. Güllütəpə – I yaşayış yeri – III-XIII əsrlər (Papravənd kəndi)
25. Güllütəpə – II yaşayış yeri- son tunc dövrü, ilk orta əsrlər (Papravənd kəndinin cənub- şərqində)
26. Misir qışlağı yaşayış yeri – son tunc, ilk dəmir dövrü (Papravənd kəndindən 250 m. şərqdə)
27. Kurqanlar – son tunc, ilk dəmir dövrü (Papravənd kəndindən 1 km. şərqdə)
28. Qala qalıqları- orta əsrlər (Tarnaut kəndi)
29. Nekropol – orta əsrlər (Kəngərli kəndi)
30. Şomullutəpə yaşayış yeri – e.ə.V-II minilliklər (Quzanlı kəndi)
31. Gülməmməd təpəsi yaşayış yeri- eneolit dövrü (Quzanlı kəndindən 2 km. cənub-şərqdə)

32. Çaqqalı təpənin yaşayış yeri – eneolit dövrü (Quzanlı kəndindən şimal-şərqdə)
33. Əjdahatəpə yaşayış yeri – eneolit dövrü (Quzanlı kəndindən 2,5 km. şərqdə)
34. Yaşayış yeri – e.ə.V-II minilliklər (Zəngişalı kəndi)
35. Yaşayış yeri – e.ə.V-II minilliklər (Mərzili kəndi)
36. Nekropol – antik dövrü (Seyidli kəndi)
37. Yaşayış yeri – antik dövrü (Əlimədətli kəndi)
38. Yaşayış yeri – antik dövrü (Göytəpə kəndi)
39. Göytəpə yaşayış yeri – tunc dövrü (Göytəpə kəndinin qərbində)
40. Göytəpə kurqanları – tunc dövrü (Göytəpə kəndinin qərbində)
41. Şümürlütəpə kurqanı- tunc dövrü (Əfətli kəndi)
42. Balatəpə kurqanı – tunc dövrü (Əfətli kəndi)
43. Yaşayış yeri – antik dövrü (Sarıhacılı kəndi)
44. Çinartəpə yaşayış yeri- e.ə.II-I minilliklər (Sarıhacılı kəndindən 3 km. cənub-şərqdə)
45. Sarıhacılı yaşayış yeri və nekropol – eneolit, tunc dövrü (Sarıhacılı kəndindən 2 km. cənub-şərqdə)
46. Sarıhacılı tayı yaşayış yeri- tunc dövrü ( Sarıhacılı kəndindən 2,5-3 km. şərqdə)
47. Ağtəpə yaşayış yeri- tunc dövrü (Çəmənli kəndindən 3 km. şərqdə)
48. Çəmənli təpə kurqanı – eneolit, tunc dövrü (Çəmənli kəndindən 3 km. şərqdə)
49. Seyid Mustafa yaşayış yeri – eneolit ( Bala Baharlı kəndindən 2 km. qərbdə)
50. Yaşayış yeri – e.ə.V-I minilliklər (Baharlı kəndi)
51. Yaşayış yeri – antik dövrü (Əhmədavar kəndi)
52. Qəhrəmanbəyli kurqanı – tunc dövrü (Qəhrəmanbəyli kəndi)
53. I və II Qoşatəpə yaşayış yeri – eneolit dövrü (Əhmədağalı kəndi)
54. Əhmədoğlu yaşayış yeri – eneolit (Əhmədağalı kəndi)
55. Məscidtəpə yaşayış yeri – eneolit (Əhmədağalı kəndi)
56. Əzginlitəpə yaşayış yeri – eneolit (Əhmədağalı kəndi)
57. Vəlibəy təpələrii ( 4 ədəd ) – eneolit , tunc dövrü və orta əsrlər (Əhmədağalı kəndində 2 km şərqdə)
58. Yaşayış yeri – antik dövr ( Poladlı kəndi)
59. Qasımtəpə yaşayış yeri – ilk tunc dövrü (Qiyaslı kəndi)
60. Çinartəpə yaşayış yeri – tunc dövrü ( Şelli kəndi )
61. Yaşayış yeri – e.ə. V-I minilliklər ( Evoğlu kəndi )
62. Qaradağlı kurqanları – tunc dövrü ( Qaradağlı kəndinin qərbində )
63. Bəyliktəpə kurqanı – ilk tunc dövrü (Qaradağlı kəndinin şimal-şərqində)
64. Xırmantəpə kurqanı – ilk tunc dövrü ( Çuxurməhlə kəndi)

65. Hüseyntəpə kurqanları – ilk tunc dövrü (Çuxurməhlə kəndinin qərbində)
66. Çuxurməhlə kurqanı – ilk tunc dövrü (Çuxurməhlə kəndi)
67. Qaratəpə yaşayış yeri – son tunc, ilk dəmir dövrü (Şıxbabalı kəndinin cənubunda)
68. Gülablı kurqanları – son tunc, ilk dəmir dövrü (Gülablı kəndinin şımal-şərqində)
69. Maqsudlu kurqanları – tunc dövrü (Maqsudlu kəndindən 3 km şərqdə)
70. Töyrətəpə kurqanları – tunc və dəmir dövrü (Güllücə kəndinin şimalında)
71. Karvansaray təpə və Çaparyeri yaşayış yeri – ilkin orta əsrlər (Güllücə kəndinin cənub-qərbində)
72. Yüzbaşlı təpəsi yaşayış yeri – eneolit (Yuxarı Yüzbaşlı kəndi)
73. Ağabəy təpəsi yaşayış yeri – eneolit (Yuxarı Yüzbaşlı kəndinin şımalında)
74. Abdüləzim təpəsi yaşayış yeri – eneolit (Aşağı Yüzbaşlı kəndindən 1,3 km şərqdə)
75. Şükürbəyli təpəsi yaşayış yeri – eneolit ( Aşağı Yüzbaşlı kəndindən 2,3 km şımal-şərqdə)
76. Sarıçoban kurqanları – tunc dövrü (Sarıçoban kəndinin qərbində)
77. Bəşirtəpə yaşayış yeri – eneolit (Üçoğlan kəndi)
78. Böyüktəpə kurqanı və yaşayış yeri – tunc dövrü (Üçoğlan kəndi)
79. Kərimtəpə yaşayış yeri – eneolit (Üçoğlan kəndinin şımal-şərqində)
80. Qəbristan təpəsi – tunc dövrü (Üçoğlan kəndi)
81. I və II Üçoğlan yaşayış yerləri və kurqanlar – tunc dövrü (Sarıçoban kəndi)
82. Qaçaytəpə yaşayış yeri və nekropol – tunc dövrü ( Üçoğlan kəndi)
83. Güllütəpə yaşayış yeri – eneolit (Alıbəyli kəndindən 1 km. cənub şərqdə)
84. Kazımtəpə yaşayış yeri – eneolit (Alıbəyli kəndinin qərbində)
85. Sayadtəpə kurqanı – tunc dövrü ( Səfərli kəndinin qərbində)
86. Səfərli təpələri yaşayış yeri – eneolit (Səfərlı kəndi)
87. Leyla təpəsi II yaşayış yeri – eneolit (Eyvazlı kəndi)
88. Nəsirbəy təpəsi yaşayış yeri – eneolit ( Eyvazlı kəndindən cənub-qərbdə)
89. Kərimtəpə yaşayış yeri – eneolit ( Eyvazlı kəndinin şərqində)
90. Əhəd təpəsi yaşayış yeri – eneolit (Eyvazlı kəndinin şərqində)
91. Düyü təpəsi yaşayış yeri – eneolit (Eyvazlı kəndindən 500 m. cənub- şərqdə)
92. Nazdıxan təpəsi yaşayış yeri – eneolit (Eyvazlı kəndindən 1,5 km. cənub-şərqdə)

93. Çullutəpə kurqanı – tunc dövrü (Çullu, İmamqulubəyli və Quzanlı kəndlərinin arasında)
94. Həsəntəpə kurqanı – tunc dövrü (Çullu kəndindən qərbdə)
95. Sultanbud kurqanı – tunc dövrü (İmamqulubəyli kəndinin şimal-qərbində)
96. Pənah xanın imarəti – XVIII əsr (Ağdam şəhəri, 20 yanvar küçəsi)
97. Pənah xanın türbəsi – XIX əsr (Ağdam şəhəri)
98. Xanoğlu türbəsi – XVIII əsr (Ağdam şəhəri)
99. Türbə – XIX əsr (Ağdam şəhəri)
100. Sərdabə – XV əsr (Ağdam şəhəri, 20 yanvar küçəsi)
101. Körpü – XIV (Madaqiz kəndi)
102. Hatəm Məlik qalası – XII əsr (Ağdam şəhəri)
103. Məscid – 1868-ci il (Ağdam şəhəri)
104. Məbəd – VI-VIII əsrlər ( Şahbulaq kəndi )
105. Məbəd – VI əsr (Kəngərli kəndi)
106. Məbəd – XIII əsr (Tərtər çayının yuxarı axarında)
107. Türbə – XVIII əsr (Papravənd kəndi)
108. Məscid – XVIII əsr (Papravənd kəndi)
109. İqamətgah – XVIII əsr (Şahbulaq kəndi)
110. Karvansaray – XVIII əsr (Şahbulaq kəndi)
111. Bürc – XVIII əsr (Şahbulaq kəndi)
112. Məbəd – XV əsr (Maqsudlu)
113. Türbə – XVIII əsr (Maqsudlu kəndi)
114. Məscid – XVIII əsr (Qiyaslı kəndi)
115. Məbəd – XVI əsr ( Salahlı Kəngərli kəndi)
116. Məscid – XIX əsr (Boyəhmədli kəndi)
117. Türbə – XIV əsr (Kəngərli kəndi)
118. Türbə – XIX əsr (Ağdam şəhəri)
119. Uğurlu bəyin türbəsi – XIX əsr (Ağdam şəhəri)
120. Türbə – XIX əsr (Ağdam şəhərinin 5 kilometrliyində, Qaraağac qəbristanlığında)
121. Gavur Qala şəhərgahı – orta əsrlər (Ağdam şəhəri, Sofulu kəndi)
122. Qəbrisstanlıq – orta əsrlər (Papravənd kəndi)
123. Qədim qəbristanlıq – orta əsrlər (Qızıllı Kəngərli kəndi)
124. Abıştəpə yaşayış yeri – orta əsrlər (Üçoğlan kəndi )
125. Qulu Musa oğlu türbəsi – 1314 –cü il (Türbətli kəndi)
126. Üzərliktəpə yaşayış yeri – tunc dövrü (Ağdam şəhəri)
127. Seyid Lazım Ağanın məqbərəsi – XX əsr (Çəmənli kəndi)




ДОМ





























# Ağdam işğaldan sonra













# Füzuli rayonu



## Təbii-coğrafi mövqeyi

Füzuli rayonunun relyefi əsasən Araz çayına tərəf alçalan maili düzənlik, qərbdə alçaq dağlıqdır. İqlimi şərq hissəsində yayı quraq keçən yarımsəhra və quru çöl, qərbdə mülayim istidir. Çayları Köndələnçay, Quruçay və Qozluçay rayonun İran İslam Respublikası ilə sərhədindən axan Araz çayı hövzəsinə aiddir. Şimalda Ağcabədi rayonu ilə, cənubda Cəbrayıl rayonu və İran İslam Respublikası ilə, şərqdə Beyləqan, qərbdə isə, Xocavənd rayonları ilə həmsərhəddir. Bakı-Şirvan-Naxçıvan magistralının üstündə yerləşir.

- ❖ **İşğal olunmuşdur** – 23 avqust 1993-cü il
- ❖ **Ərazisi** – 1386 km² **(**1112 km² işğal altındadır)
- ❖ **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 95940
- ❖ **Hazırda əhalisinin sayı** (min nəfər) – 127000 **(2015)**
- ❖ **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri –** 1 şəhər, 1 qəsəbə, 58 kənd Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1994-cü ilin yanvar ayında Horadiz qəsəbəsi və 22 kənd işğaldan azad edilmiş və Azərbaycanın nəzarətindədir. Azad olunan ərazilər minalardan təmizlənərək yeni qəsəbələr salınmışdır ki, burada 127000 nəfər əhali (67700 nəfər yerli, 60000 nəfər məcburi köçkün) yaşayır.
- ❖ **Mədəni -məişət obyektləri –** 145
- ❖ **Şəhid olmuşdur** – 528
- ❖ **Əlil olmuşdur** – 1309
- ❖ **Milli qəhrəmanlar** – 6
- ❖ **Füzuli rayonu ilə Bakı arasında olan məsafə –** 310 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Azıx mağara düşərgəsi – paleolit dövrü
2. Tağlar mağara düşərgəsi – paleolit dövrü
3. Qarabulaq kurqan çölü – tunc dövrü (Füzuli şəhərindən şimal-qərbdə)
4. Günəştəpə yaşayış yeri – e.ə. II-I minilliklər (köndələn çayının sağ sahilində)

5. Qaraköpəktəpə yaşayış yeri – e.ə. IV əsr-e.ə I əsr (Köndələn çayının sağ sahilində)
6. Zərgərtəpə yaşayış yeri – tunc dövrü (Zərgər kəndi)
7. Şəkərcik yaşayış yeri – tunc dövrü (Şəkərcik kəndi)
8. Kültəpə yaşayış yeri – ilk tunc dövrü (Əhmədbəyli kəndinin qərbində)
9. Balalartəpə yaşayış yeri – ilk tunc dövrü (Qaraxanbəyli kəndinin cənub-şərqində)
10. Uzuntəpə yaşayış yeri – ilk tunc dövrü (Quruçay və Köndələnçay arasında)
11. Meynətəpə yaşayış yeri – ilk tunc dövrü (Quruçay və Köndələnçay arasında)
12. Xantəpə yaşayış yeri – ilk tunc dövrü (Quruçay və Köndələnçay arasında)
13. Dədəli kəhrizi – XIX əsr (Dədəli kəndi)
14. Hacı Bayram kəhrizi – XIX əsr (Qoçəhmədli kəndi)
15. Qalpirəhmədli kəhrizi – XIX əsr (Qoçəhmədli kəndi)
16. Kəhriz – XIX əsr (Saracın kəndi)
17. Türbə – XIII əsr (Əhmədallar kəndi)
18. Şeyx Babı türbəsi – XIII əsr (Babı kəndi)
19. Karvansaray – XVII əsr (Qarğabazar kəndi)
20. Mirəli türbəsi – XIV əsr (Aşağı Veysəlli kəndi)
21. Müəllimlər evi – XIX əsr (Füzuli şəhəri)
22. Hamam – XIX əsr (Füzuli şəhəri)
23. Bulaq – XIX əsr (Horadiz şəhəri)
24. Bulaq – XIX əsr (Qarğabazar kəndi)
25. Məscid – XIX əsr (Qorqan kəndi)
26. Bulaq – XIX əsr (İşıqlı kəndi)
27. Bulaq – XIX əsr (Xəlafşə kəndi)
28. Hacı Ələkbər məscidi – XVII-XIX əsrlər (Füzuli şəhəri)
29. Dəyirman – XIX əsr (Füzuli şəhəri)
30. Körpü – XIX əsr (Füzuli şəhəri)
31. Məscid – XIX əsr (Böyük Bəhmənli kəndi)
32. Məscid – XVII əsr (Qarğabazar kəndi)
33. Türbə – XVIII əsr (Qarğabazar kəndi)
34. Məscid – XIX əsr (Dədəli kəndi)
35. Körpü – XVIII əsr (Görəzilli kəndi)
36. Məscid – XIX əsr (Qacar kəndi)
37. Məscid – XIX əsr (Mərdanlı kəndi)
38. Körpü – XIX əsr (İşıqlı kəndi)
39. Körpü – XIX əsr (Şıxlı kəndi)

40. Məscid – 1889-cu il (Horadiz qəsəbəsi)
41. Məscid – XX əsr (Horadiz şəhəri)
42. İmamzadə – XIX əsr (Horadiz qəsəbəsi)
43. Məscid – XIX əsr (Gecəközlü kəndi)
44. Körpü – XIX əsr (Yağvələnd kəndi)
45. Məscid – XIX əsr (Yuxarı Veysəllı kəndi)
46. Türbə – XIX əsr ((Seyidəhmədli kəndi)
47. Məscid – XIX əsr (Aşağı Dilağarda kəndi)
48. Məscid – XVIII əsr ( Qoçəhmədli kəndi)
49. Körpü – XIX əsr ( Qoçəhmədli kəndi)
50. Arış körpüsü – XIX əsr ( Qoçəhmədli kəndi)
51. Sərdərli məscidi – XIX əsr ( Qoçəhmədli kəndi)
52. Körpü – XVII əsr ( Qoçəhmədli kəndi)
53. Məscid – XIX əsr ( Qoçəhmədli kəndi)
54. Alı körpüsü – XIX əsr (Saracıq kəndi)
55. Körpü – XIX əsr (Saracıq kəndi)
56. Kərəm körpüsü – XIX əsr (Saracın kəndi)
57. Məscid – XVIII əsr (Qaradağlı kəndi)
58. Türbə – XIX əsr (Yuxarı Divanlılar kəndi)
59. Məscid – XIX əsr (Bəy Pirəhmədli kəndi)
60. Məscid – XIX əsr (Qaraxanbəyli kəndi)













# Cəbrayıl rayonu



## Təbii-coğrafi mövqeyi

Cəbrayıl rayonunun relyefi əsasən maili düzənlik, şimalda alçaq dağlıqdır. İqlimi ərazisinin cənub hissəsində yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl, şimalda yayı quraq keçən mülayim istidir. Araz çayı hövzəsinə aid bir neçə kiçik çayı var. Şimalda Xocavənd rayonu ilə, cənubda İran Islam Respublikası, şərqdə Füzuli, qərbdə və cənub-qərbdə isə, Qubadlı və Zəngilan rayonları ilə həmsərhəddir. Bakı-Şirvan-Naxçıvan magistralının üstündə yerləşir.

- **İşğal olunmuşdur** – 23 avqust 1993-cü il
- **Ərazisi** – 1050 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 52604
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 77840 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 4 qəsəbə, 92 kənd
- **Mədəni -məişət obyektləri** – 197
- **Şəhid olmuşdur** – 368
- **Əlil olmuşdur** – 230
- **Milli qəhrəmanlar** – 6
- **Cəbrayıl rayonu ilə Bakı arasında olan məsafə** – 338 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. 11 tağlı Xudafərin körpüsü – XI-XII əsrlər ( Cəbrayıl rayonu)
2. 15 tağlı Xudafərin körpüsü – XIII əsrlər ( Cəbrayıl rayonu)
3. Niftalı kurqanları – tunc dövrü ( Xudyarlı kəndi)
4. Ağoğlan nekropolu – ilk orta əsrlər (Cəbrayıl şəhəri)
5. Karxulu kurqanları və yaşayış yeri – tunc dövrü – (Karxulu kəndi)
6. Canqulu kurqanı – tunc dövrü (Mahmudlu kəndinin şimal-qərb tərəfində)
7. Quştəpə kurqanı – tunc dövrü (Mahmudlu kəndinin şimal-qərb tərəfində)
8. İmanqazan təpələri- tunc dövrü (Şıxlar kəndi)
9. Şıxlar mağarası – daş dövrü (Şıxlar kəndi)

10. Şıxlı kurqanları- son tunc dövrü (Şıxlı kəndi)
11. İmanqazantəpə kurqanları – son tunc dövrü (Şıxlı kəndi)
12. Qaladağ qalaçası və yaşayış yeri – ilk orta əsrlər (Qalaçıq kəndi)
13. Məscidtəpə kurqanı – tunc dövrü (Qalaçıq kəndi)
14. Naftalı kurqanları- son tunc və ilk dəmir dövrü (Naftahlar kəndi)
15. Qışlaq kurqanları və yaşayış yeri- son tunc və ilk dəmir dövrü (Qışlaq kəndi)
16. Hovuzlu kurqanları – son tunc və ilk dəmir dövrü (Hovuzlu kəndi)
17. Cinlitəpə yaşayış yeri – ilk dəmir dövrü (Hovuzlu kəndi)
18. Torağaytəpə yaşayış yeri – ilk tunc dövrü ( Şükürbəyli kəndi)
19. Divlər sarayı – daş dövrü (Çələbilər kəndi)
20. Sultan Allahverdi hamamı – XIX əsr (Cəbrayıl şəhəri)
21. Dairəvi türbə – XVII əsr (Xubyarlı kəndi)
22. Səkkizguşəli türbə – XVII əsr (Xubyarlı kəndi)
23. Dairəvi türbə – XIV əsr (Şıxlar kəndi)
24. Qala qülləsi – (Sirik kəndi)
25. Qız qalası – XII əsr (Diridağ dağı)
26. Sərdabə – XIII-XIV əsr (Dağ Tunas kəndi)
27. Məscid – (Çələbilər kəndi)
28. Məscid – XIX əsr (Papi kəndi)
29. Məscid – (Daşkəsən kəndi)
30. Məscid – XIX əsr (Məzrə kəndi)
31. Məscid – XIX əsr (Süleymanlı kəndi)
32. Köhnə qəbristanlıq – orta əsrlər (Cəbrayıl şəhəri)
33. Köhnə qəbristanlıq – XVII-XVIII əsr (Karxulu kəndi)
34. Köhnə qəbristanlıq – orta əsrlər (Sirik kəndi)
35. Köhnə qəbristanlıq və yaşayış yeri – orta əsrlər (Diridağ dağı)
36. Mağara- orta əsrlər ( Dağ Tumas kəndi)
37. Şəhərcik kəndinin xarabalıqları- orta əsrlər (Şıxlar kəndi)
38. Dulusxana yaşayış yeri- orta əsrlər (Şıxlar kəndi)
39. Hasanlı yaşayış yeri – orta əsrlər (Hasanlı düzü)
40. Köhnə qəbristanlıq – orta əsrlər (Şıxlar kəndi)
41. Daş qoç fiquru –orta əsrlər- (Şıxlar kəndi)















# Qubadlı rayonu



## Təbii-coğrafi mövqeyi

Qubadlı rayonu Azərbaycanın cənub-qərbində, Qarabağ silsiləsinin cənub-qərb ətəklərində yerləşir. Relyefi dağətəyi və dağlıqdır. Ən uca nöqtəsi dəniz səviyyəsindən 2003 m yüksəklikdəki Topağac zirvəsidir. İqlimi mülayim kontinentaldır. Ərazisindən Bərgüşad və Həkəri çayları axır. Şimalda Laçın, qərbdə Ermənistan Respublikası (120 km), şimal-şərqdə indi artıq ləğv olunmuş Hadrut rayonu ilə (42 km), qərbdə Cəbrayıl, cənub-qərbdə isə, Zəngilan rayonu ilə həmsərhəddir.

- **İşğal olunmuşdur** – 31 avqust 1993-cü il
- **Ərazisi** – 802 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 30323
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 36685 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri** – 1 şəhər, 93 kənd
- **Mədəni -məişət obyektləri** – 205
- **Şəhid olmuşdur** – 232
- **Əlil olmuşdur** – 146
- **Milli qəhrəmanlar** – 9
- **Qubadlı rayonu ilə Bakı arasında olan məsafə** – 403 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Xırman yeri yaşayış yeri – son tunc və ilk dəmir dövrü (Qubadlı qəsəbəsi)
2. Koroğlu qalaçası – son tunc və ilk dəmir dövrü (Əliquluuşağı)
3. Qalaça – son tunc və ilk dəmir dövrü (Əliquluuşağı)
4. Sığınacaq – IV əsr (Əliquluuşağı)
5. Mal təpəsi – son tunc və ilk dəmir dövrü (Muradxanlı kəndi)
6. Göy qala – V əsr (Əliquluuşağı)
7. Laləzar körpüsü – 1867-ci il (Əliquluuşağı)
8. Türbə – XVII əsr (Gürcülü kəndi)
9. 1 nömrəli türbə – XIV əsr (Dəmirçilər kəndi)
10. 2 nömrəli türbə – XIV əsr (Dəmirçilər kəndi)
11. Sığınacaq – IV əsr (Balahəsənli kəndi)
12. Sığınacaq – IV əsr (Zor kəndi)

13. Qara qaya sığınacağı – (Mahmudlu kəndi)
14. Qəbristanlıq – XIV əsr (Qayalı kəndi)
15. Mağara məbədi – (Əliquluuşağı)
16. Mağara məbədi – IV əsr (Gayr dərəsi)
17. Bulaq – XIX əsr (Əliquluuşağı)
18. Bulaq – (Əliquluuşağı)
19. “Qalalı” qalası – (Əliquluuşağı)
20. “Qalalı” qalası (yeraltı keçidlə) – V əsr (Muradxanlı kəndi)
21. Şirin bulaq – XVIII əsr (Məmər kəndi)
22. Bulaq – XIX əsr (Dəmirçilər kəndi)
23. Mədət bulağı – XIX əsr (Mahmudlu kəndi)
24. Məscid – XIX əsr (Dəmirçilər kəndi)
25. Məscid – XIX əsr (Dondarlı kəndi)
26. Hacıbədəl körpüsü – XVIII əsr (Dondarlı kəndi)
27. Cavanşir türbəsi – XIV əsr (Yazı düzü)
28. Qalaçid qalası – XIV əsr (Xocamusaxlı kəndi)
29. Türbə – XVIII əsr (Xocamusaxlı kəndi)
30. Məscid – XVIII əsr (Yusifbəyli kəndi)
31. Türbə – XVIII əsr (Boyunəgər kəndi)
32. Məscid – XVIII əsr (Mollalı kəndi)
33. Məscid – XVIII əsr (Mirlər kəndi)
34. Məscid – XVIII əsr (Məmər kəndi)
35. Məscid – XV-XVI əsrlər (Xələc kəndi)
36. Məbəd – XI əsr (Məzrə kəndi)
37. Məscid – XIX əsr (Mahrızlı kəndi)
38. Körpü – XIX əsr (Mahmudlu kəndi)
39. Daş qoyun fiquru – XV əsr (Mahmudlu kəndi)
40. Daş sandıq – XV əsrlər (Məmər kəndi)















# Zəngilan rayonu



## Təbii-coğrafi mövqeyi

Zəngilan rayonu Kiçik Qafqazın Arazboyu sahəsində yerləşir. Mürəkkəb və parçalanmış relyefi, əsasən, orta və alçaq dağlıqdır. Ərazisindən iti dağ çayları Həkəri, Oxçu, Bəsitçay və Araz axır. Qışı quraq keçən mülayim isti iqlim üstünlük təşkil edir. Qərbdə və şimal-qərbdə Ermənistanla, cənubda və cənub-qərbdə İranla, şimalda Qubadlı, şərqdə isə, Cəbrayıl rayonları ilə həmsərhəddir. Bakı-Şirvan-Naxçıvan magistralının üstündə yerləşir. Həmçinin ərazisindən Bakı-İrəvan dəmir yolu (Mincivan-Qafan qolu ilə) və İmişli-Laçın magistral şosse yolu keçir.

- **İşğal olunmuşdur** – 29 oktyabr 1993-cü il
- **Ərazisi** – 707 km²
- **İşğal olunan zaman əhalisinin sayı** (min nəfər) – 32600
- **Hazırda əhalisinin sayı** (min nəfər) – 41014 **(2015)**
- **İşğal olunmuş şəhər, qəsəbə və kəndləri –** 1 şəhər, 1 qəsəbə, 81 kənd
- **Mədəni -məişət obyektləri -**575
- **Şəhid olmuşdur** – 235
- **Əlil olmuşdur** – 143
- **Milli qəhrəmanlar** – 2
- **Zəngilan rayonu ilə Bakı arasında olan məsafə –** 385 km

## Tarixi abidələri və maddi-mədəniyyət nümunələri

1. Nekropol – e.ə. VI-IV əsrlər (Quyudərə Xaştab kəndi)
2. Şəhri Şərifan yaşayış yeri – orta əsrlər (Şərifan kəndi)
3. Ağca Aşıq yaşayış yeri – orta əsrlər (Havalı kəndi)
4. Qız qalası – orta əsrlər (Havalı kəndi)
5. Qəsr qalası – orta əsrlər (Oxçuçayın Araza tökuldüyü yerdə)
6. Şərəfan türbəsi – XIV əsr (Şərifan kəndi)
7. Hacalı qülləsi – XIV əsr (Məmmədbəyli kəndi)

8. Məscid – XIX əsr (Zəngilan kəndi)
9. Məscid – XIX əsr (Malatkeşin kəndi)
10. Məscid – XVII əsr ( Zəngilan şəhəri)
11. Körpü – XIX əsr (Hacıalılar kəndi)
12. Dairəvi bürc – XIII-XIV əsr (Hacıalılar kəndi)
13. Məscid – XIX əsr (Muşlan kəndi)
14. Dairəvi – XII əsr (Hacıalılar kəndi)
15. Səkkizguşəli türbə – 1304-1305-ci illər (Məmmədbəyli kəndi)
16. Qız qalası – XII əsr (Əmirxanlı kəndi)
17. Sərdabə – XII əsr (Şərəfan kəndi)
18. Sərdabə – XIV əsr (Yenikənd kəndi)
19. Qədim hamam kompleksi – XI əsr (Şərəfan kəndi)
20. Məscid – XIX əsr (Qırıq Müşlan kəndi)
21. Şükrataz qalası – VI əsr (Bartaz kəndi)
22. Əsgülüm qalası – VII əsr (Keçikli kəndi)
23. Türbə – XIV əsr (Babaylı kəndi)
24. Türbə – XIV əsr (Ağalı kəndi)
25. Türbə – XIV əsr (Yenikənd kəndi)
26. Türbə – XV əsr (Malatkeşın kəndi)
27. Dağdağan piri – XIII əsr (Malatkeşın kəndi)
28. Koroğlu daşı – VII-VIII əsrlər (Yazı düzü)
29. Tağlı qalası – XVIII əsr (Zəngilan şəhəri)
30. Günəş abidə piri – XVI əsr (Gülətağ kəndi)
31. Top körpüsü – XII əsr (Top kəndi)
32. Məscid – IX əsr (Rəzdərə kəndi)
33. Türbə – VII əsr ( Rəzdərə kəndi)
34. Sürtüm piri – IX əsr (Vejnəli kəndi)
35. Yol piri – IX əsr (Vejnəli kəndi)
36. Qız qalası – IX-XI əsrlər (Bartaz kəndi)







# RESULTS OF ARMENIAN




**Refugees and IDPs**

| | |
|---|---|
| Refugees from Armenia | 250.000 |
| IDPs from the occupied territories | 686.586 |
| **TOTAL:** | **936.586** |

***Settlers illegally transfered to the occupied territories***

| | |
|---|---|
| former NKAO | 8.500 |
| Lachyn | 13.000 |
| Kelbajar | 700 |
| Zangilan | 520 |
| Jabrayil | 280 |
| **Total:** | **23.000** |

***Armenian Armed Forces in the occupied territories***

| | |
|---|---|
| Tanks | 350 |
| ACV | 398 |
| Artillery | 425 |
| Personnel | 45.000 |

***DESTRUCTION and DAMAGE***

| | |
|---|---|
| Settlements | 890 |
| Houses | 150.000 |
| Public buildings | 7.000 |
| Schools | 693 |
| Kindergardens | 855 |
| Healthcare facilities | 695 |
| Libraries | 927 |
| Temples | 44 |
| Mosques | 9 |
| Historical places | 9 |
| Historical monuments and museums | 464 |
| Museum exhibits | 40.000 |

# AGGRESSION

## The occupied territories of the Republic of Azerbaijan




*Former Nagorno Karabakh*
*Autonomous Oblast - NKAO(1923-1991)*

Territory: 4.388 sq.km

| | date of occup. | area (in sq.km) | popul. at the time of occup. (1989) | current popul. (2015) |
|---|---|---|---|---|
| Khojaly | 26.02.1992 | 970 | 11567 | 15700 |
| Shusha | 08.05.1992 | 289 | 24900 | 32824 |
| Khojavand | 02.10.1992 | 1458 | 9011 | 12145 |

**after administrative-territorial changes of 1992*

### THE OCCUPIED TERRITORIES OF THE REPUBLIC OF AZERBAIJAN OUTSIDE FORMER NKAO

| | date of occup. | area (in sq.km) | popul. at the time of occup. (1989) | current popul. (2015) |
|---|---|---|---|---|
| Lachin | 18.05.1992 | 1875 | 60000 | 75147 |
| Kalbajar | 02.04.1993 | 1936 | 55000 | 74058 |
| Aghdam | 23.07.1993 | 1094 | 165600 | 194800 |
| Fizuly | 23.08.1993 | 1386 | 95940 | 127700 |
| Jabrayil | 23.08.1993 | 1050 | 52604 | 77840 |
| Gubadly | 31.08.1993 | 802 | 30323 | 36685 |
| Zangilan | 29.10.1993 | 707 | 32600 | 41014 |

### *GAZAKH district**

| | |
|---|---|
| Baghanis Ayrym | 24.03.1990 |
| Kheyrymly | 08.03.1992 |
| Ashaghy Askipara | 12.03.1992 |
| Barkhudarly** | 27.04.1992 |
| Sofulu** | 27.04.1992 |
| Gyzylhajyly | 11.06.1992 |
| Yukhary Askipara** | 14.06.1992 |




**the population of the occupied territories of Gazakh dist. was purely Azerbaijanis.*
***enclave villages.*

| | |
|---|---|
| Ind. and agricul. enterprises | 6.000 |
| Motorways | 800 km |
| Bridges | 160 |
| Water pipelines | 2.300 km |
| Gas pipelines | 2.000 km |
| Electricity lines | 15.000 km |
| Forests | 280.000 ha |
| Sowing area | 1.000 000 ha |
| Irregation sys. | 1.200 km |

**The total damage is estimated up to 320 billion $ US**




### *SADARAK district, NAKHCHYVAN AR*

| | date of occup. | population (1989) | ethnic comp. (1989) |
|---|---|---|---|
| Karki enc.village | 18.01.1990 | 333 | 100% aze |

**Victims of aggression**
(approximately)

| | |
|---|---|
| died: | 20.000 |
| wounded: | 100.000 |
| disabled: | 50.000 |
| missing: | 5.000 |

**Elçin Əhmədov**
**ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ:**
**Etnik təmizləmə, soyqırımı, terror, işğal**

***

**Elchin Ahmedov**
**AGGRESSION OF ARMENIA AGAINST AZERBAIJAN:**
**Ethnic cleansing, genocide, terror, occupation**

***

**Эльчин Ахмедов**
**АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА:**
**Этнические чистки, геноцид, террор, оккупация**

***

Dizayner: *Həsənov Arif*
Səhifələmə: *Duxanina Alianna*

Çapa imzalanmışdır 28.12.2015.
Kağız formatı 70×100 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 25,5.
Tiraj 2000.
Sifariş 2.

“Letterpress” nəşriyyat evində çap olunmuşdur.
e-mail: office@letterpress.az

ISBN 978-9952-452-70-9